Varis

# Sonuncu ölən ümidlərdir



roman

Kitab oxumağın vaxtı yetişdi!

Sonuncu ölən ümidlərdir

roman

kitablar.com

# DİQQƏTİ CƏLB EDƏN ÜÇ CƏHƏT

Varisin yaz ılarını oxuyanda yaz ıçılıq üçün əsas şərtlərdən olan üç cəhət diqqətimi cəlb etdi. Onun biri dilin səlisliyi, bədiiliyi, aydın və yığcamlığıdır. Çoxdan məlum olan bir həqiqət var ki, ədəbiyyat söz sənətidir və yazıçının əsas sil ahı sözdür. Əgər əlinə qələm alan gənc sözün canlı, cazibədar, bəzən qılınc kimi kəsərli, bəzən də oxşamalar qədər cana yatımlı olmasına elə ilk andan əhəmiyyət verməsə, onun gələcək qələbəsinə inam azalır. Bunu ona görə deyirəm ki, çox vaxt elə hallar olur ki, gəncl əri dil üzərində işlətmək əvəzinə “məzmunu yaxşıdır, dilini də düzəl-

dərik”, - deyə yanlış yola salırlar. Varisinsə hər şeydən əvvəl dili mənim xoşuma gəldi.

İkinci yaxşı cəhət onun hadisələrin zahiri təsvirinə yox, psixoloji, fəlsəfi mahiyyətinin təsvirinə meyil etməsidir. İnsanın keçirdiyi halların - kədərin, iztirabın, yetimlikdən doğan məyusluqların, məhəbbətə bənzər ilk təxərrüşlərin oyanmasının, nifrət və qəzəbin - incə cizgilərlə verilməsi və bunların ictimai mühitdəki hadisələrlə çarpazlaşmış şəkildə göstərilməsidir.

Üçüncü cəhət isə təfəkkürün obrazlılığı, yazıçının düşüncə tərzindəki axarlıq və şeiriyyətdir.

İsmayıl Şıxlı,

Azərbaycanın xalq yazıçısı

Sonuncu ölən ümidlərdir

# I FƏSİL

# 1-ci HİSSƏ

# Bir qətlin tarixçəsi

Bu adamlar, bu adi adamlar, hər biri özlüyündə biriki balaca qayğısıyla yaşayan bu lap adi adamlar necə də qeyri- adi adamlarmış, ilahi...

Bəlkə, insan dünyaya ona görə ac və çılpaq halda gəlir ki, bütün həyatı boyu başı qarnını doydurmağa və əyin-başını düzəltməyə qarışsın?

Sonuncu ölən ümidlərdir... Hm... Əcəb başlıqdır...

Son illərdə yaranan ən təsirli və ən dramatik sevgi əhvalatını mənə danışacaqları saatın yetişdiyindən mütəəssir ola-ola redaksiyamızın yerləşdiyi 6-cı mərtəbəyə qalxdım. Dərhal da işçilərimizdən Şölə xanımın gəlib-gəlmədiyini soruşdum. Hələ gəlməmişdi. Vədələşdiyimiz vaxta nə az, nə çox, düz 7 dəqiqə qalırdı. Redaksiyanın pəncərəsindən Mətbuat prospektinin yeknəsək mənzərəsini seyr edə-edə çox pis şeyləri ağlıma gətirdim. Birdən Şölə xanım gəlməz... Gəlmədi, gəlmədi də. Axı kim zəmanət verər ki, o gələcək? Düz 10 il bundan əvvəlki qətl hadisəsi barədə dünən "Məhkəmə arxivindən" rubrikasında dərc etdiyimiz yazıdan sonra redaksiyaya zəng edib telefona məni çağırtdırmış və demişdi:

> - Siz bilsəniz ki, o qətl hadisəsinin arxasında nə durur, siz bilsəniz ki, "Ə. adlı qız "Az LTD" şirkətinin prezidenti İ.N.-i namusuna toxunduğu üçün qətlə yetirmişdir" kəlmələrinin altında nələr yatır, mənimlə görüşmək istəyərdiniz.

Mən dərhal: - Siz kimsiniz ki? - deyə soruşmuşdum.

Onun səsindəki qəhər açıq-aşkar sezilirdi:

- Mən Ə.-nin ən yaxın rəfiqəsi, demək olar ki, bacısıyam. Onun taleyini çox istərdim yazasınız. Qəzetinizin 10-cu səhifəsində gedən “Talelər” rubrikasının, inandırım sizi ki, şah əsərinə çevrilər bu əsər.

Azacıq fasilədən sonra əlavə etmişdi:

- Leyli və Məcnun, Romeo və Cülyetta, Tristan və İzolda... Sizinçün maraqlı deyil, bəs niyə müasir dövrdə dillər əzbəri olan sevgi cütlükləri yaranmır?

Mən suala cavab tapmaqda çətinlik çəkərək demişdim:

- Yəqin, indi elm, texnika əsridir. İnsanlar hiss və ehtirasların, romantik duyğuların əsiri deyillər...

O, sözümü tamamlamağa imkan verməmişdi:

- Yəni deyirsiniz, indiki dövrdə heç kim heç kimi sevmir?

Özümə bəraət qazandırmaq üçün dediyim sözləri sığortalamışdım:

- Yox, sevməyinə sevirlər. Ancaq indiki sivilizasiyanın insanları daha soyuqqanlıdırlar. Ürəklə, qəlblə yox, başla, beyinlə sevirlər. İndiki sevgi təmənnalı sevgidir.

Şölə xanım, təbii ki, mənimlə razılaşmamışdı:

- Xeyr, siz səhv edirsiniz. Sabah saat 11-də redaksiyanıza gələcəm. Və sizə ən çətin anlarda belə ümidlərini itirməyən iki şəxslə bağlı dünyanın ən təsirli, ən dramatik sevgi əhvalatını danışacam.

Sonra adını, soyadını söyləyib nəşriyyatın buraxılış bürosunda ona buraxılış vərəqəsi yazdırmağımı xahiş etmiş və dəstəyi asmışdı. Və elə həmin andaca, mən yeni yazılacaq əsərimi “Sonuncu ölən ümidlərdir” adlandırmağa qərar vermişdim...

... Saat 11 tamam oldu. 12-yə də işlədi. Ürək döyüntüsü ilə onu gözləməkdə idim. Tərs kimi telefonunu da soruşmamışdım...

Məktublar şöbəsində işləyən xanım mənə yaxınlaşdı, əlindəki bir qalaq məktubu göstərib dedi:

- Oxucular “Talelər” rubrikasında son vaxtlar yazı verməməyimizdən bərk narahatdırlar.

Mən: - Bilirəm, - söylədim.

O, uşaq kimi dodaqlarını büzdü:

- Bəs bir şey yazmaq istəmirsiniz? Nə olar, yazın da. Axı bizim üçün də bu yazılar çox maraqlıdır. Xaricilərin gicgicə seriallarına nə qədər baxmaq olar?

Mən baxışlarımı xanımdan yayındırıb yenə də küçəyə boylandım. Nəşriyyata girib-çıxan adamların hansının Şölə xanım ola biləcəyini təxmin etməyə çalışdım.

Xanımın hələ də məndən cavab gözlədiyini görəndə isə dilucu ona ürək-dirək verəsi oldum:

- Fikir eləmə, yazacam. Qoy bir başım açılsın.

Şölə xanımın mənə danışacağı əhvalat əsasında yeni əsər yazmaq planım barədə ona heç nə demədim. Nəyisə qabaqcadan danışmaq mənə düşmür... Bir də ki, bu planın reallaşacağına heç əmin də deyildim axı...

Artıq saatın əqrəbləri 12-nin yarısını haqlamışdı. Şölə xanımın məni aldatması fikrini başımdan çıxarmaq üçün qəzetin dünənki sayında getmiş “Amansız qisas” başlıqlı yazıya göz gəzdirdim.

Dəqiq xatırlayıram, 1995-ci ilin oktyabrında baş vermişdi bu hadisə. Bakının ən böyük özəl şirkətlərindən birinin prezidenti N.İ.-nin meyiti Sulu Təpə ərazisində xidməti “QAZ-31” markalı avtomobilinin salonundan tapılmışdı. Kimsə xüsusi qəddarlıqla ona 17 bıçaq zərbəsi vurmuşdu... Bu hadisə o vaxt bütün respublikanı sarsıtdı. Qatilin 1975-ci il təvəllüdlü qız olması isə hamını şoka saldı. Məlum oldu ki, N.İ. katibəsi işləyərkən Ə-nin namusuna toxunubmuş... Məhkəmənin hökmü ilə Ə. 12 il azadlıqdan məhrum edildi...

Oxucularımızı mütəmadi olaraq arxivlərdəki məhkəmə işləri ilə tanış etmək redaksiyamızda bir ənənə halını alıb. Bu yazılar böyük rezonans doğurur, onları çoxsaylı oxucu auditoriyası izləyir. Mən bir neçə dəfə kəmhövsələlik edib arxiv işlərinin çapını dayandırmaq istəmişdim. Çünki bəzi ağzıgöyçək həmkarlarımız “Qəzetlərini doldurmağa yazı tapmayıb gör hansı vasitələrdən istifadə edirlər”, - deyə bizə replikalar atırdılar. Ancaq istər-istəməz oxucu rəyi ilə hesablaşmalı olmuşdum. İndi isə Allaha şükür edirdim ki, nə yaxşı arxiv işlərinin çapını dayandırmamışıq. Elə Şölə xanımın peyda olması və yazılacaq yeni bir yazı dünyaya dəyərdi...

Saat 1-ə işləmişdi. Görəsən, bu qadın niyə belə etdi? Bəyəm, məni dolamaq buna nə verirdi?

Onu telefon xuliqanı zənn edib lap dilxor oldum. Amma sonra yenə də gözümü Mətbuat prospektinə dikib qadının yolunu gözləməyə başladım. Qulağımsa qapı tıqqıltısını, ya da ki, heç olmasa, telefon zəngini gözləməkdə idi...

...“Sonuncu ölən ümidlərdir...” Əcəb başlıqdır. Doğrudan-damı, ümid sonda ölür, insanın özündən sonra?

Ta qədimdən insanlar ümidlə yaşayıblar. Bilmirəm vəhşi insanların hansı ilk dəfə ümidi kəşf edib, ancaq təxmin edirəm ki, bu kəşfetmə ov prosesi ilə bağlı olub. Yəni dördayaqlı vəhşi insan daş alətlə ova çıxıb qənimət əldə etmək istəyəndə onun içində ilk ümid cücərib. O, ümid edib ki, ov ovlaya biləcək, kahasına əliboş qayıtmayacaq...

Min illər keçsə də, insan ən gözəl vərdişindən - ümidlə yaşamaq vərdişindən hələ də vaz keçməyib. İndiki ümidlər keçmiş-dəkilərə nisbətən xeyli inkişaf ediblər, təkmilləşiblər. Ancaq öz mahiyyətlərini dəyişməyiblər. Ümid insanı yaşadan sonuncu nəsnə, son tutalqadır. Bəzən ümid okeanda batan birisi üçün yapışmaq istədiyi saman çöpü qədər öz əhəmiyyətini kiçiltsə belə, yenə də insan mövcudluğunun ən vacib atributudur...

...Ayaqqabı taqqıltısı eşidilirdi... Görəsən, gələn odurmu?..

...Sonuncu ölən ümidlərdir... Bəlkə, ümidlər, ümumiyyətlə, heç ölmürlər, insan öldükdən sonra onun ruhunun içinə çökürlər? Sonra da ruhla birgə yaşayırlar?... Ruhu da ölməyə qoymayan, bəlkə, haçansa cismə dönə bilmək ümididir?...

- Hər vaxtınız xeyir. Gecikdiyimə görə üzr istəyirəm...

İlahi, bu, yəqin odur, Şölə xanımdır.

Sevindiyimdən qol götürüb oynamaq istəyirdim.

- Vaxtım azdır, cəmi bir saat. Diktofonu işə salın, başlayaq. Ancaq bircə şərtim var. Əsərinizdəki bütün adlar dəyişdiriləcək.

Qadının təqribən 30 yaşı olardı. Saçları sarı idi. Yəqin ki, onları boyamışdı. Çünki özü qarabəniz idi.

Keçib masanın arxasında əyləşdi. Mən də keçib onunla üzbəüz əyləşdim.

Diktofonun düyməsini basmamış: - Sizə çay gətirsinlər, yoxsa kofe? - sualını verdim.

O: - Hələ ki, heç nə, - deyib, bayaqkı şərtinin üstünə qayıtdı:

- Söz verirsiniz ki, adlar şərti olacaq?

Mən: - Əlbəttə, - cavabını verdim.

Gülümsədi: - Bu yazının qonorarı da mənə çatasıdır.

Mən əlbəəl bu şərtlə də razılaşdım:

- Bu, əhəmiyyətsiz bir şeydir. Vacib olanı yazının yaxşı alınmasıdır.

Onun gözündə hədsiz kədər var idi. Masanın üstündəki qəzet yığınını əli ilə gah sola, gah sağa çəkirdi... Dilucu dedi:

- Zarafat edirəm, ağlınıza başqa şey gətirməyin.

Masanın üstünə iki müqavilə blankı qoydum:

- Niyə zarafat edirsiniz ki? Biz kapitalizm cəmiyyətində yaşayırıq. Burada hər şey satılır, hər şey də alınır. Mən peşəkaram, informasiyanı pulla almağa vərdiş etmişəm. Gəlin rəsmi müqavilə bağlayaq, işə başlayaq.

Qadın xeyli tərəddüddən sonra çətinliklə dilləndi:

- Yox. Bu yazının işıq üzü görməsi mənim Ə. qarşısında rəfiqəlik, bacılıq borcumdur. Bütün bu illərdə ona kömək

edə bilmədiyim üçün vicdan əzabı çəkmişəm. Heç həbsxanaya gedib onu yoluxa da bilmədim. Başa düşün məni, ailəli qadınam. Yoldaşımın xasiyyəti çox ağırdır. O bilsəydi ki, həbsxanada yatan qatillə rəfiqəlik edirəm, gedib onu yoluxmaq istəyirəm, heç bilirsiniz, necə həngamə qopardı?

Sonra su istədi. Divarı döyəcləyib xanımlara çay gətirməyi tapşırdım...

... Redaksiyanın "yetimdoyduran" fincanındakı çayı qur-tumlaya-qurtumlaya Şölə xanımın gözləri yol çəkirdi...

- Ə. indi haradadır?

Sualımdan diksindi. Hiss etdim ki, cavab vermək onun-çün çətindir.

- Yəqin ki, həbsxanada. Çıxsaydı, bilərdim. Hesabnan hələ iki il də yatmalıdır.

Fincanı geri itələyib sözünə davam etdi:

- Onun bir addımı da mənsiz olmazdı. Hər işini, hətta gələcəkdə görmək istədiyi işlərini belə mən qabaqcadan bilirdim. Hətta duyğularını, hisslərini də bilirdim. Elə bil, ikimiz bir adam idik. İdeal qız idi. Gözəlliyini görən hər kəs ona valeh olurdu. Arzusu moda evi açmaq, ətrafına modelyerlər toplamaq, maniken qızlarla məşğul olmaq idi. Allah yetimçiliyin üzünü qara etsin. Bədbəxt bacımın necə də ömrü puç oldu...

Qəhərləndi... Əl çantasını açıb yaylıq çıxartdı, gözlərini sildi.

- Mən istəyirəm ki, əsərdə Ə.- nin adı Nailə olsun. Ən çox sevdiyi qız adıydı Nailə. Deyirdi, qızımın adını Nailə,

oğlumun adını isə İlqar qoyacam. R.-in adı isə qoy əsərinizdə İlqar olsun.

Mən cəld soruşdum:

- R. kimdir ki?

- Necə kimdir? Ə.-nin istədiyi oğlandır, sevgi əhvalatının ikinci qəhrəmanı.

- Bəs N.İ.? Mən elə bilirdim, əsərin əsas qəhrəmanları Ə. və N.İ.-dir?

- O qoca kaftarın adını Abbas yazarsınız. Allah baiskarın evini yıxsın. Qaratikan kolu kimi arada bitdi, yazıqları bədbəxt etdi... Hamısının adını dəyişin... Təkcə məndən savayı... Axı...

Saata baxıb sözünü yarımçıq kəsdi, narahatçılığını bildirdi:

- Vay. Nə tez 3-ə işlədi? Siz Allah, açın diktofonu. Saat 3-ə kimi vaxtım var. Yoldaşım gəlib məni evdə görməsə, vay halıma...

# 2-ci HİSSƏ

# Yenə hava tutulmuşdu

Ağ vərəqim oldu açılan səhər, Ona göz yaşımla adını yazdım. Eşqimlə bacara bilsəydim əgər, Heç səni bu qədər arzulamazdım.

Y.Nəğməkar

Yenə də xristianların bayramı olan Pasxa günündə hava tutulmuşdu. Mayın 1-i idi. Soyuq külək əsir, narın yağış çisələyirdi. “Bakı Soveti” metro stansiyasının iri şüşəsinə söykənib durmuşdular. İlqar qara, uzun plaşını Nailənin çiyninə atmışdı.

Gəlib-gedənlər plaşın içində itib-batan Nailəyə maraqla baxırdılar. Bu qeyri-adi görkəmi ilə o, diqqəti ikiqat cəlb etməkdə idi.

İlqar ətrafdakıların Nailəyə baxmasına artıq vərdiş etmişdi. Hərdən onun bu qədər gözəl olmasına acığı da tuturdu. İlqarın aləmində bütün qızlar qüsurlu olmalı idi. Gözəllərin yaxşı bədən quruluşu olmamalıydı, mütənasib bədənli-lərin isə gözəllikləri. Hər ikisinə malik olan mində bir qızın isə ən azı dili pəltək olmalıydı, ya da ağlı çaş. Bəs niyə Nailə heç kimə bənzəmirdi? Allah hansı anında onu yaratmışdı?

- Üzünü çevir.

İlqar Nailənin çevrilməsini gözləmədən onun üzünü əks tərəfə çevirdi ki, baxan olmasın.

Nailəyə bu ləzzət verdi:

- Nə olub, yenə qısqanclığın tutub? Bəlkə, görüşə çıxanda üzümə qara rəng sürtəsən, heç kim də mənə

baxmaya? Onda da dönüb Naomi Kempbell olaram.

Nailə çənəsini İlqarın kəlbətin barmaqlarının arasından qoparmaq istəyəndə İlqar buna imkan vermədi:

- Lazım gəlsə, sürtərəm. Sən ancaq mənə məxsussan. Hər yoldan keçən sənə baxmamalıdır. Bir dəfə bunlardan bir-iki-sini vurub şil-küt eləyəcəm, ətrafdakılara da dərs olacaq. Bu nə tərbiyəsizlikdir e? Heç oğlanın yanında olan qıza baxarlar?

Nailə birtəhər çənəsini İlqarın barmaqlarından azad etdi:

- Yaxşı, yaxşı. Özündən çıxma.

Yağış bir qədər güclənmişdi. Bunlarla bərabər dayanıb yağışın kəsməsini gözləyənlər çox idi...

Əslində, bunlar heç yağışın kəsməsini də gözləmirdilər. Elə-belə dayanmışdılar... Bəlkə də, yorğunluqlarını çıxarırdılar...

...Evdən səhər tezdən çıxmışdılar. Az qala Bakının yarısını gəzib dolaşmışdılar. Özü də maşınsız. İlqar “06”-sını təmir elətdirirdi.

Son vaxtlar qəribə bir hal yaranmışdı hər ikisində. Adamların arasında olarkən bir-birilərindən ötrü burunlarının ucu göynəyirdi. Çünki Bakı Paris olmadığı üçün ən yaxşı halda əl-ələ tuta bilirdilər...

“Azərbaycan” kinoteatrına girmişdilər. Hansısa bir hind filmi nümayiş olunurdu. Yarıboş zalı ani olaraq seyr edib qucaqlaşmışdılar, öpüşməyə başlamışdılar. Əllərində gətirdikləri dondurmaları böyürlərindəki oturacağın üstünə qoymuşdular. O qədər öz aləmlərində idilər ki, ətrafdakıları unutmuşdular. Nailə qəfil dartınıb İlqarın qucağından çıxanda İlqar pıçıldamışdı:

- Niyə?

- Necə yəni, niyə? Ayıbdır axı. Marçıltımızı hamı eşidir.

Sonra qaranlıqda əlləri ilə havanı yara-yara bir kişi gəlib düz İlqarın yanındakı oturacaqda, dondurmaların üstündə oturmuşdu. Hər ikisi gülməkdən uğunub getmişdilər.

İlqar birtəhər özünü toplayıb kişiyə demişdi:

- Siz dondurmanın üstündə oturmuşunuz.

Kişi: - Deyirəm axı, altım niyə soyuqdur, - söyləyib arxasını təmizləyə-təmizləyə çıxanda bunların qəhqəhələri zalı başına götürmüşdü.

...Vaxt eləyib arada ekrana da baxmışdılar. Bu hindlilər lap ağ eləyiblər. Mithun Çakraborti deyilən aktyor on kişini döyüb alnı xallı qızı xilas edir, sonra da bir həyətə girir. İt onun üstünə hürərkən ağaca çıxıb itə mahnı oxuyur... Heç itə də mahnı oxuyarlar?

Nailə İlqarı dümsükləmişdi:

- Sən mənim yolumda on kişini döyə bilərsən?

İlqar məmnunluqla demişdi:

- Lap on beşini də döyərəm. Sambist deyiləm?

- Bəs ağaca çıxıb itə necə, mahnı oxuya bilərsən?

İlqar bu suala nə cavab verəcəyini bilməyib onun burnunu sıxmışdı...

Haçandan-haçana filmə aludə olduqlarını hiss edib İlqar Nailənin əlindən tutmuşdu. Nailə də baş barmağı ilə onun

ovcunu qıdıqlamışdı. Bu, onların parolu idi. Yəni ki: “səni istəyirəm, yaxınlığımızı istəyirəm”...

...Küçədə bir rus qarısını Pasxa günü münasibəti ilə təbrik edib, ona 5 min manat vermişdilər. O da dua oxuyub bayram ayini ifa etmişdi. Axırda da demişdi ki, evdə şam yandırıb müqəddəslərlə söhbətləşəndə sizin bir-birinizə qovuşmağınızı təvəqqe edəcəm...

...Qız qalasının qarşısında yanlarından toy karvanı keçmişdi. Qırmızı kabrioletdə gəlin aparırdılar. Nailə İlqara sığınmışdı:

> - Sən də məni belə üstüaçıq maşında apararsan. Bizi - dünyanın ən gözəl, ən yaraşıqlı bəylə gəlinini eyvanlardan seyr edən adamlar isə başımıza gül-çiçək yağdırar...

Sonra da fikrini dəyişmişdi:

> - Ancaq yox. Məni faytonda apararsan. Lap “Arşın mal alan” filmindəki kimi. Özü də faytona iki at qoşdurarsan. Biri ağ, biri qara. Ağ at ağ günümüz olar, qara at qara günümüz... Yenə deyəcəksən ki, mən pessimizm dağarcığıyam. Ancaq bilirəm, lap gözəl bilirəm ki, qarşıda qara günlər çoxdur, lap çoxdur...

İlqar onu ovundurmağa çalışmışdı, o isə əksinə, daha da kövrəlmişdi:

> - Toyumuzda sənin atanla anan qoşa duracaqlar, mənim anamsa tək olacaq. Sən heç bilirsən, mən necə istəyərdim ki, toyumda atam alnımı öpüb mənə xeyir-dua versin? Heç bilirsən, necə çətindir atasızlıq?

İlqar min bir oyundan çıxmışdı ki, Nailənin könlünü alsın. Bulvarda gəzərkən yeddi yerindən əyilib elə ustalıqla axsamışdı ki, yoldan keçənlər bu cür gözəl qıza belə əcaib

axsaqla gəzintiyə çıxdığı üçün heyifsilənmişdilər... İlqar axsaya-axsaya demişdi:

- Bax, burnunu sallamağı yığışdırmasan, səni axıradək biabır eləyəcəm...

...“Sahil” metro stansiyası tərəfdə Nailənin şıltaqlığı tutmuşdu. İki ayağını bir başmağa dirəmişdi ki, məni qucağında aparmalısan. İlqar naəlac qalıb onu qucağına almışdı. Səki ilə gedirdilər. Neçə sürücü maşınını saxlayıb soruşmuşdu: “Sizə kömək lazımdırım?”

Sonra iki polis işçisi onlara yaxınlaşıb İlqarı asayişi pozmaqda təqsirləndirmişdi. İlqar isə özünü itirmədən dərhal demişdi ki, qız mənim nişanlımdır, ayağı burxulub, gəzə bilmir...

... Ən maraqlısı isə “Xəzər-tan” restoranındakı şam yeməyi zamanı baş vermişdi. Oranın türk aşpazlarının hazırladıqları ləzzətli dönəri istiotunu bol edərək yeyib, bir şüşə də “İv-Roşe” şampanı boşaltdıqdan sonra rəqs meydançasına çıxaraq rəqs etməyə başlamışdılar...

Restoran müğənnisi xırıltılı səslə oxuyurdu:

Bu qala daşlı qala,

Çınqıllı, daşlı qala.

Qorxuram, yar gəlməyə,

Gözlərim yaşlı qala.

Sarmaşıq kimi bir-birilərinə sarmaşmışdılar. Rəqsə o qədər aludə olmuşdular ki, musiqi qurtarmışdı, ancaq bunlar hələ də asta-asta yırğalanırdılar...

... İndi isə “Bakı Soveti” metro stansiyasının lay şüşəsinə söykənib durmuşdular. Soyuq külək əsir, narın yağış çisələyirdi. İlqar qara, uzun plaşını Nailənin çiyninə atmışdı...

Nailə barmaqları ilə nəsə sayırdı. Gülümsədi:

- Bu gün düz 11 saatdır ki, bir yerdəyik.

Dərhal da köks ötürdü:

- Bir də haçan görüşəcəyik, İlqar?

İlqar çiyinlərini çəkdi:

- Mənim üçün fərqi yoxdur, işsiz adamam. Sən, zati-aliləri iş adamısan. Zarafat deyil, o boyda şirkətdə işləyirsən: “Az LTD”. Yox bir...

- Yox bir nə? Niyə ironiyayla danışırsan?

- Evdə atam hər dəfə o şirkətin, ya da sənin Abbas müəlliminin adını çəkəndə, elə bil, məni söyürlər. Nifrət edirəm “Az LTD”-yə də, sənin Abbas müəlliminə də.

- İlqar, mənim iyirmi yaşım var. Evin də böyüyüyəm. Mən də işləməsəm, evi kim dolandıracaq?

- Get atanı məcbur et, sizə pul versin.

- Yox, İlqar. Sən məni yaxşı tanımırsan. Mən o insana nifrət edirəm. O, anamı üç uşaqla atıb təzə eşqə düşdü. Adam nifrət etdiyindən nəsə ummaz. Anam xadiməlik eləyir, heç çörək pulu da çıxmır. Nə qazanıramsa, mən qazanıram. Abbas müəllim yaxşı adamdır, qoymur korluq çəkək.

- Mənim zəhləm gedir sənin o Abbas müəllimindən. Yəni, sən bu qədər axmaqsan? Bütün müdirlər katibələri

özlərinə məşuqə eləmək üçün işə götürürlər...

- Ayıb olsun sənə, İlqar. Abbas müəllimə mən ata gözü ilə baxıram. Bu dünyada sığındığım yeganə adam odur. Qızı Səidə ilə də 11 il bir sinifdə oxumuşuq, yaxın rəfiqəyik.

- Qadam onun ürəyinə. Pivə boçkasına oxşayır sənin Səidən.

- Bunun mətləbə nə dəxli var? Bir də, hamı sənin sevgilin kimi gözəl olmaz ki...

Nailə bu sözləri söyləyib ədayla İlqara baxdı.

İlqar birdən-birə yamanca hirslənmişdi. Siqaret yandırıb dərindən qullab aldı. Onun da keçməyəsən bu xasiyyətindən. Yanından yel əsir, əsəbiləşir...

Yağış kəsmişdi. İki kişi azacıq aralıda durub söhbət edir, gözaltı da Nailəyə baxırdılar.

İlqar yenə çənəsindən tutub onun üzünü özünə tərəf çevirdi.

- Demədim sənə, o yana çevrilmə?

- Yenə nə olub?

- Görmürsən, necə marıtlayıblar? Adamı peşman eləyirlər küçəyə çıxmağa.

Nailə İlqarın kişilərə sərt-sərt baxdığını görüb onu yumşaltmağa çalışdı:

- Ay İlqar, niyə belə köhnəfikirlisən? Göz yaranıb baxmağa da. Yazıqlar neynəsinlər? Bilirsən, o gün oxumuşam ki, gözəlləri qədim abidələr, qırmızı kitaba düşmüş heyvanlar və quşlar, bitki aləmi kimi qorumaq

lazımdır. Yoxsa düz deyil? Axı biz xalqın simasıyıq. Xalqlara həm də gözəl insanlarına görə qiymət verilməlidir.

- Bəlkə, səni eksponat kimi muzeyə qoysunlar?

- İlqar, vallah, mən zarafat eləmirəm. Biz nisbətən balaca bir ölkəyik. Fenomenal alimlərimiz, sənət adamlarımız, idmançılarımızla yanaşı, məncə, gözəllərimizə də xüsusi imtiyazlar ayrılmalıdır. Axı rəvadırmı, mən bir qarın çörək üçün onun-bunun ayağının altını təmizləyim? Onsuz da dediyim modalar evini haçansa yaradacam, gözəl qızları başıma yığacam. Onlar beynəlxalq müsabiqələrdə, heç bilirsən, Azərbaycanı necə təmsil edəcəklər? Mentalitetimizə uyğun olaraq qapalı paltar geyinəcək, milli modamızı dünyaya tanıdacaqlar. ..

İlqarın qəzəbli baxışlarını görüb həmin iki kişi sakitcə oradan uzaqlaşdılar.

Nailə danışmaqda idi:

- İstəsən, sənin də adını məşhurlaşdıraram. Dolçe ənd Ka-bano, Proktr ənd Qəmbl var. İndi də olar Nailə ənd İlqar... Jurnalistlər də məndən müsahibə götürər. İdealınız kimdir? Naomi Kempbell. Bəs ən çox sevdiyiniz bədii qəhrəman? Təhminə.

Ancaq İlqarın beyninə yalnız qara fikirlər gəlməkdə idi:

- Famil kimdir?

Nailə tutuldu:

- Nə Famil?

- Famil də. Kök oğlandır. 24 yaşı var. Doqquzuncu mikrorayonda qalır...

- Bilirəm oxu hara atırsan. Biz axı şərt kəsmişik. Sənə qədər nə olubsa, olub. Famil məni istəyirdi, vəssalam. Bir-iki dəfə də elə-belə gəzməyə çıxmışıq. Aramızda heç nə olmayıb. Gicin biri, gic. Səni dünyalarca istəyirəm. Buna bir bax, mısmırığını necə sallayıb...

İki polis işçisi kənardan durub onlara baxırdı. Onlardan biri yaxınlaşıb İlqara dedi:

- Vətəndaş, nə tez sağaldı nişanlınızın ayağı?

Tanıdılar. Bayaq “SahiF’də gördükləri polislər idi. Gülməkdən özlərini saxlaya bilmədilər. Sarışın polis işçisi də onlara yaxınlaşdı. O lap əsəbiləşmişdi:

- Qurban olasan qıza. Yoxsa səni aparıb içəri soxardım, başa salardım ki, Azərbaycan polisini aldatmaq nə deməkdir...

... Axşam saat 9 idi. Hava qaralmışdı. Səmada nə ay, nə də ulduz görünürdü. Stansiyanın içinə girdilər. Eskalatorla aşağı düşdülər. Perronda əl-ələ tutub xeyli göz-gözə qaldılar...

Nailənin qatarı gəldi, onu apardı...

...İlqar uzun müddət uzaqlaşıb gedən qatarın arxasınca baxdı...

# 3-cü HİSSƏ

# Ailəlilər yataqxanasında

Səndən ayrı düşmək könül ağrısı, Səndən ayrı düşmək sinə dağıymış. Görünür, beləymiş bəxtin yazısı, Ürək dəli kimi bağırmalıymış.

V.Əziz

Özündən asılı olmayaraq, zavodlar ərazisindəki ailəlilər yataqxanasına çatanda Nailənin qanı qaralırdı. Adətən, insan həmişə yaşadığı evə can atar. Nailə isə ev deməyə dili gəlmədiyi bu yerə heç gəlmək istəmirdi...

Kəsif qoxunu hiss etməmək üçün burnunu tutub qaça-qa-ça ikinci mərtəbəyə çıxdı, otaqlarının qapısını döydü. Yalnız anası qapını açandan sonra içəri keçib burnunu buraxdı.

Otaqlarından həmişə limon ətri gələrdi. Bu üfunətli binanın qoxusu təkcə onların hər gün limon dezodorantı ilə ətirlənmiş otaqlarına daxil ola bilmirdi...

Anası yenə qayğılı idi. Bacısı kitab oxuyurdu. Qardaşı yerə döşənib yatmışdı.

- Bu niyə belə yatıb?

Anası cavab verdi:

- Sup yemədi. Acıq eləyib yatdı.

Bacısından soruşdu:

- Sən niyə burnunu sallamısan?

Yenə anası cavab verdi:

- Deyir ki, bu gün-sabah son zəng gəlir. Buraxılış gecəsinə təzə paltar lazımdır... Nə bilim e... Lap başımı itirmişəm...

Nailə otağına keçdi. Otaq deyəndə, çarpayı və balaca yazı masası yerləşdirilmiş bu darısqal yerə otaq deməyə adamın dili də gəlmirdi. Yazı masasının üstündən divara Jan Klod Van Dammın iri posteri yapışdırılmışdı. Posterin sol küncünə İlqarın şəklini taxmışdı... Masanın üstündə həm də qara, qədimi telefon aparatı var idi...

Nailəgil bura köçən kimi yataqxananın komendantı əldən-ayaqdan getmişdi. Evin əşyalarını çiynində daşımış, Nailənin: “Burada telefon var?” - sualına dərhal kabel çəkərək bu qara aparatı gətirib içəri qoymaqla cavab vermişdi.

Ağzı metal dişlərindən par-par parıldayan komendant (Nailə ona “Metallom” adını qoymuşdu) Nailədən ötrü, sözün həqiqi mənasında, sino gedirdi. Və bu “sino getmək” Nailə üçün yataqxanadakı məişət qayğılarından azad olmaq demək idi. Yataqxananın əlüzyuyan otağına, xüsusən də ayaqyolusuna girib-çıxarkən bu yazıqların ödləri ağızlarına gəlirdi. Oranın dəhşətli qoxusu həm də bir müddət vücudlarına hopurdu, çəkilib getmirdi. Belə şəraitdə Nailə məcbur olub çay, su içməkdən imtina etmişdi. Ancaq sonradan bunun vəziyyətdən çıxış yolu olmadığını başa düşüb Metallomun yanına düşmüş, ondan, nəsə bir şey fikirləşib, bu problemi yoluna qoymağı xahiş etmişdi.

Üç gün qızğın iş getdi, fəhlələr dəhlizi söküb-tökdülər. Nəhayət, Nailəgilin mənzilinin bir hissəsini kərpiclə hörüb, ora təzə santexniki xətt çəkərək hamam-tualet düzəltdilər.

Nailə məhz o vaxt özlüyündə maraqlı bir kəşf etmişdi: “Madam ki, Metallom ondan ötrü ölür, istifadə edib hərdən

onun üzünə gülümsəmək, ona naz satmaq lazımdır. Əvəzində, minib at kimi çapmaq olardı bu başıboşu...”

...Arxası üstə çarpayısına uzandı. Bayaq İlqarın atdığı atmacaya elə də reaksiya verməmişdi. Ancaq get-gedə o sözlər sanki iynə olub bədəninə sancılırdı:

- Get atanı məcbur et, sizə pul versin.

Qəribədir, heç indiyə qədər fərqinə varmamışdı ki, atası nəyə görə onları atıb gedib. Bəlkə, anasını sevmirdi? Bəlkə, xasiyyətləri tutmurdu? Bəlkə, başqa səbəb vardı?

Atası onları atıb gedəndə Nailənin cəmi-cümlətanı 12 yaşı var idi. Hər il Rusiyaya qazanc dalınca gedən İftixar Məmmədov, sən demə, Tomskda Sveta adlı bir dul qadınla yaşayırmış. Səkkiz il əvvəl o qəti və əbədi olaraq getdi və bir daha evə qayıtmadı. Üç il əvvəl isə təzə ailəsi ilə (bir qızları da vardı) Bakıya köçdülər.

O vaxt Nailəgil Əhmədlidə, doqquzmərtəbəli binanın yeddinci mərtəbəsində, dördotaqlı mənzildə yaşayırdılar. Arxa eyvanlarından gözəl dəniz mənzərəsi açılırdı. Ataları Rusiyaya gedəndə uşaqlar saatlarca dənizə baxar, ağ, iri bir gəmini gözləyərdilər. Və nədənsə, onlara elə gələrdi ki, bu gəmi atalarını gətirəcək...

Çox ağır vaxtlar idi. Yaşadıqları SSRİ dövləti dağılır, başı xallı Mixail Qorbaçov adlı prezident xalqları xaosa sürükləyirdi. Pul qiymətdən düşür, dolanışıq get-gedə ağırlaşırdı. Əksər ailələr kimi, onların da qəpik-qəpik yığdıqları bütün sərvətləri əmanət bankında dəyərsizləşmişdi. Ehtiyac ucundan anaları evdəki bütün zinət əşyalarını, sonra rəngli televizoru, videomaqnitofonu satdı... Sonra isə evlərini satıb yataqxanada sığınacaq tapdılar.

Yataqxanaya köçdükdən sonra uşaqların atalarının qayıdacağına olan ümidləri birdəfəlik qırıldı. Çünki bu üfunət qoxulu bina dəniz kənarında deyildi və uşaqlar da ağ gəmini daha gözləyə bilməzdilər...

Nailə üzünü balınca sıxıb hərəkətsiz durmuşdu. Bu vaxt anası otağa keçdi:

- Çörək yeyəcəksən?

Atası ilə bağlı xatirələr buradaca qırıldı.

- Yox, ac deyiləm.

Anası dinməzcə durmuşdu. Diqqətlə anasına baxdı. Yaşı qırxı yenicə adlasa da, qadının üzündə qırışlar görünürdü. Gözləri sanki çuxurun içində itib-batmışdı. Saçlarının isə böyük əksəriyyəti ağappaq idi.

- İftixar niyə səndən ayrıldı?

Bu qəfil sualdan anası lap büzüşdü, yumağa döndü. Nəsə deməyə çətinlik çəkdi.

Anasına yazığı gəldi. Hiss etdi ki, necə əzab verdi ona bu sualıyla. Cəld söhbəti dəyişdi:

- Mənə zəng eləyən olmayıb?

Anası ah çəkdi, başını yellədi.

- Şölə də zəng etməyib?

Anası yenə başını yellədi və otaqdan çıxdı.

Həmişə çətinə düşəndə, ən dərdli anlarında İlqar, onun xəyalı gəlib qarşısında durur, Nailəni ovundururdu... Məzən olsun sənin, ay İlqar. Bulvarda yüz yerindən necə əzilib-

büzüldü. Guya şikəstdir. Heç adamlardan da utanıb çəkinmədi.

Cəmi saat yarım idi ayrılmışdılar. Ancaq Nailəyə elə gəlirdi ki, əbədiyyət qədər ayrı düşüblər...

# 4-cü HİSSƏ

# Burda çiçəklər tez solur

Sən səhərdə bir səhərsən, Çiçək kimi təzə-tərsən. Sonra bir gün gecikərsən, Sonra torpaq udar məni.

N.Həsənzadə

İlqar evə gələrkən qətiləşdirmişdi ki, anasına Nailəni almaq istədiyini təkidlə bildirəcək. Bir həftə öncə Nailə: “Anam səninlə görüşməyimə icazə vermir, deyir barmağına üzük taxsın, adaxlanın, sonra gəzməyə çıxın”, - söylədikdən sonra İlqar anasının başının üstünü almışdı:

- Ma, mənim 24 yaşım var, evlənmək istəyirəm.

Anası onu başından eləməyə çalışmışdı:

- Sən hələ nə uşaqsan ki? Qoy bacını köçürdək, sənin işinə sonra baxarıq.

İlqar anasından əl çəkmək istəməmişdi:

- Onda istədiyim qızı qaçırdacam. Sizi də bircə oğlunuzun toyunda qol götürüb oynamaq xoşbəxtliyindən məhrum edəcəm.

Anası onu dilə tutmuş, özlərinin bu xüsusda ayrıca planlarının olmasını vurğulamışdı. Eyni zamanda, “oğlunu əsir-yesir edən, saatlarca evə gəlməsinə mane olan, onu telefona pərçim edən” qızın kimliyi ilə də maraqlanmışdı. Bütün məlumatları aldıqdan sonra isə barıt kimi partlamışdı:

- Atası anasından boşanan, evləri-eşikləri olmayan, acından köpük qusanla bizi qohum edirsən? Bizim sümüyümüzü it sümüyünə calayırsan?

Anasının haldan çıxdığını gördükdə İlqar susub aradan çıxmağa məcbur olmuşdu. Ancaq bugünkü bu 11 saatlıq ilahi görüşdən sonra qətiləşdirmişdi ki, anasına fikrinin ciddi olduğunu bildirsin.

... İçəri girəndə ata-anasının üzündə bir təntənə sezdi. Düzdür, evə gec gəldiyinə görə atası dilucu onu danladı, ancaq bu danlanma heç əvvəlkilərinə bənzəmirdi.

Mətbəxə keçib qızına-qızına özünə çay süzdü. Anası mətbəxə gəldi və onu sorğu-suala tutdu:

- Harda idin?

- İşim var idi.

- Sənin işin qurtarmayacaq? A bala, artıq uşaq deyilsən. Atan da, mən də gözümüzü sənə dikmişik. Evin aman-zaman bir oğlusan. Daha qocalmışıq. Bizim nəvə arzulayan vaxtımızdır. Mənə də qolumdan bir tutan gərəkdir.

İlqar təəccübləndi:

- Ma, qəribə adamsan e. O gün deyirdin ki, mənim evlənmək yaşım deyil. İndi də deyirsən ki, evlənmək yaşım ötür. Deyəsən, sənin aləminin saatları işıq sürəti ilə hərəkət edir.

Anası səbirlə onu dinləyib sözünə davam etdi:

- Atan hörmətli adamdır, o boyda universitetdə dərs deyir. Onun qudası da özünə layiq olmalıdır. Bir düşün, bala, yataqxana cır-cındırlarının adını çəksək, aləmdə biabır olarıq, adımız bədnam olar. Abbas əmini yaxşı tanıyırsan. Atanla neçə illərin dostudur. Səidəyə də bələdsən. Ay parçası kimi bir qızdır...

Sanki İlqarın başına bir vedrə qaynar su tökdülər:

- Abbas?! Səidə?! Mənim bu adlardan allergiyam var.

Sonra səsinin tonunu bir qədər azaldıb: - Buna bir bax. Ay parçası. Yox bir, pivə boçkası - dedi.

Ürəyi yenə soyumadığı üçün Səidənin qarasıyca bir az da danışdı:

- O qapqara buqələmunu Aya bənzədirsən? Əcəb romantiksən.

İlqarın belə danışığı anasını əsəbiləşdirdi:

- Ədəbsiz danışma, ayıbdır. Atan eşidər, yaxşı düşməz. O cür hörmətli adamların haqqında belə danışmağının səbəbi bilirəm nədir. Yataqxana cır-cındırları ilə oturub-durmaq sənə bundan artıq nə verəcək ki?

İlqar söhbətin tonunun qalxdığını görüb anasının qılığına girməyə çalışdı:

- Ma, qurban sənə, mənim istədiyim var. Ya Nailə, ya heç kəs.

Anasının hücuma keçməyə hazırlaşdığını görüb onun çiyinlərindən tutdu:

- Oğlunun bədbəxtliyinə çalışma. Nailə dünyanın ən gözəl qızıdır. Ağıllı, tərbiyəli, qoçaq. Nə olsun kasıbdırlar? Kasıb bəyəm ölməlidir?

Anası İlqarın əllərini itələyib dedi:

- İndi bir qıy çəkərəm, atan gələr bura. 25 yaşın içindəsən, hələ bir işin qulpundan yapışmamışam Atanın hesabı-nadır altındakı maşın. Ciblərin də pulla doludur.

İndi kişinin sözünü yerə salırsan? El-gün sənin atana hörmət edir, indi sən hörmətsizlik göstərib kişini dostunun yanında pərt eləmək istəyirsən? Sən bir təsəvvür elə ki, atana o yataqxana cır-cındırı barədə söz açsam, aləm necə dağılar.

İlqar artıq ağlamaq həddinə çatmışdı. Anası danışırdı və ona bəlli olurdu ki, atası Abbas Şeyxzadə ilə hər şeyi ikilikdə həll ediblər. Deməli, artıq qatar tərpənib. Görəsən, onu necə saxlamaq olardı?

Anası hələ də danışırdı:

- Bir sabahını da düşün. Dünyaya etibar yoxdur. Sabah biz olmasaq da, Abbas əmin sənin arxan, dayağın olacaq. Özün bilirsən də, onlar necə kalandırlar...

Öz otağına keçdi. Uşaq kimi hönkürmək istəyirdi... Nəyi, nəyi, ancaq valideynləri tərəfindən belə qəfil boyunduruğa salınacağını gözləmirdi.

Nailənin nömrəsini yığdı. İl yarım idi ki, sevişirdilər. Bu müddətdə ən romantik anları - telefonla bir-birilərinə lirik mahnılar qoyub susmaları olmuşdu. Dəstəyi maqnitofonun qarşısına qoydu. Hissləri, duyğuları, hamısı keyləşmişdi. Bircə şeyi düşünürdü. Nailəyə onu almayacağını söyləsə, qız məhv olacaq...

Sezen Aksu oxuyurdu:

Get... get... get...

...Get-mə, dur, nə olur.

Getmə, yalan söylədim.

Doğru deyil, ayrılığa

Daha heç hazır deyilim...

□□□

... Dəstəyin o biri üzündə Nailə sakit-sakit ağlayırdı. Göz yaşları yanaqları boyunca diyirlənib dizinin üstünə qoyduğu şəkli - İlqarın şəklini isladırdı.

Deyirlər ki, fillər ölümlərini qabaqcadan duyurlar. Yüz kilometrlərlə məsafə qət edib fil qəbiristanlığına gəlir, məhz orada canlarını tapşırırlar. Bu soyuq may gecəsində Nailə də ayrılığı duymuşdu. Sövqi-təbii hansısa hiss ona ayrılıq adlı bir Əzrayıldan xəbər verirdi.

Sezen oxuyurdu:

... Doğru deyil, ayrılığa

Daha heç hazır deyilim...

Nailə hönkürürdü. Qırıq-qırıq İlqarı səsləyirdi.

...Ancaq İlqarın səsi çıxmadı. Mahnı qurtaran kimi dəstək də asıldı.

Ürəyi heç vaxt aldatmamışdı Nailəni. Hiss edirdi ki, nəsə olub. Axı heç vaxt görüşəndən sonra həmin gün zəngləşməz, görüşlərinin təəssüratlarını bir-biri ilə ertəsi gün bölüşərdilər. Bir də ki, heç vaxt İlqarla 11 saat bir yerdə olmamışdılar. Bunun axırında mütləq hər şey haram olmalı idi. Onsuz da tanış olduqları ilk gündən bəri daim ayrılığı gözləmişdi Nailə. Xüsusən də ondan-bundan nəsə eşidib İlqar onun üstünə hücum çəkəndə, gec-tez mütləq ayrılacaqlarına inanmışdı. İlqarın valideynlərinin necə mürəkkəb, köhnəfi-kirli olduqlarını da eşitmişdi. Onlar imkan verərdilərmi bu izdivaca?

Gecə saat ikiyə kimi İlqarın təkrar zəngini gözlədi. İkiyə bir neçə dəqiqə qalmış telefon zəng çaldı. Nailə telefonun üstünə atıldı:

- İlqar, nə olub? Niyə məndən gizlədirsən, İlqar? Axı nəsə olub.

Dəstəkdən yaşlı kişi səsi gəldi:

- Mənəm, Nailə.

- Abbas müəllim?

Nailə duruxub qaldı. Uzun müddət danışmağa söz tapa bilmədi.

- ... Gecənin bu vaxtında... xeyir olsun, Abbas müəllim?

- Nailə... Birdən-birə sənə ehtiyac duydum, zəng etdim. Yəni, mən sənə zəng eləyəmmərəm?

- Edə bilərsiz... Ancaq...

- Bilirsən... Sən mənim qadın idealımsan...

Nailə quruyub qalmışdı. Yatsa, yuxusuna belə girməyəcək bir iş baş vermişdi.

Dəstəyi qoyub özünü pəncərəyə çatdırdı. Üzünü soyuq şüşəyə yapışdırıb küçəyə baxdı. Yağış yenə başlamışdı, bomboş küçəni yumaqda idi. Küçə boyu düzülmüş elektrik dirəklərindən yalnız birinin üstündəki lampa yanırdı və bu lampanın işığı yaş asfaltda bərq vururdu...

□□□

Burda çiçəklər tez solur,

Burda küləklər saç yolur.

Öldüm qurtardım, nə olur,

Apar məni buralardan.

R.Behrudi

# 5-ci HİSSƏ

# Onların şəkilləri

Hər ikimiz susmuşduq. Kaset dolduğu üçün diktofon dayanmışdı. Səssizliyi küçədən keçən maşınların səsi, bir də saatın aramsız taqqıltısı pozurdu.

Baş verənlərlə barışmazlıq: həsrət, həsəd, inilti, hıçqırtı, hönkürtü, sonra yenə bütün bunların təkrarı, sonra inadla bir daha, bir daha təkrarı. Sonra da əl-qolun yana düşməsi, acı günlərlə qol-boyun olub hər şeyə biganələşmək: insan hüquqsuzluğunun hərəkət trayektoriyasıdır bu.

Saata baxdım. Dördə on dəqiqə qalırdı. Vaxtın necə keçməsindən, təbii ki, xəbərim olmamışdı.

Aclığa heç tabım yoxdur. Naharımın vaxtı beş dəqiqə keçsə, dünyanı dağıdaram. Ancaq indi nəinki nahar etməmişdim, ümumiyyətlə, nahar heç yadıma da düşməmişdi...

Şölə xanım da saata baxdı.

- Vay-vay, mən lap yubandım, - deyib əl çantasını yığışdırmağa başladı.

Bayaqdan söhbət edə-edə mənə şəkilləri göstərmişdi. Onların şəkillərini. Ə., doğrudan da, gözəl idi. Bəlkə də, ona ilahi gözəl demək olardı. Bütün şəkillərdə gülümsəyirdi. Bununla belə, onun gözlərinin dərinliyində bir kədər qarışıq həyəcan, qorxu görürdüm. Ən qayğısız anlarında: rəfiqələri ilə təbiət qoynunda dincələrkən, R. ilə qol-boyun gəzərkən belə sanki Ə. qəfil gələcək bir bədbəxtçiliyin yolunu gözləmiş, ondan qorxmuşdu...

- Hələ vaxta var, bir az da danışın.

Şölə xanım gülümsədi:

- Sizin vaxtınıza var. Mənsə evə qaçmalıyam. Yoldaşımdan xəbərsiz çıxmışam.

Masanın arxasından durdum. 2 saat hərəkətsiz oturduğum üçün sanki bədənim keyimişdi.

- Sizcə, bu əhvalatdan bestseller alınacaq?

Şölə xanım gözündə işartı bu sualı verdi. Çiyinlərimi çəkdim. Onu göyün yeddinci qatından yerə çırpdım sanki:

- Adi sevgi əhvalatıdır da. Qızla oğlan sevişirlər. Qız kasıb olduğu üçün varlı oğlanın ailəsi bu izdivaca razılıq vermir. Sonra da qızı müdiri zorlayır. Qız da onu öldürür... Sonu kriminala çevrilən adi sevgi əhvalatıdır.

O, narazılığını bildirdi:

- Əvvala Ə.-ni zorlamırlar. Ümumiyyətlə, heç nə siz deyən kimi deyil.

Mən yenə cığallıq etdim:

- Zorlamırlar, lap pis. Onda lap adiləşdi ki, bu əhvalat?

O, masanın üstündəki qeyd dəftərini də çantasına qoyub ayağa qalxdı:

- Lap səbirsizsiniz. Niyə əhvalatı axıra kimi dinləmədən fikir yürüdürsünüz? Belə çıxır ki, sizə bu əhvalat lazım deyil?

Onun qapıya çatdığını və çox incik halda redaksiyanı tərk etmək istəyini görüb tələsik qabağına keçdim:

- Yox, məni düz başa düşmədiniz. Yəni demək istədim ki, siz deyən şedevr alınmayacaq. Siz Allah, üzrlü sayın.

O, qapının dəstəyini tutub dayanmışdı.

Bir daha üzrxahlıq edib soruşdum:

- Sabah neçədə gələcəksiniz?

Onun: - Bəlkə, gəlmədim, - sözlərindən sonra o ki var özümü danlayıb uzun-uzadı moizə söylədim, fikrindən daşındırmaq istədim onu. Nəhayət, sabah gələcəyinə söz verdi. Dedi ki, 11 tamamda gələcək. Xahiş elədim, gecikməsin. Bugünkü kimi günorta gəlib çıxsa, vaxtımız axı çox az qalardı.

Qapıdan dəhlizə çıxanda, xüsusən, xanım əməkdaşlarımız, maraqla ona göz qoymaqda idilər...

Bilirdim ki, bir azdan saysız-hesabsız suallara tuş olacam.

Onu liftə qədər ötürdüm. Lifti gözləyərkən sanki içimə yük olmuş bir sualı verdim:

- Əgər N.İ. Ə.-ni zorlamayıbsa, Ə. öz xoşuna onunla yaxınlıq edibsə, sonda niyə onu öldürüb?

Şölə xanım liftə daxil ola-ola söylədi:

- Darıxmayın, hər şeyi biləcəksiniz.

# 6-cı HİSSƏ

# Ad günü

Yuxuna gəlim sənin, Saçıma bir sığal çək. Bu ürək həsrətinə Onsuz da dözməyəcək. Sevirəm denən mənə, Sən Allah, ovut məni. Sevirəm denən mənə, Sonra lap unut məni.

B.Səfa

“Az LTD” şirkəti Montində səkkiz otaqdan ibarət ofis kirayələmişdi. Nailə referent işləyirdi, iri qəbul otağında otururdu. Bu gün mayın 12-si idi. Onun 20 yaşı tamam olurdu...

11 gün əvvəl Abbas Şeyxzadənin gecə zəngindən sonra Nailə çox tərəddüd etmişdi. Hətta buranı atıb getmək də istəmişdi. Hara getsin? Hər şeyi təzədənmi başlasın? Kim zəmanət verərdi ki, gedəcəyi yerdə təzə müdiri ona eşq elan etməyəcək?

Burada işlədiyi müddətdə müdiri onların ailəsini, demək olar ki, uçuruma yuvarlanmaq təhlükəsindən qurtarmışdı.

Bu şəxs çox varlı idi. Əvvəllər İlqarın atası ilə birlikdə universitetdə dərs deyirmiş. Ölkədə kooperativləşmə hərəkatı başlayanda ilk kooperativlərdən birini də o yaratdı. İndi nəhəng bir şirkətə rəhbərlik edirdi. Şirkət neçə-neçə xarici ölkə ilə idxal-ixrac əməliyyatı aparırdı, dəmiryol sistemləri ilə xaricə neft-kimya məhsulları göndərir, ərzaq və tikinti malları gətirirdi.

Nailə məktəb illərindən həmişə özünü Səidə ilə müqayisə edərdi. Qızıla, daş-qaşa bürünən, ən son dəblə geyinən bu qarabəniz, azacıq da dolu qız gözəllər gözəli olan, ancaq nimdaş paltarda itib-batan Nailənin idealına çevrilmişdi...

Nailəgilin ən sıxıntılı günlərinin birində təsadüfən küçədə rastlaşmışdılar. Nailə iş axtardığını bildirdikdə Səidə dərhal əlindəki mobil telefonla atasına zəng edib Nailəni onun yanına göndərmişdi. Abbas Şeyxzadə: “Qızımın rəfiqəsi elə mənim də qızımdır”, - söyləyib ona sabahdan işə çıxmağı tapşırmışdı. İşə bax, həmin sözləri söyləyən şəxs indi Nailəyə eşq elan eləyirdi...

Nailəyə bu 20 ildə çox adam eşq elan eləmişdi. Poliklinikaya gedəndə diş həkimi, bazarlıq edəndə qəssab, taksiyə minəndə sürücü... Həmişə də bu “adaxlılardan” maksimum istifadə etmişdi. Onların komplimentlərini qaba sözlərlə kəsməyib, sadəcə, gülümsəməklə dəyərləndirən Nailəyə dişinin keyfiyyətli müalicəsi, ətin ən yaxşı yerləri, yaxud da mənzil başına münasib qiymətə getmək qismət olurdu.

Nailənin həyat devizi belə idi: “Minimum nəsə ver, maksimum nəsə al”.

Düzdür, təsadüfi “adaxlılardan” qopmaq asan idi. Bir də var idi daimi “adaxlılar”. Yaşadıqları yataqxananın komendantı kimi. Nailə onun üzünə gülümsəməklə çox şey qazanmışdı: telefon çəkdirmiş, mənzillərini kommunal rahatlıqla təmin etdirmiş, otaqların təmirinə nail olmuşdu. Ancaq Me-tallomu gündə azı 2-3 dəfə görmək, onun: “Haçan kafeyə gedək?”, “Gəl səni plyaja aparım”, “Bir öpüş ver, sənə sürprizim var” - kimi əttökən sözlərinə tab gətirmək ağır idi. Yaxşılıqları təmənnalı edən komendant Nailədən bunların əvəzini gözləyirdi... Nailə hələ də onunla oynamağa müvəffəq olurdu. Abbas Şeyxzadə isə komendant deyildi. O daha ciddi adam olduğundan, onunla münasibətlər daha dağıdıcı nəticə verə bilərdi... Ancaq Nailə geriyə çəkilməyi imkansız sayır, manevr etməklə hər şeyi yerinə qoyacağına inanırdı... Bir də ki, axı arada Səidə var idi. Müdiri qızına, ailəsinə utanc gətirmək istəməzdi, yəqin...

Bu on bir gündə rəsmi iş söhbətlərindən başqa, aralarında heç bir danışıq olmamışdı. Abbas Şeyxzadə heç çay da istəməmişdi katibəsindən. Ancaq bu gün səhər onu təbrik etmişdi:

- Səidədən eşitdim ki, bu gün yubileyindir. Təbrik edirəm! Vəssalam.

İlqar isə səhərdən düz dörd dəfə zəng vurmuş, ondan işdən tez çıxmağı xahiş etmişdi. Axı yubileyi qeyd etməliy-dilər...

Ancaq Nailə: - İş çoxdur, saat 6-da görüşərik, - deyib nəyisə gözləyirdi. Bilirdi ki, ad günü quru təbriklə ötüşməyəcək. Və o da planlaşdırdığı çox vacib bir iş barədə müdiri ilə söhbət edəcək. Hər gün kabinetə çay aparmağın, qəbula gəlib-gedənlərlə quru rəsmiyyətlə danışmağın, kağız-kuğuzun içində eşələnməyin yeknəsəkliyi onu bezdirmişdi. Görəsən, Abbas Şeyxzadə onun üçün “Modalar evi” aça bilərmi? Müstəqil işi olsaydı, həm də müdirinin bir addımlığında olmaq təhlükəsindən də yaxa qurtarardı...

... Nəhayət, daxili zəng çalındı. Nailə ürəyi şiddətlə döyünə-döyünə qapısına “Şirkətin prezidenti” sözləri yazılmış kabinetə girdi.

Abbas Şeyxzadə onu başdan-ayağa süzdü. Nimdaş, gödək paltar geyindiyi üçün Nailə lap sıxıldı. Paltar əyninə dar olduğundan bütün əzalarını sıxıb qabartmışdı.

Müdirinin səsi xeyli mülayim idi:

- Orda niyə durmusan? Yaxın gəl.

Nailə başını aşağı dikib ona yaxınlaşdı:

- Buyurun.

Abbas Şeyxzadə qırmızı qutunu açıb iri brilyant qaşlı üzüyü onun qarşısına qoydu və dedi:

- Sənin ad gününü təbrik edirəm.

Nailə sıxıla-sıxıla: - Yox, lazım deyil, nə əziyyət çəkirsiz, - söylədi.

- Götür, götür. Bu, sənə kiçik hədiyyəmdir. Axşam isə restoranda ad gününü təntənəli qeyd edərik. İstəsən, “İstan-bul”da, istəsən, “Skaçki”də... Saat doqquzda zəngləşərik.

Nailə dörd dəfə: - Çox sağ olun, - deyib, əlində qırmızı qutu dönüb qapıya yaxınlaşdı. Qapıya çatanda dayandı, geri qanrıldı:

- Abbas müəllim...

- Buyur.

- Sizdən bir xahişim var.

Guya, qarşısındakı sənədlərə göz qoyan Abbas Şeyxzadə daxili nigarançılıqla dedi:

- Eşidirəm.

Bəlkə, Nailə ogünkündən sonra işdən çıxmaq qərarına gəlib? Neçə gün idi ki, bu fikir ona rahatlıq vermirdi. Ad günü göydəndüşmə bir fürsətə çevrilmişdi. Münasibətləri yoluna qoymaq üçün bu, əla bir şans idi. Ancaq bu xahiş... Görəsən, nə xahiş edəcəkdi Nailə ondan? Bəlkə, deyəcəkdi ki, münasibətlərimiz müdir-katibə, ata-bala olaraq qalsın?

Nailə sıxıla-sıxıla: - Sizin şirkətin nəzdində “Modalar evi” açmaq olar?, - söyləyəndə sanki Abbas Şeyxzadənin

çiynindən ağır bir yük götürüldü.

Nailə uşaqlıqdan ən böyük arzusunun məhz bu olduğunu, yeni modelyerlər nəslini yetişdirməyin zəruriliyini, Azərbaycanın özünəməxsus geyim tərzinin dünyada təbliğinin müsbət xüsusiyyətlərini söyləyirdi, Abbas Şeyxzadə isə dərindən nəfəs alıb hər şeyin xoş sonluqla bitdiyinə sevinirdi. Deməli, Nailə ondan inciməyib. Deməli, sevgi oyununu davam etdirmək olar.

- Mənə üç-dörd gün möhlət ver. Sənin arzunu yerinə yetirəcəm.

Müdirinin bu sözlərinin müşayiəti ilə Nailə kabinetdən çıxdı. Gəlib qəbul otağında, öz masasının arxasında əyləşdi. Deməli, onun ən böyük arzusu reallaşır. O, “Modalar evi” yaradır... Sevincindən ürəyi uçunurdu...

Heyranlıqla üzüyü süzdü. Üstündəki qiymət kağızında yazılan rəqəmləri irilənmiş gözləri ilə bir neçə dəfə nəzərdən keçirdi: 2375000 manat.

Saata baxdı. Altı idi. Tez yığışıb disksiz telefonu qaldırdı:

- Abbas müəllim, mən gedə bilərəm?

- Get. Ancaq saat 9-u unutma.

Dəstəyi yerinə qoyub ani olaraq fikrə getdi. Sonra iti addımlarla qapıya doğru irəlilədi.

# 7-ci HİSSƏ

# Qağayı və albatros

Bir axşam tərəfi günəş batarkən, bir gəlinlik donu kirayə götürək, bir şüşə likör, bir qutu siqar... və bir qədər zaman, gedək səhraların bitən yerinə... Dənizin dadına baxaq, qumlara bürünək, olmazmı?

Mən sənin olum, dünyasa mənim...

Cavidan

Bu bir il yarımlıq vaxt kəsiyində Nailəylə İlqara məxsus çox şeylər var idi. Onlardan ən başlıcası da dəniz idi. Çimərlik mövsümü başlamamış və mövsümdən sonra əksər görüşlərini bax burada - sahildə keçirərdilər. “06”-nı lap ləpədöyəndə saxlayardı İlqar.

Neçə dəfə olmuşdu ki, maşın quma batıb qalmışdı... Onu böyük çətinliklə çıxara bilmişdilər... Əvvəl təkərlərin ətrafındakı qumları əlləri ilə kürümüşdülər. Sonra Nailə maşını itələmiş, İlqar isə onu işə salmışdı. Nailə qız olsa da, kifayət qədər güclü idi. Bir ara pullu karate dərnəyinə də gedərdi. İlqar zorla onu bu yoldan çəkindirmişdi:

> - Demirsən, ölçülərin Naomi Kempbellin ölçüləri ilə eynidir? Demirsən, super modellər görsələr sənə həsəd aparарlar? Karatedən sonra kürəklərin enliləşəcək, ayaq əzələlərin qabaracaq...

Ancaq idmana getməsini bəyənmədiyi sevgilisinin köməkliyi ilə maşını qumdan çıxaranda, onun “pəhləvanlığı” ilə fəxr etməli olurdu:

> - Sən lap Van Dammın törəməsisən ki. Vallah, o gün məhəllədə akkumulyatorum yatmışdı. Dörd məhlə uşağı

zorla bu maşını itələyib tərpətdi.

... Bir dəfə isə maşına nə qədər güc eləsələr də, heç cür onu qumdan çıxara bilməmişdilər.

Ötən ilin oktyabrı idi. Dəniz mövsümü bağlanmışdı. Sahildə ins-cins yox idi. Şər qarışana kimi əlləşdilər. Əyinləri yüngül olduğundan titrəmə düşmüşdü canlarına. Nəhayət, maşının qapılarını bağlayıb kömək axtarmağa getdilər... Bəlkə də, 2 kilometr piyada məsafə qət eləmişdilər ki, sahildə bir sınıq-salxaq “Moskviç” gördülər. 4 kişi maşının kapotunun üstündə süfrə açıb pomidor, soğan və kolbasa ilə araq vururdu...

Həmin kişilər gəlib “hop” eləyərək, “06”-nı qaldırıb qumdan çıxartmışdılar. Maşını çıxartmamışdan qabaq qəribə bir şərt də irəli sürmüşdülər: bizimlə yüz-yüz vurmalısınız. İlqar qızın əvəzinə özü içəcəyini bildirib centlmenliyini göstərmək istəyəndə kişilərdən biri demişdi:

- Dediyimiz dedikdi. Bu dünyalar gözəli ilə badə-badəyə vurmasaq, maşını çıxartdı yoxdu. Bilirsən, bacıoğlu, mənasız ömür sürüb o dünyaya gedəcəyik. Heç olmasa, inkir-min-kirlər biləndə ki, bu cür qızla bir süfrədə əyləşmişik, bizə hörmət eləyərlər...

Nailə könüllü ona süzülən araq stəkanını götürüb kişilərlə toqquşduraraq başına çəkmiş, sonra da içalatı yana-yana, gözündən yaş axa-axa qışqırmışdı...

...Bu gün də maşın lap ləpədöyəndə, bəlkə, elə həminki yerdə dayanmışdı, xırdaca ləpələr astaca sahili döyəcləyirdi. Maşına söykənib ucsuz-bucaqsız dənizi seyr edirdilər.

On addımlıqlarına bir quş qondu. İlqar uşaq sevinci ilə qışqırdı:

- O quşa bax.

Nailə heç nə olmayıbmış kimi: - Nə olsun? Adi qağayıdır da, - dedi.

- Nə qağayı? Heç o boyda da qağayı olar? Yekəliyinə bir bax. Albatros quşudur.

- Yox bir, dəvəquşudur.

- Gəl mərc edək.

- Gəl edək.

Çeçələ barmaqlarını qarmaq edib bir-birinə keçirdilər. İlqar xeyli fikirləşdi:

- Bax, sən uduzsan, mənə bir blok “Davidoff” siqareti alırsan. Mən uduzsam, sənə “Şanel” duxisi.

Quş onlara tərəf baxırdı.

Nailə zarafatından qalmadı:

- Nə bilək ki, kim düz deyir? Bəlkə, quşun özündən soruşaq? Ay quş, sən nə quşusan?

Nailənin yaxınlaşdığını görən quş qanadlarını çırpa-çırpa uçub getdi.

İlqar gözünü dənizdən ayırmadan Nailəni yanına çağırdı:

- Gəl yanıma.

Nailə gəldi. İlqar onun başını qucaqladı:

- Son vaxtlar yaman qəmgin görünürsən... Sənə yaxşı ad qoymuşam: pessimizm dağarcığı.

Nailə başını çəkib dik İlqarın gözlərinə baxdı:

- Ürəyimə nəsə damıb... Məndə elə hissiyyat var ki, bu, bizim son görüşlərimiz, birlikdə keçirdiyimiz son saatlarımız, son dəqiqələrimizdir. Lap yaxın müddətdə, hiss edirəm ki, nəsə olacaq... O görüş gecəsi zəng edib Sezeni qoymağın da müəmmalı idi. Bəlkə, sən məndən nəsə gizlədirsən?

Desinmi, deməsinmi? İlqar baxışlarını yayındırıb bir siqaret yandırdı:

- Yox, yox... Nə gizlədəsiyəm ki...

Bayaqkı quş bir də uçub gəldi. İlqar cəld söhbətin səmtini dəyişdi:

- Ona bax, albatros gəldi. Bu, aristokrat quşdur, varlı quşdur. Görürsən, kanalizasiya axıdan boruya yaxın getmir. Qağayı isə kasıb quşdur, pisgünlüdür. Özünü elə hey çirkab sulara vurur... Kəsəsi, sən mərci uduzdun. Kişinin ensiklopediyasını götürərəm, orada quşların şəkilləri...

Özü də istəmədən Nailənin xətrinə dəydi. Nailə daha onu eşitmirdi, öz-özünə danışırdı:

- Dünyada ən böyük bədbəxtlik kasıblıqdır. Mən necə də nifrət edirəm kasıblığa. Şəxsən sən...

Qəhərləndi...

- Şəxsən sən özün neçə dəfə yataqxanada - “pis qoxulu o murdarxanada” yaşadığımı mənim başıma qaxmısan... Beh-budovdakı evinizi gözümə soxmusan... Mən qağayıyam, sən albatros.

- Haqsız danışma, Nailə.

İlqar barmağı ilə onun yanağı boyunca diyirlənən göz yaşını sildi. Nailə başını qaçırtdı:

- Lap haqlı danışıram. Neçə dəfə pal-paltarıma, tuflilərimə lağ eləmisən. Kasıbam deyə, gərək, yaşamayım, ölüm? Mən bilirəm, yüz faiz bilirəm ki, valideynlərin səni məndən ayıracaqlar. Sənə arxitekturnıy evdə yaşayan, özlərinə bab, varlı-hallı, mamlımatan bir qız alacaqlar...

- Elə demə, Nailə. Qurtar. Sən canın, qurtar.

İlqar onu ehtiraslı öpüşlərə qərq edib maşınının arxa oturacağına yıxdı.

Bir azdan onların pıçıltılarını dənizin ləpələrinin səsi eşidilməz etmişdi:

- Mən sənsiz yaşaya bilmirəm, Nailə.

- Sən mənim canımsan, İlqar.

- Bizi heç kim bir-birimizdən ayıra bilməz, Nailə.

- Mən sənsiz ölərəm, İlqar...

... Qəfildən Nailə İlqarın qolları arasından çıxdı:

- Saat neçədir?

İlqar təəccüblə saatına baxdı:

- Doqquza iyirmi dəqiqə qalıb. Nədi ki?

- Gedək, İlqar, qurban olum, gedək. Saat doqquzda evdə olmalıyam. Vacib işim var...

... Maşın toz qopara-qopara şosseyə çıxdı. Həmişəki kimi Nailə arxa orta oturacaqda oturmuşdu. Qayğılı görünürdü. Maşının güzgüsündə xeyli baxışdılar.

- Dünən Şöləyə elçi gəldi.

Nailə bu sözləri deyib köks ötürdü. İlqarın dinmədiyini görüb arxadan onun boynunu qucaqladı:

- İlqar, niyə sizinkilər elçi gəlmirlər?

- Gələcəklər də.

- Nə vaxt?

- Ay qız, hələ mənim evlənmək yaşım deyil axı.

- Kim deyir ki, evlən? Gətir, barmağıma bir üzük tax. Mənim də ürəyim rahat olsun.

- Əclaf! Köpək!

İlqar əyləci sıxıb ona yol verməyən maşının sürücüsünü yamanladı. Sonra da susdu.

- Niyə susursan?

İlqar ənənəvi: - Tələsmə, hər şey yaxşı olacaq, - sözlərindən başqa bir söz tapıb deyə bilmədi.

Nailə yenə köks ötürdü:

- Bilirəm, valideynlərini razı sala bilmirsən. Qurban sənə, vaxt bizim əleyhimizə işləyir. Sabah, biri gün gec olacaq. Ondan sonra ömrü boyu peşmançılıq çəkə-çəkə yaşayacağıq. Biz axı bir-birimizi sevirik, İlqar. Heç kəs heç vaxt bu cür sevişməyib, başa düşürsən...

İlqar sakitcə Nailəni dinləyirdi.

- Bax, elə bu gün, bu saat məni qaçır. Evin bir oğlusan. Ata-anan səni bədbəxt etməyəcək ki? Vallah, onlar məni qəbul edəcəklər. Şükür Allaha, ləkəli bir yerim yoxdur. Onlara elə yaxşı gəlin olacam ki... Elə gözəl-göyçək nəvələr bəxş edəcəm ki, ata-anana...

Bu da yataqxana. İlqar giriş qapısının ağzında maşını saxladı. Nailə ondan cavab gözləyirdi. Yenə xeyli müddət maşının güzgüsündə baxışdılar.

Birdən İlqarın yadına Nailəyə aldığı hədiyyə düşdü. Maşının dolabını açıb oradan “Kinder” şokoladını götürdü, arxaya ötürdü:

- Az qala, yadımdan çıxmışdı. Bu da sənin hədiyyən.

Nailə cəld şokoladı qırdı, içindən yumru plastmas qab çıxartdı. Qabı açıb sevinclə: - Oy! - dedi:

İlqar arxaya qanrıldı:

- Nə çıxdı içindən?

- Timsah. Gör nə qəşəng timsahdır...

Qabın içindən üstü qara naxışlı, yamyaşıl timsah oyuncağı çıxmışdı...


- 8-ci HİSSƏ
- 17-ci HİSSƏ
- 28-ci HİSSƏ
- 39-cıı HİSSƏ
- II FƏSİL

- Ayrılıqdan sonra1-ci HİSSƏ
  - 8-ci HİSSƏ
  - 17-ci HİSSƏ
  - 25-ci HİSSƏ

# 8-ci HİSSƏ

# Görüş günündəki zəng

Ömrümün son baharı, Günahım nəydi, Tanrım. Ya məni ona yetir, Ya da ölüm qurtarım.

X.Natil

Yataqxananın girəcəyində komendant Nailəni yaxaladı:

- Nailə xanım, gəlin çıxın da. Bayaqdan səbirsizliklə sizin yolunuzu gözləyirəm. İcazə verin, çoxsaylı kollektivimiz adından ad gününüz münasibətilə sizi təbrik edim və bu buketi (pəncərənin qarşısındakı gül dəstəsini götürüb ona uzatdı) sizə təqdim edim.

Nailə gülümsədi:

- Çox sağ olun. Haradan bildiniz ad günüm olduğunu?

- Günorta bacınız buketlə gələndə soruşdum nə məsələdir, o da dedi ki, Naykanın yubileyidir, iyirmi yaşı tamam olur.

- Hə, belə de!

Nailə gül dəstəsini götürdü və pilləkənləri çıxmağa başladı. Komendant qaçıb onun qabağına keçdi, gülümsədi. Ağzındakı metal dişləri parıldadı:

- Nailə xanım, bəlkə, bulvara çıxaq, marojna yeyək? Ordan vuraq gedək “Səbayıl” kafesinə, bir şampan içək. Ordan...

Nailə onu yavaşca kənara itələdi:

- Metallom müəllim, saatdan xəbəriniz var? Qalsın başqa vaxta.

Komendant aşağıda durub pilləkənlə yuxarı qalxan Nailəyə altdan yuxarı baxdı, ağzını marçıldatdı:

- Atam-anam saa qurban, ay qız.

Sonra başını yellədi:

- Ada bir bax ee, Metallom... Yox bir dankrat... Yox bir lom...

Nailə mənzillərinə girəndə saat ona işləmişdi. Qardaşı üzüqoylu uzanıb şəkil çəkirdi. Bacısı kitab oxuyurdu. Anası paltar yamayırdı.

Soruşdu:

- Mənə zəng eləyən olmayıb?

Nailəni görcək qardaşı və bacısı masanın üstündən gül dəstəsini götürüb bir ağızdan dedilər:

- Əziz bacımız! Sənin 20 yaşını təbrik edirik! Arzu edirik ki, dünyanın bir nömrəli modeli seçiləsən...

Nailə onların hər ikisini öpdü. Sonra sevincindən yerə-göyə sığmayan anasının başını qucaqladı. Anası qəhərli səslə dedi:

- İftixar çıxıb gedəndə, elə bilirdim sizi böyüdə bilməyəcəm. Maşallah, iyirmi yaşın oldu, daha böyük qızsan. Bircə özünə bab biriylə ailə qursaydın, heç bir dərdim olmazdı.

Nailə öz otağına keçib bayaq cavab almadığı sualını yenidən təkrarladı:

- Mənə zəng eləyən olmayıb?

Anasının səsi gəldi:

- Famil adlı bir oğlan zəng eləmişdi. Dedi ki, Nailənin ad gününü mənim adımdan təbrik edin. Kimdir ki o?

- Qələt eləyir Famil. Özgə kim zəng eləmişdi?

- Beş-on dəqiqə əvvəl yenə zəng olmuşdu. Danışmadılar.

Nailə böyük otağa qayıdıb paltar dolabını açdı. Qara, uzun donunu çıxartdı. Bu, onun yeganə paltarı idi ki, Abbas Şeyxzadə ilə restorana geyinmək olardı.

Anası nigarançılıqla soruşdu:

- Bu vədə hara gedirsən?

- İş yoldaşlarımla ad günümü qeyd edəcəyik.

- Gec deyil?

Nailə anasına cavab vermək istəyirdi ki, qara donunun ətəyinin süzüldüyünü gördü. Elə bil bədənindən cərəyan keçdi. Bacısı səmtə qışqırdı:

- Lalə, bu nədir belə?

Bacısı ona yaxınlaşdı:

- Nə, bacı?

- Bax, bu.

Qız çiyinlərini çəkdi.

Nailə donu acıqla yerə çırpdı:

- Sənə min dəfə demişəm ki, mənim bu paltarımı geyinmə. Müəllim yanına vacibdir ki, bəzənib gedəsən?! İndi mən neynəyəcəm?!

Əsəbi-əsəbi öz otağına keçdi. Yatağına uzanıb hönkürüb ağladı.

Telefon zəng çaldı, dəstəyi götürüb kənara qoydu.

Haçandan-haçana yataqdan durdu. Bir müddət otaqda var-gəl etdi. Sonra sakitləşməkçün çantasını açıb Abbas Şeyxzadənin bağışladığı üzüyü çıxartdı, heyranlıqla baxdı...

Düşündü ki, Abbas müəllim bir də zəng etsə, görüşü şənbə gününə atar... Və ümumiyyətlə, yaxşı ki, görüş baş tutmadı. İlqar onun üçün həyatda hər şeydir...

Elə bu vaxt yenə zəng gəldi. Dəstəyi götürdü. Abbas Şeyxzadəyə nə deyəcəyini artıq qətiləşdirmişdi. Ancaq musiqi səsi eşitdi. Bildi ki, İlqardır.

Sezen Aksu oxuyurdu:

Yağmur yağır, akasyalar islanır,

Ben yağmura deli, buluda deli.

Bir böyük oyun bu, yaşamaq deyil,

Beni ya sevməli, ya öldürmeli...

Yenə də İlqar görüş günündə zəng etmişdi... Deməli, yüz faiz nəsə olmuşdu, ancaq İlqar çəkinirdi deməyə...

Nailə yaşıl timsahı öpüşlərə qərq edə-edə ağlayırdı... “Məni ya sevməli, ya öldürməli”. Doğrudan da, üçüncü bir yol görmürdü o.

Qəfil İlqarın səsi gəldi:

- Sənə vacib söz demək istəyirəm...

Nailə bütün varlığı ilə telefona diqqət kəsildi...

□□□

Araya sükut çökmüşdü...

İlqar tərəddüd edirdi, demək istədiyini heç cür dilinə gətirə bilmirdi...

“Bəlkə, hər şeyi Nailəyə danışım? Beş-on gün ağlayar, sonra da kiriyər. Ən vacibi odur ki, məndən daha heç nə ummaz, bilər ki, münasibətlərimizin axırı yoxdur. Yazıqdır, qoy gedib öz həyatını qursun. Bəlkə, başqa istəyəni var?”

Gah belə fikirləşir, Nailənin gələcəyini xilas etmək istəyirdi, gah da yalnız özünü düşünürdü.

“Nailə mənim məşuqəm olmağa razılıq verməsə, necə? Onu itirsəm, mənim axırım necə olacaq? Axı onunla keçən bir anım onsuz keçən əbədiyyətə bərabərdir. Mən onunla yaşamırammı? Hər görüşdə səhrada susuzluqdan yanan yolçu tək onu bir qab sərin su kimi ciyərlərimə çəkmirəmmi?”

Hansısa şairdən eşitmişdi bu bənzətməni... Təkrarlamağı xoşlayırdı...

- Eşidirəm səni, İlqar.

Yox, deyə bilmədi onu evləndirdiklərini. Elə bu an Allaha dua elədi ki, kaş atası ilə Abbasın arası qəfil dəyəydi, onu rahat buraxaydılar...

Nailəyə isə ağlına gələn ilk bəhanəni söylədi:

- Heç... Elə-belə. Səni qısqandım. Bayaq tələskənliklə evə gəlməyindən şübhələnmişdim. Elə bildim, kiminləsə görüşürsən...

... Bilmədi də ki, Nailə ona inandı, yoxsa yox...

□□□

Pəncərədə qaranquşlar,

Divarda sənin rəsmin.

Könlümdə bir son sevda,

Dilimdə sənin ismin...

...Unut məni, gözəlim,

Unut, unuda bilsən.

Ovut qərib könlümü,

Ovut, ovuda bilsən...

Ejsgəndərzadə

# 9-cıı HİSSƏ

# İç dünyasının pərdəsi

Sözlər, əslində, insanın iç dünyasının pərdəsidir. İç dünyanda başqa hava çalınır, sözlərinsə tamam başqa hava çalır... Bəlkə də, Allah insanları lal yaratsaydı, onlar bir-birilərini daha yaxşı başa düşərdilər... Nə qaba sözlər, təhqir, söyüş olardı, nə də yalanlar, aldanış...

- Bəs sonra nə oldu? R. hansı şəraitdə, necə dedi Ə.-yə həqiqəti? Ə. bunu necə qəbul etdi?

Səbirsizliklə Şölə xanımı sual atəşinə tutdum. O gülümsədi:

- Yaman hövsələsizsiniz. Bir səbriniz olsun da.

Saat hələ 12 idi. Görəsən, Şölə xanım yenə evə tələsməyəcəkdi ki?

- Dilim-dodağım quruyub. Bəlkə, çay gətirdəsiniz?

Mən divarı döyəclədim. Xanımlardan biri hazır imiş kimi əlində məcməyi içəri girdi. “Yetimdoyduran” fincanlarla içinə xırda qənd doğranmış qəndqabını masanın üstünə qoydu. Sonra da çəkinə-çəkinə Şölə xanıma dedi:

- Xahiş edirik, bir az ucadan danışın. Hamımız qapının arxasında durub sizi dinləyirik. Ancaq səsiniz çox astadan gəlir.

Mən işçimə: - Bərəkallah. Afərin sizə. Mən də elə bilirəm, orada işlə məşğulsunuz, - söylədim.

Şölə xanım isə sevindi:

- Sizinçün bu əhvalat maraqlıdır?

- Əlbəttə. Hamımız qəhrəmanlarınızın bu kədərli əhvalatının sonunu gözləyirik.

Şölə xanım özündən razı halda xanıma dedi:

- Ancaq redaktorunuz bu əhvalatı bəyənmir. Deyir, adi bir sevgi əhvalatıdır...

Mən ənənəvi olaraq “idealizmdən başlayıb realizmdə dayanaraq” özümü təmizə çıxartdıqdan sonra fasilənin bitdiyini elan etdim:

- Xahiş edirəm, çayınızı içib söhbətinizi davam etdirəsiniz. Bir azdan da başlayacaqsınız ki, bəs gecdir, getmək vaxtımdır.

- Siz də işinizlə məşğul olun! - deyib işçimi də acıladım.

... Şölə xanım çayını qurtumlayırdı. Onun bu prosesi başa çatdırmasını səbirsizliklə gözləyirdim.

- Tapşıracam, bu “yetimdoyduran” fincanları ləğv etsinlər. Qoy armudu stəkan alsınlar.

- Çaya qənaət etmək istəyirsiniz?

- Çaya yox, vaxta. Səbrim çatmır gözləməyə.

Pəncərədən küçəyə boylandım. İri bir su maşını prospektin ortasındakı yaşıl zolağı sulayırdı. Su şırıltısını çox xoşlayıram. Adamın əsəblərini sakitləşdirir. Həmişə düşünürəm ki, yaxşı imkanlarım olsa, bir bağ alaram. Həyətindən də arx axıdaram, ya da şəlalə quraşdıraram...

Arxın, çayın, şəlalənin, gölün, dənizin səsini eşitmişdim, təkcə okeanın səsini eşitməmişdim. Görəsən, necə olur okeanın səsi?

- Bəs yazını nə vaxt dərc etməyə başlayacaqsınız? Mən hamısını danışıb qurtarandan sonra? Məncə, mən danışdıqca siz onu işləyib çapa versəniz, yəni iş paralel getsə, yaxşı olar. Oxucuların reaksiyasını bilmək, heç bilirsiniz, mənim-çün necə maraqlıdır?

Bu sözlərlə Şölə xanım məni fikrimdən ayırdı.

Üzümü pəncərədən çəkib, ona tərəf çevirdim:

- Elə mən də bu cür düşünürəm. Dünən danışdıqlarınızı bütün gecə yatmayıb, bədii əsər formasına salmışam. Sabah artıq qəzetdə “Sonuncu ölən ümidlərdir”in anonsu dərc ediləcək...

# 10-cu HİSSƏ

# Karuseldə

Taleyin qisməti rast saldı bizi, Yolumuz hardasa qırılacaqsa, İtirəcəyiksə bir-birimizi, Xatirəm yadında qalmayacaqsa, O əllər mənimki olmayacaqsa, O tellər mənimki olmayacaqsa, Sən Allah, özünə öyrətmə məni, Hicran qoxusuyla göynətmə məni.

M.Yaqub

Necə də maraqlı idi. Karuseldə dövrə vururdular. Hər dəfə ən yüksək nöqtəyə çatanda - bütün dənizkənarı park ovuclarının içində olarkən öpüşürdülər.

- Sən canın, bir qızlara bax, qorxudan dəmirdən necə möhkəm yapışıblar... Siz qızlar hamınız qorxaqsız.

- Sən o kassanın qabağındakı oğlanları niyə demirsən? Bayaqdan orda dayanıblar, ürək edib minə bilmirlər. Guya, siz oğlanlar cürətlisiz?

...İnsan izdihamı, attraksionlarla, yeməkxanalarla müşayiət olunan ucsuz-bucaqsız yaşıllıq, sonra isə mavi dəniz, onun hüsnünə gözəllik verən katerlər və gəmilər...

- Gəmilər niyə ağ olur, İlqar?

- Ona görə ki, qara olmurlar.

- Yaxşı da, düzünü de. Niyə ağ olurlar?

- Yəqin, ona görə ki, seçilsinlər.

- Təyyarələr də ağ olurlar... Dəniz mavi, gəmi ağ. Səma mavi, təyyarə ağ...

- Çatırıq...

- Hə...

Karusel növbəti dövrəsini vurur, onları növbəti dəfə ən yüksək nöqtəyə çatdırırdı...

Sakitcə durub bu nöqtənin yetişməsi anını gözləyirdilər. Nailənin ürəyi elə şiddətlə döyünürdü ki...

- Ay Allah, bu, niyə belə şirindir? O qədər dondurma, şokolad yeyirsən ki. Yəqin, ona görə şirinsən.

- Sənsə zəhər kimi siqaretlərdən çəkirsən. Ancaq sən də şirinsən...

Hava tutqun olsa da, xeyli isti idi. Arabir xəfif külək əsir, yarpaqları xışıldadırdı... Karusel hər dəfə aşağıya çatanda şehli otların nəm torpağa qarışmış ətri adamı vurur, onda xoş ovqat yaradırdı...

İlqar əlinin işarəsi ilə karusel nəzarətçisinə daha bir dövrə vuracaqlarını bildirdi. Nailəyə elə gəldi ki, onsuz da gözləri domba olan nəzarətçinin təəccübdən gözləri daha da dombaldı və bu mənzərə onu o qədər açdı ki, xeyli güldü, sonra da İlqara zarafatla dedi:

- Sən canın, gəl daha fırlanmayaq. Bir dəfə də fırlansaq, nəzarətçinin gözləri pırtlayıb yerindən çıxacaq.

İlqar da yalnız indi fərqinə vardı ki, artıq 17-ci dövrədədirlər.

Nailəni özünə sıxdı:

- Ciddi deyirsən? Düşək? Bezdin?

Nailə gülümsədi:

- Sən yanımda olanda mən nədənsə bezə bilərəmmi? İnanmazsan, ancaq istəyərəm ki, bütün ömrümüz elə bu karuseldə keçsin, yanaşı olaq...

Dərhal da sifəti tutuldu:

- İlqar, məni heç vaxt atmayacaqsan?

İlqar başını yellədi:

- Yox.

- Bəs evdən məcbur etsələr, səni zorla evləndirmək istəsələr, onda necə, valideynlərinin ziddinə gedəcəksənmi?

İlqar: - Əlbəttə, - dedi, ancaq özü də hiss etdi ki, sözləri necə cansız çıxdı.

Nailəyə lap yazığı gəldi. Yazıq qız. Bu sözləri ehtimal kimi söyləyir: “Birdən səni zorla evləndirmək istəsələr...” Daha demir ki, bu proses ciddiliklə gedir...

Söhbətin mövzusunu dərhal dəyişdi:

- Sən axı səhər getdiyin iş barədə heç nə danışmadın?

- Heç sən də demədin, atan səni hara düzəldir...

Bu səhər Nailə Abbas Şeyxzadədən icazə almış, moda təşkilatına getmişdi. Orada növbəti “Miss Bakı” müsabiqəsi təşkil edilirdi, istəyirdi bu müsabiqəyə qatılsın, öz gücünü sınasın. Şölə ilə məsləhətləşmişdi. Şölə bir az nəm-nüm etmişdi. Demişdi ki, soyundurub camaatın qabağına çıxardacaqlar səni, ayıbdır. Ancaq Nailə Şöləni köhnəfikirlilikdə qınamış, Azadlıq prospektindəki ünvana yollanmışdı.

...Dedilər 4 nömrəli kabinetə keç, Şıxəli müəllimlə söhbətləşməyə.

Nailə qapını döyüb içəri keçdikdə Şıxəli müəllim divanda əyləşmiş iki qızla söhbət edirdi. Dizindən bir qarış yuxarıda duran qara yubka və ağ dar mayka geyinən Nailəni eynəyinin altından müştəri gözü ilə süzdü. Nailə onun eynəyinin bir neçə dəfə qalxıb-enməsini asanca sezdi:

- Ay qız, görürsən, “sobesedovaniye” aparıram. Çıx, qırx dəqiqə gözlə.

Nailə otaqdan çıxdı. Heç beş dəqiqə çəkmədi ki, qızlar da çıxdılar. Sifətlərində narazılıq var idi. Nailəni də nifrətlə süzdülər.

Şıxəli müəllim Nailəyə divanda yer göstərdi, dağdan-arandan danışdı, sonra özü də gəlib onun yanında əyləşdi.

- Nailə xanım, müsabiqədə hər şeyi mən həll eləyirəm. Səni “miss” eləməyə boyun oluram. Doğrusu, sən çox cazibədarsan.

Əlini Nailənin dizlərinin üstünə qoydu.

- Saat 6-da burada işimi qurtarıram. Gedərik mənim bağ evimə. Dincələrik. Həm də hər şeyi müzakirə edərik.

Nailə bir qədər kənara çəkildi:

- Şıxəli müəllim, bağ evinə niyə getməliyik ki? Mən müsabiqəyə qatılmaq, öz gücümü sınamaq istəyirəm. Siz müsabiqə başlamamış məni necə “miss” edə bilərsiniz? Axı bunu jüri etməlidir.

Yaşı 50-55 olan, saçları çallaşmış Şıxəli müəllim qəşş eləyib güldü:

- Nailə xanım, sən necə də dilbilməzsən. Taleyini 10 nəfər jüriyə tapşırmaqdansa, tək Şıxəli müəllimə tapşırsan, daha yaxşı olmazmı? Bağda qədimi bir taxtımız var. O da olar sənin sınaq meydanın. Necə deyərlər, podiumun...

Oradan başılovlu çıxmışdı. Görüşərkən İlqara bütün bunları danışmamışdı, indi də təbii ki, danışmayacaqdı. Əslində, İlqar onun gözəllik müsabiqəsinə qatılmaq istəyindən xəbərsiz idi. İlqara demişdi ki, işdən məni bir ofisə göndərirlər, sənəd aparacam. Sonra da bekar olacam, görüşə bilərik. O da əlbəəl razı olmuşdu. Söyləmişdi ki, məni də atam işə düzəltmək istəyir, günortaya kimi gedib ora dəyəcəm, günortadan sonra görüşərik...

İlqar sualını bir daha təkrarladı:

- Səninlə deyiləm? Getdiyin iş necə oldu?

Nailə Şıxəli müəllimin otağında başına gələnləri zorla beynindən çıxartmağa çalışdı ki, İlqar orada nəsə xoşagəlməz hadisə baş verdiyini sezməsin.

- Getdim, sənəd-sünəd aparmışdım, verdim, vəssalam. Bəs sənin işin nə oldu?

Atası İlqarı elmi-tədqiqat institutuna düzəltmək barədə razılığa gəlmişdi. İlqar gedib tozlu qovluqlar arasında eşələnən insanları gördükdə dəhşətə gəlmişdi. Keçirdiyi növbənöv əyləncələrlə dolu olan həyat tərzini bu cansıxıcı mühitə dəyişməkmi olardı? Cəld evə qayıdıb anasını danlamışdı ki, bircə oğlunuzdan keçmişiniz, onu beş-on manat puldan ötrü o cür işə düzəltmək istəyirsiniz.

Gözləri dolmuş halda demişdi:

- Bircə ay orada işləsəm, tonlarla kağıza baxmaq gözümü, o kağızların tozu isə ciyərlərimi sıradan çıxaracaq.

Anası da eləməyib tənbəllik, dərhal zəng eləyib Mamed kişiyə ağzından gələni demişdi:

- Mən qoymaram, mənim ciyərparəm əziyyət çəksin. Onun qazanacağı siqaret puluna göz dikmisən? Maması ölüb ki, o, səhərdən axşamadək tozlu kağızların içində eşələnsin?

İlqar da “təzə iş yerindən” həvəssiz-həvəssiz danışdı:

- Getdim, gördüm gözü eynəkli ağıllı qaqaşlar ayda mənim benzin puluma belə çatmayacaq əməkhaqqı alaraq özlərini elmin yolunda fəda edirlər. Kişiyə xəbər çatdırdım ki, canım-gözüm, bu, mənlik deyil...

Nəhayət, dövrə vurmaqdan bezmiş İlqar Nailənin ovcunun içini qıdıqladı. O, bütün varlığı ilə Nailəni vəhşicəsinə öpüb-oxşamaq, ondan həzz almaq istəyirdi.

- Haçan adam kimi görüşürük?

- Bəs bu nədi, heyvan kimi görüşməkdir?

- Bundan bir şey çıxmaz. Guya, bilmirsən, mən nə istəyirəm?

Nailənin ovcunu dırnağı ilə cızmağa başladı. Nailə əlini qaçırmaq istədi:

- Ağrıdır axı, eləmə. Yəni ehtirasın bu qədər şiddətlənib?

İlqar onu özünə sarı çəkdi:

- Əlbəttə. Sən canın vaxt tap, görüşək. Səndən ötrü darıxmışam...

Dombagöz nəzarətçinin baxışlarının müşayiəti ilə karuseldən düşərkən İlqar onun ovcuna pul basdı, yola düzəldilər. Nəzarətçi onları göstərib yaxınlıqda dayanmış iki kişiyə nəsə dedi, onlar da İlqarla Nailəyə baxmağa başladılar. Kişilərdən biri nəzarətçi deyənlərə inanmırdı heç cür.

- Ola bilməz.

- A kişi, kəsdiyimiz çörək haqqı, düz deyirəm, özüm saymışam.

Nailə İlqarın qoluna girmişdi. İlqarla birgə keçirdiyi ən maraqlı anlara bu karusel əhvalatı da əlavə olunmuşdu. Sonradan ən çətin anlarında karuselin ən yüksək nöqtəsində öpüşməkləri, ətrafa açılan təkrarsız mənzərə, nəzarətçinin bərəlmiş gözləri həmişə Nailənin xəyalında canlanacaqdı...

İndi İlqarı keçirəcəkləri növbəti müdhiş dəqiqələr maraqlandırırdı. O, səbirsizliklə həmin görüşü gözləyirdi. Nailə isə münasibətlərinin gələcəyi barədə düşünürdü. Neçə gündür ki, içinə dolan qorxu, təlaş yenə də onunla birgə idi.

İlqarın qolunu dartdı:

- Sən məni aldatmırsan ki, İlqar? Doğrudanmı, məni heç vaxt atmayacaqsan?

İlqar dərhal dilinin ucunda dayanan cavabı söylədi:

- Heç vaxt.

Sonra, doğrudan da, Nailənin sualı ətrafında düşündü. Görəsən, zorla onu evləndirmək istəyən ata-anasının

sözündən çıxa bilərmi? Görəsən, onu Nailədən qoparıb aparmaq istəyən bu nəhayətsiz yoldan çəkilə bilərmi?

Yalnız bircə addım da olsa, geriyə qayıtmaq istəyi bütün varlığına hakim kəsildikdə, yalnız və yalnız məhz həmin anda bütün çılpaqlığı ilə hiss edirsən ki, doğrudan da, geriyə yol yoxdur. Yollar yalnız bir istiqamətdə olur... İrəli...

# 11-ci HİSSƏ

# Kimsəsiz bağ evi

Əlvida, sevgilim, gedirəm...

Məni bir daha səsləmə.

Özüm də bilmirəm nə edirəm, Sabaha ümidlər bəsləmə.

...Əlvida, sevgilim, gedirəm, Səni yox, özümü tərk edirəm.

N.Paşayeva

Uzaqlarda bir parça ay, səma dolu ulduzlar. Lap uzaqlarda işıq seli. Mülayim hava. Arabir eşidilən it hürüşməsi. Və bir də içini yalquzaq kimi gəmirən dərdin səsi... İlqar siqareti siqaretin oduna calamışdı. Kimsəsiz bir bağda maşını birtəhər yarıyacan darvazadan içəri salmışdılar, gözlərdən oğurlanaraq yenə bir yerdə idilər.

Hiss olunurdu ki, bağa çoxdandır, insan nəfəsi dəymir. Pəncərə şüşələrində neçə ilin kiri yığılıb qalmışdı. Həyətdəki kol-kos, ot-alaq maşını tam həyətə salmağa imkan verməmişdi.

Birotaqlı daxma çökmüşdü. İçində qədimi dəmir çarpayı var idi. Üstünə köhnə pal-paltarlardan qalaq vurulmuşdu.

İki nəfərə iki şampan içmişdilər. Sınıq-salxaq pəncərəni birtəhər itələyib açaraq sakitcə Aya baxırdılar.

- Dünyada Ay qədər sevdiyim ikinci bir şey yoxdur... Ayın 7-dən 9-dək Ay lap iri olacaq. Həmin günlər Ayın bütün cizgiləri görünəcək.

Ay barədə Nailə danışırdı, İlqar isə elə hey düşünürdü. Neçə gün idi, qəlbini didib-parçalayanları Nailəyə demək istəmişdi, ancaq onu itirməkdən qorxduğu üçün heç nə deyə bilməmişdi. İndi isə vəziyyət lap ciddiləşmişdi. Sabah onun üçün elçi gedəcəkdilər. Abbas müəllimin qızı Səidə onun həyat yoldaşı olacaqdı. Nailəni sevirdi. Ancaq sevmədiyi, bəlkə də, iyrəndiyi biri ilə ailə həyatı qurmalıydı. Axı niyə?

Nailə danışırdı. Gələcək ailələrindən, körpələrindən danışırdı. Deyirdi ki, onları heç vaxt vurmayacaq. Onlar İlqarla Nailənin deyil, müstəqil Azərbaycan cəmiyyətinin övladları olacaq. O vaxt, yəqin ki, cəmiyyətimiz də tam inkişaf edəcək. Cəmiyyət insanlara qiymət verməyi bacaracaq. Hamıya biliyinə, istedadına, bacarığına görə qiymət veriləcək.

Nailə deyirdi ki, qızı ya violonçel, ya da skripka çalacaq. Oğlu diplomat olacaq....

İlqarın bu an ona o qədər yazığı gəlirdi ki...

Sonra İlqara sual verdi:

- Cəmiyyət insanı yetişdirir. Bəs insan necə, cəmiyyəti yetişdirə bilərmi?

İlqar dalbadal siqaret çəkirdi, düşünürdü. Hava sakit idi, lap sakit idi. Ay iri idi, lap iri idi...

Münasibətlərinin xoşbəxt dünəni var idi, məstedici bu günü var idi. Bir də qeyri-müəyyən sabahı...

... İlqar yerindən durdu. Boş şampan şüşələrinə baxdı. Sonra maşının yük yerindən daha bir şampan şərabı çıxarıb silkələdi, tıxacı açarkən şərabın az qala yarısı köpüklənib dağıldı. Şərabı başına çəkdi. Sonra da Nailənin üstünə atıldı.

Bir-birilərinə sarmaşdılar. İlqar Nailəni çarpayının üstünə yıxdı. Nailə çırpındı:

- Gicin biri gic... Bura tozdur...

Sonra Nailənin səsi nisbətən zəif gəldi:

- Paltarım əzilir axı...

Sonra hər şey unuduldu. Bir-birilərinə dadlı sözlər pıçıldadılar:

- Mən sənsiz yaşaya bilmirəm, Nailə...

- Səndən ötrü ölürəm, İlqar...

Bir qədər keçmiş Nailə onu inadla özünə sıxdı:

- İlqar, gəl elə sanaq ki, indi toyumuzdur. Qurban olum. Onda yüz faiz bilərəm ki, mən səninəm. Ancaq indi qorxuram. Qorxuram ki, səni məndən alarlar.

İlqar qıvrılıb çarpayıdan düşdü:

- Yox, sən nə danışırsan? Onu etmək olmaz.

- Axı niyə?

- Olmaz da.

Nailə üzü üstə çöküb hönkürdü:

- Qorxursan? Papandan, mamandan qorxursan? Bu gün mən acizəm, cılızam. Bu gün mən heç kiməm.

Səsini lap qaldırdı:

- Planlarımı həyata keçirmək üçün mən hər bir çətinlikdən keçəcəm, görərsən. Mən heç kimdən əskik deyiləm. Eşidirsən? Heç kimdən! Bunu sənə sübut edəcəm!

İlqar otaqdan çıxıb daha bir siqaret yandırdı. Qutuda cəmi bir siqaret qalmışdı... Aya baxdı. Fikrini dağıtmaq üçün başladı öz-özünə suallar verməyə:

- Nəyə görə Ayı ən çox sevgililər xoşlayır?

Xeyli düşünüb öz sualına cavab tapdı:

- Axı sevgililər, əsasən, gecələr görüşürlər. Gecə vaxtı isə Aydan başqa sevilməli bir şey olmur...

Nailə də gəldi. Üst-başını səliqəyə salıb dedi:

- Məni təcili evə çatdır.

İlqar həsrətlə Nailəyə baxdı. Aralarında bircə addım məsafə var idi. Ancaq hiss etdi ki, artıq bu məsafə əbədiyyət qədərdir...

Sabah onun üçün elçi gedəcəklər. Dönüb olacaq Abbas Şeyxzadənin kürəkəni. Atası o gün sözarası çatdırıb ki, Abbas müəllim qızının cehizlərinin arasına əntiqə bir qara 300-lük “Mercedes” də əlavə edib. Mərkəzdə ev, villa, pul... Parıltılı bir həyat... Bəs Nailə? Bu cür sevdiyi, bədəninin hər bir əzasından zövq aldığı Nailəni isə unutmalıdır...

... Və bəlkə də, bu, son görüşləridir...

Bəs o, Nailəni aldatmırım? Bir gül kimi qoxulayıb atmırmı? Qızı aldatmaq, axı günahdır. Axı Allah göydən baxır.

İlqar ürəyində özünə bəraət qazandırmağa başladı:

“Nailəni almamağımın səbəbi təkcə valideynlərim deyil. Mənim aləmimdə evlənmək üçün ən əsas şərt alacağım qızın bakirəliyi, heç bir sevgi macərasının olmamasıdır. Hətta onun adı belə, gərək, başqaları tərəfindən hallanmasın. Nailə isə bu sarıdan rekordçudur... Gündə haqqında bir rəvayət qoşurlar. Adam nə qədər onun-bunun üstünə davaya gedər? Nailə bu xarakterdə olmasaydı, mən ata-anamın ziddinə gedərdim. Deməli, günahkar onun özüdür”...

...Maşın bağlararası yolu böyük sürətlə keçib şosseyə çıxdı. Bir azdan artıq şəhərdə idilər. Yataqxanaya bir tin qalmış “06” dayandı. Sakitcə bir-birilərinə baxdılar... Nailə maşından düşərkən soruşdu:

- Mənə heç nə demək istəmirsən?

İlqar sakitcə dedi:

- Səni sevirəm. Çox, lap çox sevirəm...

Nailə ondan başqa sözlər gözləyirdi. Narazı halda, qapını çırpıb qaça-qaça küçəni keçdi, beşmərtəbəli binaların arasından o biri küçəyə adladı. Qara rəngli “QAZ-31” maşını onu gözləyirdi...

# 12-ci HİSSƏ

# Hər şey yalan imiş

Yalnız indi anladım, Ah... Sən daha mənim çün Əlçatmaz bir çiçəksən. Yaşanmış günlərim tək Geri dönməyəcəksən...

B.Vahabzadə

Alaqaranlıq restoran zalında masaların əksəriyyətinin arxası boş idi. Estradada iki ifaçı alətlərini yorulmadan istismar eləyir, bir rəqqasə qız isə şərqsa-yağı striptiz ifa edirdi.

Abbas Şeyxzadə elə yeməklər, elə içkilər sifariş etmişdi ki, onların əksəriyyətini Nailə birinci dəfə görürdü. Utanmaqdan keçmişdi. Əlinə keçəndən yeyirdi...

Müdiri ona növbəti sualını verdi:

- Mənzil şəraitiniz, yəni, lap dözülməzdir?

Nailə başını tərpətdi:

> - Hər gecə yuxuma Əhmədlidəki mənzilimiz girir. Bilirsiniz, ağappaq pərdələrimiz var idi. Dəniz tərəfdən külək əsəndə o pərdələri yelləyirdi. Bir ləzzətli mənzərə yaranırdı ki... Eyvanımızı İftixar...
>
> - O kimdir?
>
> - Ata deməyə dilim gəlmir... Nə isə. Eyvanımızı İftixar mavi rəngdə rəngləmişdi. Dəniz rəngində... Eyvanımız mavi və ağ rəngləri ilə mavi dənizdə üzən ağ gəmiləri xatırladırdı... Qonşularımız da xatirimdədir. Qızbəs xala, Suqra xala, Fira... Blokumuzda iri siçovullar var idi. İnanmazsınız, hərdən o siçovullardan ötrü də darıxıram...

- Atanla indi heç bir əlaqəniz yoxdur?

- Yox. Üç il əvvəl Bakıya köçəndə axtarıb məni tapmışdı. Məktəbimizə gəlmişdi. Onda mən on birincidə oxuyurdum. Rus arvadından olan qızı yanında idi. İtlərini də gətirmişdilər. Qonur rəngli pudel idi. İtə o qədər tumar çəkmişdilər ki. Qızının əlində bir zənbil bahalı it yeməyi var idi. Bax, onda mən acı bir həqiqəti başa düşdüm. Yataqxananın üfunətli küncünə atılmış ac, susuz biz və geniş, işıqlı otaqlarda naz-nemət içində bəslənən o küçük... Başa düşdüm ki, İftixarı heç vaxt bağışlamayacam... İndi ona nifrət edirəm...

Gözəl bir melodiya ifa olunurdu. Abbas Şeyxzadə ayağa durub ehmalca Nailənin qolundan tutdu:

- Gəl rəqs edək.

Nailə ürəksiz durdu. Rəqs etdilər. Müdiri onu azacıq özünə sıxıb qulağına pıçıldadı:

- Sən mənim qadın idealımsan...

Nailəni daha bərk özünə sıxdı. Nailə azacıq dartınıb dedi:

- Həyatımda yalnız pis adamlarla rastlaşmışam. Təkcə siz mənə yardımçı olmusuz. Sizə ən yaxın adamım kimi, bir ata kimi ömrüm boyu borcluyam.

Abbas Şeyxzadə rəqsi yarımçıq kəsdi. Uşaq kimi burnunu sallayıb yerinə keçdi.

Nailə də əyləşdi.

Başqaları hələ rəqs edirdilər.

Mayın 1-ni xatırladı. “Xəzər-Tan”da İlqarla bir-birilərinə sarmaşıb “bəsdir” deyincəyə qədər oynamışdılar. Hətta musiqinin qurtarmağından belə xəbərləri olmamışdı.

Abbas Şeyxzadə bir qədəh buzlu viski içdi. Yenə Nailəni rəqsə dəvət etdi. Nailə Allaha yalvarırdı ki, oyun havaları çalınsın, lirik parça ifa olunmasın. Di gəl ki, musiqiçilər dalbadal lirik parçalar ifa edirdilər... Əlacı nə idi, rəqs etməli idi.

Azacıq keçmiş Abbas Şeyxzadə yenə onu özünə sıxıb ağzını qulağına tutdu:

- Qışda, yadındadır, on dörd gün işə gəlmədin? Guya, xəstələnmişdin. Səidədən öyrəndim ki, düz demirsən, palton yoxdur deyə işə gəlmirsən. Sənin ad gününə əntiqə qreçeski şuba hədiyyə etmək istəyirəm.

Nailənin gözləri böyüdü:

- Ad günümün hədiyyəsini verdiniz də.

- Nə olsun? O başqa, bu başqa. Hər günün öz hökmü var. Gələn şənbə gedərik almağa...

Nailəni daha bərk özünə sıxdı:

- Sən mənim qadın idealımsan. Heç nə, heç nə məni sənin qədər düşündürmür. Ev, ailə... Hamısı bir heçdir mənim üçün...

Nailənin gözünün qabağına xəz palto geyinib camaata yanıqlıq verməyi gəldi. Gah modellər kimi əlini belinə qoyub gülümsəyir, gah da yerində dövrə vururdu...

Qəfildən Abbas Şeyxzadə Nailənin dodağından öpməyə başladı. Nailə dartınıb onun ağuşundan çıxdı. Gedib

əyləşdilər. Bir müddət heç biri dinib-danışmadı. Müdiri peysərinə-cən qızarmışdı. Nailə isə nə edəcəyini bilmirdi. Görəsən, vanna otağına qaçıb üz-gözünü, əsas da dodaqlarını yusaydı, pis çıxmazdı ki?

Haçandan-haçana pərtliyi aradan götürmək üçün Abbas Şeyxzadə dedi:

- Səidə sənə salam göndərir.

Nailə dilucu: - Çox sağ olsun, - söylədi.

- Bəlkə, dondurma gətirsinlər?

Nailə etinasızlıqla çiyinlərini çəkdi.

Abbas Şeyxzadə dondurma və kofe sifariş verdi. Ofisiant dediklərini gətirən kimi kofeni şəkərsiz-filansız içməyə başladı. Öz-özünə danışırmış kimi dedi:

- Sabahkı günə hazırlaşırlar.

Nailə söhbətin nədən getdiyini başa düşmədi:

- Kim?

- Səidəgil.

Ani olaraq Nailənin etinasızlığı yox oldu, söhbətin mövzusu onu maraqlandırmışdı.

- Sabah nə olasıdır ki?

- Sabah Səidəyə elçi gələcək.

Nailə lap maraqlandı:

- Elçi gələcək? Nə əcəb, mənim heç xəbərim yoxdur? Heç Şölə də heç nə deməyib... Uy da... Mənim adımdan Səidəni təbrik edin... Oğlan kimlərdəndir? Qohumdur?

- Yox. Atası köhnə tanışımdır. Mamed müəllim, universitetdə dərs deyir.

Nailə tutuldu:

- Mamed müəllim? Bəs oğlanın adı nədir?

- İlqar.

Elə bil, Nailənin içində nəsə qırıldı. Dik atıldı.

- Nə dediniz? Adı nədir oğlanın?

- Dedim ki, İlqar.

Nailə başını tutub zaldan qaçdı. Abbas Şeyxzadə nə baş verdiyni anlamadan onun dalınca düşdü:

- Nailə, bir dayan. Sənə nə oldu axı?

□□□

...Evə necə gəldi, bilmədi. Üzüqoylu özünü çarpayıya yıxdı. Anası, bacısı və qardaşı narahat-narahat başının üstündə durmuşdular. Ancaq heç cür onu ovuda bilmirdilər...

Yəni, doğrudanmı, tanış olduqları ilk gündən bəri ölüm qədər qorxduğu ayrılıq əvvəl-axır onu tapdı? Bəs o görüşlər, bəs o şirin sözlər, o ilahi pıçıltılar? Hardan gəldi axı bu əli qılınclı düşmən? Hardan gəldi? Yox, İlqardan olsa, o, heç vaxt Səidəni almaz. Səidə hara, İlqar hara? Onu məcbur edirlər. O da iradəsiz, aciz və qorxağın biri kimi hər şeylə razılaşır...

Nailə hönkürürdü. Səsə bir-iki qonşu da gəlmişdi. Nailənin anası qonşulara baş verənlər haqda heç bir məlumat verə bilmirdi.

Deməli, hər şey yalan imiş... “Səndən ayrı yaşaya bilmərəm”, “Sənsiz ölərəm”, “Sən mənim canımsan”... Hamısı yalan imiş. İnsan axı öz canından nə cür ayrılar?

Ətrafdakıları sanki heç görmürdü. Uşaqlardan hansısa onun maqnitofonunu açıq qoymuşdu. Bu üzücü mahnılar onu daha da üzürdü. Bəlkə, zəng etsin, İlqara layiq olduğu ən pis sözləri söyləsin? Telefonun dəstəyini götürüb nömrəni yığdı. Ancaq İlqarın səsini eşidəndə qəzəb qarışıq qəhər onu boğdu, bir söz deyə bilmədi. Sezen Aksu, bəlkə də, gözləri yaşlı oxuyurdu:

Geri dön, geri dön.

Ne olur, geri dön.

Uzadıb tutub elini bir gün...

Utanıb deyemem, ne olur, geri dön...

Mahnının sədaları altında Nailə ən xırda epizoduna kimi ilk görüşlərini - İlqarın üç ay kölgə kimi izlədikdən sonra axırda onun ürəyini ələ ala bildiyi o görüşü xatırladı. Xatirənin acısı-şirini olmurmuş. Xatirənin yaxını, uzağı olurmuş.

Haçandan haçana hönkürə-hönkürə dedi:

- İlqar, axı niyə, niyə sən belə etdin?... Niyə belə etdin?

□□□

Biz səninlə bir sevginin

Gizlənqaç oyununa başladıq.

Mən səni, sən də məni tapmalıydıq,

Gec açdıq gözümüzü,

Deyəmmədik sözümüzü.

Məni də, səni də özgəsi tapdı.

T.Həmid

# 13-cü HİSSƏ

# Milyon ədəd qızılgül

Bax indi, 2005-ci ilin sentyabrında ölkənin ictimai-siyasi həyatı olduqca qaynardır. Ay yarımdan sonra Milli Məclisə seçkilər olacaq. Namizədlər seçkiqabağı təbliğat kampaniyasına başlayıblar. Plakat yapışdıran kim, görüş keçirən kim, seçicilərinə ayın-oyun paylayan kim... Hətta palazçırpan çubuq, aftafa-ləyən, soğan paylayan da var. Redaksiyanın qapısını az qala yağır ediblər bəzi namizədlər. Ancaq əksəriyyəti olduqca məşhur olan bu namizədlərin gəlişi redaksiyada çox adi qarşılanır... Yalnız bir adamı hamımız səbirsizliklə gözləyirik. Şölə xanımı. Bizim redaksiyada seçki müdhiş bir sevgi əhvalatının kölgəsində qalıb. Kabinetimə divar boyu stullar düzülüb. İndi hamılıqla Şölə xanımı dinləyirik. Vaxt məhdud olduğuna görə əməkdaşların sual verməsi isə qadağan olunub.

- Bəs Ə. ilə R. necə tanış olublar? Bunu axı danışmadınız. Yoxsa bunu da sonraya saxlayırsınız?

Şölə xanım bu gün bir qədər sıxılırdı. Otaqdakı izdiham onu azacıq da olsa, narahat edirdi. Lakin hiss olunurdu ki, diqqət mərkəzində olmağı xoşlayır. Mənim sualıma düşünmədən cavab verdi:

> - Necə tanış olacaqdılar ki? İlqar ilk dəfə Nailəni idman zalında görmüşdü. Nailə karate seksiyasına gedirdi, İlqar sam-bo. Ağzı sulana-sulana qıza baxmışdı. Onun belə hayıl-mayıl olmağı Nailənin diqqətini dərhal cəlb etmişdi. Həmin gün mənə danışdı ki, zalda bir oğlanın məni görcək ağzı sulandı. Onu da dedi ki, ancaq əntiqə oğlandır. Hündür, sarışın. Lap modellərə oxşayır. İlqar hər dəfə gəlib qızların məşqinə baxır, gözləri ilə Nailəni yeyirdi. İlk dəfə Nailəyə yaxınlaşanda Nailə ona: “Mənim

nişanlım var" - söyləmişdi. O vaxt Famil ciddi məqsədlə Nailəylə yaxınlıq edirdi. Ancaq İlqar qızdan əl çəkmədi, getdi-gəldi. Dalınca düşdü, zəng etdi, lap bezdirdi qızı. Həm də İlqar yaxşı sevgi əhvalatları bilirdi. Bunları ardıcıl Nailəyə danışırdı. Beləcə qızın saqqızını oğurladı.

Şölə xanım artıq Ə. ilə R.-i əsərin qəhrəmanlarının adları ilə çağırırdı.

Mənə R.-in sevgi əhvalatları danışması inandırıcı görünmədi:

- Məncə, o İlqar əhli-kef mama uşağıdır. Belələri valehedici danışıqla qızları ovlaya bilməzlər axı. Ən yaxşı halda, biədəb lətifələr söyləyərlər.

Mən də Şölə xanım kimi qəhrəmanları əsərdəki adlarla adlandırmağa başladım.

- Yox, elə deməyin. Həmin əhvalatları Nailə mənə danışardı. Onlar elə təsirli idilər ki. Biri yazıçı Anarın "Mən, sən, o və telefon" hekayəsi idi. İlqar həmin hekayəni Nailəyə əzbər danışmışdı. Yaxşı hafizəsi var idi onun. Biri də gürcü rəssamı olub, Niko Pirosmani. Onun əhvalatı idi.

Anarın hekayəsini hamımız oxumuşduq. Qaldı ki, Niko Pirosmaninin əhvalatına... Xahiş etdim, Şölə xanım əhvalatı bizə danışdı...

"Niko və anası kasıb bir daxmada yaşayırlarmış. Hər səhər Niko fırça, boya və kətan götürüb təbiətin qoynuna gedər, gözəl rəsmlər çəkərmiş. Onun getdiyi cığır knyazın evinin yanından keçərmiş. Knyazın ay parçası kimi bir qızı varmış. Eyvandakı qızılgüllərə qulluq edərmiş. Hər səhər onların baxışları toqquşardı. Aralarında dilsiz-ağızsız məhəbbət yaranmışdı... Bir gün Nikonun qoca anası şikayətləndi:

- Ay oğul, ürəyimə damıb ki, ölümüm yaxınlaşır. Bir halal südəmmiş al, toyunuzda iştirak edim, sonra rahatca köç edə bilərəm...

Niko bunu gözləyirmiş kimi anasına ürəyini açdı:

- Ana, gözaltım var. Günü bu gün elçiliyə gedə bilərsən.

Anası sevindi. Ancaq qızın kim olduğunu biləndə gözlərinə kədər qondu.

- Oğul, nə danışırsan. Knyaz biz kasıblara qız verməz.

Bununla belə, Niko anasını dilə tutdu ki, gedib knyazgi-lin qapısındakı elçi daşının üstündə otursun. Qadın çar-na-çar getdi. Knyazın qulluqçuları cındırından cin hürkən qarını elçi daşının üstündə görəndə onun səhvə yol verdiyini zənn etdilər. Dedilər ki, sədəqə diləmək daşı bu deyil, sağdakıdır. Qarısa daşı düz seçdiyini, knyazın qızını oğlu Niko üçün istədiyini bildirdi. Bu xəbər knyaza çatanda, o, bərk əsəbiləşdi. Qadını ölüncə döyməyi əmr etdi. Döyülən qarı üç gündən sonra canını tapşırdı. Hadisədən bərk sarsılan Niko bir müddət evdən çıxmadı. Knyaz qızı onun yolunu gözləyə-gözləyə qaldı, bənizi saraldı, xəstə düşdü. Bir müddət də keçdi, Niko evini, bütün əşyalarını, çəkdiyi rəsmləri satıb puluna düz bir milyon ədəd qızılgül aldı. Gecə ikən barını aşıb həmin qızılgülləri knyazın həyətinə, knyaz qızının eyvanının qarşısına düzdü. Knyaz qızı tezdən eyvana çıxanda gözlərinə inanmadı. Bütün həyət qızılgülə bürünmüşdü.

Niko isə o gündən qeyb oldu. Öldüsü-qaldısı bilinmədi”.

Doğrudan da, əhvalat hamımızı təsirləndirmişdi. Bir müddət otağa sükut çökdü. Sükutu mən pozdum:

- Alla Puqaçovanın “Milyon alıx roz” (“Milyon qızılgül”) mahnısı bu əhvalata həsr olunub, eləmi?

Şölə xanım başını tərpətdi.

Saatın əqrəbləri sürətlə hərəkətdə idi. Şölə xanımı tələsdirdim ki, qəhrəmanlarımızın əhvalatının davamını danışsın.

# 14-cü HİSSƏ

# Nişana hazırlıq

Yeddi qat göylərdə bir ulduz tutdum, Ürəyimi laylalarla uyutdum. Nə çətin sevdaymış bu çılğın rüzgar? Suçluyam... Mən səni səndə unutdum.

X.Sönməz

İlqargilin mənzili neçə gün idi ki, qonaq-qaralı idi. Zarafat deyildi, nəsillərinin ağsaqqalı hesab olunan Mamed müəllimin yeganə oğlu İlqar üçün nişan aparmağa hazırlaşırdılar...

İlqarın qohum sarıdan bəxti gətirmişdi: əmiləri, bibiləri, xalaları, dayıları, onların da oğul-uşaqları bəsdir deyincəyə qədər idi.

Özünün dostları da çox idi. Azər, Asif, Ürfan. Hətta Rusiyada bizneslə məşğul olan uşaqlıq dostu Fuad da qonaqların içində idi.

Bu neçə gündə mətbəxdəki qaz plitəsinin dörd gözü bişir-düşürə, iri çaydanları qaynatmağa bəs etmədiyindən, qapıbir qonşunun qaz plitəsi də istismar edilirdi. Yeyirdilər, içirdilər, deyirdilər, gülürdülər. Şənbə günü keçirilən “elçigetmə” mərasiminin kaseti isə videomaqnitofondan düşmürdü. Həmin mərasimin az qala hər bir epizodunu hamı əzbər bilirdi: Mamed müəllim, qardaşı Əkbər və universitetdəki müəllim yoldaşı Əlikram qapını döyürlər, qapı açılarkən sıxıla-sıxıla içəri keçirlər. Abbas Şeyxzadə onları çilçırağı bərq vuran nəhəng zalda qarşılayır. Bir çay süfrəsi açılıb ki, gəl görəsən. Növbənöv pirojna, ən müxtəlif xarici şokoladlar, püstə, badam, qoz-fındıq, kokos, kivi, qreypfrut...

Mamed müəllim süfrə arxasında siyasətdən, Qarabağ müharibəsindən, atəşkəsdən danışır, sonra zarafata keçir:

- Abbas müəllim, gərək, o vaxt məni də öz yolunla aparaydın, kommersant edəydin. Müəllim baba olaraq qaldıq, indi get-gedə biz də sıxıntı görməyə başlayırıq.

Abbas Şeyxzadə məmnunluqla deyir:

- Ay ağsaqqal professor. Ay saysız kəşflər, ixtiralar müəllifi. Sənin aylıq qazancın mənim katibəminkindən azdır...

(Hər dəfə bu yerdə "mənim katibəm" sözünü eşitcək İlqarın ürəyinə sanki bıçaq soxurdular.)

Nəhayət, Mamed müəllim mətləbə keçməyə cəhd edir:

- Abbas müəllim, bilirsiniz, qız yükü, duz yükü. Bilirsiniz, bir qız bir oğlanındır. Bilirsiniz, bizim evdə bir gəlin, sizin evdə bir bəy yetişir...

Kişi həyacanından çaşır...

...Baxanların hamısı kasetin bu yerində qəhqəhə çəkib gülür və Mamed müəllimə sataşmağa başlayırdı:

- Deyəsən, Abbas Şeyxzadənin zəhmi ağsaqqalımızı basıb...

- Mamed müəllim indidən təşəbbüsü onlara verib...

- Bəy Səidə gəlin İlqarın başında turp əkəcək...

İlqar adi zarafatdan əməlli-başlı təhqirə kimi gedib çıxan bu şit söhbətlərdən elə bezmişdi ki... Evdən çıxmağına da imkan vermirdilər. "Əsərin qəhrəmanı", gərək, göz önündə olaydı...

Əlacı ona qalırdı ki, eyvana çıxıb siqaret çəkməklə onu sıxan bu mühitdən uzaqlaşsın...

Nailənin iniltili gecə zəngindən sonra o, heç cür özünə gələ bilmirdi. Nailəyə qədər çox qızla əlaqəsi olmuşdu. Ancaq Nailə ömrünə girdikdən sonra qız-qadın dünyası ilə bütün əlaqələri üzülmüşdü. Nailə onun üçün hər şey idi. Özü də fərqinə varmadan get-gedə bu qız üçün dəli-divanəyə dönmüş, onu az qala ilahiləşdirmiş, ona səcdə etmişdi...

Və indi bu vaxt kəsiyində hər şeyi götür-qoy edərək görürdü ki, Nailəni unuda bilməyəcək... Səidə ilə qurduğu ailə onu təmin etməyəcək. Valideynləri şan-şöhrət, özlərinə arxa, maddi təminat qazanacaq. Vəssalam. Ürəyi isə dərddən partlamaq həddinə çatacaq...

Eyvan pəncərəsindən içəri boylandı... Hərə öz kefində idi. Əkbər əmisi tost deyir, qucaqlayıb Fuadı öpürdü. Azərgil əl çalırdılar...

Abbas Şeyxzadənin ona məhz bu gün: “Qoy adaxlıların bir-biri ilə daim əlaqəsi olsun”, - deyəndən sonra bağışladığı “Motorola” markalı əl telefonu ilə eyvandaca Nailənin nömrəsini yığdı. Nailə telefona gəlmirdi, yenə gəlmədi.

Nailə ilə son dəfə görüşmək, onun bədənindən son dəfə ləzzət almaqdan məhrum olmaq İlqara xüsusən ağır idi. Düşünürdü ki, ömrünün ən xoşbəxt günü olardı həmin görüş günü. Ancaq kimsə Nailəyə hər şeyi xəbər vermiş, İlqarın arzularını gözündə qoymuşdu.

Yenə yaxşı ki, Şölə var idi. Zəng edir, hər şeyi onunla bölüşürdü. Səidə ilə nişanlanacağının bədbəxtçiliyini, Nailəni dəli kimi sevdiyini Şöləyə bildirirdi... Deyirdi ki, Nailəyə de ki, ürəyim onunladır. Bir də de ki, gec-tez mütləq ona qayıdacam. Mütləq o, mənim evimin qadını olacaq...

# 15-ci HİSSƏ

# Ruqiyyə ilə tanışlıq

Gülüm, heyif sənə, yazıqlar mənə, Qoruya bilmədim məhəbbətimi. Özüm bilə-bilə verirəm yenə, Başqa birisinə səadətimi.

B.Vahabzadə

Bu günləri Nailə necə yaşamışdısa, bir Allah bilir. İlqarın belə dönük çıxacağına inanmaq istəmir, Abbas Şeyxzadənin hədiyyələrinə uyduğu üçün Tanrı tərəfindən cəzalandığını hiss edirdi...

Düşünürdü ki, İlqar təcrübəsizdir, ev uşağıdır. Onu aldadırlar, yoldan çıxarırlar. Axı 24 yaş kişi üçün nə yaşdır? Onun Səidəyə doğru yolunu kəsmək, hər şeyə tüpürüb ona qoşulub qaçmaq lazımdır. Sadəcə, onu uşaq kimi qarşısına qoyub danlasa, İlqar hər şeyi başa düşər, bu yoldan çəkinər. Ancaq qüruru yol vermirdi ki, İlqarla kəlmə kəssin. Deyəcəyi sözləri Şöləyə çatdırmışdı, demişdi ki, onun başına ağıl qoy. Şölə də əlindən gələni əsirgəmirdi. Bununla belə, qatarın artıq tərpəndiyini görürdü Şölə. Nailəyə kədərlə bildirmişdi ki, daha gecdir...

Nailə bu gün daha bir vasitədən istifadə etmişdi. Abbas Şeyxzadəyə çay verərkən söyləmişdi:

> - Səidəyə yazığım gəlir. İlqar gəzəyən oğlandır. İndi bir sevgilisi də var. Bir-birilərindən ötrü dəli-divanədirlər. Bütün Bakı onların sevgisindən xəbərdardır. Hətta qol-boyun olub küçədə də gəzirlər. İlqar Səidəni sizin pulunuza görə alır. Ürəyi o qızladır. Axı ürəyə zor etmək olmaz. Qızınıza yazığınız gəlsin, bədbəxt etməyin onu.

Ancaq gözlədiyinin əksinə olaraq, müdiri Nailənin dediklərinə etinasız yanaşmışdı:

- Kişi evlənənə kimi nə qədər çox təcrübə toplasa, bir o qədər yaxşıdır. Evlənəndən sonra daha gözü ətrafa baxmaz.

Nailənin halına yanan ofisin operatoru Zema isə ona məsləhət görmüşdü ki, Cıdırın yanındakı beşmərtəbələrin birində yaşayan Nazilə xanımgilə getsin.

- Nazilə xanım o İlqar dediyinə bir cadu eləyər ki, ölsə də, aldığı qıza yaxın durmaz, sənə qayıdar.

...Nazilə xanımın qəbulunda xeyli adam var idi. Nailə bir küncə sıxılıb içini gəmirə-gəmirə ona əzab verən bu dərddən yaxa qurtaracağına özünü inandırır, içəri keçəcəyi anı səbirsizliklə gözləyirdi.

- Qızım, sənin problemin nədir?

Nailə qarşısında kök, saçı sapsarı boyanmış bir qadın gördü.

- Heç - deyib başını aşağı saldı.

Qadın mehribanlıq göstərib onun çiyinlərindən ehmalca tutdu:

- Qızım, nəyin var, mənimlə bölüş. Məni Bakıda hamı yaxşı tanıyır, adım Ruqiyyə xanımdır. Xeyriyyəçiyəm, o qədər qıza, gəlinə əl tutmuşam ki.

Nailə özü də bilmədi necə oldu, hər şeyi yerli-yataqlı Ruqiyyə xanıma danışdı.

O danışdıqca həmsöhbətinin gözlərinə bir parıltı gəlirdi.

- Qızım, sən dünyalar gözəlisən. Deyim ki, Bakıda sən gözəllikdə, sənin boy-buxununda beş-altı qız ola, ya olmaya. Allaha rəvadırmı ki, sən sıxıntı çəkəsən? Qadam o İlqarın ürəyinə. Gəl mənim ofisimə, mənimlə işlə.

Nailə üzrxahlıq etdi:

- Mənim öz işim var, işimdən narazılığım yoxdur.

Ruqiyyə xanım ona kartını verdi və növbəsi çatdığı üçün içəri keçdi. Nailə karta baxıb yalnız indi həmsöhbətinin nə işin sahibi olduğunu başa düşdü. Kartda yazılmışdı: ""Qalaktikos" sağlamlıq mərkəzi. Gənc qızlar tərəfindən erotik masaj növləri"... Bunun nə demək olduğunu Nailə yaxşı bilirdi. Deməli, Ruqiyyə xanım, el təbiri ilə desək, "Mama Roza" idi. Qızları kişilərlə görüşdürüb pul qazanırdı...

Nailə qulaqlarını çəkdi, kartı cırıq-cırıq edib küncə tulladı. Ancaq Ruqiyyə xanımın 2 və 5 rəqəmlərinin sıralanma-sına görə dərhal yadda qalan telefon nömrəsi beyninə həkk olundu. Nə illah elədisə, bu nömrəni beynindən çıxara bilmədi. Yeganə təsəllisi o oldu ki, bir-iki günə, yəqin ki, yaddaşından pozular bu nömrə...

...Ruqiyyə xanım otaqdan çıxanda Nailə ilə sağollaşdı, köhnə tanışı kimi onu öpüb çıxıb getdi. Gedərkən: - Arabir mənə zəng et. Maddi, mənəvi, istənilən dəstəyi sənə etməyə hazıram, - söylədi.

... Nəhayət, Nailənin də növbəsi gəlib çatdı. Dolu əndamına geydiyi qara kimano paltardan ətli qolları və boynu pırtlayıb çıxan Nazilə xanım tövşüyə-tövşüyə dedi:

- Qız, səni dərdli görürəm. Xəstəlik, qəza görünür sənə. Yazıqsan, cavan canına qıyma. Nədir belə səni üzən?

Nailə hər şeyi olduğu kimi Nazilə xanıma danışdı.

- Hanı şəkil?

Zemanın tapşırığı ilə Nailə İlqarın fotosunu özü ilə gətirmişdi. Onu Nazilə xanıma uzatdı.

Nazilə xanım fotonu qarşısına qoyub dedi:

- Adı nədir bunun?

- İlqar.

- Anasının adı nədir?

- Zümrüd.

Nazilə dodaqaltı nəsə danışdı, fotonun üstünə üfürdü. İçində rəngli şəkillər olan ərəb əlifbası ilə yazılmış kitabı iki dəfə açıb bağladı. Üçüncüdə açıq saxladı. Fotonu həmin səhifəyə qoyub dedi:

- İlqar Zümrüd oğlunun bütün qəlbini və ruhunu Nailə Arzu qızının əsarətinə salıram...

Sonra sağdan sola əcaib xətlə nəsə yazıb kağızı Nailəyə uzatdı:

- Bunu suya salıb, suyunu özün də içərsən, o oğlana da içirərsən. ..

Nailə kağızı əl çantasına qoyub oradan çıxdı. Evə getmək istəmirdi. Bu son günlər ev onu sıxırdı. Fikrini dağıtmaq üçün bulvara gəldi. Bir az gəzmişdi ki, avtomat telefon gördü. Qeyri-ixtiyari İlqargilin nömrəsini yığdı. Qadın səsi eşidib dəstəyi asdı.

Ətrafda deyib-gülən, şənlənən yeniyetmələri, qol-boyun olan sevgililəri görcək hönkürüb ağlamaq istəyirdi...

Yenə avtomat telefonun yanına qayıtdı, İlqarın nömrəsini yığdı. Bu dəfə də qadın səsi eşidib dəstəyi çırpdı. Sonra nəsə fikirləşib Səidənin nömrəsini yığdı.

- Səidə sənsən?

- Hə. Kimdir ki? Nailədir?

- Hə, mənəm.

Uzun müddət hər ikisi susdular.

- Sən düz hərəkət eləmədin, Səidə.

- Bura bax, Nailə. İlqar özü belə qərar verib. Mənim hərəkətlərimin düz olub-olmadığının isə sənə heç bir dəxli yoxdur...

- Səidə, necə yəni, dəxli yoxdur? Sən indi elə bir səhv addım atırsan ki, sonradan bütün həyatın boyu onun ziyanını çəkəcəksən. Sən mənim dünyada ən qiymətli bir adamımı əlimdən alırsan. Başa düşürsən?

- Mən yenə deyirəm, o adam özü məni seçib.

- Qulağını aç, yaxşı-yaxşı eşit, mən bunu sənə heç vaxt bağışlamayacam. Səndən amansız qisas alacam.

- Bura bax, mənə hədə-qorxu gəlmə. Sənə elədiyim yaxşılıqları nə tez yerə vurursan? Unutma ki, yediyin bizim çörəyimizdir. O ki qaldı İlqarla mənə, biri gün bizim nişanımızdır.

Xəttin o biri başından kəsik zummer gəldi...

Nailə dodaqlarını dişlədi ki, marıtlayıb baxan oğlanların qarşısında ağlamasın. Sanki ayaqları birdən-birə taqətdən düşmüşdü. Özünü birtəhər skamyaya çatdırdı...

# 16-cı HİSSƏ

# Yay barında

Mən bilirdim, bu axşam gələcək belə. Bu dağlar həyan ola, qəmi ovudam. Bu dağlar layla çala qəmə mənimlə, Bircə, bircə anlığa səni unudam...

Rasət

İlqar ömründə heç vaxt şəhərin içində “06”-nı bu sürətlə sürməmişdi. Spidometrin əqrəbi 120-130-u göstərirdi. Döngələrdə, işıqfor qarşısında təkərlərin cüyültüsü əyləcin vahiməli səsinə qarışmışdı...

Bir neçə dəqiqə bundan əvvəl imkan tapıb fasiləsiz telefon zənglərindən birinə özü cavab vermişdi. Və təəccübündən donub qalmışdı. Nailə idi zəng edən. Onu bulvara, “Coca-Cola”-nın yay barına çağırırdı...

İlqar Nailə ilə söhbətin necə olacağını qabaqcadan təxmin edirdi. Nə olsun ki, ailə qurur? Münasibətləri, sevgiləri ki, qalacaqdı? Həmişə açıq-aşkar görüşürdülər, indisə gizlicə görüşərlər. Əsas odur, bir-birilərini istəyirlər. İstək varsa, bu istəyi reallaşdırmaq yollarının heç bir fərqi yoxdur. Fərqi yoxdur ki, ailə qururlar, yoxsa gizlincə görüşürlər...

İlqarı indi yalnız bir şey maraqlandırırdı: Nailəni görüş yerlərindən birinə aparıb bu bir neçə günün həsrətini canından çıxartmaq... Bu həsrətli, bu ayrılıq dolu günlərdə ondan ötrü o qədər darıxmışdı ki...

... Ancaq Nailə onu çox quru qarşıladı. Barmen oğlanın gətirdiyi “Cola”-nı stəkana atdığı kağızın üstünə süzdü. Bu görüşü Nailə məhz bunun üçün təşkil etmişdi: Nazilə xanımın cadularının suyunu İlqara içirtməklə o, arzusuna

yetişəcəyinə inanırdı. Hər halda, özünü inandırmağa çalışırdı. Çünki bir başqa tutalqası yox idi onun.

İlqar o qədər həyəcanlı idi ki, Nailənin nə etdiyinin mahiyyətinə varmadı.

- Nailə... Neçə gün idi ki, sənsiz dəli olmuşdum...

İlqar şampan sifariş verdi. Siqaret yandırıb səbirsizliklə şampanın gəlməsini gözlədi. Barmen şampanı açarkən sual verdi:

- Partladım, yoxsa yox?

İlqar cəld dedi:

- Neynirsən elə. Bircə tez elə.

Sonra cəld şampan dolu fujeri başına çəkdi.

- Nailə, bəlkə, gözdən uzaq bir yerə gedək? Ogünkü bağ evi necədir? O görüşümüz, sənin saçlarının ətri, bədəninin qoxusu, sənin...

Nailə axır ki, dilləndi:

- Hər şeyi bilirəm. Bilirəm ki, səni Səidəyə nişanlayırlar. Bəs vicdanın necə yol verdi buna?

İlqar şampan şüşəsini boşaldıb uzun-uzadı Nailəyə sevgidən, vəfadan danışdı. Bildirdi ki, onu ev, ailə maraqlandırmır. Səidəni valideynlərinin təhriki ilə alır: qoy ata-anasına gəlinlik etsin. İlqarı onunla heç nə bağlamır. Yenə də Nailəylə görüşərlər...

Bu təklif ox kimi Nailənin ürəyinə sancıldı:

- Deməli, bütün bu müddətdə sən mənə bu gözlə baxmısan? Deməli, mən sənə ancaq kef çəkmək üçün lazımam? Deməli, kimisi sənin qadının olacaq, sənin üçün övladlar dünyaya gətirəcək, qabağına çay-çörək qoyacaq... Mənsə soyunub sənin vəhşi ehtirasını söndürəcəyəm? Sənə nifrət edirəm...

İlqar özünü itirdi:

- Nailə, həyatım mənim. Dur gedək. Səndən ötrü ölürəm. Dur gedək. Mən səni heç vaxt aldatmayacam. Başqa planlarım var. Gedək, sənə hər şeyi başa salım...

Nailə hıçqıra-hıçqıra danışırdı:

- Get. Sənə milyoner qızı alırlar. Mənsə kasıbam. Albatros hara, qağayı hara. Get. Qaç albatrosların yanına. Sənə nifrət edirəm!!!

Onun gözlərindən yaş sel kimi axırdı. Heç nə görmürdü: nə təəccüblə onlara baxan bardakı adamları, nə ikinci şampan şüşəsi əlində donub qalan barmeni, nə də dalınca düşüb yalvaran İlqarı...

... Həyat o qədər amansız idi ki... Faciələr dalbadal gəlmişdi ömrünə: Əhmədlidəki mənzillərindən dənizə boylanıb, ağ gəmidə gəlməli olan atalarını gözlədikləri bir vaxtda o mənzildən məhrum olmaları... Sonra məktəbdə oxuyarkən atasının təzə qızı və sığallı küçüyü ilə onu görməyə gəlməsi və acı bir həqiqəti: atasını əbədi itirməsini başa düşməsi... Sonra ehtiyacın əlində qılınc bunların başının üstünü alması, yaşadığı mənzildən, geyindiyi əyin-başdan utanıb yerə girməsi... Sonra atası yaşda olan Abbas Şeyxzadənin hədiyyə və öpüşlərini qəbul etmək məcburiyyəti... Və indi, bu isti avqust günündə dünyada ən əziz bir adamını - həyatının mənası hesab etdiyi İlqarını itirməsi...

... Bir azdan sərxoş İlqar şəhərin küçələri ilə “06”-sını dəli kimi şütüdürdü. Nailə isə yataqxana otağında tərəddüdlər içində azmışdı. Bəlkə, Nazilə xanımın caduları öz işini görəcək və o, sabahkı nişanın baş tutmamasına nail olacaq?... Bəlkə də, caduya inanması yersizdir, gülünc bir şeydir. Balaca bir kağız parçası ilə qara kimonolu Nazilə xanım bu boyda həngamənin qarşısını axı necə ala bilər ki?

Həyatla vidalaşmaq üçün içəcəyi iyirmi ədəd “Analgin” həblərini, bir stəkan suyu qarşısına qoymuş, ağ vərəqə: “Mənim ölümümdə Zülfüqarov İlqarı günahkar bilin” - yazmışdı. Cəmi bircə an keçəcək və o, əbədiyyətə qovuşacaq. Anası, bacı-qardaşı üstündə ağı deyəcək...

Ancaq yox... yox... Mütləq səhəri gözləməlidir. Bəlkə, hər halda möcüzə baş verdi?

□□□

... Ertəsi gün nişan mərasiminin təyin olunduğu müddətə qədər - axşam saat 6-ya qədər otağından çölə çıxmadı. Şölədən xahiş etmişdi ki, nişanın baş tutub-tutmayacağı barədə ona dürüst məlumat versin. Ümidli idi. Həyatda o qədər möcüzə olur ki. Bircə bu möcüzə də baş tutaydı... Dizin-dizin Xıdırzində pirinə gedərdi, yetim-yesiri sevindirərdi, ona köməklik etmiş Nazilə xanımı dünya malına qərq edərdi...

Nə yazıq ki, Şölə nişanın baş tutduğunu söylədi. Dedi İlqarla Səidə, bax, bu dəqiqə “İnturist”ə daxil olurlar. İlqar ağ nazik zolaqlı qara kostyum, Səidəsə çəhrayı rəngli gəlinlik paltarı geyinib...

Şölə danışırdı... Nailə isə daha heç nəyi eşitmirdi. Dəstəyi əlindən buraxmışdı. Dəstək havada yellənirdi...

“Analgin” həblərini ovcuna yığmışdı. O biri əli ilə ağ vərəqi tumarlayırdı: “Mənim ölümümdə Zülfüqarov İlqarı günahkar bilin”.

... Anası, bacı-qardaşı, bir də Şölə üstündə ağı deyəcəklər. Başdaşında yazılacaq: “Nailə İftixar qızı Məmmədova. 1975-1995”. Təkcə bu başdaşı yadigar qalacaq ondan. Görəsən, anası başdaşını qara mərmərdən götürdə bilərmi? Qara mərmərdə şəkil yaxşı düşür axı. Novruzda bulvarda İlqarla çəkdirdiyi şəklini baş daşına həkk etsinlər. Orada o, o qədər xoşbəxt görünür ki. Gözlərində həmişə müşayiətçisi olan kədər də xeyli azdır. Başdaşına, hətta belə bir yazı da yazdıra bilərlər: “Ən böyük arzusu xoşbəxt ailə qurmaq və seçilən bir “Modalar evi” yaratmaq idi”...

Gözlərində yaş damcıları donmuşdu...

... Görəsən, İlqar bunun ölüm xəbərini eşitcək nə edəcək? Üz-gözünü cırıb özünü yerə çırpacaqmı? Yoxsa kişi olduğu üçün göz yaşlarını içinə axıdacaq?

Səidə vicdan əzabı çəkəcəkmi?

Bəs, Abbas müəllim necə? Ona ev tutub sevgilisi kimi saxlamağı, hər bir arzusunu reallaşdırmaq şərti ilə himayədar olmağı təklif etmişdi, indi də hər an cavab gözləyirdi... Görəsən, Abbas müəllim utanmayacaqdı qızı yaşda olan birisinə bu cür təkliflər etdiyindən?

Vaxt keçirdi... Nə qədər vaxt keçdiyini bilmirdi. Otağının qapısını içəridən bağlamışdı. İndi qapını kimlərsə bərk-bərk döyürdülər. Anasının, qardaş-bacısının, Şölənin, hətta komendantın da səsləri gəlirdi...

Azacıq özünə gəldi. Qapının arasından: - Başım ağrıyır, yataqdayam. Mənə heç nə olmayıb, nə olasıdır ki... Bir azdan qapını açaram, - söylədi.

Qapının o üzündəkilər yenə də nəsə danışırdılar. Ancaq bayaqkı təlaşları, qorxuları Nailənin səsini eşitdikdən sonra əriyib getmişdi...

... Ani olaraq Nailənin beyni duruldu, fikri aydınlaşdı. Heç vaxt, heç bir vəchlə bunu etmək olmaz. İntihar - baş verənlərlə barışmaq, zəifliyini boynuna almaqdır. İntihar - həm də ümidlərinin ölümüdür... Axı o gözəldir, yaraşıqlıdır. Axı onun arzuları, ümidləri var.

Gözünün qabağına belə bir mənzərə gəldi: İlqar Səidəylə yataqda kef çəkir. Pulun, var-dövlətin xətrinə İlqar rola girir. Səidəni bunu öpüb-oxşadığı kimi öpüb-oxşayır. Onun qulağına buna dediyi sözləri pıçıldayır:

- Mən sənsiz ölərəm, Səidə...

Bu isə qara torpaqdadır, qurda-quşa yemdir...

... Əsəbi hərəkətlərlə masanın üstündəki dərmanları, suyu və kağız-qələmi kənara itələdi. Stəkan divara dəyib çilikləndi. Dəstəyi götürüb kodla Abbas Şeyxzadənin mobil telefonunun nömrəsini yığdı. Nömrə cavab verməyəndə bir də, bir də yığdı. Çox yəqin ki, çal-çağır səsindən, nişanın səs-küyündən müdiri zəngi eşitmirdi...

Nəhayət, Abbas Şeyxzadənin səsi gəldi:

- Alo, eşidirəm.

- Mənəm, Nailədir.

Təəccüb qarışıq heyrətlə Abbas Şeyxzadə soruşdu:

- Nailə? Xeyir ola? Burada, “İnturist”dəyik. Səidənin nişanında. ..

Nailə cəld cavab verdi:

- Mən sizin təklifinizi qəbul edirəm. Sevgiliniz olmağa razıyam. ..

□□□

O küskün xatirələr, Susacaq, dinməyəcək. Bahar dönəcək yenə, Bu sevgi dönməyəcək. Unudaram hər şeyi, Unudaram mən səni. Ürəyim dözməz ancaq, Özgəylə görsəm səni.

N.Kəsəmənli

# 17-ci HİSSƏ

# «Pullarına, zorlarına arxayındırlar»

- Yəni siz Nailəyə bəraət qazandırırsınız?

Sualımı təkrarladıqda Şölə xanım çiyinlərini çəkdi.

- Nə bilim, vallah. Bu, elə bir məsələdir ki... Nailənin axı başqa yolu qalmamışdı. Sizcə, o, özünü öldürməli idi?

Mən diktofonun içindəki kaseti çıxarıb əməkdaşlardan birinə verdim ki, aparıb kağıza köçürtsün. Sonra Şölə xanımın bayaqkı sualını cavablandırdım:

- Sözünüzdən belə çıxır ki, bütün qızlar ya kiminsə məşuqəsi olmalı, ya da intihar etməlidirlər?

Şölə xanım duruxub qaldı.

- Yox, mən elə demək istəmirdim. Bilirsiz, Nailə... Axı o... Axı Nailə bədbəxtçiliyə layiq deyildi... Həm də o, iradəli idi. Bir az da məkrli, amansız idi. Məğlub olmağı sevmirdi.

Masanın üstündəki məktublar qovluğunu eşələyə-eşələyə dedim:

- Qəribə məntiqiniz var. Qisas mütləq əxlaqsızlıqdan keçməlidir? Məgər Nailə başqa yol seçə bilməzdi? Gözəl ailə qurar, nümunəvi davranışı ilə intellektini birləşdirib cəmiyyətdə öz yerini tapardı.

Şölə xanım ah çəkdi:

- Siz elə danışırsınız, guya, Aydan gəlmisiniz. Taleyin hökmü ilə iyirmi yaşında ailə saxlamağa məhkum olan gözəl-göyçək qıza cəmiyyətin varlı harınları yalnız şikar gözü ilə baxırlarsa, onu zorla uçuruma dartırlarsa, ehtiyac Zülfüqar qılıncı kimi o binəvanın başının üstündən əskik olmursa, yazıq nə etməlidir? Cəmiyyətdə öz yerini necə tapmalıdır?

“Zülfüqar” sözü diqqətimi çəkdi. Onu haradasa lap təzəcə eşitmişdim. Ancaq harada? Hə, xatırladım. İlqarın soyadı idi bu... “Mənim ölümümdə Zülfüqarov İlqarı günahkar bilin...”

Məktublar qovluğunu eşələməkdə idim. Axtardığımı tapanda xeyli sevindim. Redaksiyamıza oxucumuz İradə Hüseynovanın ünvanladığı məktubu əlimə götürüb Şölə xanıma göstərdim.

- Mübahisəmizə uyğun bir oxucu məktubudur. Çox istəyirəm, onu dinləyəsiniz.

Sonra məktubu oxumağa başladım:

“Yaşadığımız bol informasiya dövründə gizli heç nə qalmadığı üçün addımbaşı eybəcərliklərdən, ürəkbulandıran hadisələrdən xəbərdar olursan. Səni iyrəndirən xoşagəlməz hadisələrə biganə qala bilmirsən. Bu haqda çox danışırlar, hamı etiraz səsini qaldırır. Lakin bütün bunlar qarşısı alınmadan öz axarında davam etməkdədir. Yurdumuzun saflığı, isməti baş alıb gedən eybəcərliklər içərisində itir. Bu, böyük fəlakətdir.

Bu gün baş alıb gedən eybəcərliklər içərisində çox geniş yayılanlardan biri özünü şöhrətə qurban verməkdir. Ötəri var-dövlətə aludə olub, ona sahib olmaq üçün bəzi gözəl-göyçək qızlarımız ismətini ayaqlar altına atır, pak adlarına ömürlük damğa vururlar. Ürəkağrıdan faciədir bu. Çünki bu qızlar yurdumuzun ismətli anaları ola bilərdilər.

... Sevil adlı səmimi rəfiqəm var idi bir zamanlar. Çox istəkli idik. O qədər doğmalaşmışdıq ki, elə bilirdik, bizi heç bir qüvvə ayıra bilməz. Lakin görünür, yanılmışıq. Bəzən gözləmədiyin halda elə hadisə baş verir ki, istər-istəməz sənə də təsir edir. Belə bir hadisə bizə də öz təsirini göstərdi və ayırdı bizi.

Bilirsiniz, mühit və şərait insanı toruna salaraq onu uçuruma yuvarlayır. Əlbəttə, yalnız idraksız, iradəsi olmayan adamları yolundan azdırmaq mümkündür. Görünür, rəfiqəm də belələrindən idi ki, özünü bu tordan xilas edə bilmədi.

Sevil çox duyğulu, səmimi qız idi. Qaynar həyat eşqi var idi qəlbində. Böyük arzularla yaşayırdı. Lakin birdən-birə dəyişdi, başqalaşdı. Həyatı, sifəti, baxışı, yerişi bütünlüklə dəyişdi. Bu dəyişkənliyi onun daxili aləminə də böyük təsir etdi.

Hər şey onun düzəldiyi iş yerindən başlandı.

Sevil savadlı qız idi. Sənədlərini üç il dalbadal Xarici Dillər İnstitutuna verdi. İnadlı idi. Oxuyacağına inanırdı. Atası onu müvəqqəti olaraq zavodların birində katibəliyə düzəltdi və bununla da öz əlləri ilə qızını uçuruma itələdi.

İlk vaxtlar Sevil müdirindən ağızdolusu danışırdı mənə. Müdirinin çox gözəl, əsl insani keyfiyyətlərə malik olduğunu deyirdi. Belə başa düşürdüm ki, onların arasında bir səmimi ünsiyyət var. Düzdür, əvvələr onların ünsiyyəti, doğrudan da, belə imiş. Lakin sakitcə bu münasibət başqa səmtə doğru yönəlməyə başladı. Bir gün Sevil ürəyini açdı və mənə söylədi ki, müdirimi sevirəm. Bu xəbər məni çox sarsıtdı. Rəfiqəm ağlasığmaz, mümkün olmayan sözlər danışırdı. Danışırdı və için-için ağlayırdı. Nə qədər inanmamağa çalışsam da, onun həqiqətən müdirinə bağlanmasını duyurdum. Lakin bütün bunları heç cür qəbul edə bilmirdim.

Çünki onun müdirinin ailəsi, uşaqları vardı. Bir də axı o, qızın atası yaşında idi. Sevil müdiri haqqında danışanda ilk vaxtlar elə bilirdim ki, o, doğrudan da, yaxşı adamdır. Lakin onu tanıyarkən nə qədər harın, səviyyəsiz, heyvani hisslərə malik olduğunu gördüm. Belələrini insan adlandırmağa heyfim gəlir. Mən heç cür anlaya bilmirdim ki, bu cür qız onun nəyinə vurulub. O şəxsiyyətsizin kimliyini tanıdıqdan sonra rəfiqəmin onun əlinin altında işləməsini qəbul edə bilmirdim. Bilirdim ki, nə vaxtsa qızı ac canavar kimi caynağına keçirə bilər. Bu qorxu mənə rahatlıq vermirdi. Və mən, demək olar ki, hər gün Sevilin işdən çıxmasını tələb edirdim. Lakin hər dəfə tələbim boşa çıxırdı. Anlatmağa çalışırdım ki, o, səni bədbəxt edəcək. Bütün arzuların məhv olacaq. Çalışırdım ki, onun kütlənmiş beyninə aydınlıq gətirim, tor-lanmış gözlərini açım. İstəyirdim ki, məsumluğunu kimə qurban verdiyini anlasın. Təəssüf. Görünür, mən gecikmişəm. Anladım ki, o, qızı tam ələ almağa nail olub.

Rəfiqəmin müdiri işinə görə nüfuza, həddən artıq var-dövlətə malik idi. Elə onu eybəcərləşdirən də, insani keyfiyyətlərdən uzaqlaşdıran da bu idi. İnsanlığı pula satandan bundan artıq nə gözləmək olar? Sən demə, rəfiqəmin də içində var-dövlətə qarşı böyük hərislik varmış. Və onun yolunu azmasına səbəb də müdirinə “məhəbbət”i, bir də şöhrətpə-rəstliyi olmuşdu. Müdirin alçaq hissləri onun qəlbini tilsim-ləmiş, var-dövlət parıltıları gözünü qamaşdırmışdı. Mənimsə bunlardan xəbərim yox idi.

Beləliklə, Sevil eybəcər vəziyyətdə müdirinə qoşulub qaçdı. Beş il keçib həmin vaxtdan. Və bu müddətdə çox hadisələr baş verib. Artıq Sevilin gözündə hər şey adiləşib. Onun gözü parıltılardan daha bərq vurmur. Hər şey ötəri oldu. Odlu-alovlu “məhəbbət” də, gurultulu sözlər də, var-dövlət də. Pak adını qurban verməklə “məhəbbətə” də, var-dövlətə də sahib oldu Sevil. Lakin arzusunda olduğu xoşbəxtliyə necə,

nail ola bildimi? Görəsən, romantik duyğularına, incə qəlbinin səsinə cavab ala bildimi Sevil? Bir neçə gün əvvəl isə eşidəndə ki, Sevil ərinin birinci arvadı ilə bir mənzildə yaşayır, heyrət məni bürüdü. Onun ərinə nifrətim ikiqat artdı. Bu dəhşətdir. Bu hal uşaqlara necə təsir edər? Onlar belə atadan hansı tərbiyəni alacaq? Bu ki, əxlaqi baxımdan eybəcərlikdir? Belələri yurdumuzun gələcəyi olan övladlarımızı mənən şikəst edirlər. Onların ülvi duyğularını vəhşicəsinə əzir, məhv edirlər. Necə də əzab çəkmirlər əməllərindən. Elə bil, belə də olmalı imiş. Çox vüqarlı gəzirlər. Çünki arxayındırlar ki, onların murdar əməllərinə mane olacaq heç bir qüvvə yoxdur. Pullarına, zorlarına arxayındırlar”.

# 18-ci HİSSƏ

# «Daha sənin nəyinə gərəyəm...»

Daha mən səninçün keçilmiş yolam, Oxunmuş kitabam, dərilmiş çiçək. Dönüb indən belə lap qızıl olam, Ya da daş parçası, nəyinə gərək.

M.İsmayıl

Ömürsə bir göz qırpımında ötüb keçirdi. Artıq payız gəlmişdi. Yayın görünməmiş istisindən sonra sərinlən-mək ümidi ilə hamı bu payızı gözləmişdi. Təkcə Nailədən savayı. Çünki bu payız günlərindən birində, daha dəqiq desək, sentyabrın 22-də İlqarın toyu olacaqdı... Bir vaxtlar ona dünyalar qədər əziz olan, indisə amansız dərəcədə nifrət etdiyi İlqar başqasını alırdı...

“Coca-Cola”-nın yay barındakı o son görüşdən, ayrılacaqlarına qərar verilən o gündən sonra Nailənin həyatında çox şey dəyişilmişdi. Ən əsası isə, Nailə qadın olmuşdu. Abbas Şeyxzadənin şəhərin ucqarlarında kirayələdiyi təkotaqlı mənzildə iki-üç gündən bir görüşürdülər. Onun bütün istəkləri yerinə yetirilirdi: istədiyi kimi geyinir, bəzənib-düzənir, bahalı ətirlərdən, kosmetikadan istifadə edirdi. Ailələrinin bazarlığından tutmuş ali məktəbdə ödənişli təhsil alan bacısının təhsil puluna kimi hər şeyi Abbas Şeyxzadə ödəyirdi. Əfsus ki, bütün bunların əvəzində başı dazlaşmış, yaşı ötmüş bir kişi az qala bütün şəhərin həsəd apardığı 20 yaşlı qızla yatır, ondan həzz alırdı.

Nailə isə zərbəni zərbə dalınca aldıqdan sonra mənasızlaş-mış bu bayağı həyatında yalnız gələcəyin ümidləri ilə yaşayırdı. Bircə şey barədə düşünürdü: bu tənəzzüldən nəyin bahasına olursa-olsun çıxmaq, güc yığmaq və haçansa

həyatın vurduğu zərbələrə görə həyatın özündən belə qisas almaq...

İndi Nailənin xahişi ilə boşalmış plyaja gəlmişdilər. Qara “QAZ-31” sahildə dayanmışdı. İlqardan fərqli olaraq, Abbas Şeyxzadə heç vaxt maşını ləpədöyəndə saxlamazdı. Yaş fərqi özünü göstərirdi. Hər şey o yana, irəli sürərdin, maşın quma batardı. Kim idi onu ordan çıxaran?

Hər ikisi gözlərini dənizə dikib susmuşdular.

Nailə buralarda tez-tez İlqarla quma batdıqlarını xatırlayırdı. İşə bax. Bura gələndə yolda sınıq-salxaq “Moskviç”in kapotunun üstündə süfrə açıb yeyib-içən kişiləri görmüşdü. Maşın məhz həmin maşın idi. Onların “06”-nı qumdan çıxaran kişilərin maşını. Görəsən, kişilərin hamısı məhz həmin kişilər idimi? İndi onların sayı 5 idi. Unutmuşdu o vaxt 4 idilərmi, yoxsa 5 idilərmi? Odəfəki kişilərdən biri lap məzəli idi. Nailəyə zorla araq içirmişdi ki, dünyanın ən gözəl qızı ilə badə-badəyə vurduğundan qürur duysun...

Nailə bütün bunları xatırlayırdı, tapmaq istəyirdi ki, görəsən, müdiri nə barədə düşünür? Nailəni bədbəxt etməsi barədəmi, qızı Səidəylə İlqarın toyu barədəmi?

...Abbas Şeyxzadə bu müddətdə Nailə üçün hər şey etmişdi. Hətta Nailəgilin Əhmədlidəki mənzillərini az qala ikiqat qiymətə geri almaqda idi ki, qızın mənzil nisgilinə son qoyulsun.

Zarafat deyil, o vaxt Nailəgil həmin mənzili altı minə satmışdılar. İndi isə on bir minə geri alırdılar... Bu pulun səkkiz minini Abbas Şeyxzadə qabaqcadan vermişdi. Üç minini isə Nailəgil köçən günü verəcəkdi. Nailəgil də qərara almışdılar ki, ən geci bir həftəyə köçsünlər.

Nailə öz mənzilləri ilə görüşə elə can atırdı ki. Yenə qa-pı-pəncərəyə ağappaq pərdə vuracaqlar. Dəniz səmtdən külək əsəndə pərdələr yellənəcək, ləzzətli mənzərə yaranacaq... O vaxt ataları eyvanlarını mavi rəngdə rəngləmişdi. Yəqin ki, indi təzə köçənlər eyvanın rəngini dəyişiblər. Eyvanın hökmən köhnə rəngini qaytarmaq lazımdır.

Görəsən, qonşular köçüb getməyiblər ki? Qızbəs xala, Suqra xala, Fira... Bəs görəsən, siçovullar necə, hələ də qalırlar?

İlqarı da bəlkə orada unutmaq asan olardı. Axı o mənzilin İlqarla bağlı heç bir xatirəsi yox idi...

Xəfif yel əsir, dənizi azacıq ləpələndirirdi. Nailə bütün bunları düşünür, arabir də uzaqlara baxıb susan Abbas Şeyx-zadəni süzürdü. Hər halda, görən nə düşünürdü Abbas müəllim? Bu müddətdə yaxından bələd olduğu bu adamı kitab kimi oxuya bilirdi. Odur ki, hiss edirdi onun nigarançılığını. Bir də ki, böyük-böyük işlər aşıran bu kişinin nigarançılığında qeyri-adi bir şey də yox idi... Yəqin işləri ilə bağlı idi.

Şər qarışmaqdaydı...

Bir polis “UAZ”ı onlara yaxınlaşdı. Bığıburma starşina özünü təqdim etdi:

- Polis starşinası Cabbarov.

Bunları xeyli süzdü. Üzrxahlıqla dedi:

- Bağışlayın. Son vaxtlar cavanlar maşınla gəlib buralarda nalayiq hərəkətlər edirlər. Utanıb eləmirlər... Səhv saldıq. Ağlımıza gəlmədi ki, gəlib qızınızla dincəlirsiniz.

Polislər getdilər. “Qızınızla dincəlirsiniz” sözü Abbas Şeyx-zadənin heç xoşuna gəlməmişdi. Peysərinəcən qızarmışdı o.

- Bəlkə, gedək?

Nailə dedi bunu.

Geri qayıdanda Abbas Şeyxzadə maşının səmtini dəyişdi. Nailə hiss etdi ki, Sulu Təpəyə gedirlər. Orada müdirinin həyət evi var idi. Deyirdi ki, ata mülkümdür, təmir elətdirib yeniləşdirirəm. Bir neçə dəfə müdiri Nailə ilə burada görüşmüşdü. Arabir də yolüstü bura dəyib Nailəni maşında gözlətmiş, içəri girib tezcə də qayıtmışdı.

Həyət evinə çatdılar. Bu dəfə Abbas Şeyxzadə Nailəni içəri dəvət etdi. Az keçmədi ki, onlar hamamlanıb yatağa girdilər...

Belə vaxtlarda Nailəni yalnız bir şey maraqlandırırdı. Tezcə Abbas Şeyxzadənin ehtirası soyuyaydı və onu rahat buraxaydı...

...Kişi durub mələfəyə bürünərək mobil telefonunu da götürüb otaqdan çıxanda Nailə cəld vanna otağına atıldı, hey sabunlandı, tezcə də yuyunub qurulandı, paltarını geyindi. Şöləyə zəng eləməli idi. Sabah qadın bərbərinə gedəcəkləri vaxtı dəqiqləşdirmək üçün.

Abbas Şeyxzadədən telefonu almaqdan ötrü otaqdan çıxdı. Qonşu otaqlarda onu görmədi. Zirzəminin ağzı açıq idi. Pilləkənlə ora düşəndə müdirinin küncdə duraraq nəsə saydığını gördü...

- Yüz altmış doqquz... Yüz yetmiş...

Abbas Şeyxzadə taqqıltı eşidəndə dik atıldı. Qucağındakılar yerə töküldü. Amerika dollarları idi.

- Nailə, bura niyə gəldin?

O, əyilib pulları yerdən yığışdırıb divardan çıxarılmış daşın oyuğuna doldurmağa başladı.

Nailənin gözləri dörd olmuşdu. Birtəhər cavab verdi:

- Telefon lazım idi...

Abbas Şeyxzadə narazılıqla mobilini Nailəyə verdi və onun çıxıb getməsini gözlədi...

Nailə yuxarı qalxıb Şöləyə zəng elədi. Yenicə danışıb qurtarmışdılar ki, müdiri gəldi, heç nə olmayıbmış kimi onu qucaqladı:

- Nə tez geyindin? Mən axı hələ səndən doymamışdım...

... Bakıya qayıdarkən Nailə arxa oturacaqda oturmuşdu, dollarlar heç cür fikrindən çıxmırdı. Görəsən, bu qədər pula neçə dənə “Modalar evi” açmaq olardı?

Önlərində bir qara cip gedirdi. Qeyri-ixtiyari söylədi:

- Keçin də onu, nə olar!

İlqarla gedəndə həmişə İlqarı məcbur edərdi ki, xarici maşınları ötüb keçsin. İlqar yazıq da sürəti artırar, qəza şəraiti yaradardı, təki sevgilisinin xətrinə dəyməsin...

Sözlərini bir daha təkrarladı:

- Nə olar, keçin də o cipi.

Abbas Şeyxzadə bir kəlmə dedi:

- Uşaqsan bəyəm?

Nailə də cəld özünü yığışdırdı...

## 19-cıı HİSSƏ

# Sarsıdıcı xəbər

Ürəyində bir arzu tut, Bir azca qarışsın başın. Tavanı deşilib, nədi? -Könlümə damır göz yaşım.

QAğsəs

Bu dünyada İlqar üçün hər şey var idi: son dəblə geyinib “06”-nı küçələr boyu qovmaq, maraqlı qızlara maşın saxlamaq, “qız-qadın kolleksiyası”nı xeyli zənginləşdirmək, pulla dolu ciblərə sığal çəkmək, təzə alınmış mobil telefonunu qulağına tutub forslanmaq, ara-sıra sambo məşqlərinə qatılıb əzələlərinin inkişafının qeydinə qalmaq, dostları ilə veyillənmək... Sentyabrın 22-sindəki toylarından sonra qayınatasının bağışlayacağı qara rəngli “Mercedes”-in yolunu gözləmək... Saunalar, restoranlar, səyahətlər... Başdan-başa parıltılı bir həyat...

Təkcə Nailə yox idi İlqarın bu həyatında. Əslində isə, hər dəqiqə, hər an Nailə onunla idi. Bəzən lap dəli kimi Nailəni arzulayır, onun xəyalı ilə danışırdı. Bu böyük şəhər başdan-başa Nailəli günlərinin xatirəsi idi...

Görüş yerlərinə gedir, həmin yerdə Nailə ilə bağlı xatirələri ən xırda təfərrüatına kimi gözünün qabağına gətirir, siqareti siqaretin oduna calayırdı...

Ayrıldıqları həmin gündən sonra dəfələrlə ona zəng vurmuşdu. Ancaq Nailə onunla danışmamış, dəstəyi asmışdı. Hətta ikili həyatlarının ən romantik xatirəsi: bir-birilərinə telefon vasitəsilə Sezen Aksunun mahnılarını qoyub az qala əzbər bildikləri sözləri zümzümə etmələri də kara gəlmirdi. Nailə mahnı səsi eşidən kimi zəng edənin İlqar olduğunu bilib dəstəyi asırdı...

Bu müddətdə İlqar bir neçə qızla, qadınla yaxın olmuş, onlardan Nailənin ətrini almaq istəmişdi. Ancaq acı bir həqiqəti başa düşmüşdü: heç kim, heç vaxt ona Nailəni əvəz edə bilməz... Eyni vaxtda onu da düşünmüşdü ki, indi, yəqin, Nailə də başqasıyla kef çəkir... Belə düşünəndə əsəbdən bir yerə sığmır, dəli kimi öz-özünə danışırdı. Gecələr isə yuxusu onu tərk etmişdi. Elə olurdu, səhərəcən yata bilmirdi...

Bu gün sentyabrın 10-u idi... Cəmi 12 gündən sonra onun toyu olacaqdı... Və indi o, atası demişkən, toya hazırlaşmaq əvəzinə veyil-veyil gəzirdi...

... Nailə ilə son dəfə oturduqları "Coca-Cola"-nın yay barında oturub şampan içirdi... Yarım saatdan artıq idi ki, keçəndəfəki yerdə əyləşmişdi. Özü bilirdi ki, Nailəni buralarda görə bilməz. Ancaq gözləri onu axtarırdı.

Qəfildən adının çəkildiyini eşitdi. Arxaya boylananda dostu Azəri gördü. Onu stola dəvət etdi. Barmen daha bir şampan və bir fujer gətirdi.

Şampanı açarkən sual verdi:

- Partladım, yoxsa yox?

İlqar Nailəylə görüşlərində eynən belə söyləmiş barmeni tanıdı, kövrəldi. O vaxt, gərək ki, İlqar ona belə cavab vermişdi:

- Neynirsən elə. Bircə tez elə.

Onda İlqar ümidli idi ki, Nailəylə yenidən ehtiraslı görüş yaşayacaq. O görüşün tez baş tutmasına tələsirdi...

Ancaq bu dəfə İlqar: - Yox, - dedi. Və əlavə etdi:

- Partladırsan, yarısını da yerə tökürsən.

Azər yerini rahatlaya-rahatlaya soruşdu:

- Yenə sükan arxasında gillədirsən?

- Şampandı da.

- Nə fərqi var? Şampanın dəmliyi lap pisdir.

Bir az ordan-burdan danışdılar. Azər onun siqaret qutusundan bir siqaret götürüb yandırdı:

- Yenə də adətin üzrə “Davidoff” çəkirsən... Toyun haçandır?

- 22-si.

- Nailə ilə qırıldın?

İlqar ağır-ağır başını tərpətdi.

- Bilirsən, indi o, kiminlə fırlanır?

İlqar hiss etdi ki, əsəbləri tarıma çəkilir.

- Kiminlə?

- Müdiriylə.

İlqar yerindən dik atıldı:

- Kiminlə?!

- Müdiriylə. Atası yaşda kişidi. Əməlli-başlı saxlayır onu. Şəhərdən qıraqda...

İlqar daha heç nə eşitmirdi. Əlləri əsə-əsə telefonu çıxarıb Nailənin nömrəsini yığdı. Telefon məşğul idi. Bir fujer də

şampan içib yenə nömrəni yığdı. O idi, Nailə idi dəstəyi götürən.

- Alo, Nailə. Qulaq as. Sən bilirsən, kimsən?

Kəsik siqnal səsləri eşidildi.

Nömrəni bir də, bir də yığdı. Nailə dəstəyi götürərkən qışqırdı:

- Sən qəhbəsən! Eşitdin?! Qəhbə!

Nailənin qırıq-qırıq səsi gəldi:

- Hə. Sənin qayınatanla gəzirəm. Qayınanın da günüsüyəm. Çox edərsən, qızımızı sənə verməricik.

Sonra o, hönkürüb dəstəyi asdı.

İlqar yenə dalbadal onun nömrəsini yığdı.

- ... Qəhbə... Ən axırıncı qəhbə... Bir azdan bir şirvan olacaq sənin qiymətin...

Nailə hönkürməyində idi:

- Murdar. Alçaq. Məni sən məhv etdin. Sənə nifrət edirəm. Səndən iyrənirəm...

T

## 20-ci HİSSƏ

## Gecə zəngi

Sən ömrümün atəşində yananda, Kölgən kimi gərəksizəm yanında. Qiymətli bir itik saxla yadında,

Bu gün - sabahı qarşılayıb bir andaca dünənə göndərməklə məşğul olan bədbəxt bir bələdçi imiş, sən demə. ...Nailəgilin evlərində yır-yığış idi. Səhər köçürdülər. Bu kəsif qoxulu ailəlilər yataqxanasını tərk edəcəkdilər. Qəribədir ki, bu boyda binaya küçədən baxanda bircə pəncərədə tərtəmiz, üstü xırda qırmızı güllü ağappaq pərdə görərdin. Bütün digər pəncərələrdə isə rəngi seçilməyən, pərdə əvəzi əsgi-üsgü asılmışdı.

Nailəgilin otaqları da təmiz idi. Hər gün bu otaqlara Nailə dezodorant boşaldardı ki, binanın qoxusu onların mənzillərinə dolmasın...

İndi buradan köçəcək, Əhmədlidəki doğma evlərinə qayıdacaqdılar. Anası, bacısı və qardaşı az qalırdılar ki, qol götürüb oynasınlar. Təkcə Nailə qayğılı idi. Axşamdan bəri iki gözlənilməz telefon zəngi olmuşdu. Əvvəl İlqar zəng edib onu təhqir etmişdi. Bir qədər sonra isə yaşlı qadın (yəqin ki, Abbas Şeyxzadənin həyat yoldaşı) zəng edib Nailəyə dişinin dibindən çıxanı demişdi...

Onun müdiriylə görüşməsini, çox güman ki, artıq bütün şəhər bilirdi. Mümkün olmamışdı bu münasibətləri gizlətmək... İndi nəsə xoşagəlməz bir sonluq gözləyirdi, deyəsən, hər şeyi...

Anası Nailənin qəmgin olduğunu sezdi:

- Qızım, nə olub sənə?

- Allaha çox şükür, sabah evimizə qayıdırıq. Allah sənin başından töksün. Sən olmasan, biz neynəyərdik? Bu gün -sabah da bir mən deyənə rast gəlib ailə qurarsan.

Nailə hönkürüb qışqırdı:

- Bəsdir!

Üzüqoylu özünü çarpayıya atdı...

...Bayaqdan bəri komendant bir neçə dəfə gəlmiş, dişlərini parıldada-parıldada onların yır-yığışına kömək etmiş, Nailənin anası ilə söhbətə girişmişdi:

- Arzu bacı, qabaq hamının, elə bizim də dolanışığımız əla idi. Sakinlərim imkanlı idilər, zavodda işləyir, maaşdan-maaşa mənə də görüm-baxım edirdilər... Nə gizlədim, otaq da satırdım. Allah düşmənin evini yıxsın. Bir elə torpağımızı aldı, camaatı evsiz-eşiksiz qoydu. İndi sakinlərimin əksəriyyəti qaçqınlardır... Ən çox sevdiyim sakinim siz idiniz. Siz də ki, gedirsiniz...

Sınıq-salxaq dolabı qapının ağzına çəkməyə kömək edə-edə Nailədən şikayətləndi:

- Arzu bacı. Bir dikbaş qızın var ki. Mənə bilirsən, nə ad qoyub? Metallom.

Nailənin anasının fikri qızının yanında olsa da, komendantın dedikləri ona maraqlı göründü:

- Niyə ki?

- Aa. Dişlərim qızıldı da. Onçün.

Köməkləşib bütün işləri yoluna qoyandan sonra komendant telefon nömrəsi yazılmış kağızı qadına uzatdı:

> - Köçən kimi mənə zəng edin. Təzə mənzilinizə pay-puşla gəlmək istəyirəm. Bir video gətirəcəm. Qoy Nailə o əzələli gədənin... Adı nədir qurumsağın? Dilimin ucundadır e... Nə isə. O şəklini divara vurduğu gədəni deyirəm, qoy onun kinolarına baxsın. Nə gizlədim, Arzu bacı. Sizin ailəyə, uşaqlarınıza məhəbbətim böyükdür. İstəyirəm ailəvi get-gəlimiz olsun...

... Nailə hələ də üzüqoylu çarpayıya uzanmışdı... Necə oldusa, yuxuya getdi. Qəribə bir yuxu gördü. Gördü ki, qədim cəngavərlik filmlərindəki kimi nəhəng bir qəsrdədir. Uzun, qara paltar geyinib. Paltarı o qədər uzundur ki, arxası yerə dəyməsin deyə, bir qulluqçu paltarın ətəyini tutub onun dalınca gəzir. Qulluqçu dolu bədənli, qarayanızdır. Gərək ki, Səidədir.

Sonra Nailə qəsrin həyətinə çıxır. Yeddi balaca uşaq onun üstünə atılır. O da bir-bir uşaqların başını sığallayıb deyir: "İndi atanız gələcək. Sizə oyuncaqlar gətirəcək". Bu vaxt qəsrin həyətində kareta görünür. Lakey karetanı saxlayıb arxa qapını açır. Oradan qara frakda, qara slindirdə bir kişi düşür. Bu, İlqardır. Uşaqlar indi də onun üstünə yüyürürlər. O, ciblərindən 7 dənə "Kinder" şokoladı çıxarıb uşaqlara verir. Bütün şokoladların içindən üstü qara xallı yaşıl timsah oyuncağı çıxır...

...Gecənin bir aləmi qəfil telefon zənginə Nailə yerindən dik atıldı.

Abbas Şeyxzadənin səsini eşitcək ürəyi şiddətlə döyünməyə başladı. Az qaldı ki, ürəyi yerindən qopsun. Müdiri pıçıltı ilə danışırdı:

- Nailə, evdə söz-söhbət yaranıb. Sabahdan işə çıxma. Qoy iki-üç gün keçsin. Sonra özüm axtarıb səni taparam. Əgər əlaqələrimiz barədə kimsə səndən nəsə soruşsa, hər şeyi dan. Deynən ki, şər-böhtandır. Hələlik mən adlı adamı unut. Ara sakitləşənə kimi... Belə lazımdır, başa düşürsən? Bu qədər.

Nailə uzun müddət dəstək əlində donub qaldı. Nə baş verdiyini anlamağa çalışdı. Key kimi idi.

Belə... Deməli, Abbas Şeyxzadə də onu atdı. “Sabahdan işə çıxma... Mən adlı adamı unut...!” Vəssalam. Yenə hər şey o yana, “Moda evi”ni aça bilsəydi, özü-özünü dolandırardı... İndi o nə edəcəkdi? Necə yaşayacaqdılar? Bu ağır zamanda gedib kimdən kömək umacaqdılar?

Axı niyə, niyə hər şey belə oldu?

□□□

Dilədiyim yerlərə

uçub gedə biləydim,

Orda yuva quraydım

bir qızılgül kolunda.

Mən bir yabançı,

dünya yalançı.

A.Mirseyid

## 21-ci HİSSƏ

## Qadın və həbsxana

İçəriyə ölü bir sükut çökmüşdü. Heç kəs dinib-danışmırdı. Yalnız özünü pəncərəyə çırpan iri bir milçəyin vızıltısı eşidilirdi. Şölə xanım hisslərə qapılıb sakitcə ağlayırdı. Xanım əməkdaşlarımızın bir-ikisi də içlərini çəkirdilər.

Yalnız son anda - qatar tərpənəndən sonra qatara atlanmaq istəyən sərnişinin harada durmasından çox şey asılıdır: biri var qatarın əvvəlinə, yaxud ortasına yaxın olasan. Onda minmək ehtimalın da çox olar. Gör bir nə qədər vaqon var. Biri də var lap sonda dayanasan. Onda sənin cəmi bircə - sonuncu vaqona minmək şansın olacaq...

> - Səidənin anasına Abbas Şeyxzadənin Nailə ilə gəzməsini İlqar xəbərləmişdi?

Xanımlardan biri özünü saxlaya bilməyib Şölə xanıma sual verdi. O da başını tərpətdi.

> - Alçaq! Xəbərçi!

Həmin əməkdaş İlqara olan qəzəbini bu sözlərlə bildirdi.

Fasilədən istifadə edib öz masamın arxasına keçdim, səsini aldığım şəhər telefonuna səs verdim. Dərhal da zəng gəldi. Oxucularımızdan biri suyun tez-tez kəsilməsindən şikayətlənirdi. Növbəti şikayətçi seçki kampaniyasına toxundu:

> - Həyətə bir “KamAZ” soğan gətirib paylayırlar. Bizim səsimizi soğanla almaq istəyirlər. Bu nə biabırçılıqdır?

Telefonun səsini yenidən azaltdım.

Şölə xanım sakitləşmişdi.

Durub onunla üzbəüz əyləşdim:

- Deyəsən, əsərimiz finala yaxınlaşır. İlqarın, Səidənin anasının və Abbas Şeyxzadənin zəngləri kulminasiyadır. Hər şeyini itirmiş Nailə Abbas Şeyxzadəni öldürəcək, bununla da əsərimizə nöqtə qoyacağıq. Düz demirəm?

Şölə xanım redaksiya xanımlarından bir stəkan su xahiş edib dedi:

- Yox, düz demirsiniz. Hər şey siz deyən kimi olsaydı, əhvalat çox adi, dayaz olardı. Ən təsirli, ən ürəkgöynədən səhnələr hələ qabaqdadır. Həyat Nailəyə bundan da betər zərbələr hazırlayıbmış. Bu zərbələrə dözmək mümkünsüz idi.

- Danışın, siz Allah, danışın.

Yerbəyerdən səslər gəldi. Şölə xanım əlindəki stəkandan suyu qurtumladı, saata baxdı. Hələ vaxtına var idi.

Mənsə zəif məxluq sayılan qadının cinayət törədərək həbsxanaya düşməsi barədə düşündüm. Nədənsə, geyinib-kecinən, bişirib-düşürən, uşaqlarına, ərinə qulluq edən, telefonda qeybət qırmağı, televizor qarşısında oturub serialla-rı və klipləri izləməyi xoşlayan bu məxluqu dəmir barmaqlıqlı beton qəfəsə yaraşdıra bilmədim. Xüsusən də bizim azə-ri qadınlarını. Elə bil, bizimkilər daha çox evcanlı, ailəcanlıdırlar. İndiyə kimi sırf öz təxəyyülümlə, öz müqayisələrində bizim qadınların həbsxanalara tək-tük hallarda düşməsini təxmin etmişdim. Ancaq elə bu gün Şölə xanımın gəlişini gözləyərkən informasiya bülletenində təxminlərimin sübutunu oxudum. London Kral Kollecinin 187 ölkədə apardığı araşdırmanın nəticələrinə görə, qadın məhkumlarının sayı üzrə ABŞ, Çin, Rusiya və Tayland dünya ölkələri sırasında liderlik edir. Rusiyada hər 12 məhkumdan biri qadındır. MDB ölkələri üzrə ən aşağı göstərici isə məhz

Azərbaycandadır. Bizdə məhkumların yalnız 1,5 faizini qadınlar təşkil edir...

Mən bütün bu müddətdə sanırdım ki, Nailə ilə canlı təmasda olmuşam. O cür qəlbə malik bir qadının sonda həbsxanaya düşməsi, məncə, həyatın ən böyük rəzaləti idi...

Şölə xanımın səsi fikrimi dağıtdı. O, aram-aram hadisənin sonrasını danışmağa başlamışdı...

# 22-ci HİSSƏ

# Qəfil qonaq kimi gəldi payız

Səhəri açmaq, səhəri açmaq daş daşımaqdı, Gözlərimdən yaş daşımaqdı içəri. ... Ürəyimin cırılmış şəkli, Səni yapışqan biləcək, Qapına gələcək.

S.Həsənli

Qəfil qonaqlar kimi gəldi payız. Sentyabrın 14-dən güclü yağışlar yağmağa başladı. Nailəgil bu payızı Əhmədlidəki mənzillərində qarşıladılar. Yağış yağır, yeri-göyü isladır, adamı sonsuz kədərin içinə salırdı.

Burda, bu uzaqlıqda Nailə üçün təkliyi keçirmək daha ağır idi. Ailəlilər yataqxanasında gözü-qulağı səsdə olardı. Ayrılsalar belə, ümid edərdi ki, İlqar gələcək, yataqxananın qarşısında oynayan kirli uşaqlardan birinə 500 manat verib onu çağırtdıracaq... İlqarlı günlərinin şahidi olan o üfunətli yataqxana indi Nailə üçün Əhmədlidəki bu mənzillərindən əziz idi...

Bu yağışlı sentyabr ayı əlibıçaqlı düşmən kimi onun üzərinə gəlmişdi...

Bu günsə bu düşmənçiliyin ən yüksək nöqtəsinə gəlib çıxmışdılar: axşam saat 6-da “Abşeron”da İlqarın toyu olacaqdı... Səhər ertədən Nailə göz yaşlarını sel kimi axıdır, birgə keçirdikləri o günləri birər-birər xatırlayır, qüssədən ölmək həddinə çatırdı...

Sən demə, xatirələrlə qol-boyun olmaq yaşamağın sonu, sürünməyinsə əvvəliymiş...

Anası mətbəxin qapısını açıb içəri keçdi. Gözləri qıpqırmızı qızarmış Nailə key-key anasının üzünə baxdı. Anası asta-asta

danışmağa başladı:

- Evin yiyəsi yenə gəlmişdi. Bir həftə möhlət verdi. Dedi ki, qızın üç minimi verməsə, sənədləri ləğv elətdirib sizi buradan qovacam. Səkkiz mininiz də batacaq. (Ağlamsındı) Bu yandan bacının məktəbinin pulunun qalan hissəsini vermək lazımdır... Bu yandan tərs kimi havalar da soyudu... Uşaqların əyin-başı çatmır. Evdə də çörək pulundan savayı bir qara qəpiyimiz yoxdur... Allah baisin evini yıxsın. Gül kimi işləyirdin... Gözə gətirdilər səni.

Nailə lap sıxılıb yumağa döndü. Yenə bu pulsuzluq zibil olmasaydı, birtəhər dərdlərə tab gətirərdi. Ancaq indi... Bir elə yaxın adamları da yox idi ki, köməklik istəyəydilər.

Abbas Şeyxzadəylə çətinliklə də olsa, bir dəfə danışmağa imkan tapmış, "Görüşmürüksə də, heç olmasa, mənə maddi köməklik edin, evin pulundan qalan qalığı verin", - demişdi. Ancaq Abbas Şeyxzadə etinasızlıqla: "Bir az döz, indilər-də bu mümkün deyil", - söyləmişdi.

Ani olaraq beyninə gələn fikirdən dik atıldı, geyinib cəld evdən çıxdı.

Saat yarımdan sonra artıq o, atasıgilin qapısını döyürdü... Bura gəldiyi üçün özünə nifrət edir, bəxtinə-taleyinə söyüşlər yağdırırdı. Lakin nə etmək olardı...

Qapını ögey bacısı açdı. Pudel də gəlib ona hürməyə başladı. Araya mehribanlıq salmaq üçün itin başını sığalladı:

- Bu, nə yaman böyüyüb belə.

Əslində, pudelin böyüyüb-böyümədiyini hiss etməmişdi. Bəlkə də bu, heç o görən it deyildi, başqası idi. Sadəcə, bilmirdi ki, nə desin.

Ögey bacısı azərbaycanca sözlərin qol-qabırğasını sındıra-sındıra soruşdu:

- Xansı talelərlə qəlmisən?

Ruslar belə yerdə “Kakimi sudbami” deyə soruşurlar. Bu da həmin ifadəni sözbəsöz tərcümə etmişdi. Nailə düşündü ki, ögey bacısı, əslində, “Nə əcəb səndən?”, - soruşmalı idi. Nailədən cavab almayan qız üzünü yana tutub ucadan atasını səslədi:

- Papa, Nailya qəlib.

Atası Nailəni görcək xeyli təəccübləndi, onu içəri dəvət etdi. Divanda yer göstərdi. Nailə əyləşəndə divanın cırıltısından və döşəkçəsinin vəziyyətindən hiss elədi ki, atası əvvəlki adətini tərgitməyib: ev əşyaları almaq yenə onunçün ən lüzumsuz bir işdir...

Atası xeyli müddət ona anasının necə pinti, dözülməz və “kəndçi qadın” olmasından danışdı:

- Bilirsən, qızım, elementar şeylər var. Kişi üçün qadın yalnız bişirib-düşürmək, pal-paltarını yumaq, ayağının altını təmizləmək üçün lazım deyil. Sənin anan sanki robot idi, yalnız hambalçılığı bacarırdı. Kişiyə qadın ilk öncə ürək dostluğu üçün, habelə ehtiraslarını söndürmək üçün lazımdır...

Pudel yanlarına qaçdı. Atası itin başını sığallaya-sığallaya bildirdi ki, rus qadınla qurduğu ailəsindən razıdır. Hər şeyləri də var: evləri, pulları, maşınları. Onu da dedi ki, Tomskdakı obyektini satandan sonra Şamaxinkada bir dükan alıb. Həmin dükan hələ də onlara xidmət etməkdədir. Şükür bərəkətinə.

Nailə məhz bu yerdə atasından pul istədi. Son günlərin sıxıntılarını sıxıla-sıxıla danışdı... Bunları deyərkən düşünürdü ki, ata öz doğma qızının ətini yesə də, sümüyünü çölə atmaz.

Atası xeyli fikirləşdi, ah-uf etdi:

- Bircə gün tez gəlsəydin, səni əliboş yola salmazdım. Əlimdə nə qədər pul var idisə, hamısına maqazin üçün mal aldım. İndi sənə verməyə heç nəyim yoxdur. Yeni il qabağı gələrsən, söz vermirəm, ancaq çalışacam, sənə yüz, iki yüz dollar təşkil edim...

Hıçqıra-hıçqıra oradan çıxdı.

...Bir neçə dəqiqədən sonra ailəlilər yataqxanasında, komendantın otağında idi. Onlara ailəvi dost olmağı təklif edən bu kişi, bəlkə, insaflı çıxacaqdı?

Komendant metal dişlərini parıldada-parıldada ona divanda yer göstərib çay süzməyə başladı.

Nailə əyləşib titrək səslə dedi:

- Çox sağ olun, çay lazım deyil. Sizinlə söhbət etməyə gəlmişəm. Daha doğrusu, sizə işim düşüb...

Komendant gözü parıldaya-parıldaya Nailənin qısa yubkasından görünən dizlərinə baxıb servantdan konyak götürdü, qapını da içəridən bağladı.

- Nailə xanım, sənin yolunda hər şeyə hazıram...

Nailə sıxıla-sıxıla dedi:

- Bilirsiniz, mənə borc pul lazımdır.

Komendant konyakı süzüb qədəhlərdən birini Nailəyə uzatdı:

- İç, söhbət edərik.

Nailə qədəhi geri itələdi:

- Yox, mən içən deyiləm. Xahiş edirəm, mənə köməklik göstərin. Çıxılmaz vəziyyətdəyəm...

Komendant da əyləşdi, əlini onun dizinin üstünə qoymaq istəyəndə Nailə arxaya çəkildi.

- Nailə xanım. Pul verirəm sənə. İntəhası...

- İntəhası nə?

- Bir kafeyə gedək, bir ikilikdə doyunca söhbət edək, bir içki içək...

- Çox xahiş edirəm, məni indi yola salın. Mütləq sizinlə kafeyə gedəcəm.

Komendant əlini Nailənin əllərinə sürtdü:

- Nə qədər pul lazımdır ki, sənə?

Nailə əllərini arxasında gizlətdi:

- Üç min dollar. Yeni ilə kimi qaytaracağam, arxayın olun...

- Üç min çox böyük puldur... Adam adamdan belə böyük pul istəyəndə bir onu da sayar, bir onun da bığının altından keçər...

- Başa düşmədim.

- Nailə xanım, başqalarına busə bəxş edəndə mənimlə də məzələnib adımı Metallom qoymağına nə ad verim?

Bəyəm mən kişi deyiləm? Onlardan da pəzəvəng kişiyəm!

Nailə get-gedə əsəbiləşir, ancaq özünü ələ almağa məcbur olurdu:

- Mən heç kimə busə vermirəm. Nə hesab edirsiniz məni? Sizinlə də zarafat edirdim də. Vaxt gələr, hər şeyə aydınlıq gətirərik. Sizin bütün istəklərinizə əməl edərəm. Ancaq indi...

Komendant indi də onun saçlarına əl atdı:

- Nə ipək saçınız var.

Nailə bu dəfə başını qaçırtmadı, dodağını dişləri ilə sıxıb:

- Nə deyirsiniz, borc pul verirsiniz mənə?, - söylədi.

Sonra da əlavə etdi:

- Vermirsinizsə, mən gedim.

Komendant barmaqlarını indi də onun yanaqlarına sürtdü:

- Nailə xanım, pul verirəm də sənə... İntəhası...

Dişlərini parıldatdı:

- Bir yar ola, şərab ola, sonra da yataqda kam verib kam almaq...

Nailə onu kənara itələyib ayağa qalxdı, qapının açarını burdu, çölə çıxdı. Hönkürə-hönkürə bu üfunətli binadan uzaqlaşdı...

...“Bakı Soveti” metro stansiyasının pəncərəsinə söykənib laqeyd-laqeyd ətrafdakıları seyr edirdi. Bircə ümid yeri

qalmamışdı. Hətta hər ehtimala qarşı imkansız olduğunu bilə-bilə Şöləyə də zəng etmiş, ondan da borc istəmişdi... Bir-iki tanışına da ağız açmışdı... Nə etsin? Haradasa işə düzəlmək cəhdləri də əbəs idi. Çünki vakant yerlər olan idarələrdə elə aşağı əməkhaqqı verirdilər ki... Bu neçə gündə müraciət etdiyi özəl şirkətlərin müdirlərinin isə hər birində bir Abbas Şeyxzadə iştahı var idi...

Pəncərəyə söykənib durmuşdu. Yağış yağırdı... İşə bax. May ayının 1-də (barmaqları ilə saymağa başladı), düz 144 gün bundan əvvəl də bax, buradaca durmuşdu. İlqarla. Onda ömrünün ən xoşbəxt gününü yaşayırdı... İndi isə bədbəxtlərin bədbəxti idi...

Görəsən, İlqar necə, indi də xoşbəxtdirmi? Bu gün onun toyu olacaq axı. Saat 6-da. Düz 2 saat yarımdan sonra...

Yad-yad adamlar gəlib keçirdi. Neçə-neçə oğlan, kişi ona söz atmışdı... Hətta gəlib ona yaxınlaşan, dayanıb uzun-uzadı danışan da var idi.

Qəribə bir hiss keçirirdi. Elə bil, tamamilə başqa bir planetdən gəlmişdi. Və bu planetin insanlarının sir-sifəti, gəzişi, duruşu, danışığı ona təəccüblü gəlirdi...

... Haçandan-haçana az qala onu silkələyən orta yaşlı, sarısaç qadını tanıdı.

- Ruqiyyə xanım?!

Bu, həmin o Ruqiyyə idi, baxıcı Naziləgildə gördüyü.

- Ağəz, ayaq üstə mürgü döyürsən?

Yenə o vaxtkı kimi balaca mobil telefonunun antenini çıxardıb salırdı.

- Ağəz, nəfərisən, nə işlə məşğulsan? Cigəriki geri qaytara bildin? Nazilə xanımın cadusu öz işini gördü?

Nailə başını buladı.

- ... Yaman birtəhərsən. Elə bil, sıxıntı çəkirsən. Demişdim axı ki, bir problemin olsa, məni axtar. Kartımı da vermişdim sənə...

Nailə istəmədən hər şeyi Ruqiyyəyə danışdı:

- Ruqiyyə xanım, işdən çıxmışam. Çoxlu borcum yığılıb. Pula hədsiz ehtiyacım var.

Ruqiyyənin gözlərinə sanki işıq gəldi. Keçən dəfə üstüörtülü danışırdı. Bu dəfə isə çəkinib-eləmədən nə işlə məşğul olduğunu söylədi:

- Neçə yaşın var?... İyirmi birin içindəsən? Hələ doğub eləməmisən?... Yox?... Kukla kimi qızsan. Lap televizorda-kı modellərə oxşayırsan. Qadam pullu kişilərin ürəyinə. Onları inək kimi sağmaq gərəkdir. Vizitkam səndə var. Gəl, mənimlə işlə. Mənə də Rufa deyərlər. Günüvə iki yüz dollar qaranti verirəm. Borclarıvı da perevod eləyərsən mənim üstümə. Sənin kimi hələ doğmayan qızlarım çoxdur. Heç biri də bəxtindən şikayətçi deyil.

... Tələsdiyini bildirən Ruqiyyə çıxıb gedəndən xeyli sonra da Nailə yerindən tərpənmədi. Quruyub qalmışdı. Key-key ayaqqabılarının ucuna baxır, onu harasa sürükləyib aparmaq istəyən taleni başa düşmək istəyirdi...

# 23-cü HİSSƏ

# Bu qala, daşlı qala

Üz tutub gedirsən, ay üzü dönmüş, Yüyürsəm, arxanca yetəcəyəmmi? Gülündən aralı bülbüləm indi, Bir özgə budaqda ötəcəyəmmi?

T.Hüseyn

Saat 5 idi. İlqargilin evində hamı narahat görünürdü. Zarafat deyil, Abbas Şeyxzadənin qızını gəlin gətirməli idilər.

Pulu həddindən artıq çox olsa da, Abbas Şeyxzadə o qədər də müasir adam təsiri bağışlamırdı. Elə bu toy günü İlqargilə əlavə problemlər yaratmışdı. Məsələn, gəlin maşını mütləq klassik “Rolls Roys” olmalıdır...

İlqarın uşaqlıq dostu və sağdışı Asif gedib böyük çətinliklə ingilislərin firmasından saatı 500 dollara bir “Rolls Roys” danışmışdı... İndi saat 5 olsa da, maşın hələ gəlməmişdi. VVADQ idarəsinə - nikah bağlamağa getməli idilər axı... Gecikirdilər...

Bir yandan da bu yağış...

İlqar siqaret çəkir, xəyalən 144 gün bundan əvvəlki yağışlı 1 may gününü yaşayırdı. Nailə onun qoluna girmişdi... Qız qalası tərəfdən qırmızı kabrioletdə gəlin aparırdılar... Ətrafın bomboz reallığında sanki bu qırmızı rəng bir ilğım idi... Onda Nailə İlqardan onu eynən belə maşında gəlin aparmağı təvəqqe etmiş, sonrasa fayton arzulamışdı... İşə bax, indi İlqar “Rolls Roys”da gəlin aparmalıdır. Ancaq Nailəni yox, başqasını. Bəlkə də, üzünü indiyədək cəmi 2-3 dəfə gördüyü Səidəni...

Nəhayət, İlqarı muştuluqlayıb az qala itələyə-itələyə küçəyə çıxartdılar, yağışın altında parıltısından göz qamaşan tünd göy rəngli “Rolls Roys”a əyləşdirdilər. Asif məxmər örtüklü nəhəng gül dəstəsini ehtiyatla içəri salıb, sonra özü də əyləşdi və maşın karvanı yerindən götürüldü... Marşrut belə cızılmışdı: Baksovetə - Nikah evinə, sonra Şəhidlər Xiyabanına, sonra da “Abşeron”a...

... Yeddiyə iyirmi dəqiqə işləmiş toy karvanı “Abşeron”un qarşısında dayandı. İlqarla Səidəni atəşfəşanlıqla yuxarı çıxarmağa başladılar.

İlqar bu zahiri təntənənin içində özünü son dərəcə yalqız, bədbəxt hiss edirdi. Qəribədir, Nailə kimi bir qızla o cür məhrəm görüşlər keçirən, onun bədəninin az qala hər bir əzasından zövq alan İlqar Səidə adlı bu əndamlı, dolu qızla, bu kifirlərdən heç nə ilə fərqlənməyən qarabəniz, ancaq forsu yerə-göyə sığmayan qızla necə yaşayacaqdı? Bir yastığa necə baş qoyacaqdı? Necə sevişəcəkdilər? Görəsən, bu dolu qız bir gün lap uşaqlıq edib Nailə kimi ona “məni qucağına götür” desəydi, onu bu bədənlə qucağa götürməkmi olardı?

Artıq bəylə gəlin öz yerlərinə keçmiş, Mamed müəllim toyu açıq elan etmişdi. Tamadalıq eləyən Arif Quliyev ilk hoqqalarını çıxarıb camaatı gülməkdən qırmağa başlamış, müğənni Ağadadaş Ağayev ilk mahnılarını oxumuşdu...

Ancaq İlqar ətrafda baş verənlərdən sanki xəbərsiz idi... Gözü bərli-bəzəkli adamların arasında Şöləni axtarırdı. Şöləni toyuna dəvət etmişdi. İndi sanırdı ki, Şöləni görəndə Nailəni görəcək, ondan Nailənin qoxusunu alacaq...

İkimizdə bir ürək var,

Yarı səndə, yarı məndə.

Sevgi adlı bir ağacıq,

Budaq səndə, barı məndə...

Ağadadaş oxuyurdu...

> - Mən xoşbəxtəm ki, Abbas Şeyxzadə kimi bir adamla quda oluram. Bu gündən mən fəxrlə hamıya “o kişinin qudası-yam” deyəcəm.

Mamed müəllim deyirdi...

> - Sənin nəyin var? Oğlun? Aha. Bəs tibb bacısının nəyi var? Oğlu? Aha. Bəs niyə sizin oğlunuz olur, mənim qızım? Özünüzə importnıy mal götürürsünüz, mənə mestnıy mal sırıyırsınız?

Arif Quliyev danışırdı...

... Birdən elə bil İlqarın bədənindən cərəyan keçdi. Giriş qapısı tərəfdən soldan ikinci sütunun arxasından bir cüt göz ona baxırdı... O gözlərdən damla-damla yaşlar tökülür, ancaq ayrılıq təşnəsini söndürmək əvəzinə daha da alovlandırır, yandırırdı. İlahi, necə olmuşdu ki, Nailə risk edib bura gəlmişdi?

İlqar gözlərini o gözlərə zillədi. Nə vaxt idi həsrət qaldığı o gözlərə... O gözlərdə nələr yox idi, ilahi... Sevgi, məhəbbət, həm də nifrət. Qəzəb, küdurət, həm də yalvarış...

İlqar sanki bəy olduğunu unutmuşdu, lap uşaq kimi ağlayırdı. Çiyinləri qalxıb enirdi... Yaxşı ki, qızışmış məclisdə heç kim, hətta sağ-solunda oturan Asiflə Səidə belə bunu sezmirdilər...

Masanın üstündəki konyakı iri limonad stəkanına süzüb başına çəkdi. Sonra heç nəyi vecinə almadan əlinin işarəsi

ilə musiqiçilərdən birini yanma çağırıb ona mahnı sifariş verdi. Ağada-daş oxumağa başladı:

Bu qala daşlı qala,

Çınqıllı, daşlı qala.

Qorxuram yar gəlməyə,

Gözlərim yaşlı qala.

Onlar iyirmi-otuz addımlıqda üz-üzə durmuşdular.

İlqara elə gəlirdi ki, məhz bu an sevgi dolu günlərinin son səhifəsi yazılır. Ayrılığı o, elə bu cür də təsəvvür edirdi: onların ikisinə məxsus bir mahnı çalınır, onlar da ağlayırlar... Ayrılığın vida marşına çevrilir bu mahnı...

Nailə də əmin idi ki, İlqarı sonuncu dəfə görür. İndi onu gedər-gəlməzə yola salırdı... Özü də bu mahnı ilə. İkisinin mahnısı ilə...

Elə halda idi ki, mahnını İlqarın sifariş verdiyindən xəbərsiz idi. Elə bilirdi, təsadüfən bu mahnı oxunur...

Qorxuram yar gəlməyə,

Gözlərim yaşlı qala.

Deməli, yar bir də heç vaxt gəlməyəcəkdi. “Vağzalı” sədaları altında tamam başqa bir dünyaya aparacaqdılar onu... Və gözləri əbədi olaraq yaşlı qalacaqdı... Heç vaxt qurumayacaqdı gözləri...

# 24-cü HİSSƏ

# Üçüncü yol

...Nə söyləsəm saxlamaz, göz yaşlarım səni.

Hara getsən qoruyar baxışlarım səni.

Haçan dönsən, onu bil, bağışlaram səni.

...Hər nağıl bitir, yalan çıxıb gedir, doğru qalır.

Bir sevgi itir, yerində bir şirin ağrı qalır.

B.Vəziroğlu

Nailə bulvardakı nəm skamyaların birində bu şər vaxtı necə gəlib oturmuşdu, xəbəri olmamışdı. Bütün bu müddətdə ayrılığın müvəqqəti olduğuna, İlqarın, sadəcə, şıltaqlıq etdiyinə özünü inandırmışdı. İlqarı özündən başqa heç kimlə xəyalına gətirə bilməmişdi...

Ancaq indi, məhz bu 22 sentyabr günündə, bu toy məclisində gəlib ayrılığı öz gözləri ilə görmüşdü. “Daşlı qala” mahnısı isə bu ayrılığın əsl isbatı idi...

Görəsən, Allah niyə ayırdı onları? Ümumiyyətlə, niyə axı biri varlı olur, xoşbəxt olur, biri kasıb olur, bədbəxt olur? Niyə insan nəyisə, kimisə arzulayır, ömrünü bu arzulara çatmağa puç edir. Ancaq onun arzuladıqları - həmin şeylərə və həmin kəslərə ehtiyacı olmayan tamam başqa birisinə qismət olur?

Kimsəsiz bulvarda hönkürür, əllərini yumruqlayıb dizlərinə vururdu. Həyatda müqəddəs heç bir şey qalmamışdı daha. Həyat başdan-başa çirkablıqla dolmuşdu...

... Həmin gecəni Şöləgildə keçirdi. Səhərəcən yatmadılar. Nailə danışdı, Şölə ağladı...

Nailə tam ümidsiz idi. Dedi ki, özümü öldürməyinə öldürmə-yəcəm. Qarşımda isə üç yol var: Birincisi, gedəcəm Hərbi Komissarlığa. Könüllü olaraq Qarabağa yollanacam... Bu alınmasa, Familin təklifini qəbul edib ona ərə gedəcəm. Bu da alınmasa...

Şölə nə illah eləsə də, Nailə üçüncü yolun nə olduğunu demədi...

□□□

Ertəsi gün Şölənin təkidlərinə baxmayaraq, Nailə onu özüylə aparmadı.

Xətai rayon Hərbi Komissarlığında söhbət elədiyi gizir atəşkəs dövründə cəbhəyə könüllülərin lazımsız olduğunu söylədi. Dalınca da dedi: “Gözəl-göyçək qızsan. Get aktrisa ol, kinoya çəkil. Heç bilirsən, necə məşhurlaşarsan? Sofi Lo-ren, yaxud Türkan Şoray sənə həsəd aparar...”

...Famil Nailənin onunla görüşmək istədiyini bilib çox sevindi. Dağdan-dərədən danışdılar.

Axırda Nailə özünü toplayıb soruşdu:

- Sənin mənə münasibətin ciddidir? Əgər ciddidirsə, mən sənin həyat yoldaşın olmağa razıyam...

Famil sevinə-sevinə: - Əlbəttə, - dedi, sonra yenə nəsə demək istədi, ancaq sevincindən dili söz tutmadı...

Nailə göz yaşları içində köhnə evlərini yenidən aldıqlarını, üç min dollar borcunun olduğunu da dedi. Famil: “Sənin

yolunda mən hər şeyə hazıram”, - söylədi. Artıq axşam elçilərini göndərəcəyini də qətiləşdirib evə tələsən Famildən Nailə bir az da yubanmasını xahiş etdi...

Famil sual dolu baxışlarla Nailəyə baxdı. Nailə çıxılmaz vəziyyətdə idi... Gedib tibbi yolla toy ərəfəsində özünün “qızlığını bərpa edib” Famili aldada bilərdi. Bəs sonra ömür boyu vicdan əzabı çəkməzdimi?

Gözünü yerə dikib çətinliklə başına gələnləri Familə danışmağa başladı... Heç sözünü axıra çatdıra bilmədi. Onu gördü ki, Famil ağır-ağır addımlarla heç nə demədən onu tərk edir...

İndi onun bircə yolu qalmışdı, Şölədən gizlətdiyi yolu...

□□□

... Nailə qapının zəngini bir də basdı. Ağır dəmir qapı aralandı. Ruqiyyə onu görcək təəccübləndi:

- Nə tez qərara gəldin? Keç içəri.

Nailə içəri keçdi...

□□□

Yalvararam torpağa,

Göyə, aya, günəşə.

Bürüyərəm dünyanı

Mən alova, atəşə.

Saralan çiçəyimə,

Gülümə yalvararam,

Mən sənə yalvarmaram.

M.Ələkbərli

# 25-ci HİSSƏ

# Günahkar kimdir?

...Əslində, başqaları üçün yaşamaq və ölmək özün üçün yaşamaq və ölməkdən daha asandır. Çünki birincinin ssenarisini özün yazırsan. İkincinin ssenaristləri isə başqaları olur.

- Uy da. Metroda, avtobusda kimi görürsən, hamısı “Sonuncu ölən ümidlərdir”i oxuyur. Dükan-bazara, bərbərxanaya, poliklinikaya - hara gedirsənsə, hamı Nailəylə İlqarın taleyini müzakirə edir. Heç televizordakı seriallardan danışan yoxdur...

Şölə xanım bunları söyləyib çətirini çırpdı, sonra onu bağlayıb bir küncə qoydu.

- Bağışlayın, salamlaşmaq yadımdan çıxdı.

Divar boyu düzülmüş stullar onun gəlişi ilə dərhal doldu. Şölə xanımın bu səhər gördükləri barədə təəssüratları qurtarmırdı :

- İki qız “28”-də minib “Elmlər”əcən mənimlə birgə gəldilər. Yazıdan o qədər təsirlənmişdilər ki... Biri o birinə deyirdi ki, yazının təsirindən bütün gecəni yatmamışam. Hey ağlamışam. Həyatın qəddarlığı Nailənin taleyində çox gözəl ümumiləşib. O biri də əsərdən təsirləndiyini, ancaq bunun adi yazıçı təxəyyülü olduğunu bildiyi üçün sakitləşdiyini önə çəkirdi... Özümü saxlaya bilmirdim. Az qalırdı, deyəm ki, Nailə ilə İlqar heç də uydurma qəhrəmanlar deyillər. Onlar mövcuddurlar...

Zaman - səni sənin əzəlindən götürüb səni sənin sonuna aparan bir məfhummuş, demə. İbtidaidən aliyə doğru inkişaf zərurətdir. Və ibtidai ali ilə müqayisə olunmaz dərəcədə

aşağıdadır. Ancaq ibtidailik - nə qədər bəyənilməyən olsa da, aliliyi gözləmək mərhələsidirsə, alilik - nə qədər bəyənilsə də, sonu - məhvi gözləmək mərhələsidir. Loru dillə desək, körpəlikdən sonra ahıllıq gəlir, sonra isə ölüm...

Mən diktofonu hazırlayıb Şölə xanımın "iş başına" keçəcəyini gözləyirdim. O isə elə hey danışırdı:

- Düşünəndə ki, ürəklərə yol tapan, insanları fikirləşməyə, haqq yolunu tutmağa məcbur edən bu əsərin əmələ gəlməsində mənim də payım var, o qədər sevinirəm ki...

Üzünü mənə tutdu:

- Çox sağ olun. Elə inandırıcı, elə səlist, elə yapışıqlı yazırsınız ki, adam lap valeh olur. Sanki qəhrəmanların arasında özünüz olmusunuz, bütün hadisələrin də şahidisiniz. Elə olur, emosiyalara uyub hansısa detalı, ştrixi unuduram. Ancaq ertəsi günü unutduqlarımı qəzet səhifəsində görürəm... Hərdən sizə lap qibtə edirəm. Deyirəm, nə olaydı, bu əsəri elə özüm yazaydım. Neynəyim ki, Allah mənə belə bir istedad verməyib.

Mən nəzakətdən kənar olsa da, ona him-cimlə saatı göstərdim.

- Hə, hə, başlayıram.

Diktofonun işləyib-işləməməsini bir daha yoxlayıb dedim:

- Nailənin Ruqiyyəgilə getməsi hamımızı şoka salıb. Hər şeyi gözləyirdik, ancaq bunu... Sözün düzü, daha onu qınamaq belə istəmirik. Bu yolu o özü seçib. Və bu yol onu mənzil başına aparır... Günahkar axtarmağımız da yersizdir. Bərq vuran həyat axtaran Nailənin özüdürmü günahkar? Bəlkə, günahkar onu bir gül kimi qoxulayıb,

sonra atan İlqardır? Ya da tabeçiliyində olmasından istifadə edib ləkələyən müdiridir? İndi daha bunların cavabını axtarmağın heç bir mənası yoxdur.

Kişi əməkdaşlardan biri dedi:

- Yəni siz Nailənin anasında bir günah görmürsünüz? Qızı 8 min dollar verib mənzil alır, ana deyilən bəndə ondan soruşmur ki, bu pullar səndə hardandır?

Başqa bir kişi əməkdaş da söhbətə qoşuldu:

- Nailənin atası da günahkardır. Üç övladını taleyin ümidinə buraxmasaydı, heç belə də olmazdı...

Məktublar şöbəsində işləyən, yaşca hamıdan kiçik olan xanım isə mübahisəyə yekun vurdu:

- Yox, əsas günahkar yenə də Nailədir. O, İlqarın toyundan çıxandan sonra heç vəchlə qadın pritonuna getməməliy-di. Bulvara düşəndən sonra, gərək, özünü dənizə ataydı. Belə olardısa, mən onun bütün günahlarını bağışlayardım...

## 26-cı HİSSƏ

## Bambaşqa bir həyat

Gözlərimdən yuxuları, Ərşə çəkib getdin o gün. Bir tikanlı qızılgül tək Ürəyimdə bitdin o gün. Xəyal kimi, röya kimi, İlim-ilim itdin o gün. Qəlbimdə sən, fikrimdə sən, Hissimdə sən səhər-axşam, Sənsiz yaman darıxmışam, Sənsiz yaman darıxmışam.

Z.Ülvi

Qara rəngli 300-lük “Mercedes” Bakının küçələrinə öyrəşmişdi artıq. Toydan keçən bu bir həftədə az qala gündə iki dəfə qayınanasının, gündə üç-dörd dəfə də həyat yoldaşının sifarişlərini yerinə yetirməklə məşğul olmuşdu İlqar.

- A bala, zəhmət olmasa, get baldızın uşaqlarını məktəbdən götür.

- A bala, aptekdən mənim dərmanlarımı sifariş ver.

- A bala, kartof-soğanımız tükənir, dibi qalıb...

- İlqar, telefonumun aylığını ödə.

- İlqar, bryuçnıy kostyumum padruqamgildədi, get onu götür. Axşam nişana onu geyinəcəm.

- İlqar, hara gedirsənsə, get, saat 3-də evdə ol, məni parixmaxerskiyə aparmalısan...

Bu yeknəsək həyat İlqarı artıq bezdirmişdi. Və o, sabahından qorxurdu. Əgər cəmi bir həftəyə ailə həyatı onu boğaza yığmışdısa, sonrakı uzun illəri bəs necə keçəcəkdi?

Bu gün saat 11-də “Bal ayı”nı keçirmək üçün Səidəylə Moskvaya uçacaqdılar. Bu səyahət toydan əvvəl planlaşdırılmışdı. Səyahətin təşkilatçısı olan Abbas Şeyxzadə təzə evlənənlərə on marşrut təklif etmişdi:

- Antalya.

- Bodrum.

- Mineralnıye Vodı.

- Borovoye.

- İssık-Kul.

- Qızıl qum.

- Aluşta.

- Maldiv adaları.

- Havay adaları.

- Cənubi Kipr.

İlqar bunu etinasız qarşılamış, “mənimçün hara getməyin fərqi yoxdur” söyləmişdi. Səidə, anası və Abbas Şeyxzadənin özü isə marşrut seçməkdə qızğın mübahisəyə başlamışdılar:

- Pa, mən Havay adalarını istəyirəm. Maldiv də pis deyil.

- Abbas, oralar çox uzaqdır. Antalya yaxşıdır.

- Məndən olsa, Krıma gedərsiz.

- Yox pa, Krımda nə var? Ora mübahisəli ərazidir. Ruslarla xaxollar birdən müharibə eləyərlər.

- Havayda da güclü qasırğa ola bilər.

- Ay qızım, ay Abbas, mən deyənə qulaq asın. Vallah Türkiyə yaxşıdır. Qulağımızın dibidir.

- Ona qalsa, Türkiyədə də PKK terrorçuları peyda ola bilər...

Nəhayət, Abbas Şeyxzadə püşkatma yolu ilə “Bal ayT’nın keçiriləcəyi yeri müəyyənləşdirməyi təklif etmişdi. Səidə xırda kağızlar kəsib hərəsinə bir marşrut adını yazmışdı. Kağızları büküb atasının norka papağının içinə qoyub

qarışdırmışdı. Püşk çəkmək işi isə İlqara həvalə olunmuşdu. O, könülsüz-könülsüz bükülü kağızlardan birini çıxartmışdı: “Borovoye”.

Bu, Moskva vilayətində yerləşən bir turizm kompleksi idi. Daha çox rus generallarının bağ evləri ilə məşhur olan Borovoyenin adını İlqar birinci dəfə eşitdiyindən, sadəcə, ağzını büzmüşdü...

...İlqar üçün evlənəndən sonra ən maraqlı məşğuliyyət, şübhəsiz, “Mercedes”-lə Bakı küçələrini gəzmək idi. Evdən heç bir tapşırıq verilməyəndə asta-asta bu qara gözəllə fırlanır, ətrafdakıların heyranlıqla onun maşınına baxmasından qürur duyurdu. Bakının küçələrində xarici maşınlar hələ ki, az idi. Onların da əksəriyyəti köhnə markalar idi. Yağ içində “Mercedes”-ləri barmaqla saymaq olardı...

...İndi, Moskvaya uçmaq ərəfəsində o, iyirmi dəqiqə vaxt tapa bilmişdi. Və böyük sürətlə maşınını Nailəgil yaşayan yataqxanaya qovurdu. Toyunda Nailənin peyda olması, sütunun arxasında durub baxması, “Daşlı qala” mahnısı, hər ikisinin hönkürməsi heç cür beynindən çıxmırdı...

Bilmirdi Nailəyə nə deyəcək. Bilmirdi ondan nə təvəqqe edəcək. Sadəcə, onu görmək, onun cazibəsini, sehrini hiss etmək, ətrini duymaq istəyirdi...

Bu da yataqxana binası... Adəti üzrə dərhal ikinci mərtəbəyə, tən ortadakı pəncərəyə boylandı. Və... yerindəcə quruyub qaldı. Nailəgilin xırda güllü, ağappaq pərdələri yox idi.

Onu tanıyıb başına toplaşan kirli-pasaqlı uşaqlar səs-səsə verdilər:

- Əmi, Nailə xalagil köçdülər.

- Hara?

Uşaqlardan bir cavab ala bilməyib özünü komendantın otağına atdı. Komendant metal dişlərini parıldada-parıldada ona Nailəgilin Əhmədliyə köçdüklərini dedi, ev telefonlarının nömrəsini verdi. Və İlqar otaqdan çıxhaçıxda onun ardınca söz atdı:

- Mən Nailəylə yaxın əlaqədəyəm. Nə lazımdırsa, çatdıraram.

Ancaq İlqar bu sözlərin mahiyyətinə varmaq halında deyildi. Maşına oturub Əhmədliyə doğru şütüdü. “Əzizbəyov” metro stansiyasına çatanda işıqforda xeyli yubandı, saatına baxdı. Yox, bu dəqiqə geri qayıtmasaydı, təyyarəyə gecikəcəkdilər... Qəzəblə dövrə vurub geri qayıtmağa başladı... Bir qədər gedib yenə maşını saxladı. Nailədən ötrü, sözün həqiqi mənasında, ölürdü. Yenə toy gününü xatırladı. Sütuna söykənib göz yaşı axıdan Nailə onun iç-dünyasını dağıdır, ürəyini ovuq-ovuq edirdi... Getsinmi onun dalınca?

Bəs ailəsi? Dünən şeş, bu gün beş? Bəs ata-anası? Bəs qayınatası ilə bağlı perspektivlər? Bəs altındakı bu qara gözəl? Nə etsin? Nailə onun qayınatası ilə yatırdı. Bunu ona bağışlamaq olardımı?

Maşınını işə saldı. Səidəni götürüb elə bu dəqiqələrdə aeroporta yola düşməliydi... Bəlkə, Moskva səyahəti, doğrudan da, romantik olacaqdı, eyni açılacaqdı?... Allaha dua etdi ki, kaş unuda bilsin Nailəni...

Səidənin: - Harda qalmısan? Gecikirik axı? - sözləri ilə tamamlanan telefon zənginə qısaca cavab verdi:

- Çatıram.

# 27-ci HİSSƏ

# Küləkdə uçuşan kağız parçaları

Məni bu günümdə axtarma, görmə. Qorxuram görərsən, yazığın gələr. Həsrətin qonduqca kirpiklərimə, Üstünə qar yağar, dolu ələnər.

V.Əziz

Sentyabr hara, belə soyuq hara? Bakı-Rostov magistralındakı elitar motelin otaqlarından birində Nailə sobanın qarşısında qızınırdı. Bugünkü “tanış”ı -bank sistemində çalışan Mais zəngin süfrənin arxasında oturub siqaret çəkirdi...

Yataq dağılmış halda idi...

Televizorda nəsə əyləncəli proqram nümayiş olunurdu. Onun səsi maqnitofonun səsinə qarışmışdı. İlhamə oxuyurdu: Göz yaşımı silərsənmi?

Bir insafa gələrsənmi?

Özün durub gələrsənmi?

Bilsən, necə darıxmışam...

Deyəsən, yeni mahnı idi. Haçan üzə çıxmışdı, xəbəri olmamışdı. Ancaq o vaxtlar İlqarla hər yeni çıxan sevgi mahnısını izləyər, bəyəndiklərini bir-birinə telefonda səsləndirərdilər.

Mahnı bitirdi, Nailə dərhal kaseti əvvələ yığırdı:

Çağırıram, çatmır ünüm,

Uzadıram, yetmir əlim.

Sənin üçün əsir qəlbim,

Bilsən, necə darıxmışam...

Mais durub arxadan Nailənin boynunu qucaqladı:

- Səni istəyirəm.

Nailə dartındı:

- Mənə də siqaret ver.

... Hər ikisi siqaret çəkə-çəkə xeyli susdular. Mais onu qəfildən qucağına götürüb otaq boyu gəzdirməyə başladı və tövşüyə-tövşüyə dedi:

- Səni istəyirəm, səni. Səndən doya bilmirəm. Hər gün Ru-fadan səni götürəcəm. Mən heç vaxt sənin kimisini görməmişəm... Sən mələksən, sən sehrkarsan... Sən bilmirəm nəsən...

Nailə çırpınıb onun qolundan düşmək istədi. Mais onu yerə qoydu:

- Sənə nə oldu?

Nailə gedib yenə kaseti əvvələ yığdı:

Bilsən, necə darıxmışam...

... Uzaq, lap uzaq bir günü xatırladı. İlqar onu, bax, beləcə qucağına alıb aparırdı. Yolda onları polislər tutmaq istədilər. Dedilər ki, ictimai asayişi pozursuz... İlqar da onların başlarını aldatdı: guya, Nailə onun nişanlısı idi, qızın ayağı burxulduğundan, onu qucağına almışdı...

...Nailə süfrənin arxasında əyləşdi. Özünə bir qədəh viski süzdü. Qədəhinə buz parçası atıb Maisi çağırdı:

- Gəl içək.

Mais də gəlib əyləşdi. O da özünə viski süzdü. Qədəhləri toqquşdurdular. Mais sonra öz qədəhini Nailənin burnuna vurdu. Sanki qəsdən belə edirdi. Axı qədəhi buruna vurmaq da İlqarın adəti idi... Nailə çətinliklə özünü toxdatdı...

Çiskinli sentyabr günündə günorta da olsa, elə bilirdin, hava qaralıb. İçki Nailəni elə tutmuşdu, indiyə kimi ürəyinə yük olan dərdini açıb daşa, divara, ya da Maisə, axır ki, nəyəsə, kiməsə danışmaq istəyirdi...

Mais isə sərxoş inadla Nailəni yenə də yatağa çağırırdı... Ona yalvarır, dünyanın ən dürlü sözlərini deyirdi...

Nailə hönkürdü və Mais elə bil ki, ayıldı. Ondan qanqaraçılığın səbəbini soruşdu:

- Birinci dəfədir, belə şey görürəm. Adətən, sənin kimi qızlar şən olurlar...

“Sənin kimi qızlar” sözü Nailəni lap ağrıtdı. Artıq onu fahişə hesab edirdilər. Bir də ki, fahişənin buynuzu olmur ki? Pulun müqabilində bu it iyi verən kişiylə bir yatağa girirsə, fahişə deyil, bəs kimdir o? Bir qədəh də viski içdi.

- Bir vaxtlar Naomi Kempbell olmaq istəyirdim...

- O kimdir elə?

- Tanımazsan, bankir deyil. Naomi Kempbell olmaq istəyirdim, ancaq gəlib...

Özünə “fahişə” deməyə dili gəlmədi...

- ... Gəlib, bir gör kim oldum... Bilirsən, acığın gəlməsin, siz kişilər o qədər qəddar, yırtıcısınız ki... Pul qazanan kişilər pul qazanan qadınları bədbəxt etmək üçün yaranıblar. Pul qazanmağa məcbur olan qadının alnına bədbəxtlik yazılıb... Adını desəm tanıyarsan, şəhərin ən pullu kişilərindən biri mənim rəfiqəmin atasıdır.

- Kimdir ki o?

- Nə isə. O kişi mənə "qızım" deyirdi. Yanında işə düzəltdi, məni özünə referent etdi. Onun o qədər artıq pulu var idi. Pulunun yarımca faizi ilə mənim kimi neçə-neçə yetim, yoxsul qızı xoşbəxt edə bilərdi. Etdi də. Ancaq o, bunu bir xeyirxah insan, bir ata kimi yox, bir oğraş kimi etdi, məni yatağına saldı... Heç sən bilirsən, dünyada mənim qədər ikinci bir bədbəxt yoxdur, bilirsən?...

Siqaret çəkməyə alışmışdı. Eynən kişilər kimi bunun da siqaretinin vaxtı gələndə ciyəri yanırdı. Növbəti siqareti alışdırdı.

Bir müddət otağı sükut bürüdü.

Mais xumarlanırdı... Az keçmədi ki, o, özünü çarpayıya yıxdı.

Nailə isə yola boylandı. Maşınlar gəlib keçirdi. Ola bilərdimi ki, bu maşınların içində İlqarın "06"-sı da olsun?

Çantasından telefon nömrələri yazılmış bloknotu çıxartdı, onun bir vərəqini cırıb götürdü. Xeyli eşələyib qələm də tapdı. Stolun üstündəkiləri itələyib, yazı yazmaq üçün yer düzəltdi və yazmağa başladı:

"Əzizim İlqar. Bu, sənə yazdığım on yeddinci məktubdur. Səndən ötrü burnumun ucu göynəyir. Əgər buna yaşamaq demək mümkündürsə, onda mən yaşaya bilmirəm sənsiz.

Qayıt gəl ömrümə, qurban olum sənə. İstəyirəm uzaq, tamamilə yad bir eldə bir qəsrimiz olsun. Orda heç kimi tanımayaq, heç kimin evinə gedib-gəlməyək. Həm bəd nəzərlərdən, həm də dedi-qodulardan uzaq yaşayaq. Səliqəli, gözəl-göyçək yeddi uşağımız olsun. Onlarla birgə xoşbəxt həyat keçirək... Axı sən niyə bu qədər zalımsan? Qayıt, qurban olum. Sənsiz səhərlərim açılmır”.

Nailə daha yaza bilmirdi. Əlləri titrəyirdi. Göz yaşları vərəqin üstünə tökülürdü...

...Sonra o, çantasından üstü qara xallı, yamyaşıl oyuncaq timsahı çıxaracaq, onu öpüb oxşayacaqdı. Bunu ona ad günündə, axı, İlqar bağışlamışdı...

Sonra məktubunu yazıb tamamlayacaqdı. Sonra da həmişəki kimi onu cırıb küləkdə uçurdacaqdı... Və uçuşan kağız parçalarını sonuncusuna qədər gözləri ilə müşayiət edəcəkdi...

# 28-ci HİSSƏ

# Borovoyedə bal ayı

İçim bulud, çölüm bulud, Gözlərimdə bulud-bulud.

Qadan alım, qadan, umud, Qaytar o qızı, qaytar.

V.Xramçaylı

Bakıdan o cür yağışda çıxmışdılar. Onda ki, Moskva ola. Əməlli-başlı sulu qar yağırdı. Borovoye turist kompleksi Moskvanın təqribən 100 kilometrliyində yerləşirdi. Elektrik qatarı ilə bura gəlmiş, rahat kotteclərin birində məskunlaşmışdılar. Ətraf ucsuz-bucaqsız ağcaqayın meşəsi idi. Bir qədər gəzib darıxmış, kottecə qayıtmışdılar. Səidə “Yuxuyozma-lar” kitabını oxuyurdu. İlqar pultla televizorun kanallarını ora-bura çevirirdi...

İçində dəhşətli bir boşluq var idi. O, heç vaxt Bakıda belə hisslər keçirməmişdi. Bu uzaq Borovoye qəsəbəsi öz ağcaqayın meşəsi, rütubəti, hətta hər cür şəraiti olan bu lüks kotteci ilə onu sıxır, sıxırdı...

Mobil telefonunu götürüb Bakıya - evlərinə zəng etmək istədi, istəyi dərhal da yox oldu. Akifə zəng etmək istədi, bu istəyi də yox oldu. Barmaqları qeyri-ixtiyari bir nömrə yığdı. Bu nömrəni bir neçə saat bundan əvvəl ona yataqxana komendantı demişdi... Səidəyə tərəf baxıb cəld telefonu söndürdü, üzü üstə yatağa uzandı.

Buralar həddən artıq rütubətli idi. Bayaq xidmətçi demişdi ki, ehtiyatlı olun, nəbadə bir yerinizi yaralayasınız, aylarla sağalmaz...

Yorğan-döşək rütubətdən nəmli idi.

... Daxili telefon zəng çaldı. Səidə dəstəyi götürdü. Xidməti personal onları şam yeməyinə dəvət edirdi. Özünü yatmışlığa qoyan İlqarı zorla qaldırdı. Yeməkxanaya düşdülər...

Yemək mərasimi də sönük keçdi. Ətrafdakılar deyir-gülürdü. Təkcə bu ikisi yaslı kimi oturmuşdu. İlqar pivə sifariş verdi, dalbadal dörd parç pivə içdi...

... Otaqlarına qayıdan kimi İlqar mobil telefonunu götürüb havaya çıxmaq istədiyini bildirdi.

Səidə dilləndi:

- Mən də gəzmək istəyirəm. Ürəyim darıxır.

İlqar onu başından elədi:

- Gecə vaxtı söz-zad atarlar. Hamısı piyandır. Məni zibilə salma.

Aşağı düşdü. Bir dəstə oğlan-qızın qəhqəhəsi meşəni başına götürmüşdü. Bir qız ona söz atdı:

- Çuvak, tebe odinoko? Prisoedinis k nam. (Ay oğlan, tən-hasanmı? Bizə qoşul.)

İlqar əlini yellədi. Bir qədər meşənin dərinliyinə getməyi qərara aldı. Gedə-gedə Nailənin nömrəsini yığdı. Ancaq çağırış düyməsini basmadı.

Qarşısına bir göl çıxdı. Beton sahildə oturub gölün içinə düşən Ayın əksinə baxmağa başladı. Ay o qədər iri, o qədər gözəl idi ki... Ürəyi bərkdən döyünməyə başladı. Ayla bağlı Nailəylə onun bir dünya xatirələri var idi. Yalnız indi, bax, bu anda İlqar başa düşdü ki, Nailəni sevir, dəlicəsinə sevir. Heç nə, heç nə ona Nailəni unutdura bilmir. Hətta qurduğu

ailənin də sonu bir heçlikdir. İlqar bütün çılpaqlığı ilə başa düşdü ki, Nailədən ayrı yaşaması mümkün deyil. Və ürəyində bir əminlik yarandı ki, bu, onu atdı deyə o da bundan qisas almaq üçün elə etdi...

Mobil telefonunun düymələrini yenidən basdı, bayaq yığdığı nömrəni bir daha yığdı.

Siqnal səsləri gəldi, sonra xışıltı eşidildi... Xəttin o biri başında, min kilometrlərlə uzaqda Nailə Sezen Aksuya qulaq asırdı...

Aman əfəndi, ayrılıq ölümdən betər.

Canım əfəndi, yetər bu həsrətlik, yetər...

İlqar dəli kimi telefona qışqırdı:

- Mən səni sevirəm, Nailə, eşidirsən?! Sevirəm səni. Çox, lap çox sevirəm... Bilirəm, mənə xəyanət etmisən. Ancaq özümlə bacarmıram. İndi Moskvadayam... Sabah qayıdıb gələcəm... Axşam reysi ilə. Gözlə məni!!! Səni sevirəm!!!

□□□

Qəlbim yaman kövrəlib,

Yaman doluxsunmuşam.

Yadıma yenə də sən,

Sən düşmüsən bu axşam.

Gəlib qulaq asasan,

Neçə dərdim, acım var.

Eh, indi bilsən sənə

Necə ehtiyacım var.

V.Həsənov a

# 29-cıı HİSSƏ

# Oxucu zəngləri

Əslində, qalibiyyət döyüşünə zorən göndərilmiş əsgərlər məğlubiyyət döyüşünün müəllifi olurlar. Qalibiyyət döyüşünün müəllifləri isə ancaq könüllü döyüşçülər ola bilər.

Bütün bu günlərdə oxucuların zənglərinin ardı-arası kəsilmirdi:

> - Evdar qadınam. Teleseriallarda xaricilərin bizim mentalitetimizə uyğun olmayan davranışlarına baxmağa məcburuq. Niyə özümüzün teleseriallarımız yaranmır? Elə bu əhvalat ekranlaşdırılsa, bilirsiniz, necə uğur qazanar?
>
> - Nailə kimi bədbəxt olmuş qızlarımız təəssüf ki, çoxdur. Quruluşların dəyişilməsi bizdə ehtiyac içində yaşayan yoxsul təbəqəni yaratdı, insanlar aclıqla sınağa çəkildilər...
>
> - Mən İlqarla Səidənin azarkeşiyəm. Nailə kimi yüngül əxlaqlı qızla kef çəkən İlqar indi ailəsini düşünməli, Nailəni unutmalıdır. Heç istəməzdim, İlqarın ailəsi dağılsın.
>
> - Çox aktual məsələ qaldırırsınız. Yer kürəsində milyardlarla insan yaşayır. Ancaq gözəllərin sayı heç minlərlə də deyil, azdır. Gözəlləri qorumaq lazımdır. Hanı sponsorlar, pro-düsserlər, rejissorlar, modelyerlər? Niyə heç kim bu ilahi gözələ diqqət yetirmir?
>
> - Mənim səksən yaşım var. Kəndimizdə cavan qalmayıb. Hamısı çıxıb Bakıya, Ursetə gedib. Yazınızı təzə əlifbanı bilmədiyim üçün nəvəmə oxutdururam. Nailəyə ürəyim yanır. Elə bizim qızlara da ürək yanasıdır. Neçə-neçə

qızımız qarıyıb qalıb. Müharibədə həlak olan şəhidlərin sayı qədər qız-gəlinimiz qarıyıb, dul qalmışdı. İndi də kəndini-kəsəyini atıb dolanışıq dalınca gedən cavanlarımızın sayı qədər qızlarımız qarıyır... Mən hökumətimizdən xahiş edərdim ki, hər cür nazirlik yaradıb, bir qadın nazirliyi də yaratsın.

- Mən pedaqoqam. Bu cür yazıların qəzetinizdə çap olunmasının əleyhinəyəm. Bu yolla oxucu toplamazlar axı. Siz heç bilirsiniz, belə yazılar yetkinlik yaşına çatan qızlarımız üçün necə də zərərlidir? Onlar yaxşı geyim, gözəl yaşayış üçün əziyyətlərə qatlaşmaq əvəzinə Nailə kimi dolayı yollar seçib əxlaqsızlığa tuş ola bilərlər axı...

- Ay bala, qurban olum, qoca arvadam, özü də xəstəyəm. Nailəylə İlqarın əhvalatının sonu necə olacaq? Mənə danışın, qorxuram yazının dalını gözləməyə əcəl imkan verməyə...

... Dünən Şölə xanım gəlməmişdi... Bütün redaksiya bir-birinə dəydi. Az keçmiş zəng elədi ki, bir az özünü pis hiss edir, gəlməyəcək. Bu gün gələndə hamı onun başına toplaşdı. Şölə redaksiyamızın ən istəkli adamına çevrilmişdi...

- Dünən nə yerdə idim, nə göydə. Bura elə öyrəşmişəm ki. Elə bil, bura mənim iş yerimdir, hər gün bura gəlməyə artıq vərdiş eləmişəm. Hamınızın xətrini çox istəyirəm...

Şölə xanım yerini rahatlayıb sözünə davam etdi:

- Əhvalatımız sona yetəndən sonra neynəyəcəm? Yenə də dörd divar? Bağrım çatlayacaq ki.

Ona ürək-dirək verdim:

- Niyə ki. Biz səni tez-tez yoluxarıq. Ya da lap elə səni bura işə götürərik.

Üzüm-gözüm ona o qədər öyrəşmişdi ki, özüm də hiss etmədən “siz”dən “sən”ə keçmişdim.

- Doğrudan deyirsiniz? Uy da. Necə də maraqlı olar jurnalist işləmək. Elə reportajlar yazaram ki. Özümün oxucularım olar. Qəzeti açan kimi imzamı axtararlar: “Şölə Əfqan qızı”.

Ah çəkdi.

- Əfsus ki, bütün bunlar mümkünsüzdür. Yoldaşım heç vaxt mənim işləməyimə, kollektiv içinə çıxmağıma imkan verməz.

Sonra da qeydlər apardığı bloknotunu qarşısına qoyub vərəqləməyə başladı...

## 30-cıı HİSSƏ

## Yarımçıq qalmış istirahət

Ürəyimi xatirələr, Yarpaqları külək ovur. Adamların arasıyla, Tale məni hara qovur. Ya dəli ol, ya dərdli ol, Biri bilsə, beşi bilməz. Bu küləkdə hönkürtüylə, Ağlasan da, eşidilməz.

S.Yusif oğlu

İlqarın evə qayıtmaq təklifi Səidəni çaş-baş qoydu. Kottec otağında sakitcə uzanıb gözlərini tavana dikmişdi...

Bu gün oktyabrın 1-i, yağmurlu, soyuq bir gün idi. Bir qədər əvvəl “Utro” verilişində demişdilər ki, Bakıda çox istidir: +30, +32 dərəcə. Fərqə bir bax. Burada cəmi 11 dərəcə isti

var idi. Ancaq bunlar Bakıdan çıxanda orada da hava soyuq idi...

Sinəsinə qoyduğu “Yuxuyozmalar” kitabı sürüşüb yerə düşdü. Əyilib onu götürməyə ərindi.

...Tavan ağappaq idi. Pəncərələrin üstü rütubətdən azacıq qaralmışdı...

Buranın səliqə-sahmanına söz ola bilməzdi. Hər gün iki dəfə otaqları silib-süpürər, qapı-pəncərəni açıq qoyub havanı dəyişərdilər...

Səidə üşüdüyündən büzüşdü. Ərinirdi durub pəncərəni bağlamağa. İlqarı səslədi. İlqardan cavab çıxmadı. Düşündü ki, yəqin, İlqar vanna otağındadır. Başını qaldıranda mobil telefonu stolun üstündə gördü. Könlündən evlərinə zəng etmək keçdi. Divardakı düyməciyi basdı. Xadimə qadın içəri girdi. Səidə ona pəncərələri bağlamağı və mobil telefonu verməyi tapşırdı. Xadimə deyilənlərə əməl edib otaqdan çıxdı.

Səidə yenə İlqarı səslədi. Yenə ondan bir cavab çıxmadı. Evlərini yığdı. Dəstəkdə anası idi.

- Ma, salam. Necəsiz?

- Siz necəsiz? Daha ürək-göbəyimi yemişəm. O telefonu sizə niyə almışıq? Gündə heç olmasa, iki-üç dəfə zəng et də. Dünən günortadan zəng etmirsən. Dedim İraq olsun, uşaq xəstələnib eləyər. Havalar-zad dəyişibmi orada? Yoxsa yenə soyuqdur?

- Soyuqdur. Bütün günü yağış yağır. Əntiqə meşələri var. Gəz özünçün.

- İlqar yanındadır?

- Yox, harasa çıxıb. Papa necədir, yaxşıdır?

- Hə, işdədir.

- Ma, heç soruşmuram, Nailədən xəbər-ətər var?

- Onun abrını ətəyinə elə bükməmişəm ki, bir də səsi çıxsın. Ləçər qızı ləçər. Atası yaşda kişini tovlayıb yoldan çıxarmaq istəyir, orda-burda söz yayırdı. Papan elə yaxşı dedi də. Dedi ki, mənim adımdan çox adam istifadə edir... Mənə də mən deyərlər. Yaxşı verdim dərsini. İndi "cındır" olub, gedib. Deyirlər beş-on şirvandır qiyməti...

İlqarın Bakıya qayıtmaq fikrini anasına dedi:

- Ma, İlqar Bakıya qayıtmaq istəyir.

- Niyə?

- Nə bilim. Günorta papa gələndə qoy mənim zəngimi gözləsin.

- Dalaşıb-eləməmisiz, qızım?

- Yox.

- Bəs onda onun başına at təpib? Filan qədər pul xərclənib e putyovkanıza...

... İlqar otağa girdi. Üzünü qırxmışdı. İndi də odekolonu ovuclayıb üzünə sürtürdü... Telefonla danışıb qurtaran Səidənin çarpayısını silkələdi:

- Tənbəl. Dur, gedək səhər yeməyinə.

... Deyəsən, soyuqdan idi. Hər ikisinin bir iştahı vardı ki, yeməyə. İki nəfərə 5 nəfərlik yemək yedilər. Sonra çıxıb gəzməyə başladılar. Yağışdan sonra yerdəki yarpaqlar nəm

qarışıq xəzəl qoxusu verirdi. Ciyər dolusu nəfəs alır, bu təkrarsız qoxunu udurdun. Adamda xoş əhval- ruhiyyə yaranırdı...

- Skoro naçnyotsya sezon qribov. Vı znayete, eto neçto potresayuşaya... (Bir azdan göbələk mövsümü başlayacaq. Siz bilirsiniz, bu, əntiqə bir şeydir.)

Onların təbiətdən ləzzət aldıqlarını görən rezin çəkməli bir babulya söylədi bunları.

Səidə fikirli idi.

- ... İlqar, niyə yarımçıq qayıdırıq ki? Mən getmək istəmirəm. Bura yaxşıdır. O boyda xərc töküb gəlmişik. İndi niyə qayıtmalıyıq? O kazax qonşularımız var e, deyirlər ki, bura cənnətdir. Deyirlər, burda bir göl var ki, içində qayıq-nan üzürsən, yanında da quşlar üzürlər...

- Səidə, axşam reysi ilə mütləq uçmalıyıq Bakıya. Mənim çox vacib işim var.

- Sənin axı nə vacib işin ola bilər? Sənin ən vacib işin ailəndir. İşləmirsən, qazanc fikri eləmirsən. Hamısını papa verir. Başqa nə ola bilər ki?

... Günortaya kimi Səidə bir neçə dəfə onunla mübahisə etdi. İlqar getməyə tutarlı bir səbəb göstərə bilmədi.

Günorta Səidə Bakıya zəng edib atası ilə salamlaşdı və telefonu İlqara ötürdü. Abbas Şeyxzadənin zəhmli səsindən İlqar lap çaş-baş qaldı. Ancaq ani olaraq beyninə girən bir fikir sanki onun xilaskarına çevrildi...

- Sən Bakıya qayıtmaq istəyirsən?!

Abbas Şeyxzadə bu sualı vermişdi və cavab gözləyirdi. Bundan da gözəl tapıntı ola bilərdimi? Oktyabrın 3-ü Azərin - İlqarın ən yaxın dostunun 25 yaşı tamam olurdu. Hərçənd Azər orta məktəbdən üzübəri həmişə ad günləri keçirərdi, ancaq bircə dəfə də olsun İlqar bu məclislərdə iştirak etməmişdi... İndi belə çıxırdı ki, ən yaxın dostunu həmin gün tək qoymağa İlqarın mənəvi haqqı çatmır...

- Balam, belə bir işin var idi, ad gününü yola verib sonra gedərdin də?

İlqar dedi ki, səyahətə çıxanda Azərin ad günü heç yadıma düşməyibmiş...

Abbas Şeyxzadə könülsüz də olsa, İlqarla razılaşmalı oldu. İlqar telefonu kreslonun üstünə atıb üstündən ağır dağ götürülübmüş kimi dərindən nəfəs aldı, kefi kök halda televizorda ifa olunan xarici klipin sədaları altında dingildəməyə başladı. Sonra daxili telefonla istirahət bazasının inzibatçısına zəng vurub axşam reysinə 2 bilet sifariş verdi. Vaxta çox qaldığı üçün və darıxdığından ürəyi partladığına görə Səidəni də götürüb gəzməyə çıxdı. Səidənin bayaq haqqında ağızdolusu danışdığı həmin gölə gəldilər. Qayıq gəzintisi, doğrudan da, əntiqə idi. Narın yağış çisələyir, ətrafın göyümtül və yaşıl rənglərini ağ su xətləri ilə bəzəyirdi. Yan-larınca üzən yaşılbaşlar sanki yarışa çıxmışdılar, qayığı ötməyə çalışırdılar.

Səidənin qanıqaraçılığı getmişdi. Göldə üzən səyyar kafe-restorandan aldıqları dondurmanı həvəslə yeyirdi...

İlqar isə xəyalən Nailənin ağuşunda idi. Onu öpürdü, oxşayırdı... Saatına baxdı. İlahi, yəni doğrudanmı, bir neçə saatdan sonra onlar yenə də bir yerdə olacaqdılar?

# 31-ci HİSSƏ

# « Qayıt, mənim gülüm»

Həsrətin araya atdı dağ, dərə, Sönən işıq oldun, batan səs oldun. Qayıt, mənim gülüm, qayıt bu yerə, Ey mənim istəyim, nə gəlməz oldun.

Ə.Kərim

O gözlənilməz gecə zəngindən, “Səni sevirəm, gözlə məni!” hayqırtısından sonra Nailə hələ də özünə gələ bilməmişdi. İlqarla bağlı ən son ümidlərini dəfn etdikdən, dünyada ən çox istədiyi bu adamı itirdiyini, özü də əbədi itirdiyini dərk etdikdən sonra sanki dünyasını bir başqa dünya ilə əvəz etmişdi. Elə bir dünya ilə ki, bu dünyada nə istək var idi, nə arzu. Nə hiss var idi, nə həyəcan. Nə sevgi dolu, ürək çırpıntılı gözləntilər var idi, nə də ehtiras dolu, xoşbəxtliyə bulaşmış intim görüşlər... Bu dünyada təkcə çirkab, üfunət qoxulu yaşantılar var idi, bir də yaşıl əskinasları üst-üstə yığıb gözləmək. Vəssalam. Qəfildən gələn o gecə zəngi isə onu hər şeyin dəyişəcəyinə ümidləndirmişdi. Yəni, doğrudanmı, İlqar onun ömrünə qayıdırdı?

Bacısı və qardaşı ilə Mərkəzi Univermağın mərtəbələrini bir-bir gəzirdilər. Nailə onlara qış üçün əyin-baş almalı idi. Ancaq heç özündə-sözündə deyildi. Gözü yolda idi, qulağı səsdə. Tez-tez əl çantasını açıb oradakı “Erikson” markalı mobil telefona göz yetirirdi. Birdən İlqar gələrdi, ona zəng edərdi... Hərçənd, bu telefona İlqarın zəng edəcəyi qeyri-mümkün idi. Çünki dünən almışdı “Erikson”u... Nömrəsini isə hələ Ruqiyyədən, Şölədən və evdəkilərdən başqa heç kim bilmirdi. İlqar isə zəng etsəydi, yəqin, onların evlərinə zəng edərdi...

- Bacı, səniynənəm. Bu kurtkadan xoşum gəldi.

Nailə sanki yuxudan ayıldı. Qardaşı göstərən dəri gödəkçəyə göz gəzdirib satıcı qızdan soruşdu:

- Xanım qız, neçəyədir bu? İki yüz iyirmi minə? Qurtaranı neçəyədir? İki yüz on beşə?

Qardaşı gödəkçəni geyindi. Şəstlə güzgünün qabağında durub özünə baxmağa başladı. Bacısı sevinclə dedi:

- Nayka, gör necə yaraşır...

Gödəkçəni alıb yenə satış salonlarını gəzməyə başladılar. Bu dəfə bacısı onu plaşlar satılan şöbəyə çəkdi. Bir plaşın qarşısında dayandılar.

- Nayka, mən bu plaşı istəyirəm.

Nailə qiymət etiketinə baxdı.

- Bacı, bu çox bahadır. Bir qədər münasibini tap. Bilirsən ki, çoxlu borcum var.

Bacısı burnunu salladı.

Yenə gəzməyə başladılar. Birdən telefon zəngi gəldi. Nailə ürəyi döyünə-döyünə telefonunu çıxartdı. Yox, İlqar deyildi, Ruqiyyə idi.

- Saat 5-də ol köhnə “İnturist”in qabağında.

Bircə bu çatmırdı. Axı bu axşam İlqar gələsiydi...

- Rufa xanım, mən özümü pis hiss edirəm. Bir-iki gün mənə toxunmayın, xahiş edirəm.

- Başa düşmədim. Necə yəni, mənə toxunma? Sənin özünü pis hiss edəcəyin kritik günlərinin qrafiki məndə var. Sən, deyəsən, həddini aşırsan. Unutma ki, mənə

olan borcların nə qədərdir. Sonra “şotçik” qoşaram, heç evinizi də satıb altından çıxa bilməzsən. Qulağını aç, yaxşı-yaxşı eşit: saat 5-də köhnə “İnturist”in qabağında ol.

Nailə ağır-ağır telefonunu əl çantasına qoydu. Hiss etdi ki, selin axarındadır. Oradan çıxmaq isə çox çətindir, bəlkə də, mümkünsüzdür. Bəs İlqar? İlqar axı qayıdıb gəlsə, onunla qovuşsa, dünyanın ən xoşbəxt adamı olardı... İkili həyatını keçirsin? Axı bu, necə ola bilərdi? Bəlkə, yalvarsın, göz yaşları axıtsın, Ruqiyyəni başa salsın?

- Nayka, qurban olum, al da bayaqkı plaşı...

Bacısının yaşarmış gözlərini görüb plaş şöbəsinə qayıtdı...

# 32-ci HİSSƏ

# Yenə də birlikdə

Yenə bu şəhərdə üz-üzə gəldik, Neyləyək, ayrıca şəhərimiz yox... Bəlkə də, biz xoşbəxt ola bilərdik, Bəlkə də, xoşbəxtik, xəbərimiz yox.

R.Rövşən

Zil qaranlıqda yalnız onların odlu pıçıltıları eşidilirdi:

- Səni sevirəm, Nailə.

- Səndən ötrü ölürəm, İlqar.

- Mən səndən ayrı yaşaya bilmirdim, Nailə.

- Mən səndən ayrı ölmüşdüm, İlqar...

Onlar bir-birilərinə sarmaşır, ehtiraslarından bu kimsəsiz bağ evini qızdırır, sonra yorulub əldən düşür, sakitcə yeni qüvvə toplayırdılar...

... Gecə saat 1-də görüşlərinə olan bütün ümidləri qırılan Nailə yerinin içinə girmişdi ki, yatsın. Elə bu vaxt İlqar zəng etmiş, evlərinin səmtini soruşub ondan 20-cə dəqiqəyə geyinib aşağı düşməyi xahiş etmişdi.

Səidəni yolboyu hazırlamışdı: - Bakıya çatan kimi gecə də olsa, gərək, gedim Azərgilə... Görüm nələri çatmır, nə problemləri var. Necə də olsa, yubileyidir. Hörmətli adamlar gələcək... Bəlkə, heç, yazığın pulu-zadı yoxdur...

... Düz yeddi dəqiqə gözlədikdən sonra Nailə blokdan çıxdı, keçib arxa oturacaqda, ortada oturdu. Salamdan əvvəl: “Maşının mübarəkdir” - dedi. İlqarın dözümü bircə tinə çatdı.

Binanı keçən kimi maşını saxlayıb düşdü, arxaya keçdi, Nailənin üstünə atıldı. Bəlkə də, yarım saat, bax beləcə, öpüşdülər.

Haçandan-haçana İlqar maşınını bağ massivinə sürdü.

... Bu atılmış bağla onları o qədər xatirə bağlayırdı ki... Burada necə xoşbəxt günlər keçirmişdilər... Qəribədir, on gün, lap elə beş gün əvvəl, lap elə dünən günorta heç birinin ağlına gəlməyən bir iş baş vermişdi: onlar yenə də bir yerdə idilər. Bu bağ növbəti dəfə onların xoşbəxtliyinin şahidi idi...

- Sən niyə məni atmışdın, İlqar?

Qaranlıqda ani işıq yanıb-söndü. İlqar siqaret yandırdı.

- Özün dedin axı, keçmiş barədə bir-birimizə sual verməyək...

- Hm.

- Mən də sənə çox sual verə bilərəm. Özün bilirsən, mənim kimi qısqanc, psix bir adam bütün bu olub-keçənlərdən, sənin elədiklərindən sonra sənin yanına qayıdıb gəlirsə, bu, böyük bir qəhrəmanlıqdır. Gözümə heç nə, heç nə görünmür. Təkcə səni, səni istəyirəm...

Nailə üzünü İlqarın tüklü sinəsinə sürtdü, onu qoxulamağa başladı:

- Səndən ötrü o qədər göz yaşları tökmüşəm ki... Elə bilirdim, gözlərim kor olacaq...

Ağlamağa başladı:

- Sənin qoxundan ötrü burnumun ucu göynəyirdi... Nə yaxşı oldu, sən qayıtdın... Sənə qurban olum...

İlqar siqareti atıb yenə ona sarmaşdı. Yenə bir-birilərinə pıçıltı ilə dürlü-dürlü sözlər dedilər... Sonra sakitləşib hər ikisi pəncərədən havanın işıqlaşmasına tamaşa etməyə başladılar...

Sonra da xatirələr dilə gəldi. “Yadında” sözü ilə birgə keçirdikləri günlərin ən xoşbəxt, ən təkrarsız anlarını xatırladılar. Kinoteatrda bir kişinin onların dondurmalarının üstündə oturması, İlqar Nailəni qucağında gəzdirərkən sarışın starşinanı aldatması, “Xəzər-tan”dakı musiqisiz rəqs etmələri, ləpədöyəndə quma batmış “06”-nı qumdan çıxarmaları, karuseldə on səkkiz dəfə dalbadal dövrə vurmaları və hər dəfə də ən yüksək nöqtədə öpüşmələri, bir dəfə 11 saat bir yerdə olmaları...

Nailə İlqarın ovcunun içini qıdıqladı. Bu isə onlara məxsus parol idi. Yəni səni istəyirəm!

Günorta saat on ikiyə işləmişdi. Bərk acmışdılar. Yataqdan durub geyinməyə başladılar. Sonra “Mercedes”-ə əyləşib şəhərə doğru şütüdülər. İlqar maqnitofondakı kaseti içəri itələdi. Yenə də Sezen Aksu idi oxuyan:

Sen də benim kadar

gerçekleri görüyorsun,

Beraber olamayız

benim gibi biliyorsun,

Bir başka dünyanın

insanısın,

yavrucağım.

Sen kendi dünyanın

toprağında uyuyorsun.

Qəfil Nailənin səsi gəldi:

- İlqar, bizim axırımız necə olacaq?

İlqar yüksək sürətlə sürdüyü maşını saxladı.

Əyləclərin səsi qulaq batırdı. Arxaya keçib yenə Nailəni öpüb-oxşamağa başladı. Haçandan-haçana mobil telefonu ilə nömrə yığdı.

- Alo! Səidə, sənsən?

Səidənin acıqlı səsi gəldi:

- Bura bax, hardasan sən? Telefonunu da söndürmüsən. Azərə zəng vurmuşam, deyir bizə gəlməyib... Evinizə də zəng elədim. Mama gəlib, burdadır. Tez ol, gəl evə.

İlqar bir qədər susduqdan sonra dedi:

- Səidə, mən qəti qərara gəlmişəm, biz ayrılmalıyıq.

□□□

Gözündən as şəklimi,

Ağla, şəklim nəm olsun.

Qoy qara kirpiklərin,

Qara çərçivəm olsun.

Ə.Nuri

# 33-cü HİSSƏ

# «Onıın qarşısında günahkaram»

- Yəni lap bu dərəcədə?

Mən mat qalmışdım.

- Deməli, İlqar Səidəni boşayıb, Nailəni alır?

Şölə xanım dinmirdi. Şərt kəsmişdi ki, heç kəs hadisələri qabaqlayıb ona sonluq barədə sual verməsin.

- Bəs onda, niyə Nailə Abbas Şeyxzadəni öldürür?

Əməkdaşlar da sual yağdırmağa başladılar:

- Yəni İlqar əxlaqsız həyat keçirən Nailəni özünə arvad edir?

- Bəlkə, Abbas Şeyxzadə qızının boşanılmasına mane olduğu üçün Nailə tərəfindən öldürülür?

Hər şeyi analiz edib qəti fikrimi söylədim:

- Onlar evlənə bilməzlər. Hər şey bu izdivacın əleyhinədir. Məncə, Nailə elə yerə ilişməyib ki, onu rahat buraxalar... İlqarda isə elə bir qeyrət görmürəm Səidəni boşasın. O, bunu etsə, nəinki qayınatasının qayğısından və “Mercedes”-indən, həm də doğma ata-anasından da məhrum olar.

Şölə xanım telefonu ilə evə zəng vurdu:

- Eliş, necəsiz? Naharı qızdırıb yediz? Nəsə narahatam. Eyvana-zada çıxmayın. Hə, tez gələcəm, qızım. Nə alım? Pe-rojna? Pulum yoxdur axı... Yaxşı-yaxşı, alaram...

Dəstəyi qoyub gülümsədi:

- Mənimlə şərt kəsiblər. Hər gün onlara şirniyyat almasam, günortalar evdə olmamağımı yoldaşıma xəbərləyəcək-lər...

Gör neçə gün idi ki, ünsiyyətdə idik. Heç olmasa, etiket xatirinə onun şəxsi həyatı barədə maraqlanmamışdıq...

- Neçə uşağınız var ki?

- İki. Biri qızdır, o biri oğlan.

- Allah saxlasın.

- Allah sizinkiləri də saxlasın.

- Şölə xanım, bu gün-sabah, siz demişkən, bizi tərk edib gedirsiniz, ancaq hələ heç bilmirik ki, ixtisasınız nədir, əriniz nəçidir...

- İxtisasım piano müəllimәsidir. Soltan Hacıbəyli adına orta ixtisas musiqi məktəbini bitirmişəm. Bir müddət musiqi məktəblərində dərs demişəm. Ancaq ərə gedən gündən ərim mənə sənətimlə məşğul olmağı qadağan etdi... Onun özü isə polis işçisidir.

- Oy, oy, nə qorxulu adamdır. Sizin hər gün bura gəlməyinizə bais olduğumçün o, məni həbs edə bilər...

Sonra yenə Nailə ilə İlqar mövzusunu müzakirə etməyə başladıq...

Şölə xanım fikrə getmişdi. Bizi dinləmirdi.

Haçandan-haçana danışmağa başladı:

- ... Bilirsiniz, hərdən özümü Nailənin qarşısında günahkar sayıram... Rəfiqə olsaq da, dünyaya baxışlarımız tamam fərqli idi. O, İlqarla görüşəndə, maşında, bağda, nə bilim, harda öpüşəndə, mən bunu ona irad tuturdum, bütün bunların sonunun pis nəticə verəcəyini duyurdum. Ancaq Nailəni yola gətirməyi bacarmırdım... Bilirsiniz, məncə, İlqarla başıpozuq görüşlər olmasaydı, Abbas Şeyxzadə ilə əlaqə də olmazdı... Ərimlə nişanlı idik, ancaq bircə dəfə də görüşə çıxmamışdıq. Nailə məni dolayırdı, gülürdü mənə... O, məndən xaraktercə güclü olduğundan, mən öz müsbət həyatımı ona aşılamaqdan, o, öz mənfi həyatını mənim gözümə soxurdu... İndi hərdən oturub fikirləşir, özümü qınayıram. Yəni mən onu xilas edə bilməzdim? Anasına deyərdim, atasına deyərdim... Deyərdim ki, qızınız uçuruma gedir, onu bu yoldan çəkindirin...Ya elə İlqarın valideynlərinə deyərdim... Axır ki, bir yol tapıb nəyəsə nail ola bilərdim. Ya da o, Abbas Şeyxzadə ilə görüşməyə qərar verdiyini göz yaşları içində mənə bildirəndə düz o kişinin kabinetinə gedər, qızı yaşda olan birisini yoldan çıxartdığına görə ona dişimin dibindən çıxanı deyərdim. Bəlkə də, belə etsəydim, Nailə mənə nifrət edərdi, aramız dəyərdi. Ancaq indi onu itirməzdim...

İçini çəkdi. Çantasından yaylığını çıxartdı. Yenə ağlayırdı...

- ... Mən çox günahkaram... Bilirsiniz, necə əzab çəkirəm? Hər gün onu görürəm, xəyalıyla danışıram. Özümə mübariz, qətiyyətli olmadığıma görə nifrət edirəm... Hələ mən... Hələ mən...

Şölə xanım birdən hönkürdü, çətinliklə sözlərini tamamladı:

- Hələ mən sizə bir şeyi deməmişəm... Özümə zülm verə-verə bu sirri sizdən gizləyirəm... Onu sizə lap sonda deyəcəm...

# 34-cü HİSSƏ

# Abbas Şeyxzadənin qurduğu məhkəmə

Yaşıl ağac olam, qara daş olam, Yollann üstündə bitməyə qoyma. Sərgərdan ruh olam, kəsik baş olam, Qoyma vüsalına yetməyə, qoyma.

İ.İlyaslı

Bu mənzili də İlqarla Səidəyə Abbas Şeyxzadə almışdı... Blokun ağzında dayanmış və şahanə duruşu ilə gözoxşayan qapqara “Mercedes” kimi, iynəsindən tutmuş doqquz min dollarlıq İtaliya mebelinə kimi, hətta gələcək körpənin çarpayısına kimi hər şeyi Abbas Şeyxzadə almışdı. İndi bu mənzildə atası, anası, qayınatası, qayınanası, Səidə və dostu Azər İlqara məhkəmə qurmuşdular. İlqara baş verənlərin miqyasını başa salmaq üçün mənzilin və maşının açarlarını, mobil telefonunu, hətta əynindəki bahalı kostyumun pencəyini də Abbas Şeyxzadə alıb yerə tullamışdı. Otağın sükutunu “ahlar”, “uflar”, bir də sakitcə ağlayan İlqarın anasının hıçqırtıları pozurdu.

İlqar key-key dayanıb siqaret çəkirdi. Üzünə dikilən baxışlardan sıxılıb lap yumağa dönmüşdü. Ancaq hiss edirdi ki, heç nəyi dəyişmək mümkün deyil. Dağıdıcı bir proses onun ailəsini dağıdırdı və heç bir qüvvə də bu prosesə mane ola bilməzdi...

...Borovoyedən yarımçıq qayıtdıqları gün gecə səhərəcən Nailə ilə bağ evində bir yerdə olduqdan sonra heç ertəsi gün də İlqar evlərinə getməmişdi. Telefonda Səidəyə: - “Mən qəti qərara gəlmişəm, biz ayrılmalıyıq” - söyləmiş, Razində bir rus babulyasının evinə gəlmişdilər. Evini sevgili cütlərə bir sutkalıq kirayə verməklə dolanan bu babulya 10 gün bunları

qonaq saxlamağa razılıq vermişdi. Üçlükdə yeyib-içmiş, sonra ev sahibəsini yola salıb daha bir yaddaqalan gecə keçirmişdilər... Hamının gözündən oğurlanıb, bütün problemlərini unudaraq, yalnız bir-biri üçün yaşadıqlarına özlərini inandırmış, sübhəcən bir-birilərindən doymamışdılar...

Qəribədir ki, hər ikisi etiraf etmişdilər ki, hətta ayrılıq dolu o qara günlərin ümidsiz anlarında belə qəlblərinin ən dərin guşəsində beləcə bir günün olacağına inanmışdılar, həmin gün üçün ürəklərinin başı göynəmişdi...

Ertəsi gün bir qədər başları ayılmışdı və hər ikisi qarşılarında duran böyük problemlər barədə düşünməyə məcbur olmuşdu... İlqar bilirdi ki, indi qayınatası başda olmaqla böyük bir qəzəbli dəstə onun yolunu gözləyir. Hələ bir az da yubansa, polis vasitəsilə ona axtarış da elan etdirərlər... Nailə isə Ruqiyyəni necə yola verəcəyi barədə fikirləşirdi... Axı telefonu söndürməklə bu qadından yaxa qurtarmaq mümkünsüz idi...

Birdən-birə hər ikisi kədərlənmişdi... Babulyanın iri kəf-kirli qədimi saatının taqqıltısı sanki onlara “durun gedin, sizin kef çəkən vaxtınız deyil” söyləyirdi.

... Haçandan-haçana Nailə durdu, yuyunub mətbəxə keçdi. Oranı ələk-vələk edib quru çay, şəkər tozu, bir az da bolqar pendiri tapdı. İlqarın dünən supermarketdən aldığı ərzaqların hamısı qurtarsa da, yarım kömbə çörək qalmışdı... Çaydanı doldurub qaynamağa qoydu. Sonra gəlib İlqarı öpüşlərə qərq etdi, onun yataqdan durmaq istəmədiyini görüb ayaqlarından tutdu, çarpayıdan sürüyüb yerə saldı:

- Hə, sən keçmiş karateçi ilə zarafat edirsən?

İlqar da Nailəni dartıb yerə, öz üstünə yıxdı:

- Sən də sambistə sataşırsan?

Qəhqəhələri otağı başına götürmüşdü... Gah bu ona, gah da o buna güc gəlirdi... Babulyanın döşəkçələri, balışları gah bunun, gah da onun başına çırpılırdı...

Çaydan pıqqıltı ilə qaynayırdı...

...Yenə bir-birilərinə sarmaşdılar. Nailə onun ovcunun içini qıdıqladı.

- ...Səndən doymuram, canım...

- ...Sən balsan, şəkərsən...

- ...Sən mənim canımsan...

- ...Sən mənim hər şeyimsən...

Yalnız yanıq iyi onları döşəmədən qalxmağa vadar etdi. Çaydanın suyu qaynayıb qurumuşdu və indi o, alovun üstündə çartıltı qoparmışdı...

... Saat üçə on beş dəqiqə işləyirdi. Hərəsi bir ədəd açar götürüb evdən çıxdılar. Qərara almışdılar ki, bir günə bütün problemlərini həll edib müvəqqəti bura köçsünlər. Sonra isə gələcək həyatlarını necə quracaqlarını götür-qoy edərlər. Əsası odur ki, hər ikisi qərar vermişdi: ölənəcən bir olacaqlar.

Nailə “Mercedes”-ə əyləşmədi, küçədə düzülüb müştəri gözləyən taksiləri göstərdi:

- Məni taksi ilə yola sal. Belə daha yaxşıdır. Ehtiyat igidin yaraşığıdır...

İlqar onu yola salıb sevimli maşınına mindi. Nəvazişlə əlini maşının ora-burasında gəzdirdi. Ah çəkdi:

- Gəl vidalaşaq. Bir azdan daha mənim olmayacaqsan...

...Bir qədər getmiş İlqar gördü ki, Nailə əyləşən taksinin sürücüsü ona maşını saxlamaq işarəsi verir.

“Mercedes” dayanan kimi Nailə düşüb qaça-qaça gəldi, İlqarın qapısını açaraq onu qucaqlayıb dalbadal öpdü. Sonra yaşlı gözlərini İlqarın gözlərinə dikdi.

İlqar şəhadət barmağı ilə onun yanaqları boyunca diyirlənən göz yaşını sildi:

- Nə olub? İndi ki, bir yerdəyik?

Nailə hıçqırdı:

- Qorxuram, İlqar. Ürəyim çox narahatdır...

İlqar ona toxtaqlıq verdi:

- Hər şey yaxşı olacaq. Bir azdan biz qovuşacağıq.

Nailənin gözündə ümid qığılcımları parıldadı, İlqarın alnından öpüb öz taksisinə qayıtdı...

... İlqar indi siqareti siqaret oduna calayır, bütün bunları xatırlayırdı. O, ailəsini, isti yuvasını, rahat həyatını tam namüəyyənliyə dəyişirdi. Qarşıda onu nələr gözləyirdi? Necə yaşayacaqdılar, harada işləyəcəkdi? Maşınsız dözə biləcəkdimi?

- Sən elə bilmə ki, Səidəni boşasan, qayıdıb evimizə gələcəksən. Sənin biz adda ata-anan yoxdur.

Atası idi danışan.

- Ali təhsilli oğlansan. Ancaq özünü uşaq kimi aparırsan. Səndən heç gözləməzdim. Adam da səbəbsiz yerə öz

gələcəyindən imtina edər?

Azər idi bunları deyən.

- Mən, əslində, siz valideynləri qınayıram. Övlada bu cür tərbiyə verməzlər. Və bu cür tərbiyə verilən övladçün mötəbər qapıdan qız istəməzlər. Adam, gərək, yorğanına görə ayağını uzada.

Qayınanası idi bu əsəbi tonda danışan.

- Vəziyyət heç də siz dediyiniz qədər sadə deyil. Boşandı, ailəsindən, ata-anadan, imtiyazdan, var-dövlətdən əl çəkdi, sonra da gedib rahatca kasıbçılığını elədi? Bəs on günün gəlini olan bu qız? Qızın taleyi necə olacaq? Ona hansı zurnanı qoşacaqlar? Belə şeydən ötrü heç bilirsiz, adamı neynəyərlər?

Bu isə, Abbas Şeyxzadə idi.

... İlqarın siqaretlərindən otaq tüstü dumanına bürünmüşdü. Bu yaşa çatmışdı, ata-anasının yanında siqaret çəkməmişdi. İndisə dalbadal çəkirdi. Və heç fərqində də deyildi ki, heç vaxt ata-anasının yanında siqaret çəkməyib, indisə çəkir...

... Abbas Şeyxzadə hirsindən ağappaq ağarmışdı. Mamed müəllim ürəyini ovuşdururdu. Anası isə hələ də ağlamağında idi...

... İlqar qəfil ayağa durdu, dinməz-söyləməz qapını çırpıb evdən çıxdı.

İçəridə nələrin baş verdiyini başa düşmək heç də çətin deyildi...

# 35-ci HİSSƏ

# Xoşbəxtliyin bir addımlığında

Çiçəkləri mən bilərsən, Kəpənəkləri mən bilərsən, Mən bilərsən qarışqanı. Dərd yandırar qəlbindəki xatirə - alışqanı

Z.Fəxri

Nailə evə elə sevincək gəlmişdi ki, çoxdan bəri onu bu halda görməyən ailə üzvləri lap təəccüblənmişdilər.

- Mən ərə gedirəm... İlqara...

Nailənin bu sözləri lap gözlənilməz oldu. İki gün evə gəlmədiyi üçün onu danlamağa hazırlaşan anası az qaldı ki, qol götürüb oynaya:

- Kimdir kürəkənimiz? Kimlərdəndir? Nəçidir?

Nailənin bacısı sevincək dedi:

- Ma, obşiteldə “Jiquli”ynən oğlan gəlirdi e, Nailənin dalınca? Bax, odur.

Qardaşı da söhbətə qoşuldu:

- “Jiquli” yox e, “Mercedes”. O gün gecə “Mercedes”-də gəlmişdi. Bomba “Mercedes” idi. Qara.

Anası Nailəni qucaqlayıb öpdü:

- Evi-zadı var, qızım?

- Hə, var.

- Dolanışığı nə təhərdir?

- Eh, ay ma, hər şey əladır. Mən onu dünyalarca sevirəm...

... Sonra Nailə öz otağına keçdi. İki gecənin yuxusuzluğundan sonra gözləri acışırdı. Uzandı ki, yatsın. Çimmək də istəyirdi...

İlqarla keçirdiyi iki günün təəssüratları heç cür beynindən çıxmırdı... Necə də ilahi anlar yaşamışdılar.

Deməli, daha bir yerdə olacaqlar. İlqar axı onun yanında Səidəyə telefonla dedi ki, ayrılırıq. Görəsən, toy eləyə bilərlərmi? Beyninə gələn bu fikirdən dodaqlarına təbəssüm qondu. O, ağappaq gəlinlik paltarındadır. İlqar da miləmil kostyumda. Onları iki atlı fayton gətirir. Atların biri ağdır, o birisi qara... Toylarına say-sanballı qonaqlar gəlir... Aralarında Abbas müəllim də var. Bıçaq çəksən, qanı çıxmaz. Zalın sütunlarının birinin arxasında isə Səidə gizlənib, göz yaşı axıdır...

Görəsən, doğrudan da, toy eləyə bilərlər? Yəni İlqarın ata-anası ona təzədən toy eləyər? Səidə boşadılandan və Abbas müəllimlə əlibıçaqlı düşmən olduqdan sonra onlar İlqarı, bəlkə, övladlıqdan da çıxartdılar. O ki qaldı, ona təzədən toy eləyələr... Yaxşı, lap elədilər. Bəs İlqargilin tanış-bilişi, qohum-əqrəbası nə deyər? Bir ay ərzində də adama iki dəfə toy eləyərlər?... Tutalım, bunlarçün ətrafdakıların fikri elə bir əhəmiyyət kəsb etmir... Bəs o, gəlinlik qiyafəsində İlqarın yanında necə oturacaq? Bəlkə, elə təsadüfən həmin toy məclisində bankir Mais, makler Aslan, dəmir-dümür biznesi ilə məşğul olan Qulu... iştirak edəcəklər? Onlar İlqara necə də istehza ilə baxarlar... Hətta, bəlkə, Nailəyə göz-qaş da edərlər... Nə bilmək olar...

Bütün bu fikirlərdən Nailənin qanı qaraldı. Yenə də İlqarla bu iki günlük görüşlərinin ən ehtiraslı anlarını xəyalına

gətirməklə qanıqaraçılığını unutmağa çalışdı...

... Necə mürgülədiyindən xəbəri olmadı... Haçandan-haçana kiminsə onu silkələdiyini hiss edib yerindən dik atıldı:

- Nə olub?

Bacısı idi.

- İş yoldaşın zəng eləyib. Rufa adında. Deyirəm, yatıb, üstümə elə çəmkirdi ki... Mən də məcbur oldum, səni oyadam. Dünən də zəng etmişdi. Kimdir ki, o?

Nailə durub əsəbi halda telefona sarı getdi.

- ... Yüz dəfə deyirəm, o zibili götürməyin də...

Dəstəyi qaldırdı.

- Alo!

- Ağəz, harda itmisən? O zibil əl telefonunu niyə keçirmisən?

- Özüm tapacaqdım sizi, Rufa xanım...

- Niyə? Yenə nasazlamısan?

... Bacısı otaqda durub onu süzürdü. Qızın üstünə çəmkirdi:

- Çıx otaqdan, qapını bağla!

Bunlar baş verəndən sonra dedi:

- Rufa xanım... Yadınıza gəlir, “Skaçki”nin yanında falçıda görüşəndə mən bir oğlana cadu elətdirmək istəyirdim?

- Hansı, ağəz? Səni atıb milyoner qızı alan oğlanı deyirsən?

- Hə, hə. Onu deyirəm. İş ondadır ki, İlqar boşanıb, məni alır. Ciddi...

Həmsöhbəti onun sözünü kəsdi:

- Bir taksi tut, gəl “Kaydenbar”a.

Bir azdan onlar barda üzbəüz əyləşmişdilər. Ruqiyyə ko-fe içə-içə çox ciddi görkəmdə Nailəni sorğu-suala tuturdu:

- Doğrudan, o oğlan səni alır? Yəni elə “lox”dur?

- Bilirsiz, Rufa xanım, biz bir-birimizi dəlicəsinə sevirik. Mən sizə bütün həyatımı danışmışam... O vaxt təcrübəsiz idim. Aldandım, sonra da ölməmək, yaşamaq üçün çirkablara batdım... Ancaq mən İlqara xəyanət etməmişəm...

Ruqiyyə pıqqıldayıb güldü:

- Ağəz, necə yəni, xəyanət etməmisən? Sən mənim ən “xo-dovoy” malım ola-ola, indi durub bakirəlikdən, vəfadan danışırsan? Bəlkə, sən hələ qız uşağısan?

Nailə qəhərlə sözünü davam etdi:

- Mən ürəyimdə heç vaxt İlqara xəyanət etməmişəm... Mən ancaq onu sevmişəm... Allaha qurban olum, əgər o, məsləhət bilməsəydi, bizi yenidən birləşdirməzdi...

Ruqiyyə özünə təzə kofe sifariş verdi, nazik, uzun “Davi-doff” siqareti çıxarıb alışdırdı:

- Ağəz, adam ailə dağıtmaz.

Nailənin gözlərindən yaş gilələndi:

- Yox, elə deyil axı, Rufa xanım. Səidə yaxın rəfiqəm ola-ola mənim ən əziz adamımı əlimdən aldı. Mən onun ailəsini dağıtmıram, öz dağılmış xoşbəxtliyimi bərpa edirəm...

Ruqiyyə kofesini qurtumladı:

- Yaxşı, sözünün Mustafasını de. Getmək istəyirsən?

- Hə... Qurban olum, qoyun gedim, ailə qurum. Ana olmaq üçün, bilsəniz necə burnumun ucu göynəyir...

Ruqiyyə birdən-birə səsinin tonunu dəyişdi:

- Bəs borcların? Səni bilirsən, neynəyərəm? Sevilin başına açdıqlarımı beşqat sənin başına açaram.

Nailə ağlayırdı:

- ...Rufa xanım, bütün pullarınızı yavaş-yavaş qaytaracam. Mən də işləyəcəm, İlqar da.

- Ağəz, “pravadnik” işləyəssən, yoxsa “qarderobşik”? Bəlkə, “platnıy tualetdə” “kontralyor” işləyəssən? Yeməyib-içməyib on il məmməd-məmməd yığıb mənim pulumu qaytarassan?

- Yox, tez qaytaracam, Rufa xanım...

- Tez, yəni nə vaxta? Beş günə, bir aya. Nə vaxta?

- İlqar həm də idmançıdır. Bir dəfə çempion olsa, filan qədər...

- Məni dolayırsan?! Bax, sənə söz deyirəm. Daşı ətəyindən tökməsən, o adamuşkava deyəcəm ki, sən

“vıssşiy markasan”. Bilirsən də, mənim əlim hər yerə çatır. Özüvü isə göndərdə-cəm Ramanadakı “siflislər balnisəsinə”.

Nailə ağlaya-ağlaya yalvarırdı:

- Yox... Qurban olum, Rufa xanım, siz bunu etməzsiz... Ayaqlarınızın altında ölüm, Rufa xanım...

Ruqiyyə əsəbi tərzdə ayağa qalxıb getmək jesti göstərdi:

- Bax, ağlıvı başıva yığ. Çox yox, üç-dörd ay işlə, sonra səni buraxacam. Borclar da o vaxta “kvit” olar. İndi payız-qış sezonudur, “kliyentin” gur vaxtıdır. Özün bilirsən ki, yüz dollara çıxan cəmi dörd qızsınız. Sən getsən, bankrot olaram.

- Rufa xanım... Yəni sizin övladınız yoxdur? Qurban olum...

Ruqiyyə onun sözünü ağzında qoydu...

- Bura bax, mənim uşağımın adını çəkmə. Sən lap qudurmusan. Nə hərəkətini bilirsən, nə sözünü. Mənim Matanım bəyəm sənin tayındır ki, onun adını çəkirsən? Ay qız, qulaqlarını aç, yaxşı-yaxşı eşit. Mənə də Rufa deyərlər. Tikənin birini qulağın boyda etdirərəm.

Qapıya çatanda arxaya qanrıldı:

- Telefonuvu açıq saxla. Bu gündə-sabahda yaxşı “kli-yentlərimiz” olacaq... Onları yola verək, bir şey fikirləşərik.

Nailə başını masanın üstünə qoyub ağlayırdı. Çiyinləri qalxıb-enirdi... Ancaq bütün ümidləri hələ ölməmişdi.

Ruqiyyənin son sözləri ilə bir qədər təsəlli tapmaq olardı. Bəlkə, bu iblis insafa gələcəkdi?

## 36-cı HİSSƏ

9!!!

• • • •

İndi sən -

Yaşanmış acıların içində

uzaq xatirələrə ən yaxın gün.

Səhra çiçəklərinin bir udum nəfəs kimi canına çəkdiyi

yaz yağmurunamı döndün?

Sədaqət

İlqar payi-piyadə küçələri gəzməyində idi. Ən yaxın dostu Azər "düşmənlərə" qoşulub ona məhkəmə qurandan sonra onun gözündən düşmüşdü. Yoxsa dostundan cibxərcliyi istəyərdi. Asifdən yüz min manat götürmüşdü. Onu da babulyanın evində keçirdiyi bu üç gündə xərcləmişdi... İndi cibləri bom-boş laqeyd-laqeyd gəzirdi. Hesabla iki gün qabaq Nailə də ba-bulyanın evinə gəlməli və onlar birlikdə yaşamağa başlamalı idilər. Ancaq Nailədən bir xəbər-ətər yox idi. Ev telefonları isə susurdu...

Bəlkə, durub Əhmədliyə getsin? Həmişə maşınla gəzdiyi üçün heç bilmirdi, ora hansı marşrutla getmək olar. Lap Əhmədliyə gedib çıxdı, Nailəgilin küçələri, ev nömrələri hansı idi? Hansı küçədən keçən marşrut seçməliydi ki, gedib onlara çıxsın? Taksiylə getmək olardı. İntəhası, gərək, pulu olaydı. Pul da ki...

Nə fikirləşdisə, əllərini boynunun arxasına aparıb qızıl boyunbağını çıxartdı. Ovcunda atıb-tutdu:

- Azı yüz kağıza gedər.

Taksi ilə Nailəgilə yollanıb ondan bir xəbər tuta bilərdi, öncə isə ilk qəlyanaltıda doyunca yeyib, bəsdir deyincəyə qədər vura bilərdi...

Harda satsın boyunbağını? Bəlkə, Mərkəzi Univermağa getsin? Orada qızıl şöbələri çox idi.

Ən çox isə siqaretsiz qalmağa dözə bilmirdi. Ancaq "Davidoff" çəkərdi. İndi ondan-bundan nə gəldi, alıb çəkirdi. Ona siqaret verənlərin çoxu tərs-tərs baxır, bəzisi, hətta onu sancırdı da:

- Çəkənsən, cibinə siqaret al qoy da.

Respublika sarayının qarşısından keçəndə yanında əntiqə bir "Passat" dayandı. İçəridən onu səsləyən oğlan Fuad idi.

Maşına əyləşdi. Öpüşdülər.

- Sən hələ Bakıdasan? Bəs deyirdin, toyun səhərisi Moskvaya qayıdacaqsan?

- İşlərim çıxdı. Bir az yubanacam. Nə əcəb piyadasan?

İlqar: - Piyada yaxşıdır. Nə qədər maşın sürmək olar? - söylədi.

- Ancaq toyun əntiqə keçdi...

Fuad bir xeyli toy təəssüratlarını danışdı. Sonra maşını işə saldı:

- Piyada hara gedirdin ki?

İlqar onun “Kent” siqaretindən birini götürüb yandırdı, suala sualla cavab verdi:

- Məni Əhmədliyə aparmazsan?

- Deməli, piyada Əhmədliyə getmək istəyirdin? Ay məzən olsun sənin. Sən lap “prikolsan” ki.

Fuad ürəkdən güldü.

İlqarın susduğunu görüb soruşdu:

- Əhmədliyə xeyirdir?

Sonra maşını yolun kənarına verib saxladı.

- Rəngin də solğundur. Üz-gözün də tüklüdür. Sən canın, sənə nə olub?

İlqar çiyinlərini çəkdi. Sonra başını aşağı salıb dedi:

- Mənə bir az pul verə bilərsən?

Fuad təkid etdi ki, ona nə baş verdiyini danışsın. İlqar evdən acıq edib çıxdığını söylədi. Onu da əlavə etdi ki, çox yəqin ki, sabah hirsi soyuyacaq və evə qayıdacaq. Demədi Səidəylə boşanıb Nailəylə yaşamaq istədiyini. Onsuz da məzəmmətdən, öyüd-nəsihətdən bezmişdi. Fuad da başlasaydı, lap dilxor edəcəkdi onu.

- Bəlkə, restorana gedək? “Bomj” adamsan, indi yəqin, acından ölürsən.

Fuadın bu təklifi lap “göydəndüşmə” oldu.

... Bir azdan onlar “Hyatt Recensi”də əyləşib italiyalı aşpazın əntiqə hazırladığı bibərli ət qızartmasını çaxırla vururdular...

Fuad ona öz həyatı barədə yerli-yataqlı danışırdı. “Lujni-ki” yarmarkasında üç köşkü var. Şükür, pis dolanmır. Ayına azı dörd min dollar artığı qalır. İlqarın toyundan sonra həvəslənib, istəyir evlənsin. Anasıyla bacısına deyib ki, mənə qız gözaltılamasanız, Moskvaya qayıtdı yoxdur...

İlqar isə öz həyatı barədə heç nə danışmırdı. Verilən sualların da cavabından yayınırdı.

Sağlıqlar bir-birini əvəz edir, qədəhlər boşalırdı... Uşaqlıq xatirələrini yada salır, qəhqəhəylə gülürdülər.

- İlya, yadında, bir dəfə Papanində gecə vaxtı yolla gedirdik. Demə, yolu qazıblarmış. Azər nəsə danışırdı. Bir də gördük, səsi uzaqdan gəlir. Baxdıq, yanımızda yoxdur. Sən demə, uybala quyuya yıxılıbmış...

- Fuçik, yadında, bir dəfə Ürfangilin bağını belləməyə getmişdik. Kazım dayı söz vermişdi ki, bağı axıradək belləsək, kateri sürməyə icazə verəcək. Bir az qazdıq, torpağı da ora-bura səpələdik, guya, hər yeri qazmışıq. Kişini aldatdıq...

- İlya, yadında səkkizincidə oxuyanda ilk dəfə bulvarda qızlarla öpüşmüşdük?

- Onu niyə deyirsən, əsgərliyə gedəndə “provodumuz” olan gün “Muğan” mehmanxanasında ilk dəfə qadın üzü görməyimiz yadında? Prikol idi e...

Bir azdan Fuad cibindən “Nokia” markalı telefonunu götürüb nömrə yığa-yığa dedi:

- İlya, sənə sürprizim var...

Sonra telefonu ağzına tutdu:

- Muraşka, privetik... Sənin yaxşı padruqaların var? Mən dostumla “Hyatt Recensi”də “baldet” eləyirəm. Gəlin əylənək... Necə?... Lomka eləmə də... Sabaha qalsın?... Nə işin var e?... Yaxşı, paka...

Dilxor-dilxor telefonu bağladı. İlqar qızların gəlməməsinə lap sevindi. Yenə ordan-burdan danışdılar, yenə içdilər.

- Kayfıma zənən düşüb, İlya. Neynəyək?

İlqar söhbəti dəyişdi:

- Fuçik, Moskvaya gəlsəm, mənə iş tapmağa köməklik edərsən? Qadınımla gələcəm.

- Sənin başına at təpib? Aləm sənin qayınatavın imkanından danışır. Sən də onun qızını götürüb Moskvaya, “polka” arxasında keşniş-şüyüd satmağa gedirsən?

İlqar söhbəti yenə açıb-ağartmadı.

- Oo, tapdım!

Fuad bunu deyib telefonla kiməsə zəng etdi:

- Zuzik, privet. Bizə zənən təşkil eləyə bilərsən? İki nəfərik... Kimə? Muraşkaya zəng etdim də. Problemi var... Çox vacibdir... Kimə zəng edim? Qərənfilə?... O nəçidir?... Mama Roza? Yaxşı, telefonu de...

Fuad nömrələri ucadan təkrarlayıb yığmağa başladı:

- Qərənfil xanım lazımdır... Kim verib nömrəni? Zuzik verdi. Hansı Zuzik? Zuzik də...Yoxdur Qərənfil xanım? Bəs hardadır?... Vay-vay, nə pis oldu...

Telefonu bağladı.

- Bunun da ölüsünün ölməyi mənə qalmışdı... Yaxşı, bəs neyniyək?

İlqar ayağa durdu.

- Fuçik, məni Əhmədliyə apar. Xahiş edirəm.

Fuad onu zorla otuzdurdu:

- Sən canın, lomka eləmə də.

Yenə nömrə yığdı:

- Zuzik, dediyinin ölüsü düşüb. Başqa Mama Roza yoxdur ki?... Adı nədir?... Zuzik, xəcalətindən çıxaram, özün danış da. Məndə bu gün heç nə alınmır... Hə, iki nəfərik...

Az keçmədi, Zuzik adlandırdığı qadın ona zəng etdi:

- Yarım saata ogünkü motelə gedin...

... Maşına oturub harasa gəldilər. İlqarın başı üstündə deyildi. Çox içmişdi... Siqaret yandırdı. Balaca bir otaq idi. Az qala otaq boyda bir divan var idi içəridə. Bir də balaca bir masa. İlqar oturdu. Başını ovuşdurdu... Elə bu vaxt qapı cırıldadı. Qısa yubkalı, hündür, qəşəng bir qız içəri girdi:

- Privet, mən Alyayam. Yol boyu padruşkama deyirdim ki, kaş çuvaklarımız bığsız, özü də cavan olsunlar. Arzuma çatdım. Adınız nədir?

- İlqar.

- Dostunuzun?

- Fuad.

- Hə, hə, Fuad. Bayaq dedi axı. Ancaq o, sizdən temperamentlidir. Biz otağa girən kimi padruşkamı qucaqlayıb öpə-öpə “pastelə” yıxdı. Siz isə mənə heç oturmağı da təklif etmirsiniz...

İlqar cəld durub ona yanında yer göstərdi:

- Əyləşin, Alya xanım...

- Bu, başqa məsələ, - deyib qız divanda əyləşdi.

Ondan bahalı ətir qoxusu gəlirdi. İlqar özünü saxlaya bilməyib qızın uzun və şumal ayaqlarını sığallamağa başladı:

- Siz çox gözəlsiniz.

- Hə? Komplimentə görə çox sağ olun... Bəs niyə içkiniz yoxdur?

Qız divardakı düyməni basdı, içəri bir oğlan girdi. Ona şampan və desert tapşırdı. Dərhal oğlan gətirib masanın üstünə şampan, iki fujer, meyvə, şokolad, habelə çərəz düzüb getdi. İlqar şampanı açdı... Yenə Nailəni, şampan içdikləri günləri xatırladı... Düşündü ki, indi Alya adlı bir cananı yanına salmaqla o, Nailəyə xəyanət edir...

İçdilər. Qız onun köynəyinin düymələrini açmaq istəyəndə İlqar dartındı, yaxınlarda evlənəcəyini, onunçün də aralarında heç nə olmayacağını bildirdi. Sonra təəccüblənmiş qıza bir-iki lətifə danışdı, onun könlünü aldı.

Ordan-burdan xeyli söhbət etdilər. Sonra darıxdılar. Qız təklif etdi:

- Onlar indi ekstaz mərhələsindədirlər. Gedək “lomka” eləyək.

Durub otaqdan çıxdılar. Qonşu qapının qabağında durub içəridən gələn səsləri dinlədilər, pıqqıldayıb güldülər.

Sonra qapını açıb astaca içəri girdilər. Fuad və onunla yataqda olan qız hələ heç nə hiss eləmirdilər. Fuadın başı qızın üzünü örtmüşdü. İlqarla Alya onlara lap yaxınlaşdılar. İlqar Fuadın kürəyini qıdıqladı. Fuad bədənini tərpətdi. İlqar bir də onu qıdıqlayanda Fuad çevrilib onları gördü:

- Çıxın gedin də. Olmadı ki...

Alya qəhqəhə çəkdi:

- Yox, heç yerə gedən deyilik. Gəlmişik, sizə “lomka” eləyək.

Fuad: - Onda mən sizi zorla burdan qovaram - deyib qızın üstündən durdu. Bu vaxt arxası üstə uzanmış və saçları balınca dağılmış qızın üzü göründü.

İlqar yerindəcə qurudu, dodaqlarındakı gülüş dondu.

Bu, Nailə idi.

□□□

...Nailə idi...

□□□

Mən bu laq tək quruyub,

Sən gül kimi solaydın.

Gərək, ya mən öləydim,

Ya sən dəli olaydın.

O sevgi yuxu idi,

Gərək, ayılmayaydıq.

Biz elə görüşmüşdük,

Belə ayrılmayaydıq...

N.Kəsəmənli

# 37-ci HİSSƏ

# Zərgərpalan küçəsinin qocaları

Bir qismimizin özünə, əksəriyyətimizin isə arzularına güllə atırlar. Muzdlu qatillik yaman dəbdədir.

Beynimə gələn bu pafoslu fikri təkrarlayaraq Zər-gərpalan küçəsi ilə asta-asta “Bakı Soveti” metro stansiyasına düşürdüm... Bu dar küçə ilə piyada addımlamağı çox xoşlayıram. Sanıram, keçmişin bir parçası da mənimlə addımlayır...

Bəxtdən rastıma çıxan adamların az qala hamısı yaşlılar idi, ağsaqqallar və ağbirçəklər. Elə bil hamısı keçmişdən gəlmişdi...

Qapılarının ağzına kətil qoyub iki qoca üzbəsurət əyləşmişdi: biri yolun bu tərəfində, biri o birisi tərəfində. Beləcə, söhbət edirdilər.

Ayaq saxlayıb onlarla salamlaşdım, hal-əhval tutdum.

Qocalarlan biri dedi:

- Tanımadım səni, bala. Qocalıq yaddaşımı tamam pozub. Neçə gün idi, beynimdə yalnız İlqar və Nailə mövcud idi. Bu mövzuya o qədər aludə olmuşdum, başqa mövzu barədə düşünməyim mümkünsüz idi...

Ancaq indi beynimin yorğunluğunu çıxartmaq, bu tükür-pədici əhvalatdan, onun cazibəsindən qaçmaq istəyirdim. Xüsusən son səhnə mənə sarsıdıcı təsir göstərmişdi... İşə bir bax. Sanki maqnit kimi bədbəxtlik Nailəni həmin motel otağına çəkib gətirmişdi. Gör bir Fuad neçə nəfərə zəng etdi, neçə nəfərə minnnətçi düşdü... Hərənin bir işi oldu, hamı sudan quru çıxdı... Və Nailə o cür alçalmış vəziyyətdə İlqarla

rastlaşmalı oldu... Halbuki o, İlqarın qadını olmaq üçün hər şeyindən keçməyə hazır idi...

Qocaya adi bir yoldan keçən olduğumu söyləyib dedim:

> - Ağsaqqal, dünya görmüş adamsan. Bir şeyi bilməkdə mənə yardımçı ol. İndi zəmanəmi pisdir, yoxsa insanlarmı pisləşiblər?

O biri qoca söhbətə qoşuldu:

> - Zəmanəni də insanlar yaradırlar da, bala.

Ancaq bu qoca onunla razılaşmadı:

> - Yox, Ağası. Zəmanə insanları yaradır. Stalin dövrünü görmüş adamlarıq. O zamanın öz qanunları, tələbləri var idi. Ciddilik, işinə tələbkarlıq, partiyaya sədaqət. İnsanlar da inkubator cücələri kimi bu qanun və tələblərə uyğun idilər... O boyda Almaniya yoxsa məğlub olardımı?

Açıq qapıların döyülməsinə sərf edilən vaxt insanın ən böyük vaxt itkisidir...

Bu da beynimə gələn növbəti pafoslu fikir...

Axı açıq qapını döymədən də içəri keçmək mümkündür. O, məhz onunçün açıqdır ki, sən içəri keçəsən... Ancaq əksər halda, biz ehtiyatlanırıq. Nədənsə, kimdənsə qorxur, çəkinirik... Nailə ehtiyac içində yaşamaqdan qorxurdu... İlqar valideynlərinin zəhmindən... Bizim hərəmiz bir başqa şeydən qorxuruq...

Biz şərlə mübarizə aparmaq qabiliyyətinə malik deyilik. Biz şərə, sadəcə, təəssüflənirik...

Daha bir pafoslu fikir...

Qoca elə hey alovlu-alovlu danışırdı. Ürəyi dolu imiş kişinin:

- Ancaq gör indi heç müharibə aparan ölkəyə oxşayırıq? Restoranlar, barlar ağzına kimi müştəri ilə doludur. Televizor bütün günü çal-çağır göstərir. Hamı şən, hamı deyib-gülür... Küçələrdə də içki, siqaret, alt paltarları, nə bilim nə reklamı. Bu boyda demokratiya olar? Yox, Ağası, yox. Zəmanədir günahkar. Zəmanə indiki insanları cılızlaşdırıb...

Adını bilmədiyim bu qoca çox maraqlı insan idi. Onunla söhbətdən məmnun olmuşdum...

... Zərgərpalan küçəsi ilə asta-asta “Bakı Soveti” metro stansiyasına düşürdüm. Saat yeddi idi. Düşündüm ki, düz on altı saatdan sonra Nailənin əhvalatının sonunu biləcəm. İlqar onu dostunun yatağında tutur... Ailəsini atıb qovuşmaq istədiyi, dəlicəsinə sevdiyi Nailəni başqasının yatağında tutur... Sonra nə olacaq?

Bir də ki, sonun da sonu olarmı? Bu elə son idi. İl yarımlıq bir sevgi əhvalatının acı sonu. Bundan sonrası mənimçün xeyli maraqsızlaşmışdı... Çünki qul üsyanı qələbə çaldıqda belə, ən yaxşı halda qullar öz sahiblərinin yenisi ilə əvəz edilməsinə nail olurlar.

Buyurun, bayaqkı pafoslu cümlələrdən daha biri…

# 38-ci HİSSƏ

# Hər şey bitdi

Əyil! Məhəbbətin önündə əyil, Bəlkə, bu dünyadan qopara səni. Taleyin estafet ağacı deyil, Hərə bir mənzilə apara səni.

N.Kəsəmənli

İlqar Nailəni vəhşicəsinə döyürdü. Ömründə kimisə bu cür döydüyü yadına gəlmirdi. Yerə yıxılmış Nailə İlqarın təpiklərinin qarşısını ala bilmir, başını əlləri ilə qucaqlayıb inildəyirdi.

Fuad İlqarı sakitləşdirməyə bir dəfə cəhd etmişdi, ancaq İlqarın dirsəyi onun dodağını elə parçalamışdı ki, indi o, yalnız öz hayında idi. Döşəkağını cırıb qanını silirdi. Haray-həşir qoparan Alyanı isə İlqar necə kənara itələmişdisə, qız gedib divara dəymişdi. İndi Alya əlləri titrəyə-titrəyə telefonu ilə nömrə yığmağa cəhd edir və hıçqırırdı...

Təpiklər Nailənin qarnına, kürəyinə dəydikcə o qıvrılır, zarıyır, inildəyirdi... Ancaq dinmirdi...

...Haçandan-haçana İlqar heydən düşdü, Fuada heç nə demədən səs-küyə qapının ağzına yığılmış dörd-beş nəfəri yarıb keçərək getdi...

O, otaqdan çıxan kimi dərhal Alya özünü Nailənin üstünə atdı, Fuad isə qapıdan içəri boylananlara acıqlandı:

- Nə baxırsız, adam-zad görməmisiz?

Sonra Fuad qapını onların üzünə çırpıb Alyaya yaxınlaşdı. Köməkləşib Nailəni çarpayıya qoydular.

Fuad Al yadan soruşdu:

- Niyə belə oldu ki?

Alya çiyinlərini çəkdi.

... Nailənin bədəni pis günə düşmüşdü. O, gözüyumulu halda zarıyırdı. Alya dəsmalını isladıb onun dodaqlarına sürtdü, üzünü Fuada tutdu:

- Həkim çağırmaq lazımdır.

Fuad tərəddüd etdi:

- Burda axı kriminal var. Həkim gəlsə, başlayacaq qurdalamağa. Kim vurub, niyə vurub...

- Səncə, bəs o vəhşi içəri salınmamalıdır? Bəyəm dərəbəy-likdir?

Alya yüngülcə Nailəni silkələdi, onun gözlərini açmadığını görüb yenə dodaqlarını yaş dəsmalla silməyə başladı, Fuada dedi:

- Mənim telefonumu götür. Yaddaşdakı 16-cı nömrəni yığ. Özümüzün həkimimiz var. Deynən Alya çağırır. “Adresi” ver, gələcək...

... Həkim gələnə qədər Nailə gözlərini açdı. İlk sualı bu oldu:

- İlqar hanı?

Alya onun başını sığallaya-sığallaya bir qədər əsəbiliklə cavab verdi:

- Rədd olub getdi.

- Hara?

- Nə bilim hara. Cəhənnəmə. Kimdir ki, o?

Nailə başını balınca sıxıb hönkürtü ilə ağlamağa başladı.

Həkim gələnə kimi Fuad motelin inzibatçısının cibinə pul basmış, ciddi bir şeyin olmadığına onu əmin etmişdi.

...Həkim tanımadığı İlqarın yeddi qatını söyərək Nailənin kürəyinə və qarnına gah toz kimi dərman səpdi, gah da maz sürtdü. Fuad bir az bu prosedurları seyr edib çıxıb getdi. Sonra həkim Alyanı kənara çəkdi ki, Nailə eşitməsin:

- Tutdurmaq istəmirsiniz “nasilniki”? Deməli, deyirsiz, adı İlqar idi?

“İlqar... İlqar...” Yalnız indi Alyaya çatdı ki, tanış olduqları gündən Nailənin sevə-sevə haqqında danışdığı, şəklini çantasından ayırmadığı İlqar məhz bu oğlan imiş...

Həkim sualını təkrarladı:

- Bəlkə, tutduraq onu?

- Yox... Özünün nişanlısıdır.

- Gəlib üstünə çıxmışdı?

- Hə. Yenə həmin moment olmasaydı, söhbəti fırlatmaq olardı... Nə bilək...

- Nə isə. Özünüz bilən məsləhətdir. Ancaq qızı mütləq rentgenə salmaq lazımdır. Özü də dərhal. Mən şübhələnirəm ki, onun iç-içalatı dağıla bilər...

Həkim gedəndən sonra Alya oturub sakitcə ağladı. Hərəkətsiz uzanmış Nailə arabir: - Hər şey bitdi... Qurtardı, - söyləyirdi. Gözlərindən isə yaş axmaqdaydı...

Alya yenə nömrə yığdı, əsəbiləşib az qala telefonunu yerə çırpacaqdı:

- Bu it qızı Rufa da itməyə vaxt tapdı...

Haçandan-haçana Nailə Alyanı səslədi:

- Gəl yanıma.

Alya gəlib çarpayıda, onun yanında oturdu. Barmaqları ilə Nailənin göz yaşlarını silməyə başladı.

- Bəs indi necə olacaq?

Nailə bunu deyib yazıq-yazıq Alyaya baxdı.

- Qadam kişilərin ürəyinə. Buna bax. Namuslu çıxıb... Oğraş... Heç bilmirdim, nə baş verir. O kimdir, səni niyə vurur... Key kimi idim... Ancaq sonradan mənə çatdı...

Nailə zarıdı:

- Oy, Alya. Ağrıdan ölürəm...

Alya onun başını sığalladı:

- Heç nə olmaz, keçib gedər. Yaxşı ki, sifətivə vurmayıb oğraş. Sifətin təmiz qalıb.

Nailə üzünü göyə tutub: - İlahi, sən axı niyə belə etdin, - deyib hönkürdü...

... Alya çətinliklə ona qrafindən süzdüyü bir stəkan suyu içirtdi. Su içəndən sonra Nailə bir qədər sakitləşdi.

- Deyirsən, üzümə heç nə olmayıb?

Alyanın uzatdığı güzgüdə öz sifətinə baxdı, telefonunu istədi. Alya Nailənin çantasını xeyli qurdaladı. Kosmetika, bloknot, ətir, açarlar, pul kisəsi... İlqarın şəklini ikrahla o biri üzünə çevirdi. Axır ki, “Erikson”u tapıb ona uzatdı.

Pəncərədən səma görünürdü. Hava işıqlaşmışdı. Ancaq Nailə bilmirdi ki, saat neçədir. Gözünü pəncərədən çəkmədən soruşdu:

- Səhər çoxdan açılıb? Görəsən, saat neçə olar?

Alya ofisianta sifariş verib gətirtdiyi şirin çayı içə-içə mızıldadı:

- On olar.

Sonra da əlavə etdi:

- Telefona bax da.

Nailə telefonu sinəsinə sıxıb fikirləşməkdə, nəyisə götür-qoy etməkdə idi.

Alya ona ürək-dirək verməyə başladı:

- Darıxma, quzum. Hər şey yaxşı olacaq. Gələcəkdə bütün arzularına çatacaqsan. “Modalar evi” də açacaqsan, modelyerlərin də, modellərin də olacaq... Xaricdən “Qran-pri”lər də gətirəcəksən. Ailə də quracaqsan. Uşaq da doğacaqsan. Hər şey yaxşı olacaq. Qadam o oğraşın ürəyinə.

Nailənin gözlərindən yaşlar giləl020nməkdə idi:

- Yox, Alya, yox... Hər şey bitdi, məhv oldu...

Alya yenə onun yanında oturdu. Onun təsəlli sözləri Nailənin “yox, yox” inadına qarışmışdı.

- Papa canı, hər şey yaxşı olacaq. Qarşına o oğraşdan da yaxşısı çıxacaq.

- ... Yox... Hər şey bitdi...

Haçandan-haçana Nailə nömrə yığıb gözləməyə başladı. “Alo” səsini eşitcək düyməni basıb əlaqəni kəsdi... Xeyli fikirləşdi. Sonra bir də nömrəni yığdı. Ürəyi elə bərk döyünürdü ki, sanki öz qəfəsini yarıb çıxacaqdı:

- Abbas müəllim, mənəm, Nailədir. Sizinlə görüşməliyəm. Çox vacibdir...

# 39-cu HİSSƏ

# Qayıdış

Üz-üzə gələrik səninlə hər gün, Baxaram arxanca kədərli, küskün. Bu, ömrün dağıdır, bütöv bir ömrün, Beş günün, üç günün cəzası deyil.

M.Ələkbərli

...Azər qapını açanda quruyub qaldı. Qapıda gözləri qızarmış, saçları pırpız, üzü tüklü, pal-paltarı qırışmış İlqar dayanmışdı...

- Bu nə görkəmdir?

İlqar dinmədi, başını aşağı saldı. Azər onu içəri dəvət elədi, aclığı olub-olmadığını soruşdu. Dünəndən bəri heç nə yeməyən İlqar içki istədi. Azər heç bir sual vermədən süfrə açdı, çörək, pendir, soyutma kartof, kələm şorabası, habelə yarımçıq araq gətirdi:

- Subayçılıqdır, gərək, belə süfrə üçün məni bağışlayasan.

... Arağı içib qurtardılar. Azər həyətdəki hansısa uşağa pul atıb bir dənə də araq aldırtdı, onu da içdilər...

Süfrə yığılandan sonra Azər bir siqaret yandırıb sükutu pozdu:

- Hə, indi danış. Tutduqlarından peşmansan?

İlqar: - İt kimi peşmanam, - deyib hönkürdü. Sonra elə beləcə, hönkürə-hönkürə qırıq-qırıq cümlələrlə Azərə bu gecə baş verən o dəhşətli hadisəni danışdı...

- Mən ondan ötrü hər şeyimdən: evimdən, ailəmdən, maşınımdan, var-dövlətimdən, ata-anamdan... Hər şeyimdən keçdim. Ancaq o... O, qəhbəliyindən keçəmmədi...

Azər bilmirdi ki, İlqarı necə sakitləşdirsin.

Bir müddət keçmiş bütün ürəyindəkiləri boşaldıb sakitləşmiş İlqar elə kreslodaca mürgülədi... Azər telefona yaxınlaşıb yaddaş kitabçasından Abbas Şeyxzadənin evinin nömrəsini götürdü, o gündən bəri atası evində qalan Səidəyə zəng etdi:

- Sədiş, mənəm, Azərdir. Necəsən?... İlqar gəlib çıxıb... Pis gündədir... Hə, peşmandır... Əlbəttə, barışmaq istəyir... Onu özündən soruşarsan... Neçə gündür, ac-susuz, yuxusuzdur. İndi yatır. Sən get evə. Biz də bir azdan gələrik... Bu boyda zarafat olar? Dedim, get də... Nə məsləhətləşmək? Sən canın, təzədən hoqqa-zad çıxartmayın. Ananı da qoyma səniynən getsin, onun dili acıdır. Bu yazığı təzədən danlamağın nə mənası?... Hər halda, atanla məsləhətləşməlisən? Di yaxşı, məsləhətləş, mənə zəng elə.

...Cəmi qırx dəqiqədən sonra İlqar öz evində idi. Səidə onu dinməz-söyləməz qarşıladı, hamama salıb çimizdirdi. Azər isə qarajdan qara rəngli “Mercedes”i çıxarıb düz pəncərələrinin qarşısında saxladı.

... İlqar çimdikcə rahatlanırdı. Kisə, sabun və su onun bədənindən bu neçə günün kirini çıxarırdı. Onun özünə isə elə gəlirdi ki, Nailə ilə bağlı nəyi vardısa, hamısı: o məhrəm iki günün sevgi qoxusu, ondan əvvəlki və ondan sonrakı günlərin bir dünya xatirəsi və həm də o xəyanətin buna hopmuş murdarlığı - hər şey, hər şey bədənindən çıxır... Sən

demə, xoşbəxtliyə bulaşmaq üçün mütləq bədbəxtliyin içindən keçib-getmək lazım imiş...

Rahat pijamasında, yumşaq çəkələklərdə gəlib 72 diaqo-nallı “Panasonic” markalı televizorun qarşısında, yırğalanan kresloda əyləşdi. Səidə onun xoşladığı zoğal mürəbbəsi ilə çay qoydu qabağına. Ləzzətlə çayı içdi.

Axır ki, Səidənin səsi eşidildi:

- Yarpaq al, sənə yarpaq dolması bişirim.

Elə bil bütün bu həngamələr olmamışdı. Ailə qurduqlarından bəri ilk dəfə Səidənin hansısa xüsusiyyəti xoşuna gəldi. Heç nə soruşmur, onun ürəyini təzədən yaralamaq istəmir.

Səidə masanın üstünə 100-lük dollar qoydu. Maşının açarları da, mobil telefonu da masanın üstündə idi.

... Az keçmiş İlqar yenə də sevimli maşını ilə küçələri ölçürdü. Neçə gündən bəri tamarzı qaldığı “Davidoff” markalı siqareti ləzzətlə çəkə-çəkə arabir mobil telefonu qulağına tutur, yoldakı qızlara göz yetirirdi. Maşının maqnitolasında isə “Ləbionda” qrupunun mahnıları hay-küy salmışdı...

# 40-cı HİSSƏ

# Qara xallı yamyaşıl timsah

Keçən günlər gözümdə Bir xəyal dünyasıdır, Göynədir göyüm-göyüm. O günlər doğmam idi, Bu günlərim ögeyim.

R.Rza

Nailə qara rəngli “QAZ-31” maşınına söykənib dənizə baxırdı... Bu tutqun oktyabr günündə dəniz o qədər sakit idi ki... Qapqara buludlar yeri, göyü və sanırdı ki, hətta onun iç dünyasını da zülmətə bürümüşdü...

Abbas Şeyxzadə bir qədər aralıda durub kiminləsə telefon söhbəti edirdi. Puldan danışırdılar. Hansısa malın pulunu kimsə gecikdirirdi və ölçü götürmək lazım idi...

Nailə dənizə baxır, sakit-sakit ağlayırdı... Ömrünün ən xoşbəxt günlərində dəfələrlə İlqarla bura gəlmişdilər... Üç-dörd metr qabaqda, ləpədöyəndə “06”-nı saxlayıb dənizə tamaşa etmişdilər, bir-birilərinə sarmaşmışdılar... Bu dəniz onların ən ilahi anlarının, ən ehtiraslı pıçıltılarının şahidi olmuşdu...

Qağayılar qıy çəkib, dövrə vurub getdilər... Nailənin yadına “qağayı - albatros” mübahisələri düşdü. O vaxt İlqarla həmin iri quşu görəndə onun hansı quş olduğu barədə mərc gəlmişdilər. Lap uşaq kimi çeçələ barmaqlarını bir-birinə keçirmişdilər... İlahi, o günlər necə də xoşbəxt günlər idi... Ya da qumda evcik düzəltməkləri, ləpədöyəndə bir-birilərinin adını yazmaqları...

Nailə hıçqırtılarına ara verə bilmirdi... Bu qapqara, dəhşət dolu gündə durub o xoşbəxt günləri xatırladıqca ürəyi yerindən qopub düşmək istəyirdi... Axı necə oldu, o günlərin

qədrini bilmədi? Necə oldu, yerə salıb sındırdı, çilik-çilik etdi xoşbəxtliyini...

İndi xatirələr, bu günün hüznü, lap elə bu qapqara buludlar, bu ölünü xatırladan dəniz, hamısı, hamısı Nailəni üzürdü...

... Abbas Şeyxzadə yaxınlaşıb onun başını qucaqlamışdı. Ona bu ayrılıq dolu günlərin mənasızlığından danışır, bu müddətdə onu heç kəsə dəyişmədiyini bildirirdi. Onu yenə də qızıla-qumaşa tutacağına söz verirdi...

Nailə maşına keçdi. Arxa oturacağın üstündən əl çantasını götürdü. Barmaqlarını çantanın içindəki bıçağın tiyəsində gəzdirdi. Abbas Şeyxzadə də arxa qapıdan maşına mindi. Nailəni qucaqladı:

> - Yenə hər şey yaxşı olacaq... Məni bağışla, gərək, o söz-söhbətə görə belə etməyəydim. Nə oldu, mənə oldu. Heç bilirsən, sənsiz mənə necə çətin idi?

Nailə onun ağuşundan çıxdı, gözlərini dik onun gözlərinə zillədi:

> - Mən sizə inanmışdım... Sizi özümə ata sanırdım... Axı hər şey başqa cür də ola bilərdi... Allaha qurban olum, bizi yaradır, bizə mədə verir, iştah verir... Ancaq onları doydurmaq üçün imkan vermir... Siz axı mənim qarnımı doydurmaq üçün... hökmən məni yatağamı çəkməli idiniz?... Axı mən sizin qızınızın rəfiqəsiydim...

Abbas Şeyxzadə onu qucaqlamağa cəhd göstərdi:

> - Nailə, elə deyil. Mən səni istəyirdim. Yaş boş söhbətdir. İstəyirdim səni... İndi də istəyirəm. Səni xoşbəxt edəcəm, inan mənə.

Nailə hıçqırırdı:

- Siz acizliyimdən istifadə edib məni bədbəxt etdiniz. İndi də xoşbəxtlikdən danışırsız. Xoşbəxtlik - görünür, mənim qismətim deyilmiş...

Yenə əlini çantasının içinə apardı. Vursunmu onu? Burada, dəniz kənarında onu öldürsəydi, dərhal hamının ağlına sevgi-məhəbbət motivləri gələcəkdi. Axı bütün Bakı bunların əhvalatlarını bilirdi... Dərhal Nailədən şübhələnəcək, onu həbs edəcəkdilər... Bayaq Abbas Şeyxzadə telefonla danışdıqdan sonra: “Yadıma salarsan, qayıdanda Sulu Təpəyə dəyərik”, - söyləmişdi... Sulu Təpə yolunda məsələni bitirmək olardı. Bəlkə, kriminalistləri də bu yolla azdırmaq mümkün idi.

... Maşın artıq Sulu Təpə yolunda idi. Abbas Şeyxzadə dil boğaza qoymurdu:

- Sənin üçün hər şeyimdən keçərəm. Mənə möhlət ver. Səni qızıla-qumaşa tutaram. O dediyin ofisi də səninçün açaram...

- Maşını saxlayın!

Abbas Şeyxzadə maşını yolun kənarına çəkib saxladı:

- Nə oldu, özünü pis hiss edirsən?

- Yox... Yanıma gəlin.

Kimsəsiz bir yer idi. İns-cins yoxuydu. Hava qaralmaq üzrə idi.

Abbas Şeyxzadə arxa oturacağa keçdi, dərhal da Nailəni qucaqladı:

- Mənim həyatım. Mənim sevgilim... Mənim qadın idealım...

... Nailə ani olaraq Abbas Şeyxzadədən aralandı, çantasının içindəki iri saplı, parıltılı bıçağı çıxarıb onun sinəsinə sancdı...

Nə baş verdiyini dərk etməyən Abbas Şeyxzadə dəhşətli bir səslə bağırdı. Ancaq Nailə özünü itirmədi. Bıçağı təkrar-təkrar onun bədəninə sancdı... İndi onu beyni yox, əlləri idarə edirdi...

...Haçandan-haçana yorulduğunu hiss edib, heysiz halda maşından düşdü. Əlləri, üstü-başı qıpqırmızı idi. Qana bulaşmış ayaqqabıları indi də quma bulaşdı... Başladı əli ilə qumu təmizləməyə...

Hava qaralmışdı. Ətraf o qədər qorxulu görünürdü ki. Birdən Nailənin canına üşütmə düşdü, maşından çantasını götürdü. Son dəfə hərəkətsiz yıxılıb qalan Abbas Şeyxzadə-yə, bu nəhəng cüssəli adama baxdı... Sonra çantasını sinəsinə sıxıb gücü gəldikcə qaçmağa başladı...

Bir qədər keçmiş o, artıq Bakı yolunda dayanıb maşınlara əl eləyirdi. İçində qorxu hissi, bədənində soyuqluq var idi. Bu anda maşına minməklə bu müdhiş aləmdən qopub qaçacağına inanırdı...

... Taksi sürücüsü tir-tir titrəyən və qanlı əllərini gizləyən Nailənin üst-başını şübhəli-şübhəli süzdü. Qız Əhmədli-də, evlərinin qarşısında düşüb bloka girən kimi o, maşını yaxınlıqdakı telefon avtomatları səmtə sürdü...

...Nailə evə girdi. Anasına heç nə demədən vanna otağına keçdi. Əynindəkiləri çıxarıb atdı, yuyundu. Sonra can dəsmalına bürünüb hamamdan çıxdı. Anası key-key dayanıb onun üzünə baxırdı...

Gəlib telefona yaxınlaşdı. İlqarın mobil telefonunun nömrəsini kodla yığdı. Telefonu Səidə götürdü. Onun: “Tez

elə, İlqarı çağır”, - deməsi ilə İlqarın dəstəyi götürməsi bir an çəkdi. Nailə dedi:

- Qayınatavı öldürdüm. Bütün günahlarımı yudum...

... Anası gözləri hədəqəsindən çıxmış halda, qızından nə baş verdiyini soruşdu. Ancaq ondan doğru-dürüst bir cavab ala bilmədi. Az keçmiş qapı zərblə döyüldü. Bir neçə polis işçisi evə girdi. Nailənin qollarını burub, qabaqlarına qatdılar. Onu ayağı yalın həyətə düşürüb, itələyərək arxası dəmir barmaqlıqlı maşına saldılar.

Bu vaxt qara rəngli “Mercedes”-in əyləcləri tükürpədici səs qopardı. İlqar özünü maşından çölə atdı. Nailəni polis maşınında gördü. Nailə üzünü maşının şüşəsinə söykəyib, donuq baxışlarla baxırdı... Anası özünü yerə çırpır, maşının təkərlərini qucaqlayır: “Qoymaram, qoymaram, balamı aparasınız”, - deyirdi...

... Polis maşını tərpəndi... Sonra yox oldu. İlqar gəlib özünü yerə çırpan qadını qaldırdı. “Ana, dur, ağlama”, - dedi. Qadın başını qaldırıb ətrafdakı qonşuları süzdü, çətinliklə özünü toplayıb İlqardan soruşa bildi:

- Sən Nailənin nəyisən, oğul?

İlqar xeyli tərəddüd edib: “Heç nəyi”, - dedi.

Sonra maşınına oturdu, başını sükana söykəyib beləcə qaldı. Xeyli keçmiş uşaq səsi eşidib başını qaldırdı:

- Əmi, polislər Nailəni maşına mindirəndə bu, onun əlindən düşdü.

Uşaq maşının yarıaçıq şüşəsindən ona üstü qara xallı yamyaşıl, oyuncaq timsah uzatmışdı...

□□□

İlqar əlləri əsə-əsə timsahı götürdü...

□□□

Ayrılıqdan savayı

Daha heç nəyimiz yox.

Ruhum oyuq-oyuqdur,

Bir şam yandır,

... soyuqdur...

Rasət

# 41-ci HİSSƏ

# Bir ayrılıq, bir ölüm

Hamımız sükut içindəydik. Xanımların bəziləri hıçqırırdı. Mən kinonun, bədii əsərin təsir gücü ilə ağlayanların incəqəlbli, həssas olduqlarını dərk edəndə həmişə bir şeyi başa düşə bilmirəm: axı sən əminsən ki, gördüyün, oxuduğun real hadisə deyil, insan təxəyyülünün uydurmasıdır. Bəs niyə qəhrəmanın halına acıyır, göz yaşı axıdırsan?

Biri də var real hadisələr...

Özümün də gözlərim dolmuşdu. Hadisənin sonluğu, xüsusən Nailənin polis maşınının arxa şüşəsindən İlqara baxması, uşağın oyuncaq timsahı tapıb İlqara verməsi olduqca təsirli idi. Bu səhnəni olduğu kimi vermək, o anların kədər yükünü göstərmək mümkünmü idi?

Şölə xanım ağlaya-ağlaya yır-yığış edirdi. Daha əhvalat bitmişdi, o getməli idi...

Redaksiyanın kişi kontingenti siqaret çəkmək üçün otaqdan çıxırdı. Qadınlarsa hələ də yerlərindən durmurdular...

Sonradan şəxsən mənə yüzlərlə sual olunacaqdı. Nailə niyə məhz Abbas Şeyxzadəni öldürdü? Axı sonuncu epizodlarda ona ən böyük pisliyi Ruqiyyə etmişdi. Ruqiyyə Nailəni rahat buraxsaydı, onun yalvarışlarına, göz yaşlarına məhəl qoysaydı, bu sonluq da olmazdı... Yaxud da İlqarı götürək.

Məgər Nailənin bədbəxtçiliyində onun rolu Abbas Şeyxzadə-ninkindən az idi? Axı məhz İlqar onu atıb Səidəylə evlənəndən sonra, məhz bu zərbədən sonra Nailə Abbas Şeyxzadə-nin məşuqəsi olmağa razılıq vermişdi...

Və bu suallara cavab axtara-axtara başa düşmüşdüm ki, Nailə İlqara heç vaxt qıya bilməzdi. Çünki sevirdi onu. Bütün varlığı, vücudu ilə sevirdi onu. İlqar hər halda səhvlərini yumuş, bütün imtiyazlarından imtina edərək geri qayıtmışdı... Bu faktın özü də az rol oynamırdı...

...Şölə xanım bu müddətdə xanım əməkdaşlarımızla rəfiqə olmağa da macal tapmışdı. Bir-birilərinin telefonlarını götürür, əlaqəni itirməyəcəklərinə söz verirdilər...

Yalnız redaksiya otağından çıxhaçıxda indiyə kimi sirr saxladığı şeyin nə olduğunu o, bizə açıb söylədi:

> - Məhkəmədə sübut olundu ki, N.İ. öz tabeçiliyində olan Ə.-nin köməksizliyindən istifadə edərək onun bakirəliyini pozub. Ə. də məhz bundan sonra pis yola sürüklənib... Odur ki, qisas motivləri güclü olduğu üçün ona 12 il azadlıqdan məhrumedilmə cəzası verdilər. Bunları hamınız, yəqin bilirsiniz, qəzetinizdəki məhkəmə reportajında yazmışdınız...

Şölə xanım qəhrəmanları yenə də öz adları ilə adlandırmağa başlamışdı...

> - ... Ailəsi də onunla əlaqə saxlayırdı, yanına gedib-gəlirdi... Bu əlaqələr elə də mütəmadi deyildi. Bununla belə Ə. unudulmurdu. Mənə də Lalə zəng edir, Ə.-nin salamlarını yetirirdi. Hərdənbir gizlincə yığdığım pulları da göndərirdim... 1998-ci il aprel ayının 11-də...

Şölə xanım yenidən hıçqırdı, dəsmalı üzünə tutdu.

> - ... Bacısı zəng edib dedi ki, Ə. ölüb. Həbsxanada ağır xəstəlikdən ölüb... Anası bu xəbərdən yatağa düşdü. Bir kimsələri də olmadı ki, gedib onun hansı şəraitdə öldüyünü öyrənsin. Yazıqların burada heç kimi yoxdu... Sonra da Arzu xalagil çıxıb rayonlarına - İmişliyə

getdilər... Mən biləni, yiyəsi gəlmədiyinə görə Ə. elə həbsxanadaca dəfn edildi...

Bu anadək hamımız Nailəni görmək ümidində idik. Axı, hesabnan cəmi ikicə ili qalmışdı onun azadlığa çıxmasına. Redaksiyada qərar da qəbul etmişdik ki, yazının dərci qurtardıqdan sonra axtarıb həbsxanadan Nailəni tapaq, ona maddi və mənəvi yardım göstərək. Həbsdən çıxdıqdan sonra isə onu himayəmizə götürək. Hətta məktublar şöbəsində işləyən qızımız pul yığmağa başlamışdı ki, iki ildən sonra Nailəyə "Modalar evi" açmaqda köməklik etsin... Biz mövzunu davam etdirmək, həbsxana reportajları ilə oxucuları intizardan qurtarmaq istəyirdik. Ən nəhayət, biz İlqarı da tapmaq, onun sonrakı taleyi ilə tanış olmaq fikrindəydik. Hətta onlar arasında qiyabi bir dialoq, telefon bağlantısı da qurmaq istəyirdik...

Belə çıxırdı ki, bütün bunlar daha olmayacaqdı.

... Xanımların ağlaşmaq səhnələri o qədər təsirli idi ki, otaqdan çıxdım. Dəhlizdə xeyli var-gəl elədim. Nailənin ölməsi xəbəri məni lap sarsıtmışdı. Əllərim əsə-əsə siqaret yandırdım...

Xeyli keçmiş Şölə xanım yaxınlaşdı, əlindəki audio kaseti mənə uzatdı:

- Nailədən mənə bir o şəkillər yadigar qalıb, bir də bu kaset. Həmişə deyərdi ki, Şölə, ən kədərli anında bu ilahi mahnını dinlə. Sənin məişət kədərin çevrilib ümumbəşəri bir kədər olacaq. Hə, hə. Lap belə deyirdi: məişət kədərin ümumbəşəri kədər olacaq.

Ah çəkdi:

- Nailənin qarşısında azacıq da olsa, günahlarımın yuyulduğunu sanıram. O hadisədən - İlqarın onu iş

başında yaxa-lamasından sonra Nailə lap rüsvay olmuşdu. İndi tanıyanlar hadisələrin axarını görüb ən azı Nailəyə nifrət etməyəcəklər, ona acıyacaqlar...

□□□

Sonrakı saatda məni ancaq bir şey düşündürürdü. Maşına tez oturub həmin bu kaseti dinləmək...

□□□

... Və nəhayət, dinlədim bu kaseti... Ancaq axıradək yox. Göz yaşları məni boğdu...

Bu qala daşlı qala,

Çınqıllı, daşlı qala.

Qorxuram yar gəlməyə,

Gözlərim yaşlı qala.

Doğrudan da, neçə yüz illər bundan əvvəl bizim babalarımız, nənələrimiz ən ilahi sevgi nəğmələrini yazmışdılar... Görəsən, başqa xalqlar da bu cür nəğmələrlə: belə həzin musiqi, belə mənalı sözlərlə öyünə bilərdilərmi?

Mən aşiq, olmayaydı,

Saralıb solmayaydı.

Bir ayrılıq, bir ölüm,

Heç biri olmayaydı.

Neçə yüz illərdir ki, sevənlər bir ayrılıqdan, bir də ölümün olmasından qorxurlar... Ancaq olur. Bu qəddar dünyamızda ayrılıq da olur, ölüm də olur.

Elə bu əhvalatdakı kimi. Öncə ayrılıq gəlmişdi, sonrasa ölüm gəldi...

I fəslin sonu

# II FƏSİL

# Ayrılıqdan sonra1-ci HİSSƏ

## Batan gəmilərin son ləngəri

Batan gəmilər son dəfə vahiməli bir ləngər vurub sonra batırlar. Bu ləngərvurma ilə sularda qərq olunmaq arasındakı vaxt məsafəsi onların canverməsidir.

Sentyabrın iyirmisində hava soyudu və mən payızın gəlişini hiss etdim... Avqustun sonunda da bir-iki gün istilər sınmış, payızın nəfəsi duyulmuşdu. Ancaq sentyabrın əvvəllərində, elə bil, yay yenidən qayıtmışdı. Nəfəskəsici istilər zəhlətökən odlu küləklərin müşayiəti ilə adamı lap bezdirmişdi. Hamı sərinlik axtarışında idi. Bir-biri ilə qarşılaşan iki şəxs salamdan əvvəl: - İstilərnən necəsən, ee?, - soruşurdu...

Bəlkə də, bu, payızın bir manevri idi. O vaxt göz aldatmağa gəlmişdi. Ancaq indi onun məqsədi, yəqin ki, başqadır. Bundan sonra çətin havalar yenidən isinə. Axı qarşıda oktyabr dayanıb...

Təqvimə baxdım, ani olaraq fikrimdən keçdi ki, bu gün İlqarla Səidənin toyunun onilliyidir. Görəsən, onlar bu günü hansı şəraitdə qeyd edəcəkdilər?

Elə dünən nəşriyyatın dəhlizində tərini-suyunu silə-silə Razi müəllim mənə: “Bircə bu istilər qurtarsaydı, nəzir-ni-yaz paylayardım”, - söyləmişdi. Ancaq indi pəncərədən bomboz havaya baxıb tamam başqa səmtə gileyləndi: - Soyuqlar düşdü. Yenə işıqsız, qazsız qalacağıq...

Niyə insanı Allah bu qədər narazı yaradıb, görəsən? Yazda hamı yayı arzulayır, yağışdan, küləkdən bezib isti hava,

dəniz mövsümü istəyir. Yayda istilərdən cana doyduqlarını dilə gətirib nəfəslərini isti qarsıya-qarsıya payızı, sərinləri gözləyirlər. Payızda növbəti yağışlar və zəhlətökən küləklərdən bezikib qışın qarının, gözqamaşdıran bəyazlığının həsrətini çəkirlər. Qışda sümük sızladan soyuqdan, qarın palçığa, suya çevrilib başağrısına çevrilməsindən gileylənəndə isə hamı yazı arzulayır. Güllü-çiçəkli yazda barı sümüklərinin qızacağını, təbiətin oyanacağını gözləyirlər... Sonra da hər şey yenidən təkrar olunur...

...İnsan təbiətən naşükürdür. Heç nə, heç vaxt onu qane eləmir...

- Alatavada oldunuz?

- Bəli.

- Nə məsələ idi?

- Su borusu partlamışdı. Qanunsuz qazma işləri aparan...

- Bayıla adam göndərildi?

- Əlbəttə.

- Orada nə məsələdir?

- İşıq məsələsi. Üç gündür ki, yüksək gərginlikli kabel xətti...

Redaksiyamız yenə adi qayğıları ilə yüklənmişdi. İşıqdan, sudan, qazdan şikayətlər, deputatlığa namizədlərlə müsahibələr...

-... Mən seçilsəm, sizin redaksiyaya, elə sizin hər birinizə xeyrim olar. Kompüterləriniz Nuh əyyamından qalıb, hamısını

dəyişdirərəm. Babat A3 formatında bir printer alaram... Bilirsiniz, xalq çaşmamalı, yaxşını pisdən ayırmalıdır. Evlərə gedib imza toplayanda, bəzisi qapını üzümüzə çırpır. Bu nə tərbiyədir?

- Onları da qınamayın. Artıq beziblər. Boş vədlərdən təngə gəliblər...

- Mən boş vəd vermirəm. Mən bütün seçicilərimə, öz potensial elektoratıma deyirəm: Məni seçin, mən Qarabağ problemini həll edim. Bəli, bəli.

- Soruşmaq ayıb olmasın, siz Qarabağ problemini necə həll edəcəksiniz ki?

- Bu sirdir. İndidən deyim, siyasi rəqiblərimə istiqamət verim?

... Əslində, seçkiöncəsi dövr sadə azərbaycanlılar üçün əsl bal ayı hesab olunmalıdır. Hər dairədən beş-on namizəd qeydə alındığından, seçici ilə maraqlanan, onun problemini soruşan, hətta bəzən də həll edən, ona nəsə hədiyyə edənlərin sayı bu il lap "bəsdir" deyincəyə qədərdir. Namizədlər xeyir-şərə də gedirlər, hətta xəstə seçicisini xəstəxanada da yoluxurlar, həyətlərə asfalt döşətdirir, xeyir-şər evlərini təmir etdirirlər. Bir onlardan soruşan da yoxdur ki, ay filankəs, bax, bu aftafa-ləyəni keçən il paylaya bilməzdinmi? Dörd il on ay seçicini itirib-axtarmırsan, ancaq seçkiöncəki 2 ayda əl-ayağa düşürsən?

Ümumiyyətlə, hardandır bu əminlik ki, həyətlərə "KamAZ"larla kartof-soğan paylamaqla millət vəkili seçilmək olar? Belələrinin şansları, demək olar ki, sıfıra bərabərdir. Xalqın gözü tərəzidir. Xalq bilir kim kimdir.

Nailənin ölüm xəbəri ilə mövzumuz qəfil qırıldığından bütün diqqətimiz seçkiyə yönəlmişdi. Bu cansıxıcı prosesin içinə

girməyə mən də məcbur olmuşdum... Ancaq ara-sıra bu quyudan çıxmalı olurdum. Çünki Şölə xanım gedəndən və yazının çapı başa çatandan sonra hələ də oxucu məktubları və zəngləri gəlməkdə idi. Hələ də Nailənin taleyi qızğın müzakirə obyekti idi...

Bir çox yaşlı oxucularımızın xahişi ilə yazını kirill variantına çevirmişdik, onlar gəlib redaksiyadan bu variantı götürüb aparırdılar. “Sonuncu ölən ümidlərdir” barədə mənim aləmimdə ən orijinal fikri məhz həmin yaşlılardan biri - özünü Əhməd müəllim adlandıran kişi söyləmişdi:

- Burada başqa seçim də yox idi. Ya tolerant, ya ekstremist olmalı idin. Nailə dözürdü hər şeyə, həyatın ona bəxş etdiyi sürprizlərlə əlləşə-əlləşə tolerantlıq nümayiş etdirirdi. Bununla belə, alın yazısını pozmaq, tanrı ilə cəngə çıxmaqla o, həm də ekstremist idi. O həm dözürdü, həm dözmürdü... Və qəribəsi o idi ki, onun ətrafına sanki tam onun əksi olanlar toplaşmışdı. Bu, hər şeyə dözəndə onlar heç nəyə dözməmişdilər. Bu, üsyan edib dözməməyə başlayanda isə onlar müticəsinə dözməyi üstün tutdular...

□□□

- Salam, mən Nailəyəm. Əsərinizin qəhrəmanı.

Əlbəttə, məni qara basır. Necə yəni, mən Nailəyəm?

Bayaqkı sözlər bir də dəstəkdən gəldi:

- Alo, eşitmirsiz? Mən Nailəyəm.

Qulaqlarıma inanmırmış kimi bir də soruşdum:

- Kimsiniz?

- Nailəyəm.

Kiminsə mənimlə zarafat etdiyini düşünüb dəstəyi asdım. Ancaq zəng təkrarlandı:

- Dəstəyi niyə asırsınız? Mən Nailəyəm, sizin qəhrəmanınız.

- Bəs... Axı siz...Bəs...

Tutulub qaldım.

- Qorxmayın, o dünyadan zəng etmirəm. Mən bu dəqiqə Yasamaldayam, sizin beş-on addımlığınızda...

- Bu ola bilməz...

- Niyə olmur ki? Mən sağ-salamatam. Bakıda yaşayıram, “Albatros” adlı modalar evinin sahibəsiyəm. Yazı çap olunarkən burada yox idim, öncə Parisdə, sonra Romada yüksək moda həftəsində iştirak edirdim. Bəxtiniz gətirdi ki, burada yox idim. Yoxsa qoymazdım o yazını çap edəsiniz... İndi bunu yazmağın axı nə mənası. Olan olub, keçən keçib... İstədim, öncə Şöləyə zəng edim. Nahaq bu işi tutduğunu söyləyim. Sonra mənə çatdı ki, axı Şölə üçün mən ölmüşəm. Düzdür, sizinçün də ölmüşəm. Ancaq siz yadsınız, o isə doğmamdır. Onun reaksiyasından qorxdum. Bir də ki, sağ olduğumun bilinməsi mənə sərf etmir.

- Bəs...axı...

- Hamısını danışacam. Bütün suallara cavab tapacaqsınız. Sizdən cəmi 2 xahişim olacaq. Birincisi, mənim kimliyimi, yəni mənim mən olduğumu, necə deyim e, kəsəsi, mənim sizin əsərinizdəki Nailə

olduğumu heç kəs bilməsin. İkincisi isə, mənim danışacaqlarımı yazmayasınız.

- Yazmasam, bunları mənə danışmağınızın nə mənası olacaq?

- Sadəcə, həyatımı o cür zərgər dəqiqliyi ilə qələmə aldığınızçün sizə minnətdaram. İstəyirəm, qəhrəmanınızın sonrakı taleyini də biləsiniz. Biləsiniz ki, o, qalib gəlib. Yazmaq isə lazım deyil. Mən gizli qalmalıyam.

İstər-istəməz onunla razılaşmalı oldum... Həyatda bir çox gözlənilməzliklərlə qarşılaşmışdım. Ancaq beləsi ilə... Maraq məni öldürürdü. Bircə şey barədə düşünürdüm: Nailəni tez görüm.

O, təsəvvür etdiyim kimi idimi? Bu müddətdə hər hansı səhnəni yazarkən, hətta onun yerişini, duruşunu özlüyümdə təxmin etmişdim. Hətta onun baxışlarını, ədalarını, ağlamasını, gülməsini, lap elə öpüşməsini... Hər şeyi, hər şeyi öz gözümlə görmüş kimi xəyalımda canlandırmış, vərəqə köçürmüşdüm...

İndi onu görəcəkdim. Təsəvvür və təxminlərimdə çoxmu yanlışlığa yol vermişdim?

... Ən əsası isə o idi ki, həyat rəngarəngliyinə qayıdırdı. İşıq, su problemi, namizədlərin moizələri öz yerini sirr dolu bir talenin hekayətinə verirdi.

□□□

- Salam, mən Nailəyəm.

Bayaq telefonda belə demişdi, indi isə “Portofino”da mənə yaxınlaşıb beləcə dedi. Sonra əyləşdi. Haçandan-haçana

çətinliklə dillənə bildim:

- Mən sizi belə təsəvvür etmirdim.

O, uzun qara yubka, nazik qırmızı dəri gödəkcə və qırmızı tuflidə idi. Gözündə qara eynək var idi...

Gülümsədi:

- Yəni o qədər eybəcərləşmişəm?

- Yox, yox... Eybəcər deyilsiniz. Sadəcə, başqa fərqlər var. Məsələn, mənim qəhrəmanımın saçları uzun, qıvrım idi. O, onları xırda-xırda hörəndə xüsusilə gözəl görünərdi. Siz-sə saçlarınızı çox gödək kəsdirmisiniz. Bir qədər də köksünüz, onun kimi model ölçülərində deyilsiniz...

Bu dəfə onun gözlərinə kədər qondu:

- Yaş öz sözünü deyir axı. On il keçib o vaxtdan.

Ona təsəlli sözləri söylədim:

- Ancaq öz gözəlliyinizi itirməmisiniz...

Hiss etdim ki, bu sözlər təsəlli olmadı. Sifariş etdiyimiz təbii meyvə şirəsini içə-içə pirojnaları qabağıma itələdi:

- İkisini də özünüz yeyin. Madam ki, kökəlmişəm, demək, arıqlamaq lazımdır...

Ona dalbadal o qədər suallar verib yordum ki...

Nəhayət, o danışmağa başladı...

# 2-ci HİSSƏ

# Daş qəfəsdə

Sətiraltı ifadələr, sualtı qayıqlar, başaltı yastıqlar, gözaltı qızlar, qaraltı işıqlar. Bir də bu izlər -atdığın addımlardan yerə düşən gilizlər... Bir də yalın ayaqlar altında çilik-çilik olmuş ümid qırıntıları. Bir də biz -

Günəşin ucalıqlarda unudub atdığı qar tullantıları.

Salam

Sən demə, ümidsiz də yaşamaq olarmış... Və sən demə, heç də ümid sonda ölmürmüş...

Bütün hissləri keyimiş, bütün düşüncələri donmuşdu Nailənin...

Nələr arzulayırdı, ancaq nələr qisməti oldu... Bu soyuq, dəmir barmaqlıqlı “mənziF’də günlərin, ayların hesabını da itirmişdi. ..

Yalnız təzə-təzə bura alışmağa çalışan vaxtları çətin idi onun üçün. O vaxtlar hələ anası, bacısı və qardaşı ayda bir dəfə onu görməyə gələr, ev yeməkləri, bir də azadlığın qoxusunu gətirərdilər...

O da onları sorğu-suala tutardı:

- Şölə necədir, əlaqəniz varmı?

- Bakıda qızlar indi necə geyinirlər?

- Qızbəs xala, Suqra xala, Firagil neynirlər?

- Təzə hansı mahnılar çıxıb?

Bu sualı isə gizlincə qardaşına verirdi:

- İlqarın maşınını küçədə görüb-eləmirsən?

Bu görüşlər zamanı anasının və onun oxşar sözləri də tez-tez təkrarlanardı:

- Allah qoysa, qayıdıb gələrsən, filan şeyi filan eləyərsən...

- İnşallah, qayıdıb gələrəm, bəhmən şeyi bəhmən eləyərəm...

Sonra anasından xəbər çıxdı ki, bəs dolana bilmirik, əlac-sızıq, mənzili satıb İmişliyə köçürük...

Bundan sonra ətraf dünya ilə bütün əlaqələri kəsildi... Düzdür, hərdən bacısından məktub alardı, ancaq bu məktublarda onu maraqlandıran heç bir sualın cavabı yox idi. Nə Şölənin, Qızbəs xala, Suqra xala, Firagilin necə olmaları, nə Bakıda hansı paltarların dəbdə olması, nə hansı yeni mahnıların çıxması, nə də qardaşının İlqarın maşınını görüb-gör-məməsi...

Kameranın dəmir barmaqlıqlar arasında dəftər vərəqi boyda pəncərəsi varıydı, oradan bir parça səma görünərdi. Səma azadlığın burada yeganə nümunəsi olduğundan, gündə bir neçə dəfə onunla söhbətləşər, tezliklə ona, yəni azadlığa qovuşacağını dilə gətirərdi... Dəqiq yadındadır, 1998-ci il fevralın 2-də yuxudan tamam başqa bir adam kimi ayıldı. İçində heç bir ümid qalmamışdı. “Lənətə gələsən səni”, - söyləyib pəncərənin qabağını da əski-üskü ilə qapatdı... Və yalnız onda taleyi ilə barışdı. Sanki elə belə də olmalı idi: dünya beton dörd divarın soyuq və nəm həqiqətindən ibarət olaraq qalmalıydı. Bu həqiqətin əhatəsində ondan başqa yeganə canlı hörümçəklər idi. Hörümçəklər tor qurur, ora heç bir həşəratın düşmə-yəcəyinə əmin olsalar belə, yenə öz

“məhbusluq” taleləri ilə barışıb tor qurmaq məşğuliyyətlərindən əl çəkmirdilər...

Nailə hər bir sözün həbsxana variantında işlənməsi ilə də özlüyündə razılaşmışdı. Yaşadığı Bakı şəhərini indi “zon”, Əhmədlidəki mənzillərini indi “kamera” əvəz edirdi. Bufet əvəzinə “kutok”, ayaqyolu əvəzinə “paraşa”, yemək əvəzinə “balanda”, məktub əvəzinə “ksiva” deyirdi.

Rütubət, nəmlik dəhşətli dərəcədə idi. Duz palçığa dönürdü. Siqareti, gərək, sinəndə saxlayaydın, çıxartdınmı, az müddətə nəmlənirdi, çəkmək olmurdu...

... Bu soyuq və rütubətli daş qəfəsdə ürəyinin get-gedə daşlaşmasına da göz yumurdu o. Həyata, insanlara zərrəcə sevgisi qalmamışdı. Hamıya nifrət edirdi. Bəlkə də, bu, nifrət deyildi, ikrah dolu biganəlik idi...

Yox idi: nə dünən, nə də bu gün yox idi. Nə də sabah olacaqdı... Heç nə yox idi... Onu həyata bağlayan xatirələr də yerli-dibli yoxa çıxmışdı...

Əslində, o, təkcə daxilən yox, zahirən də dəyişmişdi....

Sulu Təpə yolunda qatilə çevrildiyi o məşum gündən sonra onun sifət cizgiləri də başqalaşmışdı. Uzun, buruq-buruq saçlarından əsər-əlamət qalmamışdı. İndi o, eynən oğlanlar kimi qısa saç saxlayırdı...

Bu müddətdə heç kimlə ünsiyyət bağlamamışdı, öz din-məzliyi ilə zonda ad çıxarmışdı. Hamı bu qatil qızcığazdan aralı gəzməyə çalışırdı. Heç kim onunla qaynayıb-qarışmağa cəhd göstərmirdi...

Azadlıqda olanda kitab-qəzet oxumağı xoşlamazdı. Onun aləmində televiziya informasiya almaq baxımından qəzetdən üstün idi. Ən təsirli roman isə ala-babat filmin kölgəsində

qalırdı. Hərdən etiraf edirdi ki, bu qənaətə tənbəllikdən gəlib. Axı höccələyə-höccələyə oxumaqla özünə əziyyət vermək istəmirdi. Oxuyanda həmişə gözlərinin yorulduğunu hiss edərdi. Ancaq burada mütaliə etməyə başlamışdı. İlk dəfə kameraya gətirilən “drova”nın içindən tapdığı kitabı oxumaq qərarına gəlmişdi... Adətən, dustaqlar çayı kağız, əski, sellofan və s. yandırmaqla qaynadırdılar. Və “drova” adlanan bu yanacağın içində onun əlinə “101 filosof” kitabı keçmişdi... Avropanın ən məşhur filosoflarının ibrətamiz cümlələrini oxumağa başladıqca kitaba necə aludə olmuşdusa, heç cür ondan qopmamışdı... Bir fikir ona xüsusən maraqlı görünmüşdü: “Məqsəd vasitələri doğruldur”. Yəni qarşına qoyduğun vəzifəyə hansı yollarla çatırsan, fərqi yoxdur, təki çat!

... Həmin ilin aprelində qəfil qızdırmaya düşdü. Bədəni alışıb yanırdı... İki gün sayıqladı, yataqdan durammadı. Sonra titrəməyə başladı, üstünə kamera yoldaşları 4-5 ode-yal atdılar, yenə titrəmə canından çıxmadı... Heç nə yemir, tamam əldən düşürdü... Nəhayət, həkim müayinəsinə aparıb ona sarsıdıcı bir xəbər verdilər: vərəm. Uşaqlıqda bət-bəni-zi ağappaq olan bir qız yaşayırdı qonşu blokda. Gərək ki, adı Zəriş idi. Bax, həmin o qız vərəm xəstəliyinə tutulduğundan, hamı, o cümlədən də Nailə ondan qaçırdı. Yadındadır, nəsə bir oyun oynayanda Zəriş onlara yaxınlaşırdısa, hərəsi bir bəhanə ilə oyunu dayandırıb aradan çıxırdı. Onlara elə gəlirdi ki, hətta söhbət etməklə də bu qorxulu xəstəlik onlara keçə bilər... İndisə Nailə özü bu bəlaya tutulmuşdu...

Elə an oldu ki, o, nəinki bu gününə, gələcəyinə, hətta keçmişinə də nifrət eləməyə başladı. İlqara nifrət eləməyi o yana, ailəsinə, rəfiqəsinə də nifrət etdi. Anası, bacı və qardaşı, onun fikrincə, öz sonsuz tələbatları və ehtiyacları ilə onu məhv etmişdilər... Şölə rəfiqə kimi onu uçurumdan çəkməmişdi... İlqar isə onun həyatını param-param parçalamış, ona dağ çəkmişdi...

Şölə iki dəfə Nailəyə bacısı Lalədən məktub göndərmişdi. Hər ikisində İlqarın hələ də onu unutmadığını, bezgin bir ailə həyatı yaşadığını bildirmişdi... Ancaq Nailə üçün bu etiraflar indi daldan atılan daş təsiri bağışlayırdı...

Bütün bu insanlar birləşib düşmənləri ilə birgə - Abbas Şeyxzadə, İftixar, Rufa ilə birgə onu bax, bu “mənzilə” gətirib salmışdılar...

Həmin anda Nailəyə elə gəldi ki, doğmaları onu yoluxmağa gəlsə, hətta onların üzlərinə tüpürə də bilər...

Ani olaraq beynindən ölmək, bütün bu iztirablardan qurtarmaq keçdi. Əslində, o, onsuz da bu qəfəsdə ölü olduğunu duyurdu. Ölməsi - ancaq azadlıqdakı yaxınları üçün lazım idi... Çox düşünüb-daşındı, nəhayət, özünün xəstəlikdən ölməyi barədə bayıra xəbər sızdırdı. Bu xəbər ilk öncə İmişliyə - ailəsinə çatmalıydı. Bilirdi ki, bacısı Lalə bu xəbəri Şöləyə çatdıracaq. Şölənin isə İlqarla əlaqəsi olduğundan, İlqar da bundan xəbər tutacaqdı... Əmin idi ki, anasıgil gəlib onun meyitini tələb etməyəcəkdilər. Anası yarıcan idi, İmişlidə yataq xəstəsiydi. Bacı-qardaşı isə uşaq idilər... Başqa kimləri var idi ki?.. Yemək pulu tapmayan ac-yalavac qohumlarımı gələcəkdilər bunun dalınca?

Kitab oxumaqla yanaşı, namaz qılmağa da başladı. Yaşlı qadın var idi, Validə adında. Lənkəran tərəfdən idi. O öyrətmişdi namazı ona. Üzündən nur yağırdı. Heç deməzdin, adam öldürüb. Ondan-bundan eşidər ki, əri özündən yaşca böyük bir əxlaqsıza uyub. Bir-iki dəfə ərindən izahat tələb eləyər, kişi bunu sakitləşdirər ki, elə şey yoxdur. Növbəti dəfə əri Bakıya mal almağa gedəndə bu, onun ardınca yollanar, kişini izləyib, doğrudan da, həmin ünvana getdiyini görər... İnsafən, əri rayona qayıdanda sakitcə ondan boşanmağı tələb eləyər, beynində başqa şey olmaz. Deyər ki, Allah yaradanı bəndənin öldürməyə haqqı yoxdur. Nə

yazıq ki, əri artistlik edər, bunun gözü ilə gördüyünü danar. Üstəlik, artıq-əskik söyləyib bunu təhqir edər... Validə namazını qılar, sonra baltanı götürərək sərxoş halda xoruldayan ərini doğ-ram-doğram edər...

...Nailə kəlmeyi-şəhadəti də öyrənmişdi. Hər yatanda bu kəlmələri pıçıldayırdı: “Bismillahir-rəhmanir-rəhim. Əşhədu ən lə ilahə illəllah, əşhədu ənnə Mühəmmədən Rəsulullah”.

Bookleaks.org

# 3-cü HİSSƏ

# Məqsəd vasitələri doğruldur?

Gülə can verən arıyıq, Yönü sevdalara sarıyıq, Ölüm heç nədi, ayrılıq Yamandı, ay gedən, əylən. Açıb yasəmən kolları, Açılıb bizə qolları. Tanı getdiyin yolları, Dumandı, ay gedən, əylən.

A.Səməd

May ayı idi. 2003-cü ilin mayı. Azərbaycan prezidentinin növbəti amnistiya fərmanı qüvvəyə minəcəkdi. Hamı bu fərmandan danışır, azadlığa çıxacağını gözləyirdi. Təkcə Nailə bunun fərqində deyildi...

Validə təkidlə bir parça səmanı göstərən pəncərənin qarşısını ona təmizlətdirdi. Bu bir parça səma haradasa azadlıq adlı məfhum olduğunu yenə sübut etməyə başladı. Səma günəşli idi. Hətta Nailə bu günəşi avqust günəşinə bənzətdi...

... Arxadan “nadzorun” səsi gəldi. Onu koloniya rəisinin yanına dəvət edirdilər... Bu dəvətin nə olduğunu artıq kamerada hamı hiss etmişdi...

... Bir azdan rəis kabinetdə onun əlini sıxır, nümunəvi davranışına görə amnistiyaya düşdüyünü bildirir, cənab prezidentin bu nəcib addımı müqabilində azadlığa çıxarkən, cəmiyyətdə faydalı bir adama çevrilməyi tövsiyə edir, təntənəli mərasimdə çıxış üçün ona söz veriləcəyinin zəruriliyini önə çəkirdi...

... Nailə istehza ilə “azadlıq” sözünü bir neçə dəfə təkrarladı. Dodaqaltı dedi:

- Kimdən və nədən azad oluram?

Rəis danışırdı:

- ... Həbsxana həyatı səni büsbütün islah etməyib. Təbii ki, sən azadlıqda olarkən elə yaşamalısan ki, bir daha səhv buraxmayasan...

Nailə isə onu dinləmir, öz-özünə danışırdı:

- Özümdən ki, heç vaxt azad ola bilməyəcəyəm...

... Ertəsi gün o yır-yığış edir, onu təbrik edən, ona bəxtəvərlik yağdıran rəfiqələrinə ağızucu “sağ olun” deyə-deyə donmuş hissiyyatını əritmək istəyirdi.

Ancaq faydasız idi bu cəhdləri. İçində azacıq da olsa sevinc duymurdu. Bax, onu qorxudan, dəhşətə gətirən də bu idi... Azadlıqda onu heç kim gözləmirdi... Uzaq bir rayona köçmüş doğmalarından başqa, onun heç kimi yox idi... Bir də Şölə var idi... Başqa heç kim... Nə atası, nə rəfiqələri, nə də sevgilisi...

Görəsən, anasıgil indi necə yaşayırdılar, dolana bilirdilərmi? Rayon yeridir, yəqin, qohum-əqrəba həyan olacaq. Bakıdan rayona köçmək uşaqları nə qədər geri saldı... Qardaşının oxumağa elə də həvəsi yox idi. Ancaq bacısı yaxşı oxuyurdu. Yazıq qız... İndi, yəqin, ərdədir... Çətin, anası ona toy eləyə. Yəqin, birinə qoşulub qaçıb...

Yazıq anası o vaxt ağır xəstə idi. Görəsən, axırı nə oldu?

Atası...

... Nailə atasını gözünün önünə gətirə bilmədi heç cür. Əvəzində onun tumarladığı pudel gəlib durdu gözlərinin qabağında... O vaxt atası həmin iti Nailədən üstün tutmuşdu...

Şölə neynəyir? İndi, çox yəqin, oğul-uşaq basıb onu.

Görəsən, sinif yoldaşları, qonşuları, tanış-bilişləri neynirlər?

Görəsən, Famil neynəyir? Yazıq bunu təmiz qəlblə sevirdi. İndi, yəqin ki, ailə qurub. O vaxt Familə ərə getsəydi, görən, bunu hansı tale gözləyərdi?

Qızbəs və Suqra xala, Fira neynirlər? Qızbəs xalanın şəkəri varıydı, deyirdi, a bala, iki-üç il ömrüm qalıb. Suqra xala, maşallah, top kimi idi. Dörd-beş mağazanı, ofisi süpürüb çörəkpulu qazanırdı. Fira cavanıydı, ingilis dili müəlliməsiydi. Yaşı otuzu haqlasa da, hələ ərə getməmişdi... Görəsən, ailə həyatı qura bilmişdimi?

Lap elə əvvəl yaşadıqları yataqxananın komendantını da xatırladı. Ona “Metallom” adını qoymuşdu. Ağzında metal dişləri parıldadığına görə. Görən, o şorgöz indi neynirdi? Nailədən sonra daha kimlərə əl uzatmışdı?

Qəsdən lap kənar adamları da xatırlayırdı ki, İlqarı xatırlamasın.

... Görəsən, Səidə neynirdi? İyrənirmiş kimi üz-gözünü turşutdu. Cəld də Alyaya keçdi. Oxşar tale onu bir vaxtlar Alyaya yaxınlaşdırmışdı... Hər ikisi fahişəlik edir, Rufaya pul qazanırdı...

Alya bundan fərqli olaraq, işini sevirdi. Həyatda nə qazanacaqdısa, bu işin müqabilində qazanacağı ilə barışmışdı. O, tamam başqa cür düşünür, kişilərlə intim yaxınlığı özünə ləkə saymırdı. Hətta gözəl kişilərlə yaxınlıqdan böyük həzz də duyurdu...

Yaş ötmüşdü. İndi, yəqin, Alya bu işlə böyük pullar qazana bilməzdi. Bir də ki, Rufa lap cavan qızlara üstünlük verirdi. Yəqin, Alyanı “Qalaktikos”dan qovmuşdu...

Bəs, görəsən, Rufa haradadır?

Get-gedə donmuş xatirələrin buzu açılır və Nailə ən xırda epizoduna kimi keçmişinin ən əsas məqamlarını xatırlayırdı...

O vaxt Rufaya yalvarmış, İlqara ərə gedəcəyini bildirmiş, rahat buraxılmasını xahiş etmişdi... Görən, ifritə Rufa onu son dəfə məcbur edib Fuadın yatağına salmasaydı, İlqarla axırları necə olacaqdı?...

İlqar... Yenə də İlqar... Axır ki, İlqar...

... Koloniya rəisi “nadzor” vasitəsilə Nailəyə paltar göndərmişdi... Nailə yiyəsiz sayılırdı, kim ona paltar gətirməliydi ki? Rəis göndərən paltarı indi “nadzor” ona sarı uzatmışdı. Ancaq Nailə key-key baxır, nə baş verdiyini anlamağa çalışırdı...

Axı niyə, niyə İlqar onu daha varlısına dəyişdi? Bütün ümidlərini məhv etdi, arzularını tapdadı, gələcəyini kor qoydu?

... “Nadzor” onu tələsdirirdi. Nailə paltarı götürüb geyinmək üçün pərdənin arxasına keçdi...

... Bu da vida mərasimi...

Kamera yoldaşları ağlaşırdı. Ona evlərinə çatdırılası kağız bükülüləri verirdilər...

- Heç sevinmirsən.

Validə idi bunu deyən.

- Səkkiz ildir, həbsdəsən. Bunun beş ilini mənim yanımda keçirmisən. Ancaq hələ bir dəfə də olsun,

üzünün güldüyünü görməmişəm... Barı bu gün gül...

Nailə donuq baxışlarla Validəni süzdü:

- Səndən çox razıyam. Xətrini çox istəyirəm. On beş yaş məndən böyük olsan da, səninlə yaxınlıq etmişəm, yaş fərqimiz hiss olunmayıb... Səni heç vaxt unutmayacam. Səndən çox şeyi öyrənmişəm. Ən əsası da, namazı. Bunu yaddan çı-xartmayacam.

- Yox, görünür, məndən heç nə öyrənməmisən. Öyrənsəydin, belə eləməzdin...

Nailə başa düşmədi Validəni:

- Neynirəm ki?

- Allah naşükürləri sevmir, qız. Belə naşükürlük olmaz. Azadlığa çıxırsan, Allaha dua elə. Get, yeni həyata başla. Sanki dünyaya yeni gəlirsən. Azadlıq insana verilən ən böyük nemətdir.

- Axı məni azadlıqda heç kəs gözləmir?

- Niyə ki? Bir vaxt öldüyünü zənn edən doğmaların səni sağ görüb, heç bilirsən, necə sevinəcəklər?

- Mən təzədən nə işləyəcəm? Yenə gedib referentmi olacam? İndi heç referentliyə də yaramıram. Daha yaşım ötüb.

- Sən həbsə niyə düşdün, qız? Xoş güzəran qurmaq üçün, ümidlərinin, arzularının həyata keçməsi üçün... Get ümidlərinin dalınca. Onlar ölməyib, sadəcə, donublar. Bu bumbuz məhbus həyatı onları dondurub. Azadlıq onların donunu açacaq. Get, qızlıq arzularını indi

həyata keçir. O vaxt o arzular hələ pöhrə idi, tumurcuq idi. İndi özün görmürsən, onlar qollu-budaqlı ağacdırlar...

Nailə hiss edirdi ki, Validənin sözlərinin sehrinə düşür.

- Ən böyük arzum modalar evi açmaq olub, sən bilirsən. Bu arzumu, yəni reallaşdıra bilərəm? Axı yenə mənim pulum, var-dövlətim yoxdur. O vaxt gənc idim, enerjim, həyat sevgim var idi. Bəs indi nəyim var?

- Sən indi Allaha ibadət edirsən, qız. Allahına güvən. Yerdəki iblis və şeytanlara güvənməkdənsə, Allahına güvən. O, səni darda qoymaz... Bir də ki, o vaxt gəncliyin, enerjin, həyat sevgin vardısa, indi sənin həyat təcrübən, biliyin var. Həbsxana adama düzgün qərar vermək, çətinlikdən çıxmaq vərdişi, ən əsas da dözümlülük bəxş edir.

- Mən bunları özümdə hiss edirəm.

- Ən əsası, sən özünü təsdiq etməlisən. Uğrunda ölümə getdiyin ümidləri öldürməməlisən. Mən istəyərdim, sənə pislik edən adamları hər şeyə nail olandan sonra məşhər ayağına çəkəsən: baxın, mən buyam. Siz mənə pisliklər etdiniz, ancaq mən sınmadım, yolumdan dönmədim. İndi mən arzularıma çatmışam, pisliyiniz özünüzə qalıb.

- Doğrusu, buranı 1998-ci ildən gedər-gəlməz sanırdım. Bir daha geriyə qayıtmayacağımı yəqinləmişdim... Ona görə də azadlıqla bağlı heç bir planım yox idi... İndisə o planlar yaranmağa başlayır. Mən onların hamısından qisas alacam.

- Yox, qız. Allah adildir, hər şeyi görəndir. Qisası Allah özü onlardan alacaq. Sən, sadəcə, bu işdə vasitəçi olacaqsan...

Bir saat idi özləri də hiss etmədən söhbətləşdikləri. Validə gözüyaşlı Nailəni qucaqladı. Nailə də kövrəlmişdi. Ancaq gözündə yaş yox idi. Burada o, həm də ağlamağı yadırğamışdı... Baxmayaraq ki, bura düşən qadınlarçün göz yaşları sonuncu tutalğa, son ümid yeridir...

-... Gedərsən Lənkərana, balalarımı yoluxarsan. Nazlıy-nan Qulam böyükdürlər, əlin çörəyə çatanda çalış, onlara bir iş düzəlt. Qoy özlərinin qazancı olsun, Bakıda yaşasınlar. Nə qədər baba-nənə çörəyi yemək olar...

- Arxayın ol, onlara həmişə arxa olacam.

- Di get. Yolun açıq olsun. Allah qoysa, azadlıqda görüşərik...

Öpüşüb ayrıldılar. Validənin sözü bu vahiməli ərazini tərk edənəcən Nailənin qulağından çəkilmədi:

- Qız, unutma ki, məqsədinə, hansı vasitələrlə olursa olsun, mütləq çatmalısan. Allah köməyin olsun!

Xatırladı ki, kamerada oxuduğu “101 filosof” kitabında da buna oxşar cümlə var idi: “Məqsəd vasitələri doğruldur”.

İlahi, kim söyləmişdi o fikri?

Həbsxana qarşısında əfv olunan dustaqları qarşılamağa xeyli adam toplaşmışdı. Onların arasından keçib gedərkən bayaqdan xatırlamaq istədiyi adı xatırladı: Makiavelli. “Məqsəd vasitələri doğruldur” cümləsini söyləyən şəxsin adı belə idi.

# 4-cü HİSSƏ

## Səkkiz ildən sonra

Gedən yollar qayıtmaz, Ağla gələn yollara. Nə ümidin varsa da, Bağla gələn yollara.

B.Vüsal

Bakı necə də dəyişmişdi...

Elə bil, Nailə başqa planetdən gəlmişdi bura. Qarışqa kimi qaynaşan, deyib-gülən bu insan kütləsinin içində özünü tamamilə yad, kimsəsiz sayırdı...

Taksini Gənclər meydanında saxladıb Fəvvarələr meydanını, Torqovını gəzirdi. Ağzı açıq halda yeni tikililərə baxır, şəhərin səkkiz ildə az qala səksən illik inkişaf yolu keçdiyini zənn edirdi. Göydələnlərə yaxınlaşıb orada hansı idarələrin yerləşdiyini öyrənmək istəyirdi: “Beynəlxalq bank”, “İsr Plaza”...

Nahar elədiyi xudmani bina da yenilərdən idi: “Makdo-nalds”...

Pulu ona koloniya rəisi vermişdi. Sözün düzü, həmin vəzifədə belə ürəyiyumşaq, xeyirxah insanın işləməsinə çox təəccüblənmişdi... Rəis ona mehribanlıq göstərəndə Nailə bunun əvəzində gec-tez ondan nəsə tələb olunacağını zənn edirdi. Elə dünən rəis ona azadlığa çıxacağını bildirəndən sonra yüz min manat yolpulu verəndə Nailənin dalağı sancmışdı. Bu gün rəis ona paltar göndərəndə yüz faiz yəqinləşdirmişdi ki, “nadzor” onu rəisin otağına dəvət edəcək. Və rəis həyatında rast gəldiyi bütün “uxajor” kişilər kimi ona eşq elan edəcək... Ancaq bu baş verməmişdi. Və Nailə həyatında ilk dəfə təmənnasız kişi xeyirxahlığından məmnun olmuşdu. Özlüyündə zarafatdan da qalmamışdı: “Yəqin qocalmışam. Yoxsa rəis mənə eşq elan edərdi...”

Kafedə ikiadamlıq masada oturub əcaib-qəraib ikimərtəbəli buterbrod yeyir, qazlı içki içirdi...

Təbii ki, onu şəhərin içinə çıxan kimi ilk öncə qızların geyim-kecimi maraqlandırmışdı. İlahi, şalvar geyinmək lap “epidemiya” halını almışdı. Qızlar, deyəsən, birdəfəlik dondan imtina etmişdilər... Bu, axı gödək “yubka” geyinməyi xoşlayırdı. Yəni daha geyinməyəcəkdi?

Burada - kafedə də içəri girib-çıxan qızların geyim-keciminə baxırdı...

Küncdə əyləşən oğlanla qız heç kimə əhəmiyyət vermədən öpüşürdülər... Nailə İlqarlı günlərini xatırladı. Öpüşmək üçün haralara getmirdilər... Yadına “Azərbaycan” kinoteatrında hind filminə baxmaları düşdü. Marçhamarç öpüşürdülər qaranlıqda. Dondurmalarını da İlqarın yanındakı oturacağın üstünə qoymuşdular... Bir kişi gəlib dondurmaların üstündə oturmuşdu...

Dodaqları qaçdı...

Düşündü ki, bu səkkiz ildə, deyəsən, təkcə küçələr, geyim dəbləri dəyişməyib. Dəyişən çox şey imiş...

- Gözəl xanım, yanınızda əyləşmək olarmı?

Qulaqlarına inanmadı. Qarşısında dayanmış, əlində məcməyi dolu yemək olan uzunboylu kişi onamı müraciət edirdi?

- Başa düşmədim...

- Deyirəm, yanınızda əyləşmək olarmı?

Nailə ani olaraq qərar verdi:

- Yox, adam gözləyirəm.

Kişinin belə deməsi ona ləzzət vermişdi. Deməli, köhnə gözəlliyindən nəyisə qoruyub saxlaya bilib.

Fərqinə vardı ki, koloniya rəisinin göndərdiyi paltarda - bu ucuzvari cins şalvar-gödəkçədə və nimdaş ayaqqabılarda, üstəlik də, bu bəzək-düzəksiz sifətlə, saçla o, çox pis görünür. Bəzənib-düzənsə, görəsən, yenə o vaxtlardakı kimi diqqət mərkəzində olacaqdımı?

... Kafedən çıxdı. Torqovıdakı mağazaları gəzdi. Qiymətlərin bahalığından xeyli təəccübləndi. Ən yaxşı paltarları xəyalən geyindi, indiki axmaq yerişini ədalı yerişlə dəyişdi... Lap podiuma da çıxdı, özünü model kimi gördü...

Yenə diqqət mərkəzində idi, yenə oğlanlar ona söz atırdı...

Hiss etdi ki, ürəyi bərk-bərk döyünür. Xəyalına gətirdikləri onu lap həyəcanlandırmışdı...

“Ah! Bircə tezliklə problemlərimi həll edib mən də bu xoşbəxt insanların sırasına qoşulaydım...”

Məhbəsdə ikən onu tərk edib getmiş həyat eşqi indi yenidən gəlib içinə dolmuşdu... O, yaşamaq, heç olmasa, bundan sonra çəkdiyi əzab-əziyyətlərin və bədbəxtliklərin müqabilində xoşbəxt olmaq istəyirdi...

Küçəni gəzdikcə özündən asılı olmayaraq gözləri İlqarı axtarırdı. Ancaq 8 yaş “qocalmış” İlqarın indiki vəziyyətini təsəvvür etmədiyi üçün o vaxtkı İlqarı axtarırdı...

Bayıra qoyulmuş səsgücləndiricilərindən ətrafa musiqi sədaları yayılan iri mağazaya girdi. Bir vaxtlar video və audio kaset satılan mağazalara baş çəkmək onun ən çox sevdiyi məşğuliyyətlərdən idi. Disklər düzülən vitrinlərin yanından cəld keçdi, utandı soruşsun ki, bunlar nədir belə. Audio kasetlər satılan şöbədə ayaq saxladı. İlahi, nə qədər yeni müğənnilər peyda olmuşdu. Həm Azərbaycan, həm də Türkiyə estradasın-dakı bu yeni isimlərin adlarını hafizəsində saxlamağa çalışdı...

- Sizə kömək lazımdır?

Satıcı qız ona yaxınlaşmışdı.

- Hə... Bilirsiz, mən 8 ildir ki, Bakıda deyildim, indi gəlmişəm... Hansı mahnılar dəbdədir?

- Harada idiniz ki?

Qızın gözlənilməz sualından Nailə çaş-baş qaldı. Cəld də vəziyyətdən çıxış yolunu tapdı:

- Xaricdə idim.

- Hə, nə yaxşı. Hansı ölkədə?

Nailə ürəyində başını hər yerə soxan satıcı qızı yamanladı. Düşündü ki, bu, belə xarakteri ilə Türkiyə desə Türkiyədən, Rusiya desə Rusiyadan, Amerika desə Amerikadan ona suallar yağdıracaq. Hansı şəhərdə, hansı küçədə qalırdın, harada işləyirdin, filan yerdə oldunmu, bəhmən yeri gördünmü?

Ağlına gələn adı məmnuniyyətlə söyləyib qızı “pas” etməsindən ləzzət duydu:

- Burkina-Fasoda.

- Hə? Mən heç orada olmamışam. Necə yerdir?

- Necə olasıdır? Afrikadır da. Əlli dərəcə isti.

- Bəs nə əcəb qaralmamısınız?...

Qız sual verəndə onun mobil telefonu zəng çaldı, Nailə maraqla qızın telefonuna baxdı:

- A, nə gözəl telefonunuz var? İncə, kompakt. O vaxtın ən balaca telefonu indi ən yaxşı halda qoz qırmağa yarayar.

Qız necə də diqqətcil idi. Danışıb qurtaran kimi telefonunu bağlayıb soruşdu:

- Hansı vaxtın?

Nailə yenə tutuldu. Özünü eşitməzliyə vurub əlini kasetlərdən birinə tərəf uzatdı:

- O gözəl oğlan kimdir elə?

- Bu? Abbasdır.

- Bəs o biri?

- Ədalətdir.

- Təzə çıxıblar? O vaxtlar bunların heç biri yox idi. Kişi müğənnilərdən estradada bir Faiq var idi, bir İlqar Xəyal, bir də Teymur Əmrah... Başqa heç kimi xatırlamıram... Ver o Ədalət dediyinin kasetini.

Qız kaseti uzada-uzada dedi:

- Görüm, bəyənəcəksiniz...

- Necə mahnılar oxuyur? Tappatarap, yoxsa lirik?

- Tappatarap.

- Onda lazım deyil.

- Lirik istəyirsiniz? Deyəsən, Afrikada tappatarapdan bezmisiniz...

Qız kaseti açıb musiqi mərkəzinə saldı.

- Qulaq asın. Onun bir mahnısını qoyacam, xoşunuza gələcək... Hərdən bir lirik də oxuyur.

Nailə diqqətlə kədər dolu mahnını dinlədi.

Amanın günüdür, ay gözəl,

Zəmanə səni

Aldadıb birdən oda atar...

Ürəyindən keçdi ki, görən, Ədalət onu tanıyıbmı, onun taleyindən xəbərdar olubmu ki, bu mahnını yazıb...

Satıcı qız daha bir kaseti açıb Nailəyə uzatdı:

- Düzdür, bunu oxuyan gözəl oğlan deyil, yaşlı bir əmidir. Ancaq əminəm ki, sizə ləzzət eləyəcək bu mahnı...

Kasetin üstünə İlqar Muradov yazılmışdı. Mahnı sanki Nailənin iç dünyasını titrətdi:

O əllər, o əllər indi kimindir?..

O gözlər, o gözlər indi kimindir?..

Satıcı üzərində üç qızın şəkli olan bir kaseti də göstərib xeyli təriflədi:

- Bunlar da siz Afrikaya gedəndən sonra oxumağa başlayıblar. “W-Trio” qrupudur. Röya, Elnarə və Natəvan. Yaxşı mahnıları var...

... Bir azdan yenə insan selinə qoşuldu. Yox, ona hələ də diqqət yetirən var idi... Həyat, doğrudan da, gözəl idi. Hiss

etdi ki, ömrünün ən yaşanmalı 8 ilindən məhrum olduqdan sonra indi yaşamaq eşqi onda ikiqat artıb.

... Hiss etdi ki, xoşbəxt olmaq üçün burnunun ucu göynəyir. Ancaq necə? Nə evi, nə pulu, nə də bir doğma adamı vardı.

Nə etməli idi?

Sabahı barədə fikirləşməyə vaxtı çoxuydu. İndilərdə isə gecələməyə yer tapmalıydı. Yox, köhnə tanışlardan söhbət belə gedə bilməz. O, özünü büruzə verməməliydi. Gizli yaşayacaqdı. Başqa adla, başqa taleni yaşayıb Nailənin arzularını həyata keçirəcəkdi...

Taksi sürücüsünə yaxınlaşıb bir vaxt evində İlqarla xoşbəxt günlər keçirdiyi rus qarısının ünvanını söylədi...

□□□

Görəsən, bu göyün altda,

məni istəyən varmı, İlahi,

bir gözləyən varmı,

məni, görəsən?!

... Hər şeyi,

Hər şeyi atıb bu saat,

gedib o adamı arayım, tapım,

söykəyim çiyninə yanan başımı...

axıdım ovcuna bu göz yaşımı...

Rasət

# 5-ci HİSSƏ

# Meşin üzlü bloknot

“Adım Ə., soyadım Məmmədovadır. Doğulduğum şəhər Bakı, ölkəsə Azərbaycandır. Mən yaddaşımın ayrılmaz bir hissəsinə çevrilmiş bütün bunları heç zaman unuda bilmərəm. Eləcə də həyatımın ağrı-acılı qara günlərini və mənə pislik etmiş insanları heç zaman unuda bilmərəm. Adımı, soyadımı, doğulduğum şəhəri və ölkəni mənə valideynlərim qazandırıblar. Mənə pislik etmiş adamları isə özüm qazanmışam. Onları qazanmağı özüm bacarmışamsa, itirməyi də özüm bacarmalıyam”.

Nailənin meşin üzlü bloknotunun titul vərəqindən bu sözləri oxudum. Sonra telefon nömrələri, müxtəlif ünvanlar sıralanmışdı. O, üzr istəyib kafedən çıxmışdı, on dəqiqəlik vacib söhbəti olduğunu və dərhal da qayıdacağını söyləmiş, çantasını və masanın üstündəki qara rəngli bloknotunu götürməmişdi...

Etik qaydalara zidd olsa da, onun bloknotunu vərəqləyirdim.

“Albatros” modalar evinin payız-qış kolleksiyasını nümayiş etdirəcək modellərin siyahısı:

Qızlar:

Avşalumova Yelena,

Məlikova Zümrüd,

İbrahimova Nazlı,

Şetinkina Svetlana,

Koşunova Vitaliya...”

...“Evə alınacaq ərzaq:

Dana əti - 1 kq.

Kartof - 2 kq.

Soğan - 1 kq.

Təzə pomidor, xiyar - 1 kq.

Göyərti - 3 dəstə.

Osetrin balığı - 1 kq.

Alça turşusu - 1 stəkan...”

... “Bu insanları necə də görmək istəyərdim:

Anamı, bacımı və qardaşımı.

Şöləni.

Alyanı.

Validəni...”

Bloknotu vərəqləyirdim və təəssüflənirdim. Kaş Nailə gündəlik tutaydı. Buraya keçirdiyi bütün hisslərini, başına gələnləri köçürəydi. Bu, mənimçün necə də əhəmiyyətli olardı...

Saralmış qəzet kağızı diqqətimi çəkdi. Adını heç vaxt eşitmədiyim Gülruxsor adlı şairin şeiri idi.

“...Sənsiz sevinmərəm, sənsiz gülmərəm,

Qəlbim bir quruyan dənizdir axı.

Səni özgəsindən ala bilmərəm,

Səadət hamıya əzizdir axı.

Bir dağam, başımda oynar buludlar,

Dumanım olmusan, çənim olmusan.

Sevən ürəyimdə bir təsəlli var,

Bir zaman, bir zaman mənim olmusan!"

Doğrudan da, yaxşı şeir idi. Lap təsirləndim...

... Pul haqq-hesabı, telefon nömrələri, modalar evinə alınacaq parçaların siyahısı, xarici moda jurnallarına abunə kağızları, saralmış kitab vərəqi...

"Qağayılar - quşlar dəstəsinin bir fasiləsidir. Uzunluqları 20-75 sm, çəkiləri 50 q-dan 2,5 kq-a qədər olur. Qanadları uzun, ayaqları qısadır. Qabaq barmaqları üzmə pərdəsi ilə birləşmişdir. Dimdikləri qüvvətli və ucu əyridir. Yaxşı üzür və gəzirlər. Bütün qitələrdə yayılmışlar. 82 növü var. Azərbaycanda 14 növünə təsadüf edilir. Dəniz və çay sahillərində koloniyalarla yaşayırlar. Xırda balıqlarla, siçan, çəyirtkə və həşəratlarla qidalanırlar".

"Albatroslar - borudimdiklilər dəstəsindən köçəri dəniz quşları fasiləsidir. Qısa və dolğun gövdəlidirlər. Çəkiləri 8 kq-a qədərdir. Açılmış qanadlarının uzunluğu 4,25 m-ə çatır. Albatroslar hava şəraitindən asılı olmayaraq, yaxşı üzür və uçurlar. Gündüz və gecə dəniz onurğasızlarını və balıqları ovlayırlar. Yalnız çoxalma dövründə quruya çıxırlar. 14 növü məlumdur. Əsasən, Cənub yarımkürəsində yaşayırlar. Azərbaycan ərazisinə - Xəzər dənizinə gəlmələri heç vaxt müşahidə olunmayıb..."

Yalnız indi başa düşdüm ki, Nailənin modalar evinin adı niyə “Albatros”dur... Özümü diqqətsizlikdə qınadım. Axı onlar - o və İlqar bir dəfə dəniz kənarında iri quşu görüb mərc gəlmişdilər. Nailə bu quşun qağayı, İlqarsa albatros olduğunu bildirmişdi. Bax, onda, İlqar qağayını kasıb, albatrosusa varlı quş hesab etmiş, Nailənin xətrinə dəymişdi... Nailə özünü Qağayı, onusa Albatros adlandırmışdı... İşə bax. Sonradan Nailə hansısa kitabdan bu məlumatları götürüb. Yəqin, haçansa İlqara sübut eləmək istəyib ki, o, mərci uduzub. Madam ki, albatros Xəzər sahillərinə uçub gəlmir, deməli, onların gördükləri məhz qağayı imiş. Sadəcə, nisbətən iri qağayı...

Bəs niyə Nailə modalar evinin adını “Qağayı” qoymayıb, “Albatros” qoyub? Bəlkə, ona görə ki, qağayıya özünü bənzətmişdi, albatrosa isə İlqarı? Deməli, bu adı İlqara ithaf edib? “Albatros” modalar evi, deməli, “İlqar” modalar evi anlamındadır? Nə bilmək olar, bəlkə də, heç belə deyil. Albatros varlı, elitar quşdur. Nailə də həyatda məhz bunlara çatmaq istəyir... Deməli, “Albatros” onun arzusunun ünvanı da ola bilər...

Yenə bloknotu vərəqləməyə başladım.

Parisə təyyarə biletləri, “Konkord lə Fayett” otelinin giriş kartı, 50 fransız markası, Parisdən alınmış şeylərin siyahısı:

“Şanel və Naomi Kempbell ətirləri,

Gümüş bəzək əşyaları,

Çətir,

Qırmızı və qara kostyum,

Yumru və kvadrat əl çantaları,

Eyfel qülləsi suveniri,

Düpont gün eynəyi...”

Arıqlamaq üçün qatıq və alma menyüsündən ibarət resepti Nailə tələm-tələsik bloknota köçürüb. Sözlər qırıq-qırıqdır. Görünür, televizorda deyiblərmiş...

Bir səhifədə isə iri-iri hərflərlə yazmışdı: “Məqsəd vasitələri doğruldur!”

- Ey, ey! Adam başqasının şəxsi əşyalarını qurdalamaz!

Nailə bunları deyib masaya yaxınlaşdı.

- Siz Allah, bağışlayın. Mənimçün sizin taleyiniz o qədər maraqlıdır ki... Bunu pis qəbul etməyin.

Nailə əyləşib meyvə şirəsini qurtumladı, dedi:

- Gah mənə gombul deyirsiniz, gah da şəxsi əşyalarımı qurdalayırsınız... Bəlkə, mən də sizə ad qoyum?

Üç saat idi tanış olduğumuz. Ancaq neçə illərin tanışları kimi idik. Nailə adama körpü atmağı bacarırdı. İstiqanlı, yapışıqlı idi...

- İstəyirsiniz ad qoyun, istəyirsiniz başqa bir şey edin, ancaq çox xahiş edirəm, icazə verin, “Sonuncu ölən ümidlər-dir”in davamını yazım. Bu həm mənimçün vacibdir, həm si-zinçün, həm yaxınlarınızçün, həm oxucular üçün...

Nailənin qaşları çatıldı.

- Yox... Təkid etməyin.

- Axı niyə? Niyə üzə çıxmaqdan qorxursunuz? Maşallah, cangüdənləriniz, var-dövlətiniz... Yəni düşmənləriniz belə çoxdur?

- Yox... Bu, mümkün deyil.

- Üzə çıxsanız, hər şeydən əvvəl ananız, bacı-qardaşınız sevinər. Şölə xanım sevinər, başqa yaxınlarınız sevinər. Axı nə vaxta kimi tək-tənha yaşayacaqsınız? Yeri gəlmişkən, bilmirəm İlqarla maraqlanıb-eyləyirsinizmi, ancaq sizin sağ olmağınıza İlqarın reaksiyası bilirsiniz, necə olar? Mənə də yazığınız gəlsin. O cür bestselleri yarımçıq qoymuşam. Əsər tamamlanmalıdır. Bir baxın...

Yanımdakı stulun üstünə qoyduğum sellofan torbanın içindəki məktubları qalaq-qalaq masanın üstünə tökdüm.

- Bir baxın. Hamısı oxucu məktublarıdır. Minlərlə insan sizin taleyinizə biganə qala bilmir.

Məktubları gözdən keçirməyə başladı:

- Oy, nə yaxşı. Bunlar hamısı mənim barəmdədir?

“... Hörmətli redaksiya. “Sonuncu ölən ümidlərdir” əsərini göz yaşları içində oxudum. Nailənin taleyinə acıdım. Xüsusən əsərin sonunda bir cümlə ilə Nailənin dünyasını dəyişməyini bildirməyiniz məni üzdü. Mən hər cür sonluq gözləyirdim, ancaq beləsini...”

“... Adım Rəvanədir. Köşkümüzə cəmi 5 qəzet gəldiyindən, hər qəzetin 20-30 oxucusu var. Əsərin hər hissəsini bir-birimizə ötürə-ötürə oxuyuruq. Nailə xaraktercə çox güclüdür. Ancaq sonda onun ölümü əsərin təsirini azaltdı. Biz bilirik, bu, olmuş hadisədir. Ancaq müəllif, gərək, sona öz yazıçı təxəyyülü ilə müdaxilə edəydi...”

"... Mən iş adamıyam, 45 yaşım var. Həyatda çoxlu qız-qadın görmüşəm. Ancaq Nailə sizin əsərinizdə elə vəsf olunub ki, mən bu ədəbi qəhrəmana vurulmuşam. Təsəvvür edirsinizmi, bu sözləri sizə 15 yaşlı yeniyetmə yox, dünyanın altından, üstündən xəbərdar olan 45 yaşlı kişi yazır. Mən Nailə üçün hər şeyimdən keçməyə hazıram. Onu - o cür duyğulu, gözəl qadını özümə həyat yoldaşı etməyə hazıram. Bəli, mən onu xoşbəxt etməyə qadirəm... Kaş o, indi sağ olaydı, ünvanımı və telefon nömrəmi ona çatdıraydınız..."

"... Biz, on birinci sinfin qızları, müəlliməmizlə birgə "Sonuncu ölən ümidlərdir" əsərini cümləbəcümlə oxuyub müzakirə edirik. İlk öncə, Nailənin uçuruma getməsini onun zəif xarakteri ilə izah edib, onu mənfi qəhrəman sanırdıq. Ancaq sonda bu aciz sandığımız qızın Abbas Şeyxzadə kimi bir nəhəngi öldürüb günahlarını yuması bizi çox təsirləndirdi. İndi Nailə bizim müsbət qəhrəmanımızdır..."

... Məktubları oxuduqca gah Nailənin qaşları çatılır, gah dodaqları qaçırdı. Tez-tez də "belə de...", "uy da", "sağ ol mən", "vay-vay-vay" kimi sözlərdən istifadə edirdi.

- Mənim nə çox azarkeşim var imiş... Siz ki, lap məni ulduz etmisiniz...

Fürsətdən istifadə edib onu yola gətirmək planımı davam etdirdim, "siz"dən "sən"ə keçdim:

> - "Sonuncu ölən ümidlərdir" yazılana kimi cəmiyyətdə sən məhdud bir dairədə tanınırdın. Özü də, bağışla məni, müsbət adam kimi tanınmırdın. Şölə xanım yazının çıxmasını təklif edəndə və biz məsləhətləşəndə, əsas məqsədimiz bu idi ki, sən bəraət qazanasan. Sənin içinin, daxili dünyanın çirkablara batmadığı sübut olunsun. Sənin faciən cəmiyyətin faciəsi kimi verilsin... Gördünmü, bu, necə müsbət effekt yaratdı? Sən

tanındın, bəraət aldın, hətta sevildin. Bəs niyə sən ölü olmalısan? Oxucular bilsələr ki, Nailə sağdır və o, mübarizəsini başa çatdırıb, modalar evini açıb, beynəlxalq müsabiqələrdə iştirak edir, bilsələr ki, Nailə çox zəngindir, son dəb “Mercedes”i, cangüdənləri var, onlar sənə lap səcdə edərlər. Bir də, anana, bacı-qardaşına da yazığın gəlsin. Düzdür, onlara, guya, hansısa yardım fondunun adından tez-tez köməklik göstərirsən, ancaq bunlar azdır. Belə zəngin olduğun bir vaxtda onların yoxsulluğu, yəni səni ağrıtmır?

Nailə köks ötürdü...

- Düz deyirsiniz. Ancaq...

- Nə ancaq?

- Mən axı üzə çıxa bilmərəm.

- Niyə?

- Mənim Nailə olduğumu bilən düşmənlərim məndən qisas ala bilər. İndi onlar mənim, daha doğrusu, Nailənin yox, mənim - Nuranənin əlindən zəncir çeynəyirlər. Hələ bilsələr ki, mən Nuranə yox, Nailəyəm... Yox... Bu, mümkün deyil... Siz mənə sual vermişdiniz İlqar barədə. Onun həyatı barədə məlumatımın olub-olmamasını soruşmuşdunuz... Ancaq mən sizə heç bir cavab verməmişdim. Məlumunuz olsun ki, həbsdən azad olunandan sonra İlqarın həyatı barədə mütəmadi məlumatım olub. Hətta onun evinə də gedib-gəlmişəm.

Mən gözləri dörd olmuş halda soruşdum:

- Necə, necə? Evinə gedib-gəlmisən? Deməli, İlqara sağ olduğunu demisən?

- Yox, deməmişəm.

- Bəs...

- Tələsməyin... Söhbətimiz, deyəsən, uzun çəkəcək. Sabahdan “Portofino”nu bizim ofisə dəyişək.

- Bəlkə, bizim redaksiyaya?

- Yox. Bizim ofis yaxşıdır...

# 6-cı HİSSƏ

## Daha dəniz görünmürdü

Günlərin ömrü də insan ömrüdür, Haçansa onlar da çəkilər dara. Düşəndə yadına mənli günlərin Boylan uzaqlara, bax uzaqlara.

Xaliq

İlqar, neçənci dəfə deyirəm, nahar bişirməyə heç nəyimiz yoxdur. Bazara getmək lazımdır...

Səidənin bu sözləri sanki heç televizorun qarşısında oturmuş İlqara deyilmirdi. O, pultla televizorun səsini ucaldıb, filmə baxmağını davam etdirdi.

- ...İlqar, bir mərifətin-qanacağın olsun. Səninlə deyiləm?

Televizorun səsini niyə qaldırırsan?

İlqar qəzəblə ayağa durdu, yumruğunu masaya çırpdı:

- Sən niyə mənim əsəbimlə oynayırsan?! Heç nə yoxdur, cəhənnəmə olsun!

- Günorta məndən yemək istəməyəcəksən?

- Zəhər istəyəcəm səndən. Bəlkə, bu sifətindən canım qurtara.

İlqar əsəbi halda eyvana çıxdı. Siqaret yandırdı... Öskürək tutdu onu. Düşündü ki, “Davidoff”a öyrəşdiyindən, bu ucuz zir-zibili çəkə bilmir. Bunlar adamı öskürdür... Və özlüyündə sual da elədi: “Bir də o imkanları, görən, Allah mənə verəcəkmi?...”

Son vaxtlar tez-tez əsəbiləşir, cızığından çıxırdı. Belə olduqda eyvana çıxıb təmiz havanı ciyərlərinə çəkir, sakitləşirdi. Bəzən də siqaret çəkməklə sakitləşdiyini zənn edirdi...

Eyvandan aşağı baxdı.

- Qonşu, hər vaxtın xeyir.

Bir mərtəbə yuxarıdakı qonşusu idi.

- Hər vaxtın xeyir.

- Düş, bir domino çırpaq.

- Axşam çırparıq. Günün günorta çağı nə domino?

- A kişi, avara adamıq da. İş yox, güc yox...

- Mənim işim var.

- Nə işin? Olmaya, dissertasiya-zad yazırsan, xəbərimiz yoxdur?

- Mərdan, qırıl da məndən.

Başını içəri soxanda qonşusunun son sözlərini eşitdi:

- Dissertasiyanın mövzusu ağ qoşa ilə altı qoşanı birdən çırpıb “general vermək” olar, yəqin!..

İlqar lap əsəbiləşdi, qonşusunu “səviyyəsiz” adlandırdı. Elə bu vaxt otaqdan körpə qızının çığırtısı eşidildi. Qapını açıb qışqırdı:

- O küçüyün səsini kəs!

Sonra yenə acgözlüklə siqareti sümürməyə başladı. Arabir də öskürdü...

... Bu illərdə İlqar çox geriləmişdi... Abbas Şeyxzadə dünyasını dəyişəndən sonra Səidənin anası onlara düşmən kəsilmişdi. Nəzərə alanda ki, İlqargilin dolanışığı onlardan gəlirdi, bunun necə böyük itki olduğunu dərk etmək çətinlik törətməzdi.

İlqar bir müddət iş axtarmış, əlində olanla “Moskva” univermağında zərgərlik şöbəsi açmışdı. Ancaq işi alınmamışdı.

Sonra faizə pul götürüb İrana getmiş, bir az ərzaq vurub gətirmişdi. Bu dəfə də batırmışdı...

Mərkəzdəki üçotaqlı, əla təmirli mənzillərini satıb, bura - Bayıla, ikiotaqlı nimdaş mənzilə köçmüşdülər. “Mercedes”-i isə o, “09”-a dəyişməyə məcbur olmuşdu. Bu dəyişmələrdən qalan pulun yarıdan çoxu borc qaytarmağa getmişdi. Yerdə qalanını aybaay xərcləyib yeyirdilər. Sonra nə olacaqdı, bilmirdi...

Zəngin həyata alışmış Səidə bu yarıehtiyac dolu həyatla barışmağa çətinlik çəkirdi. Odur ki, tez-tez aralarında söz-söhbət yaranırdı...

İlqarla Səidəni heç nə birləşdirmirdi. Tamam başqa-başqa adamlar idilər. Ancaq dəfələrlə qırğına çıxsalar da, sonda

uşaqlara görə barışmalı olmuşdular. Üç uşaqları var idi. Böyükləri Nuranə 6 yaşın içində idi. Ortancıl oğlan idi - Tural. Onun üç yaşı var idi. Kiçikləri isə 6 aylıq Nərminə idi.

... İlqar yenə aynabənddən boylandı.

Yuxarıdakı qonşunun səsi sanki cərəyan kimi bədənindən keçdi:

- Hə, nə deyirsən, domino vuraq?

Başını içəri salıb qarşısında açılan mənzərəni seyr etməyə başladı. Göydələni burada kim tikdirmişdisə, çox böyük günah işlətmişdi. Bu bina düz onların binasının içinə girirdi. Hətta hərdən İlqarda belə bir təəssürat yaranırdı ki, əlini uzatsa, qabaq binanın eyvanlarından birinin məhəccərindən yapışa bilər... Yaxınlıq o yana, göydələnin burada tikilməsinin ən mənfi cəhəti o idi ki, İlqargilin binasının sakinlərinin dənizə mənzərəsinin qarşısını da kəsirdi. İlqar dənizi görmək üçün sağ tərəfə boylanmalı olurdu. İki binanın arasındakı balaca bir görmə bucağından dəniz görünürdü... İlqarı sakitləşdirən nəsnələrdən biri də bu dəniz idi. Hərdən gecələr dənizin uğultu səsi onların mənzillərinin içinə də dolurdu. Bu səs sanki laylay idi İlqarçün... Dərhal yuxuladırdı onu...

İlqar toxtadı, bu adi may günündə heç bir fövqəladə şeyin baş verməyəcəyinə özünü əmin etdi. Odur ki, reallıqla barışmağın zəruriliyinə inandı. Sakit tərzdə qapını açıb otağa girdi. Səidə qaşqabaqlı halda qucağında körpə televizorun qarşısında əyləşmişdi. Eyni filmin əvvəlinə bayaq İlqar baxmışdı, indisə davamına Səidə baxırdı.

İlqar soruşdu:

- Tural hanı?

Səidə dilucu cavab verdi:

- Qonşuda.

- Gətir, bazara aparacam onu.

- Tək get də.

- Yox, istəyirəm, oğlumla gedim.

Səidə otaqdan çıxdı. İlqar televizora baxa-baxa düşünməyə başladı: bu mənzili iyirmi minə satıb atasının evinə köçsə və iyirmi mini faizə buraxsa...

- Ata, ata.

Oğlu Tural onun qucağına atıldı. İlqar onu öpdü. Qonşu otaqdan böyük qızı Nuranə də gəldi:

- Ata, bazara məni də apar.

Birdən İlqarın gözü qızının əlindəki üstü qara xallı yaşıl oyuncaq timsaha sataşdı. Cəld oyuncağı qızının əlindən aldı:

- Bunu haradan götürmüsən?

- Odey, ordan.

Sən bir işə bax. Neçə vaxt idi, bu timsah onun gözünə dəymirdi. Demə, uşaqların oyuncaqlarının arasında atılıb qalıbmış... Yenə nə yaxşı, bu mənzilə köçəndə onu da gətiriblər. Tullanıb hansısa bir küncdə qala da bilərdi...

... Timsaha sığal çəkdi. Nailənin bircə yadigarı idi bu timsah...

Gözləri yaşardı. Ürəyində: “Allah sənə rəhmət eləsin, Nailə”, - dedi...

Səidə əlində zənbil başının üstündə durub onu tələsdirirdi:

- Sən nə vaxt gedib-gələcəksən, mən nə vaxt qazan asacam?

... Əlbəttə, getmək lazım idi...

## 7-ci HİSSƏ

## Birinci addım

Beləcə günlərim, aylarım keçir, Beləcə illərim keçəcək, yəqin. Hicran qılınc çəkib ömrümü biçir, Yaxşı ki, xəbərin olmayır sənin.

Azəroğlu

Bu mənzillə bağlı Nailənin elə göynəkli xatirələri var idi ki.

- Babulya, çarpayını dəyişməmisən. Balınclar, ode-yallar da həminkidir...

Rus qarı gülə-gülə cavab verdi:

- Məndə pul xardan?

Sonra Nailə mətbəxə keçdi:

- Çaydan da, çaynik də həminkidir. Bəs soyuducun hanı?

- Satdım, pulunu da yedim.

Nailə heyifsiləndi... Yenə mətbəxdən otağa qayıtdı. Bax, burada, bu çarpayının üstündə İlqarla necə ilahi anlar yaşamışdılar... Bu balından bir-birilərinin başına çırpmış, bu masanın ətrafı boyu qaçdı-tutdu oynamışdılar...

- Neçə gün qalacaqsan? Məndə kliyentlər var. İşimi bilim.

Nailə qarıya bir əlliminlik verdi:

- Hələ ki, hesab elə, beşgünlük sənin qonağınam. Sonrasına baxarıq.

- Beş günə beş şirvan azdır. Bu ancaq üç günə çatar.

Qarı çöl qapısını açdı ki, çıxıb getsin. Bir anlıq dayandı, geri qanrıldı:

- Sən xansı kliyentimsən? Xatirimdən çıxıb.

Nailə demədi həqiqəti.

- Nə bilim, adaxlımnan bir dəfə gəlmişdim, - söylədi.

Qarı gözləri yol çəkə-çəkə dedi:

- Bir dəfə bir kliyent vardı məndə. Adı Nailya idi. Oğlanda da ad İlqar...

Nailə diksindi...

-... Onlar xeylə yaxşı para idilər. Oturdux, yedıx-içdıx... Elə şutkalar edirdilər... Mən xeylə para görməmişdim... On qünə qəlmişdilər... Üç qün qalıb yox oldular... Xaçarlarım da onlarda qaldı... Sonra oğlan tək qəldi, sonra yenə itdi... Xeç demərəm, məni aldatdılar, pulçün qaçdılar... Onlar elə kul-turnıy idilər, aldada bilməzdilər adamı. Prosta, bildim başlarında iş var... Eh... Onlar xeylə yaxşı para idilər.

Qarı gedəndən xeyli sonra Nailə yerindən tərpənmədi. Gör bir, onlar qarıda necə xoş təəssüratlar oyatmışdılar. Pulunu da verməmişdilər, açarlarını da özləri ilə aparmışdılar. Ancaq qarı onları yalnız sevə-sevə xatırlayırdı...

Görəsən, qarıya desəydi ki, həmin Nailya dediyin mənəm, qarı neynəyərdi?

... Gecə yata bilmədi. Yuxusu qaçmışdı. Yataqdan, sanırdı, İlqarla o şahanə görüşlərinin qoxusu gəlir... Bədəni alışıb yanmağa başladı. Əzaları titrədi.

Saatın əqrəblərindən sanki daş asılmışdı... Özünü məcbur etdi ki, İlqarı xəyalından çıxarıb gələcəyi barədə düşünsün.

Sabahdan yeni həyata başlayacaq. Necə, nə cür? İlk öncə iş axtarışınamı başlasın? Nə işləyəcək? Xadimə? Yoxsa satıcı? Lap tutalım, babat bir iş oldu, ofisə-zada düzəldi. Axı qazanacağı qəpik-quruşla nələrə nail olacaq? Bu yolla xoşbəxt ola biləcəkmi?

Həbsxana yoldaşlarını, oranın qəddar qanunlarını, qisas və intiqam variantlarını, eşitdiklərini, gördüklərini xatırladı, götür-qoy etdi...

İşıqlaşanda artıq atacağı ilk addımı müəyyənləşdirmişdi. Güzgünün qabağında durub qaşlarını düyünlədi, üzünə qəzəbli ifadə verdi. Səsini xeyli qalınlaşdırıb öz-özünə danışmağa başladı... Məşq edirdi... Əhval-ruhiyyəsi xeyli yüksəlmiş, ümidləri xeyli artmışdı. Artıq qarşısında konkret yol var idi: cəmi bir neçə saatdan sonra onu çox vacib bir “əməliyyat” gözləyirdi...

□□□

... Zavodlar ərazisindəki ailəlilər yataqxanasını Nailə çətinlik çəkmədən tapdı. Bu üfunət qoxuyan, uçulub-sökülən binada bir vaxtlar o, necə də bəxtəvər günlər keçirmişdi... Nə olsun ki, bu bina pis qoxu verirdi, murdarçı idi? O vaxt Nailə çox gənc idi, gözəl idi, sevimli işi var idi, böyür-başında anası, bacısı, qardaşı var idi... Bir də ki, o günlər İlqarlı günlər idi.

Hıçqırtısını güclə boğsa da, gözlərində yaş giləlăndi. Cins gödəkçənin cibindən cib yaylığını çıxarıb gözlərini sildi. Sonra üzərinə “Komendant” sözləri yazılmış qapını döydü. Əslində, “Metallom” adını qoyduğu metaldiş komendantın hələ də burada işləməsi ona inandırıcı görünmürdü... Gör, üstündən nə qədər vaxt keçmişdi... Allaha yalvarırdı ki, möcüzə baş versin, Metallom burada olsun...

... İçəridəki Metallom idi. Saçları bir qədər çallaşmış komendant bu illərdə qız-qadın görərkən irişib dişlərini parıldatmağı hələ də tərgitməmişdi...

- Nə lazımdır sizə, xanım?

Nailə komendantın onu tanıya bilməməsindən məmnun qaldı. Əlbəttə, planlarını həyata keçirmək üçün ən vacib şərt onun tanınmaması idi.

Nə idi axı bu Metallomun adı? Çox gülməli, qeyri-adi adı var... Yaddaşını vərəqləməyə başladı. Bir rus, uzuncaydaq, yaşlı katibəsi var idi, dalınca düşüb tez-tez adını çağırardı:

- Filankəs Filankəsoviç, bu kağıza qol çəkin... Filankəs Filankəsoviç, çay için... Filankəs Filankəsoviç, Bəhmənkəs sizə zəng eləmişdi...

Necə çağırırdı həmin qadın bunu?

Komendant dişləri parıldaya-parıldaya dedi:

- Suyunuz mənə yaman şirin gəlir. Gəlin, keçin içəri. Sizə pürrəngi çay süzüm. Katibəm rəhmətə gedəndən sonra, Allah keçənlərinizə rəhmət eləsin, çay dəmləməyi öyrənmişəm. Əntiqə çay dəmləyirəm. O gün Şəhər Mənzil-Kommu-nal Təsərrüfatının...

Tapdı. Axır ki, Nailə komendantın adını tapdı. Tərəqqi. İlk dəfə komendant adını söyləyəndə Nailənin dodaqları qaçmışdı, ürəyində demişdi ki, yox bir inkişaf... Yaşlı katibəsi isə onun dalınca qaçanda onu Tərəqqi Əfsəroviç deyə çağırırdı...

Görəsən, komendant Nailənin "ölməsi" xəbərini eşitmişdimi? Nailə bütün sonrakı söhbəti bunu bildikdən sonra qurmalı idi...

-... Mən Nailənin bacısıyam.

- Hansı Nailənin?

Komendant bir az düşündükdən sonra yenidən dişlərini parıldatdı:

- Tanıdım. Arzu bacının qızısan. Maşallah, lap böyümüsən. O vaxt məktəbli qız idin. Nailə isə... Eh! Nailə başqa aləm idi. Mən o qıza həmişə səcdə eləmişəm. Bəs indi o hardadır? Bizi görüşdürə bilərsən? Mən ondan ötrü bilirsən, necə sino gedirdim?

Komendant mövzunu elə tez dəyişdi ki.

- Adın, gərək ki, Lalə idi, eləmi?

- Bəli.

- Hə, Lalə xanım, nə əcəb məni yad etmisən? Vallah, yolunda hər şeyə hazıram. Ancaq otağım yoxdur. Əgər boş vaxtın varsa, sabahda-zadda bir görüşək, özü də burada yox, kafedə, barda... Bir şampan içək, bir...

Nailə onun "ölməsindən" komendantın xəbərsiz olduğuna sevindi. İndi oyunu asanlıqla başlamaq olardı...

- Tərəqqi müəllim...

- Ay Tərəqqi müəllim deyən dilinə qurban. Nailə mənə “Metallom müəllim” deyərdi. İstəyirsən, sən də elə de, səmimi olsun...

- Tərəqqi müəllim, Nailə indi vəzifəli bir orqan işçisinin həyat yoldaşıdır...

Bunu eşitcək komendant özünü yığışdırdı, gülümsər sifətinə bir ciddilik qondu:

- Anam-bacım olsun. Yaxşı qadındır Nailə. Mən həmişə bir bacı kimi onun xətrini istəmişəm.

Nailə komendanta lap yaxından bələd olduğu üçün onun necə ağciyər, eyni zamanda, avam olduğunu yaxşı bilirdi...

- Kişi, kəsəsi belədir: Nailə ərə gedib öz kefində-damağın-dadır. Bizə görüm-baxım eləmir. Məndə çox qiymətli bir fakt var. 1995-ci ilin sentyabrında Nailə borc istəmək üçün bura gələndə sən onu zorlamağa cəhd etdin. Həmin vaxt mən qapının dalında idim. Qapının arasından şəkillərinizi çəkdim. Əlini onun dizinə, yanağına sürtməyin, qucaqlamaq istəməyin...

Komendantın rəngi ağappaq ağardı. Nəsə demək istədi, ancaq udqundu...

-... Həmin şəkilləri aparıb Nailənin ərinə göstərəcəm. Deyəcəm, bir vaxt bu komendant bacımı zorlamaq istəyib.

Komendant çətinliklə soruşdu:

- Nə istəyirsən məndən?

- Pul.

Qəfil yerindən atlandı, masanın üstündəki kağızları qurdaladı, qışqırdı:

- Bu dəqiqə redaksiyaya zəng edəcəm, mətbuatı bura tö-kəcəm. Ya da televiziyaya zəng edəcəm, korrespondentlər bura gələcək. Sən heç bilirsən, mənim necə svyazlarım var?

Sonra telefonun dəstəyini götürüb dedi:

- Alo, keqebedir? Bəli, bəli, Tərəqqi müəllimdir. Burada bir şantajist var.

Dəstəyi yerinə qoydu:

- Ay qız, məni şantaj eləmək istəyirsən? Mənim qohumum Prezident Aparatında işləyir. Göbələk-zad deyiləm ki. Mənim də yiyəm var. Get, əlindən gələni beş qaba çək...

Nailə durub qapıya tərəf bir-iki addım atdı:

- Özün bil, kişi. Məndən deməkdir. Yeznəmizin adını çəkmirəm. Gəlib səni buradan aparanda görəcəksən o kimdir. Özü də telefonla keqebeyə zəng edəndə, əvvəlcə nömrəni yığmaq lazımdır!

Komendant əli əsə-əsə qrafindən özünə su tökdü, suyu dağıda-dağıda qurtumlamağa başladı:

- Ay qız, dayan...

Ürəyini ovuşdurdu:

- Nə qədər istəyirsən?

Nailə üzündə məmnun ifadə söylədi:

- Beş min dollar ver, bəsimdir.

Komendantın dili topuq çaldı:

- Qurban olum, başıva dönüm, beş min dollar heç mənim bütün nəslimdə yoxdur...

Nailə yenə jest edib qapıya yaxınlaşdı:

- Özün bil...

Qapını açdı.

Komendant məyusluqla onun qolundan yapışdı:

- Bir dayan. Söhbətimizi qurtarmamışıq axı... Axşam gəlib apararsan.

Nailə: - Yox, elə bu dəqiqəl, - deyib dik komendantın gözlərinin içinə baxdı.

- Qurban sənə, bu dəqiqə mən o pulu hardan tapım? Əlimə torba götürüb dilənməliyəm də qapı-qapı.

Nailə bir daha hər şeyi saf-çürük etdi. Komendant niyə vaxt istəyir? Doğrudandamı, yanında bir elə pulu yoxdur, yoxsa fikri onu ilişdirməkdir? Bu xarakterli adamlar ikinci yolu tutmağa risk etməzlər. Faktdır ki, o, Nailəyə əl uzadıb. Buna şübhəsi olsaydı, unutsaydı bunu, onda tamam başqa cür hərəkət edər, şəkilləri istəyərdi... İndi heç şəkilləri istəmir... Nailənin dediklərinə yüz faiz inanıb hərif... Pulu isə olmaya bilərdi. Bu yataqxanada nəyə görə də onun bir elə pulu olmalıydı? Böyük rüşvətlər alan, böyük dövriyyəsi olan insanların kabinetlərində böyük pullar olur. Beləlİəri isə manat-manat, ordan-burdan kəsib pul yığırlar...

Nailə geri qayıdıb divana əyləşdi. Həyəcanlı idi. Ancaq çalışırdı ki, özünü tox tutsun.

- Bir saat vaxt verirəm. Get, gəl.

Komendant otaqdan çıxdı. Nailə ürəyi darıxdığı üçün otaqda otura bilmədi, o da çıxdı. Həmin qoxu heç dəyişməmişdi. Necə vardısa, dururdu... Divarlar, pilləkənlər qopuq-qopuq idi. Əvvəllər heç belə deyildi buralar...

İkinci mərtəbəyə qalxdı. Ürəyi şiddətlə döyünməyə başladı. Bu da onların bir vaxtkı qapıları. Bənövşəyi rəngdə, üstündə qızılı gözlük və ağ zəng... Zəngi basdı. Yaşlı bir qadın qapını açdı.

- Salam, xala.

- Salam, başıva dönüm.

İçəri dəvət aldı, keçdi. Otaqlar ağzına kimi əşya ilə dolmuşdu. Hiss olunurdu ki, burada yaşayan ailə elə də korluq çəkmir...

- Xala, qabaq burada biz yaşamışıq.

- Hə? Nə yaxşı. Bəs indi harda qalırsız?

- Bakıdan köçmüşük. Uzaqlardayıq. İndi yolum Bakıya düşmüşdü. Dedim, gəlim bir bura baş çəkim. Olarmı o biri otağa keçim?

- Hə, a bala, keç. Niyə keçmirsən? Elə bil öz evindir, keç!

... Bu da öz otağı. Burada yazı masası durardı. Yazı masasının üstündən divara Van Dammın posterini yapışdırmış, ona da İlqarın şəklini taxmışdı. Bax, ora qara telefon aparatını qoyardılar. Maqnitofon orada durardı. Adı

“Parasonik” idi. İlqar demişkən, geydirmə, ucuz bir maqnitofon idi. Məşhur firmanın adına oxşatmışdılar adını. Ancaq o da var idi ki, bu maqnitofon çox keyfiyyətli oxuyurdu. İlqar deyirdi, mənim bahalı musiqi mərkəzim heç sənin o geydirmə maqnitofonun kimi oxutmur... Orada - pəncərənin ağzında isə dəmir çarpayısı durardı.

Dizi üstdə çarpayıda oturar və başını pəncərəyə söykəyib baxardı...

Nailə bütün bunları gözüyaşlı xatırlayırdı. Fərqi yoxdur, keçmişi acımı olub, şirinmi olub, ancaq insan nəyə görəsə həmişə keçmişini qəhərlə, gözüyaşlı xatırlayır... Bəlkə də, ən azı ona görə ki, keçmiş cavanlıqdır, gözəllikdir...

- A bala, çay süzdüm, gəl bir stəkan iç...

Divardakı saata baxdı. Komendanta verdiyi vaxtın hələ tən yarısı dururdu. Onu ilk dəfə görən, belə mehribançılıq göstərən qadınla üzbəsurət oturdu.

- Ay xala, qaçqınsınız?

Qadın ah çəkdi:

- Qaçqınıx, a bala. Allah düşmənin evini yıxsın.

Nailə zoğal mürəbbəsindən bir qaşıq ağzına qoydu:

- Güzəranınız necədir?

Qadın yenə ah çəkdi:

- Şükür Allaha, yeyirik, içirik. Acından qırılanımız yoxdur. Oğullarım Kitaya gedib-gəlirlər. Mal gətirirlər, alver edirlər... Qazancları pis deyil. Qabaq lap pis dolanırdıq. Təzə gələndə aşağıdakı yarımçıq məktəbdə qalırdıq.

Damımız, qapı-pəncərəmiz yox idi. Kulyonka asmışdıq başımızın üstündən. Qapı-pəncərəyə də karton keçirmişdik... Sonra imkan düşdü, 1995-də buranı aldıq... Bura bu obşitelin ən yaxşı evidir. İçinin tualet-hamamı da var...

Nailə həmin tualet-hamamın yaranması dövrünü gözünün qabağına gətirdi. Sürətlə işləyən fəhlələr, taqqataraq səsləri, ora-bura zəng edən komendant, aləmi bürüyən toz-torpaq və komendantın dalınca qaçan katibəsi:

- Tərəqqi Əfsəroviç, çay ostıl... (çayınız soyudu)

Qadın danışmaqda idi:

- Üç oğluma, bir qızıma elə o Kitayın hesabına ev alınıb. Məni də uşaqlar dilə tuturlar ki, köç bu urvatsız yerdən... Deyirəm, yox, ay bala, köçə bilmərəm. Mürşüd axı canını bu dörd divar arasında tapşırıb. Onun ruhunu qoyub gedəmmə-rəm... Yazıq kişini torpaq dərdi apardı. Deyirdi, nə olsun yeyirəm, içirəm, yatıram, dururam... Buranın kababı oranın şor-çörəyinin yerini vermir axı... Torpaq başqa şeydir, ay bala...

... Nailə bərk təsirlənmişdi. Qadınla sağollaşıb aşağı düşdü. Komendant gəlmişdi, otağında idi. Onu görcək qəzet bükülüsünü seyfindən çıxarıb masanın üstünə atdı:

- Qurban sənə, cəmi üç min düzəldə bildim.

Nailə pulları saya-saya məsələni uzatmağın yersiz olduğu qərarına gəldi. Təzədən komendantdan pulun yerdə qalanını da tələb etmək düzgün olmazdı. Axı bıçaq sümüyə dirənəndə insan hərəkətlərini idarə edə bilmir...

Otaqdan çıxanda büzüşüb qalmış komendanta dedi:

- Bir də heç vaxt heç kimə pislik eləmə. Qapına ümid dalınca gələn insanı ümidsiz yola salma...

Komendant dodaqlarını büzmüş, lap körpə uşaq kimi doluxsunmuşdu. Onun bu halı Nailənin lap kefini kökəltdi:

- Hələlik, Tərəqqi Əfsəroviç.

... Üfunət qoxuyan bina bir azdan arxada qalmışdı. Nailə barmaqlarını içində üç min dollar olan qəzet bükülüsünü qoyduğu cins gödəkcəsinin iç cibinə sürtdü. Əmanət orada idi. Bir andaca o, pulsuz-parasız bir səfildən imkanlı adama çevrilmişdi...

Taksi onu Nizami küçəsinə gətirdi. Yaxınlıqdakı ilk mobil telefon satılan mağazadan bir “Nokia” markalı telefon alıb “Firuzə” kafesinə girdi. Yaxşıca yeyib doydu. Sonra küçə boyu düzülmüş elitar mağazaları gəzdi, özünə əntiqə əyin-baş aldı. Mağazalardaca köhnə paltarlarını bir-bir təzələri ilə əvəzlədi. Sonra isə taksi tutub “Gənclik” metro stansiyasına, ev bazarına yollandı. İndi babat bir ev kirayələyə bilərdi...

# 8-ci HİSSƏ

# Bu ki, o idi

Getdin, bir xəyal oldu, Təbəssümlər, qılıqlar. Bu gödək ömrümüzdə Bu uzun ayrılıqlar Dönəcək bir nəğməyə, Bir az yaşayaq deyə, Dinəcək pərdə-pərdə . Eh, bəlkə, bir də, bir də, Bəlkə, bir də görüşdük...

Ə.Veysəlli

İlqar ayağını ayağının üstünə aşırıb siqaret çəkə-çəkə televizora baxırdı. Ancaq heç bilmirdi ki, nəyə baxır... Fikri çox-çox uzaqlarda idi...

Səidə körpə Nərminəni əmizdirirdi. Tural otağın içində təkərcikli taxta at oyuncağını belədən-belə, elədən-elə sürürdü. Nuranə üzü üstə yerə uzanıb rəngli qələmlərlə şəkil çəkirdi.

İlqarın səsi eşidildi:

- Bəlkə, gedib anandan bir az pul istəyəsən?

Səidə heyrətlə soruşdu:

- Nə?!

- Heç, deyirəm, bəlkə, anandan bir az pul istəyəsən?

- Sən heç, nə danışdığını bilirsən?

- Niyə bilmirəm ki.

- Yox, bilsən, belə deməzsən. Adam nə qədər şəxsiyyətsiz olar ki, bütün bu həngamədən sonra belə sözlər danışar.

İlqar əsəbiləşdi:

- Yaxşı, mumla.

- Niyə mumlayıram? Nə oldusa, sənin ucbatından oldu. Sənin o qəhbən səni itirdi deyə, qisasını bizim ailədən aldı. Atamı öldürüb rüsvayi-cahan elədi... Sənin o qəhbən...

- Kəs! Ölüb o. Ölən haqqında elə danışmazlar.

- Qəhbədir də! Qəhbənin ölüsü də qəhbədir, dirisi də...

- Dedim ki, kəs!

- Olmaya şəstinə toxunur?

İlqar Səidənin başının üstünü kəsdirdi, yumruğunu yellədi:

- Bu dəqiqə sənin başını partladacam.

- Partlat da. Kişiliyin var, partlat.

Tural ağlaya-ağlaya: - Nə olar, dalaşmayın da!, - deyib İlqarın ayağından yapışdı.

İlqar gözlərində yaş giləlenmiş oğlunu süzüb kreslonun yanındakı pencəyini çiyninə atdı, evdən çıxdı. Pilləkənlərlə az qala qaça-qaça aşığı düşdü.

- Professor, hara belə?

Qonşusu Mərdan blokun ağzındakı skamyada oturmuşdu. İlqar onu görəndə lap əsəbiləşdi. Son vaxtlar bu kişi ilə onunku heç tutmurdu.

- Sənə nə?!

- Axşam domino vuranda səninlə naparnik olacam. Professor adamsan. Necə olsa da...

İlqar Mərdanın nə danışdıqlarına qulaq asmadan “09”-na əyləşib onu işə saldı. Avtomaqnitolanın düyməsini basdı. Hansısa FM dalğasında kişi müğənni oxuyurdu:

Yollarına gizlin-gizlin

baxıb ağlaram,

Şəklini ürəyimdə

büküb şaxlaram.

Gecə-gündüz dəniz kimi

coşub-çağlaram,

Gülüm, indi hardasan?..

Ömür, axı sən nə tez ötüb keçdin. Nə olsun ki, hələ yaş otuz üçdür? Qayğısız, şən, bəxtəvər günlərin hamısı arxada qaldı... O sevgi dolu günlərin, o ehtiraslı görüşlərin, o odlu öpüşlərin, o bədənin hər bir əzasını titrədən hiss-həyəcanın yerini bu ölü sükutlu qapqara günlər axı necə verə bilər?!.

Yox, indi bax, bu küləkli may günündə İlqar bütün varlığı ilə dərk etdi ki, ömründə az-çox yaxşı nə olubsa, hamısı Nailəli günlərində olub.

Müğənni oxuyurdu:

Yollarına gizlin-gizlin

baxıb ağlaram...

...Gülüm, indi hardasan?

...İlqarın gözləri dolmuşdu. Yenə Nailəli günlərin xatirəsi onu üzürdü. Ancaq belə olanda bir şeylə təsəlli tapmağa özünü alışdırmışdı: Nailə ilə ailə qursaydı, indi başıaşağı gəzərdi. Səidə isə Nailədən fərqli olaraq ləkəsizdir, təmizdir...

Maşın “Gənclik” metro stansiyası səmtə yol almışdı... İlqar Bayıldakı mənzillərini satmaq üçün maklerlərin yanına gedirdi...

□□□

- Nailə?!

İlqar dörd olmuş gözləri ilə Nailəni süzməyə başladı.

İlahi. Bu ki İlqar idi. Gör, necə də dəyişib. Zəmanə onu sıxıb-sıxıb, lap suyunu çıxarıb. Gözlərinin altında qırışlar peyda olub, bakenbardları çallaşıb. Elə bil, boyu da qısalıb. Hələ bir əyin-başına bax. Bakıda ən şık geyinənlərdən idi İlqar. İndi nimdaşın içindədir. Görünür, ehtiyac çəkir.

Nailə maraqla İlqara baxırdı. Heç bir kin-küdurət, nifrət hiss etmirdi özündə ona qarşı.

İlqarın gözləri hədəqəsindən çıxacaqdı sanki.

- Sən Nailəsən?!

Nailə astaca başını yırğaladı:

- Yox, siz məni kiminləsə səhv salırsınız. Mən Nailə deyiləm, Nuranəyəm...

# 9-cıı HİSSƏ

# «Bir də heç kəsi bədbəxt etmə»

Gözlərinə de ki, girməsinlər yuxuma, nə kədərli, nə sevincli, nə şirin vədəli. Dodaqlarına de ki, çəkilsinlər xəyalımdan pıçıltılı, gileyli, hədəli!

R.Rza

“Gənclik”dəki ev bazarında İlqarla qəfil görüşün heç səhərisi günü də Nailə özünə gələ bilməmişdi... Bir vaxtlar Bakının ən gözəl, ən bir-birinə yaraşan sevgi cütü indi vücudlarında zamanın çalın-çarpaz izləri ilə yenidən üz-üzə dayanmışdılar...

Nailə neçə illərdir ki, ürəyinin ən dərin qatlarında bu görüşün gizlincə həsrətini çəkmişdi...

Həbsxana həyatının ilk illərində beton divarların, döşəmə və tavanın arasındakı bumbuz yatağında soyuqdan titrəyəndə İlqarın xəyalı ilə qızınmışdı... İlqarla uzun illərin ayrılığından sonra ilk görüşlərinin cizgilərini cızmışdı. İlk öncə, bu görüşü odlu-alovlu görürdü. Onlar - hərəsi körpünün bir başından əllərini yana aça-aça bir-birilərinə doğru qaçırlar.

- İlqar!!!

- Nailə!!!

Düz körpünün mərkəzində bir-birilərinə sarmaşırlar...

Sonralar bu görüşü Nailə tamam başqa cür təsəvvür etməyə başladı. Qarlı bir gündə ins-cins görünməyən meşədə üz-üzə gəliblər. İlqar əlindəki ağappaq gül-çiçəyi ona uzadır. Bu vaxt Nailə arxasında gizlətdiyi revolveri sevgilisinə tuşlayır. Atəş

açılır. Bir anda ağappaq qar da, gül-çiçək də qıpqırmızı rəngə boyanır...

Ancaq Nailə heç vaxt təsəvvür etməzdi ki, İlqarla məhz belə görüşəcəklər. Səkkiz ildən sonra Gənclikdə, “Amay” ticarət mərkəzinin arxasındakı ev bazarının qarşısında İlqar onu görcək gözü bərəlmiş halda hayqıracaq:

- Nailə?!

O isə içindəki təlatümü boğa-boğa: - Mən Nailə deyiləm, Nuranəyəm, - deyəcək...

...Rus qarının mətbəxində oturub çay içir, dünənkiləri - komendantdan pul almasını, İlqarı görməsini ən xırda detalına qədər xatırlayır, eyni zamanda, bu gün görəcəyi iş barədə düşünürdü. Bu gün onu dünənkindən də çətin imtahan gözləyirdi...

Nəhayət, saat 10 tamam oldu. Ruqiyyənin məhz saat 10 radələrində yuxudan ayıldığını bilirdi. Onun 8 il əvvəlki abonent nömrəsini yığmağa başladı. Hərçənd, Ruqiyyəni bu nömrədə tapmaq ona inandırıcı görünmürdü... Yox, deyəsən, bu gün də onun günü olacaqdı. Xəttin o biri üzündən nifrət etdiyi insanın yarıyuxulu səsi gəldi:

- Bəli.

İlahi, nə yaxşı bu “Azercell” adlı şirkət heç bir problem olmadan 8 ildir ki, belə səliqə-səhmanla işləməkdəymiş. Ürəyində “AzercelF’ə minnətdarlıq edib qəzəbli səslə Ruqiyyəyə dedi:

- Sizinlə görüşmək istəyirəm.

- Sən kimsən ki?

- Dəxli yoxdur, çox vacib məsələdir.

- Deməsən, alınmayacaq.

- Yaxşı, deyirəm. Nailə yadına gəlir?

Ruqiyyə xeyli fikirləşdikdən sonra, nəhayət, dilləndi:

- Ağəz, hansı Nailə? O nişanlısı şil-küt eləyən? O dağ boyda Şeyxzadəni öldürən? Tutalım, yadıma gəlir.

- Mən onun bacısıyam.

- Necə bəyəm?

- Tanış olaq. Adım Lalədir. Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşıyam. Sizinlə vacib söhbətim var.

Ruqiyyənin səsi titrədi:

- Hər halda, deyəydiniz ki, söhbətimiz hansı temada olacaq... Nailəyə Allah rəhmət eləsin, qızıl kimi adam idi... Mən onu...

Nailə onun sözünü kəsdi:

- Sizə əmanət çatdırasıyam. Xahiş edirəm, başqa sual verməyin.

Ruqiyyə məcburən görüşə razı oldu:

- Saat 6-da "Kayden bar"a gələrsiz...

Belə... Görüş təyin olundu... İndi şəhərə çıxıb bir az gəzər, saat 3-də isə təzə kirayələdiyi evə gedərdi. Bu gündən ora köçəcək. Tək qalmaq istəmədiyi üçün ev sahibəsi ilə birgə yaşayacaq...

Qarının evindən çıxanda açarı, bir də yüz min manat pul qoydu masanın üstünə. 8 il öncə qarıya borclu qalmışdılar. İndi artıqlaması ilə borcundan çıxırdı.

□□□

“Kayden bar”da həmişəki kimi müştəri az idi. Bu səkkiz ildə heç dəyişməmişdi Ruqiyyə.

Nailə düşmənini sakitcə süzür, onun yalan və riya dolu “xatirələrini” dinləyirdi...

> - Bacı kimi idik onunla. Adi rəfiqə deyildik. Bilirdim kasıbdırlar. Bacardığım qədər kömək eləyirdim. Özü də təmənnasız. Heyif ondan. Allah həmişə yaxşılan tez aparır...

Bu an Nailə qəzəbindən dodağını gəmirirdi. Gözünün qabağına göz yaşları içində Ruqiyyəyə yalvarması gəldi... Axı niyə bu iblis o vaxt onu buraxmadı? O bundan əl çəksəydi, bunu məcburən müştəri yanına göndərməsəydi, moteldəki o dəhşətli hadisə də baş verməyəcəkdi. Və səkkiz illik bu həbsxana həyatı da olmayacaqdı... Bəlkə də, indi Nailə İlqarın həyat yoldaşı idi. Ona uşaq böyüdürdü...

> - ... Bacı canı, bəlkə, heç bilmirsən, Əhmədlidəki mənzilinizdən üç min dollar borcunuz varıydı. Onu mən ödədim. Kim kimə belə yaxşılıq edər?

Nailə qorxurdu ki, Ruqiyyə onun gözlərindəki nifrəti sezər. Axı bu iblis pərqu yataqda xumarlananda Nailə “pur-junları” belini qançır-qançır etmiş dəmir çarpayıda yuxusuz gecələrin əziyyətini çəkmişdi. Axı o, qış günlərində evindəki “kaminin” qarşısında qızınanda bu, beton divarlar arasında titrəmişdi. Axı o, cürbəcür şirniyyatları, növbənöv deli-katesləri həzm-rabedən keçirəndə bu, ödü ağzına gələ-gələ

it yalından heç nə ilə fərqlənməyən “balanda” yeməyə məcbur olmuşdu... O, kurortlara, kafelərə gedəndə bunun vərəm “lazaretində” iynədən bədəni deşik-deşik olmuşdu...

Nə əmanət çatdırmalısan ki, mənə?

Nailə əl çantasını açıb bir bükülü kağız çıxartdı, onu masanın üstünə tulladı:

- Al, oxu. Bunu ölümündən qabaq Nailə yazıb. Cırmaq fikrinə düşmə. Onsuz da bu, məktubun kopyasıdır.

Ruqiyyə nəsə xoşagəlməz söhbətin başlayacağını hiss etdi, narazı-narazı məktubu açıb oxumağa başladı:

“Mənim ölümümdə Rufa təxəllüslü Ruqiyyə Əliyevanı günahkar bilin. O, mənim kimi neçə-neçə yiyəsiz qızı pis yola çəkib varlı kişilər üçün şikara döndərib. Nəticədə milyonlar qazanıb. Bizi isə bədbəxt edib. Mən Ruqiyyənin pritonda saxladığı bütün qızların siyahısını, onların qiymətini, habelə Ruqiyyənin vəzifəli kişi kliyentlərinin siyahısını tam şəkildə bura yazıram...”

Ruqiyyə ağappaq ağardı. Baxışlarını Nailədən yayındırıb çətinliklə soruşdu:

- Onun xəttidir. Muncuq kimi düzüb hərfləri... Bəs niyə indi üzə çıxır bu məktub? Onun ölümündən beş-altı il keçib, gərək ki.

- Məktubu onun şəxsi əşyalarının içindən götürmüşük. O vaxt bildik ki, sənə bata bilməyəcəyik. İndi mən özüm sistemdəyəm. Yerim də möhkəmdir. Səndən qisas almağın vaxtı yetişib.

- Bu məktubdan kiminsə xəbəri var?

- Təbii ki, var. Məktubun bir kopyası qardaşımdadır. Əgər məni yox etmək fikrinə düşsən, qardaşım onu üzə çıxaracaq.

Ruqiyyə əlləri titrəyə-titrəyə özünə mineral su süzdü. Suyun yarısı süfrəyə dağıldı.

- Nə etmək istəyirsən?

- Necə nə etmək? Sən əlli-ayaqlı gedəcəksən. Bu məktuba görə sən iki maddə üzrə məsuliyyətə cəlb olunacaqsan. Həm ölümə təhrik etmə, həm də qadın pritonu saxlamaq.

Ruqiyyənin dili-dodağı əsirdi:

- Mənim həbsim sənə nə verəcək? Axı evdə övladlarım var, onları atasız böyüdürəm. Mənə yazığın gəlsin.

- Bəs o vaxt sənin Nailəyə niyə yazığın gəlmirdi? O, axı sənin ayaqlarına düşmüşdü... Ailə qurmaq, ana olmaq istəyirdi. Niyə məhv etdin onun həyatını?

Ruqiyyə ağlamsındı:

- Məni çevir istəklilərinin başına, ancaq o məktubu orqanlara vermə. Bilirəm, kasıb ailəsiniz, nə qədər desəniz, pul verərəm, sizi qızıla tutaram. Adamım var, onsuz da o pulu verib özümü türmədən qurtaracam. Ancaq istəyirəm, o pul sənə çatsın.

- Səni tutduracam, Rufa. Buna arxayın ol. Məktubu qəzetlərə paylayacam, mətbuat konfransı keçirəcəm. Bütün Azərbaycan ayağa qalxacaq. Adamın qorxusundan sənə yaxın durmayacaq.

Ruqiyyə yenə yalvarmağa başladı:

- Mənim həbsim axı sənə nə verəcək? Gəl anlaşaq. Vallah, qanı qanla yumazlar. Peyğəmbərimiz buyurur ki, düşmənə də iltifat göstərmək lazımdır... Otur burda, gedim yarımca saata sənə istədiyin summanı gətirim. Sən də cavan qızsan. Həyatını qur. Rəhmətlik bacın kasıblığın qurbanı oldu. Sənsə ehtiyac görmə...

Hər şey ssenari üzrə gedirdi. Ruqiyyə haldan-hala düşdükcə Nailə sanırdı ki, ürəyi yüngülləşir.

Ruqiyyənin dili-dodağı əsirdi:

- Qiymətini de, xahiş edirəm. Məktubun əslinə nə qədər istəyirsən?

Nailə, nəhayət, məqsədinin üstünə gəldi:

- On min. Bazarlaşmaq olmayacaq. Bu, qurtaran qiymətdir...

... Cəmi qırx beş dəqiqədən sonra o, çantasında on min dollar pul taksi ilə “Xarı bülbül” restoranına gedirdi... Həm doyunca kabab yeyəcəkdi, həm də keçmişinin yadigarı olan mahnıları dinləyəcəkdi...

Ruqiyyədən da qisasını almışdı. Həm də ona son olaraq tapşırmışdı ki, bu yolun daşını atsın. Günahsız qızları bataqlığa salmasın. Bədbəxt etməsin neçə-neçə ailəni. Əks təqdirdə, onu gec-tez tutduracağını bildirmişdi...

Komendant, Rufa... Qalırdı atası, bir də İlqarla Səidə...

□□□

... Hatıralar sarmış dörd bir yanımı, Baxdığım her yerde izin duruyor.

Ben seni düşünmek istemesem de, Bana her şey seni hatırlatıyor...

... Sifariş verdiyi bu türk mahnısını müğənni yanıqlı-yanıqlı oxuyurdu...

Görəsən, niyə, niyə unuda bilmirdi İlqarı? Hətta bu anında, ondan qisas almağa çalışdığı bir vaxtda da onun ağuşunda olmaq, onu öpüb-oxşamaq istəyirdi...

□□□

Çiynimdə həsrətdən, intizardan yük, Niyə sən bu qədər dönüksən, dönük? Gözlərimə dik bax, a qəlbi sönük. Öz eşq atəşinlə yandır gecəni... Ay cığır, ay cığır, qaytar gedəni.

O.Hacıyeva

# 10-cıı HİSSƏ

# «Axı məni tanıyarlar»

Nailənin ofisi Bülbül prospektində, həyətin içində idi. Həddən artıq böyük ərazini tuturdu. Qapıda mühafizəçilər dayanmışdı. Adımı söylədim, onlardan biri məni gözləmə otağına gətirdi.

- Əyləşin. Nuranə xanım xahiş elədi bir qədər gözləyəsiniz. Qonaqları var. Sizə çay gətirsinlər, yoxsa kofe?

- Mümkünsə, mineral su.

Mühafizəçi getdi. Öz-özümə hazırkı dövrün qənd istehsalçılarını qınadım. Qəndlərini ağıza qoyan kimi əriyir. Heç fərli-başlı çay də tapmazsan. Yüz cürə əntifürüş qablarda bərli-bəzəkli çaylar buraxırlar, ancaq heç biri keçmişin üstü filli çayının yerini vermir... O ki qaldı kofeyə, o da ürəyə ziyandır...

Özlüyümdə nəyə görə mineral suya üstünlük verdiyimi əsaslandırdım... Başladım jurnal masasının üstündəki jurnalları vərəqləməyə. Hamısı modaya aid jurnallar idi.

- Hər vaxtınız xeyir.

Bunu söyləyib hündürboy bir qız əlindəki məcməyidən bir stəkan və bir şüşə “Sirab” suyunu masanın üstünə qoydu. Özümü mineral sular üzrə bir mütəxəssis kimi apararaq qıza söylədim:

- Mineral suyun zənginliyi və dad keyfiyyəti onda olan hid-rokarbonatın bolluğu ilə düz mütənasibdir. Dünyada “Peri-ye”, “Vestel”, “San Pelleqrino”, “Yessentuki”, “Borjomi” suları çox məşhurdur. Bax, bizim “Sirab”da bu

qəbildəndir. Xaricdən qonağımız gələndə qarşısına “Sirab” qoyuruq, məmnun qalırlar. Əfsus ki, biz öz məhsulumuzu reklam edə bilmirik.

Qız gülümsəyə-gülümsəyə məni dinləyib söylədi:

- Nuranə xanım ofisə başqa su almağa icazə vermir. Deyir, hər bir sahədə üstünlüyü, gərək, özümüzünkülərə verək...

Sudan içə-içə Nailə xanımın boşalacağı vaxtı gözlədim. Nəhayət, məni içəri dəvət etdilər.

- Bağışlayın, sizi gözlətdim.

Ayağa durub, əl uzadaraq mənimlə görüşdü.

- Heç nazirlər məni bu qədər gözlətmirlər.

Zarafatımdan üzüldü:

- Siz Allah, bağışlayın. Validənin oğlu Qulamı bir tanışımın firmasına düzəltmişdim, qazancı az olduğundan narazılıq edirdi. İndi onu xarici neft kompaniyasına düzəldirəm. Bununçün müəyyən yoldaşlarla görüşürdüm.

Rahat kresloya əyləşib yayıldım.

- Validəni tanıyırsınız da. Haqqında sizə danışmışam. Kamera yoldaşım idi... Ona çox borcluyam. Qızı Nazlı da burdadır, yanımda. Modeldir. Bir yaraşıqlı qızdır ki.

Yadıma düşdü. Nailənin meşin bloknotunda belə bir cümlə var idi: “Albatros” modalar evinin payız-qış kolleksiyasını nümayiş etdirəcək modellərin siyahısı: “İbrahimova Nazlı”.

- Nə deyirsiz, başlayaq?

- Başlayaq, ancaq...

- Nə ancaq?

- Metallomdan qisasınızı aldınız, bu, öz yerində. Rufadan qisasınızı aldınız. Bu da öz yerində. Növbədə isə atanız, İlqar və Səidə qalmışdı... İlqar və Səidəni başa düşmək olar. Ancaq atanızı... Ondan necə qisas ala bilərdiniz? O, axı sizin doğma insanınızdır.

- Doğma deyəndə ki... Mən onu o, bizi atıb gedən kimi doğmalıqdan çıxartmışam. Həyatımın belə alınmasında əsas günahkarlardan biri də İftixardır. Gələn kimi dərhal onun həyatıyla maraqlandım. Əgər o, xoşbəxt yaşasaydı, mütləq ondan hayıfımı çıxacaqdım. Ancaq onu kirin-pasın içində, üzütüklü gördüm. Rus arvadı ölmüşdü, qızı çıxıb ana yurduna - Tomsk şəhərinə qayıtmışdı. İftixar özü isə içkiyə qurşanmışdı... Qurban olduğum Allah ondan mənim hayıfımı çıxdı. Övladını bədbəxt eləyən ata heç vaxt xoşbəxt olmaz.

Xahiş elədim, gözləmə otağında qalmış “Sirab”ımı gətirsinlər.

- Nailə xanım, gəlin daşı ətəyinizdən tökün. İcazə verin, “Sonuncu ölən ümidlərdir”in davamını yazım. Çox xahiş edirəm sizdən.

O, bir-iki telefon zənginə cavab verdi, araya söz saldı:

- Siz jurnalistlər dəhşət millətsiniz. Buna bax. Mənə irad tutur ki, yüksək moda həftəsində niyə milli paltarlarımızı nümayiş etdirmişik. Deyir ki, belə etməsəydik, guya, mükafat qazanardıq. Əvvəla, bizim moda vətəni sayılan İtaliya, Fransa səviyyəsinə çatmağımıza hələ var. İkincisi də, kim zəmanət verər ki, mən qızları Qərbsayağı soyundursaydım, mükafat qazanacaqdıq? Mən belə bir

yol tutmuşam: Vətənimi - Azərbaycanı dünyada tanıtmaq. Bu yolla davam edəcəm. Haçansa, yəqin, mükafatlar da gələcək...

“Sirab” şüşəsini boşaldıb beynimə gələn ideyanı təntənə ilə söylədim:

- Nailə xanım. Sabah sizi bir yerə aparmaq fikrindəyəm.

O təəccübləndi:

- Hara?

- İmişliyə! Gedin, ananızı, bacı-qardaşınızı yoluxun!

- Necə? Onlarçün axı mən ölmüşəm.

- Özünüzün kimliyini bildirməzsiniz. Guya, onlara aybaay yardım edən xeyriyyə təşkilatından gəlmişik.

- Yox. Bu, mümkün deyil. Mən onları görüm və kimliyimi gizli saxlayım?

- Zəmanət verirəm ki, bu, sizdə alınacaq. Yox, əgər ağlasanız, uydurararam ki, bu xanım valideynlərini, bacı-qardaşını avtomobil qəzasında itirib. İndi hər dəfə ailə görəndə ağlayır...

- Axı məni tanıyarlar.

- Tanımazlar. Qrimlənərsiniz.

Nailə xeyli susdu. Gözləri yol çəkməyə başladı.

-... Bütün bu illərdə burnumun ucu göynəyib onları görmək üçün... Neçə dəfə olub ki, İmişliyə kimi gedib çıxmışam. Ancaq babamgilin evinə bir-iki ev qalmış geri dönmüşəm...

Onu başa düşə bilmirdim. Axı nə mane olur üzə çıxmasına? Yəni Metallom və Rufa? Və yaxud da hələ söyləmədiyi, bundan sonra söyləyəcəyi başqa bir qisas ünvanı? Belə böyük bir amalı, doğmalara qovuşmaq müqəddəsliyini hansısa xırda qorxu hissinə qurban verməkmi olar?

- Məni savadsız, avam, nə bilim nə adlandırsanız da, deyəcəm. Mən sizin gizlənməyiniz üçün heç bir tutarlı səbəb görmürəm.

- Doğrudan deyirsiniz?

Bir müddət otağa sükut çökdü. Nailə çətinliklə söylədi:

- Getməyinə gedərik... Ancaq gizlənməyimin səbəbini sizə deməyəcəm. Bunu başa düşməməyiniz məni ağrıdır...

- Deməli, qorxu boş şeydir?

- Əlbəttə, boş şeydir.

- Özünüz demişdiniz axı.

- Sizin sorğu-sualınızın qarşısında, ilk görüşümüzdə məcbur olub belə demişdim... Ancaq hər halda, sabah gedək. Onları görmək istəyirəm...

- Urra! Sabah İmişliyə gedirik!

Uşaq kimi əl çaldım.

... Yalnız bu uzun söhbətimizdən sonra Nailədən əhvalatın davamını gözləməyə başladım... Atasından intiqam almaq fikrindən vaz keçmişdi. Deməli, növbədə İlqarla Səidə idilər...

# 11-ci HİSSƏ

# Trenajor zalında

Duyğular köhnədir, arzular boyat, Bu yatan eşqimi harayla, oyat. Heyif ki, könlünü aldadıb həyat, Heyif ki, peşiman olub gəlmisən.

M.Ələkbərli

- Nailə?!

Səidə gözləri böyümüş halda qarın əzələlərini inkişaf etdirən trenajor alətinin yanında dayanıb ona baxırdı.

Nailə buna hazır idi. Həbsxanadan çıxdığı bu dörd gündə İlqarla Səidə barədə hər şeyi doğru-dürüst öyrənmişdi. Onların güzəranı, övladları, hətta mənzillərindəki əşyaların yerinəcən hər şeyi bilirdi. Onu da bilirdi ki, həftənin cüt günləri Səidə arıqlamaq üçün “Azneft”in yaxınlığındakı trenajor zalına gəlir...

Nailə bir gün öncə gəlib adını məşqlərə yazdırmışdı. Özü də məhz Səidənin saat qrafiki ilə üst-üstə düşən qrafik yazdırmışdı özünə.

-... Deyəsən, siz məni kiminləsə səhv salırsınız.

Nailə üzünə gülümsər ifadə gətirdi. Haçandan-haçana Səidənin üzündəki həyəcan ötüb keçdi...

- Siz Allah, bağışlayın. Sizi başqasına oxşatdım.

Səidə növbəti trenajor alətinin arxasına keçdi, ağırlıq kütləsini azacıq azaldıb qollarını tutalqalara keçirərək yana açıb-bağlamağa başladı.

Nailə də ayaq əzələlərini inkişaf etdirən velosipedəbənzər alətə çıxıb hərəkətlərə başladı. O dəqiqə hiss olunurdu ki, Nailə bu gün ilk dəfə trenajor zalına gəlsə də, alətlərə peşəkarcasına yanaşır...

Axı Nailə bir vaxtlar karate ilə məşğul olardı. Həftədə üç gün “Spartak”da məşqlərə gedərdi... İlqar da gah ona “Mənim pəhləvan sevgilim” deyərdi, gah da bu idman növünün qadına yaraşmadığını dilə gətirərdi... Hərdən də zarafatca dəniz kənarında tutaşardılar. Bir sambo və bir karate “ustası...” İndi bu uzaq vaxt kəsiyində durub o günləri xatırladıqca Nailə kövrəlirdi. Ürəyi atlanırdı o günlər üçün...

Səidə ona maraqla baxırdı:

- Siz heç təzə gələnə oxşamırsınız...

Ünsiyyətlərinin dərhal alındığına sevinən Nailə cavab verdi:

- Hə, bir balaca vərdişim var.

- Özünüzü birdən-birə çox gücə salmayın.

- Ziyan etməz.

Bir qədər keçəndən sonra bu dəfə Nailə söhbətə başladı:

- Bayaq siz məni görəndə o qədər təəccübləndiniz ki... Sizi belə təəccübləndirən o Nailə kimdir ki?

- Heç...

Nailə Səidədən mütləq söz qoparmalı idi. Əslində, bu görüşə o, çoxdan hazırlaşmışdı...

- Sənətiniz nədir sizin?

Səidə könülsüz halda: - Evdar qadınam, - dedi, sonra da soruşdu:

- Bəs sizin?

- Mən ailə problemlərini araşdıran mərkəzdə psixoloq işləyirəm.

- Psixoloq?

- Hə.

Nailə hiss etdi ki, Səidənin gözlərində parıltı əmələ gəldi.

- Nə maraqlı sənətiniz var.

Sonra Səidə dodaqlarını büzdü:

- Həmişə belə romantik iş arzulamışam. Ancaq uşaqlar körpədir, necə işləyim. Bir də, yoldaşım da qoymur işləməyə. Deyir ki, qadın, gərək, evdə otursun.

... Duş otağına gedə-gedə söhbətlərini davam etdirdilər. Nailə nəfəs dərmədən Səidəyə suallar yağdırırdı:

- Deyəsən, yoldaşınız köhnəfikirli adamdır. Rayonludur?

- Yox, Bakıdandır. Hər ikimiz şəhərliyik.

- Bəs niyə elə fikirləşir?

- Nə bilim, vallah...

- Görünür, evlənənə qədər qızlarla o ki var gəzib...

- Yox, yox...

Nailə gülümsədi:

- Siz onu elə sığortalayırsız ki. Gəzmək praktikası olmadan evlənən az-az kişi tapmaq olar.

Yuyunub, qurulanıb duş otağından çıxdılar. Paltarlarını geyinib, kafeteridə əyləşdilər, adama bir fincan kofe qurtumlaya-qurtumlaya söhbəti davam etdirdilər:

- Adınız necə oldu sizin? Bayaqdan söhbətləşirik, ancaq bir-birimizin adını heç soruşmuruq...

- Adım Səidədir.

- Mənimki də Nuranə.

- Necə, Nuranə? Mənim qızımın da adı Nuranədir.

- Oo... Çox şadam ki, sizin qızınızla adaşam... Hə, belə. Deməli, siz həyat yoldaşınızın subaylıqda donjuanlıq etməsini inkar edirsiniz?

Səidə xeyli düşündükdən sonra az qala pıçıltı ilə dedi:

- Nuranə, gəl bu “siz”i, “biz”i yığışdıraq. Səmimi söhbət eləyək. Bilirsənmi, hərdən elə olur, adamın içinə neçə ilin dərd-qəmi dolur sanki. Dərdləşməyə yaxının da olmur... Elə Allah özü səni mənə yetirdi. Sənin sənətin çox maraqlıdır: psixoloq. Elə şeylər var ki, onları yoluna qoymaqda sənə ehtiyac duyuram.

Nailə Səidənin qəlbinə yol aça bildiyi üçün qəlbən sevindi və dərhal da dedi:

- Mən sənə kömək göstərərəm. Hiss edirəm, sıxıntın çoxdur. Nədir səni incidən?

... Həmin gün olmasa da, növbəti məşq günündə Səidə hər şeyi danışdı:

- Bilirsən, bacı, mən çox zəngin bir ailənin qızıyam. Atam şəhərdə sayılıb-seçilən beş kişidən biri olub...

Ailələri barədə yerli-yataqlı danışandan sonra o, “Nailə” mövzusuna da keçdi...

- O vaxt İlqar onu fırlatdı, atdı. Yüzü ilə gəzən qəhbənin biri idi. İlqarın saqqızını oğurlamışdı...

...Sanki xəncər salıb Nailənin içini doğram-doğram edirdilər. Ancaq o, dinməzcə Səidəyə qulaq asır, başladığı oyunu sona yetirməyi düşünürdü.

-... Elə ki, İlqarla mən nişanlandıq, elə bil təpəsinə daş düşdü. Bilirsən, bacı, biz yaxın rəfiqə olmuşduq. Həmişə mənim paxıllığımı çəkmişdi... İlqar məsələsindən sonra lap qanlı-bıçaq oldu bizimlə... Acından ölənin biri idi. Yazığım gəlmişdi, onu atamın yanına işə düzəltmişdim. Bizə ləkə yaxmaqdan ötrü söz çıxartdı ki, guya, atamla gəzir. Sonra da...

Səidənin gözləri doldu. Hıçqıra-hıçqıra: - Sonra da atamı öldürdü..., - dedi.

Nailə süni olaraq ah-uf etdi:

- Vay-vay, necə yəni, öldürdü? Qızda amansızlığa bax ee... Bacı, nə isə, ağlıma sığışdıra bilmirəm... Bundan ötrü adamı öldürməzlər axı... Bəlkə, nə isə başqa səbəb olub?

Səidə çətinliklə danışırdı:

- Başqa nə səbəb ola bilər ki... O, mənim paxıllığımı çəkirdi. Atam vəzifəli, pullu, mənim qayğımı çəkən, onun atası isə acından günorta duran, ailəsini atıb başqası ilə yaşayan... Xüsusən İlqar məsələsindən sonra o, bütün

günahları mənim atamda görmüşdü... Məhkəmədə lap biabır elədi kişinin ruhunu. Guya, ağsaqqal kişi bunun üzünü açıb.

Səidə hönkürdü:

- Guya, bütün Bakı bilmirdi, bunların hansı yuvanın quşu olduqlarını? Anası da özünün tayı idi. İndi deyirlər, bacısı da qəhbəlik edir...

Nailə qəzəbindən boğulurdu. Üzünü yana çevirdi ki, Səidə bunu hiss etməsin. Axı niyə şər atırdı, ləkələyirdi Səidə onun anasını, bacısını?

... Yenə də kafeteridə əyləşib kofe içirdilər. Nailə siqaret çəkirdi: “Davidoff”.

Səidə masanın üstündəki siqaret qutusunun o üz-bu üzünə baxdı, içindən bir siqaret götürdü, qoxulayıb yerinə qoydu:

- İlqarın ən çox sevdiyi siqaretdir bu. Nişanlı olanda, evliliyimizin ilk vaxtlarında ona blokla “Davidoff” bağışlamağı xoşlayardım. İndi yazıq “Şirvan”dan-zaddan nə düşdü, çəkir. Pul nə gəzir indi “Davidoff” almağa...

Belə... Deməli, ehtiyac içində yaşadıqlarını etiraf etdi. Bayıldakı mənzil şəraitlərindən, Səidənin geyim-kecimindən onsuz da Nailə bilirdi onların dolanışıqlarının çətin olmasını. İndi isə Səidə bunu etiraf edirdi...

Nailə ona “ürək-dirək verməyə” başladı:

- Toxta, bacı.

Səidə toxtaya bilmirdi:

- Bilirsən, Nuranə, o vaxtlar o it qızı mənim pal-paltarıma baxıb ağzının suyunu axıdardı. Gör indi...

Hıçqırtılar Səidəni boğurdu:

- Gör, indi vəziyyət nə yerdədir ki, mən atam evində sək-kiz-on il əvvəl geyindiyim paltarların içindəyəm... İnanmazsan, çoxusu ona görə kökəlmək istəmirəm ki, əyin-başıma dar gəlməsin. Yoxsa elə bilirsən, bura kefimdən gəlirəm? Yenə ayda-ildə bir kofta, bir şalvar almaq olar. Bəs plaş, palto, şuba... Onları hansı pulla alaq? Bacı, inandırım səni ki... İnandırım səni ki, indi sənin əyin-başına baxıram, ağzım sulanır.

Nailə onu qucaqlayıb “ovundurmağa” başladı:

- Bacı, eybi yox, pis günün ömrü az olar.

- Necə az olar? Bəyəm, İlqar təzədən mənimçün böyük pullar qazanacaq? İşsiz, avaranın biridir. Nə iş görür, batırır. Dənizə gedir, dəniz quruyur.

Nəhayət, Nailə bayaqdan bəri onu ən çox maraqlandıran sualı verdi:

- Bacı, axı mən biləni, sənin atanın var-dövləti çox olub. Yəni sənə heç nə qoymayıb?

- Heç nə. Nə mənə, nə anama. Nə var idisə üzdə olanlar idi: öz evimiz, mənə toy günü hədiyyə etdiyi ev, QAZ 31, bizə verdiyi “Mercedes”, Şüvəlanda bağ, Vorovskidə həyət evi, bir də Sulu Təpədə ata mülkü... Öləndə yeddi yüz dollardan artıq pul ələ gəlmədi. QAZ 31-i elə onu yerdən götürməyə, üçünə, yeddisinə, cümə axşamlarına görə dərhal satdıq... Vorovskidəki həyət evinin pulunu anam banka qoyub. Aybaay faizini alıb dolanır. Bu, elə də böyük faiz deyil. Bağ da satılıb... O vaxtdan anam bizi

bağışlamır. Atamın ölümündə İlqarı və məni günahkar bildiyindən, bizi bağışlamır. Deyir, o oğraşın o qəhbəylə sevişməsini bilirdinsə, gərək, o oğraşa getməzdin. O qəhbəni sən qısqırdıb üstümüzə saldın, atan da sizin güdazınıza getdi... Anam heç vaxt atamın o qəhbə ilə əlaqədə olmasına inanmayıb. Bilirsən, məhkəmə belə hökm çıxaranda bizə elə gəldi ki, atamın şəriki bunları düzüb qoşub. O, atamı rüsvay etdi, şirkətin bir belə pulundan bizə düşən payı da vermədi. Arxası möhkəm idi...

- Ola bilməz ki, kişidən cəmi yeddi yüz dollar qalsın. Bəlkə, anan götürüb, sənin də xəbərin olmayıb?

- Yox, nə danışırsan? Yüzfaizlik söhbətdir. Bəlkə də, yazıq kişi qəflətən öldürüldüyündən gizli seyfinin yerini deyə bilməyib. Mən də hərdən fikirləşirəm ki, onun mütləq hardasa gizli seyfi olub. Evi ələk-vələk elədik, Şüvəlandakı bağa, Vorovskidəki həyət evinə satmamışdan qabaq, hətta mama minaaxtaran da gətirtdi. Heç nə tapılmadı. Başqa harda ola bilərdi? Sulu Təpədəki pis gündə olan, hətta darvazası düz-əməlli bağlanmayan evə də göz gəzdirdik. Hərçənd, bilirdik ki, atam ora pul qoymaz...

Nailənin ürəyinin döyüntüsü get-gedə artırdı.

Belə çıxır ki, bunların Sulu Təpədəki evin zirzəmisindəki dəfinədən xəbərləri yoxmuş... Nailə ani olaraq həmin mənzərəni gözləri önündə canlandırdı: Abbas Şeyxzadə zirzəmiyə düşür. Bu da, gərək ki, ondan telefonunu istəməkçün zirzəmiyə düşəndə kişini divarın daşlarından birinin oyuğun-dakı qalaq-qalaq pulun qarşısında görür... Deməli, kişinin var-dövlətinin gizlədildiyi yer məhz ora imiş. Yüz faiz! Hətta Nailəni görəndə kişi diksinmiş, dili topuq

vura-vura: - Sən nəsə gördün?, - demiş, bədəni ilə oyuğun qarşısını örtmüşdü...

Nailə hiss etdi ki, ürəyi şiddətlə döyünür. O ev satılmamışdı, Səidənin dediyindən belə çıxırdı. Əgər başqa bir adamın bu dəfinə barədə məlumatı olmayıbsa, əgər oğru-quldur təsadüfən gedib o dəfinəni tapmayıbsa, əgər siçan-siçovul ora hücum çəkməyibsə... deməli, Nailə bu hədsiz var-dövlətə sahib ola bilərdi. Bütün gələcəyini də təmin edərdi...

Allaha yalvarmağa başladı. Həbsdən çıxandan hər işinə Allah kömək eləmişdi... Bircə bu dəfə də Allah ona kömək olaydı...

# 12-ci HİSSƏ

# Qəribə bir qoca

Divar saatından vaxt süzülür damla-damla, döşəmədə laxtalanır vaxtın qanı. Uzun güzgüdə ömrü boşuna, ümidlərlə yaşamış bir adam, yalqızlıqdan sərxoşdu bu axşam.

A.Mirseyid

İlqar bu gün üçüncü dəfə idi “Gənclik” metro stansiyasının həndəvərinə, ev bazarına gəlmişdi. O, gözləri ilə axtara-axtara şişman maklerə yaxınlaşdı:

- Tofiq, bir xəbər var?

Tofiq onu görcək uğunub getdi:

- Ay rəhmətliyin nəvəsi, uruslardan ayrılandan bəri ev alqı-satqısı ilə məşğulam, hələ sənin kimi kliyent görməmişəm. Bu gün üçüncü kərədir gəlirsən. “Bir xəbər var, bir xəbər var...” Atam-qardaşım, bir xəbər belə tez olmur. Sənə dedilər, get gözlə, bir şey olsa, zəng edəcəyik də...

İlqar maşınının açarlarını fırlada-fırlada Tofiqi sözü uzatmağa qoymadı:

> - Bilirsən, əlimyandıdayam, mənə pul lazımdır. Ona görə tələsdirirəm səni.
>
> - Qardaş, bura bax, əlimyandıda evi bu cür satmırlar. İkiotaqlı “xruşşovka”nı iyirmi minə deyirsən. Özü də harda, Bayılda, sürüşmə zonasında... On beş minə de, bu dəqiqə behini verim...

- Neçəyə, on beş minə? Nə danışırsan? On beş minə ev olar?

- Qaqaş, mən kiməm ki? Mənə bu alış-verişdən uzaqbaşı iki yüz kağız düşəcək. İndi evin bazarı ölüb. Alan yoxdur. Özün bil, sat iyirmiyə. Tembole, santexnikan pis gündədir...

- Yaxşı, bura bax, on səkkizdən kliyent axtar. Ancaq bundan aşağı düşən deyiləm.

... Özü də istəmədən gözləri o gün məhz burada gördüyü və Nailəyə oxşatdığı qadını axtarırdı. İzdihamın arasında onu görəcəyinə özünü inandırmağa çalışırdı...

Maşınına doğru yaxınlaşanda gözü qarşısına kasetlər düzüb satan oğlan uşağına sataşdı...

- Dostum, səndə belə bir mahnı var?: “Şəklini ürəyimdə şaxlaram, yollarında ağlaram, gülüm, hardasan...”

Oğlan bir neçə dəfə İlqarı zümzümə etdirib, bir neçə kaseti maqnitofona qoyub səsləndirdikdən sonra, nəhayət, ona bir kaset uzatdı:

- Al, bu mahnını deyirsən.

İlqar kasetin pulunu verib maşına mindi. Dərhal da avto-maqnitolanı işə salıb kasetə qulaq asmağa başladı. Bu mahnını ilk dəfə dörd-beş gün öncə eşitmişdi. Və dörd-beş gün idi, bu mahnı onun beyninə həkk olunmuşdu:

Bilsəm, gələrsən, durub yol üstə

Sən gələn o yollara çiçək səpərdim...

Bu ayrılığa əlvida deyib

Qaçıb ayaq izlərindən də öpərdim...

...Gözləri dolmuşdu. O, maşının qabaq hissəsindəki salon güzgüsündən asılan oyuncağı - üstü qara xallı yaşıl timsahı barmaqları ilə oxşaya-oxşaya sakitcə ağlayırdı...

Özü də bilmirdi, nəyə görəsə bir neçə gün idi ki, Nailəni beynindən çıxara, gözünün önündən qopara bilmirdi...

Nə gözəl günlər yaşamışdı, ilahi. Xoşbəxt, qayğısız... O vaxtlar hər şeyi var idi. Varı, dövləti, başına pərvanə kimi fırlanan ata-anası, gəncliyi, gözəlliyi və bütün bunların da fövqündə Bakının ən gözəl qızı olan Nailəyə sahib olması...

Elə həmin Nailəli günlərinin birində, dəqiq yadındadır, mayın 12-də, Nailənin 20 yaşının tamamında ona “Kinder” şokoladı hədiyyə etmişdi. Bu timsah da (əlini yenə ona sürtdü) həmin “Kinder”in içindən çıxmışdı...

Sonra polislər aparanda, bu oyuncaq Nailənin əlindən yerə düşmüş, bir uşaq da gətirib ona vermişdi... Gör, yazıq qız necə sevirmiş bunu...

Görəsən, niyə məhz timsah çıxmışdı Nailənin bəxtinə? Bəlkə, bu timsah onların xoşbəxtliyinin qənimi kimi gəlmişdi? Udmuşdu öncə sevgilərini, sonra da Nailəni?

İşə bax, bu oyuncağın varlığını bir ara unutmuşdu. O gün uşaqların əlində gördü. Hansında idi? Nuranədəydi, yoxsa Turalda? Nə isə. Onların birinin əlində gördü... Həyat necə qəribədir. Böyüklərin sevgi oyuncaqları, elə bir gün gəlir, onların övladlarının uşaq oyuncaqlarına çevrilir...

Böyük anlamlı bir şey kiçik anlamlı olur...

İçi didilib-dağılırdı sanki. İçmək, vəhşicəsinə içmək, bütün qəm-qüssədən uzaqlaşmaq istəyirdi. Telefonunu çıxarıb

nömrə yığdı:

- Azər, bekarsan?... Vurmaq istəyirəm... İşdəsən? Hə, doğrudan axı. Normal insanlar indi işdə-gücdədirlər... Heç cür çıxa bilməzsən?... Onda gəlim idarənizin qabağına, iki şirvan ver, gedim tək vurum...

... Mərkəzi Univermağın yaxınlığında, zirzəmidəki qəlyanaltıya girdi:

- Tikən bərk deyil? Dişlərim məni incidir sonra. Lülə məsləhətdir? Hə, ver. Bir lülə, bir çibuş. Şoraba da ver...

... İçir, beyni dumanlanırdı.

Yox, Nailəni unutmaq istəyir, ancaq daha çox onu xatırlayırdı. Ürəyini qəm-qüssədən təmizləmək istəyir, ancaq daha çox qəm-qüssəylə yükləyirdi...

- Deyəsən, alkaşlar kimi təkbaşına gillədirsən?

Masasına yaxınlaşmış bu üzütüklü kişini tanıya bilmədi:

- Tanımadım səni.

- Tanıya da bilməzsən. Biz tanış deyilik. Əyləşə bilərəm?

İlqar könülsüz: - Əyləş də - dedi.

Kişi ofisianta tərəf çırtma çaldı:

- Bizə araq, kabab gətir.

Ofisiant gəlib kişinin qolundan yapışdı:

- Sən yenə gəlmisən? Niyə qoymursan, kliyentlər rahatca çörəklərini yesinlər? Dur get.

Kişi dartındı:

- Hara gedirəm? Bu bacıoğlu məni dəvət eləyib.

İlqar ofisianta əl saxlamaq işarəsi verdi.

- Qoy otursun.

Ofisiant gedəndən sonra İlqar cibindəki pulun miqdarını və verəcəyi hesabı müqayisə edib kişidən soruşdu:

- Üstündə pulun var?

Kişi qəhqəhə çəkdi:

- Mənim? Mənim pulum nə gəzir? Mən pulumu meyxanələrdə qoydum. Mən canımı cananələrdə qoydum.

İlqar bir şüşə də araq sifariş verdi. Şoraba və çörək də. Kababa pulu çatmayacaqdı.

Badələrini toqquşdurdular.

Kişi arağı başına çəkib dodaqlarını marçıldatdı:

- Sən iyirmi il əvvəlki mənsən. İyirmi ildən sonra sən bugünkü mən olacaqsan. Onda mən haqq dünyasında uyuya-cam... Qırx ildən sonra isə sən haqq dünyasındakı gələcək mən olacaqsan...

İlqar vahimələndi. Saqqalı, saçı, sifəti və paltarı kirdən eyni rəngə çalan bu yurdsuz-yuvasız, səfil kişi ilə eyniləşməyi qəlbinə bir xof saldı.

- İnsanın hər addımı günahdır. Biz dünyada günah törədə-törədə yaşayırıq. Ağappaq vərəqi günahlarımızla qaraya boyayırıq. Torpağı günah kotanıyla şırım-şırım eləyirik. Sonradan varlılar günahlarının əfvi üçün məscid

tikdirirlər, kasıblar günahlarının əfvi üçün bu məscidlərdə ibadət eləyirlər... Mənsə günahlarımın əfvi üçün araq vururam. Günahımı günahla yuyuram...

İlqar ofisiantı çağırıb cibindəki iyirmi mini ona verdi, mümkünsə də, bir arağı da nisyə verməsini xahiş etdi. Ofisiant başını buladı. Divardakı elanı göstərdi: “Nisyə xidmət göstərilmir”.

O, necə də içmək istəyirdi... Boynundakı qızıl boyunbağı yadına düşdü. İndiyə qədər neçə dəfə onu satmağa cəhd eləmişdi, ancaq hər dəfə buna nəsə mane olmuşdu... Boyunbağını ofisianta uzatdı:

- Bizə araq, kabab, turşu gətir. Pendir də ver. Bunu da saxla. Sabah gəlib hesabı verəndə götürəcəm.

Ofisiant qızılın əyarını yoxlayıb cibinə qoydu, sifarişi yerinə yetirməyə getdi.

... Kişi növbəti badəni başına çəkib dedi:

- Hamımız nisyə içindəyik, onsuz da. Allahdan yaşamağı nisyə alır, ölümümüzlə bu nisyəni nağdılaşdırırıq...

İlqar həmsöhbətini maraqla dinləyirdi.

- Araq cənnət suyudur, intəhası, bədənə dolanda cəhənnəm səmtində axır... Olmaya, sən də mənim kimi tərki-dünyasan, cəhənnəm səmtə köç edirsən? Niyə bu qədər içirsən?

İlqar beyni dumanlanmış halda üzünü ilk dəfə gördüyü bu kişiyə Nailəni necə sevməsini danışdı...

Bir dənə də araq gəldi...

- Sevgi... Nədir axı sevgi? Səni dəli-divanə edən, övrətindən, balalarından soyudan bu əfi ilan nə rəngdədir? Ağdır-mı, qaradırmı? Nə ölçüdə, nə biçimdədir? Böyükdürmü, ki-çikdirmi? Nə dadda, nə tamdadır? Şirindirmi, acıdırmı? Sənmi bilərsən, mənmi bilərəm, sevgi nədir?

Ani fasilədən sonra sözünə davam etdi:

- Sevgi kişilərin heyvani, şəhvəti ehtiraslarını söndürmək üçün yazıq qadınlar üçün uydurduqları bir intim yaxınlıq bəhanəsidir, bacıoğlu.

Hava qaralmışdı. Masanın üstündə 7 balaca araq şüşəsi yanaşı düzülmüşdü.

Kişi şüşələri göstərib dedi:

- Yoldur, görürsənmi? Hansısa bir itkin sənə tərəf gəlir... Özü də pis gəlir, qəza-qədərlə gəlir... Niyə pis gəlir? O itkinin gəlişini şirin şərbət şüşələri göstərmir axı, zəhər kimi araq şüşələri göstərir...

... İlqar maşını arxa-arxaya verib saxladığı yerdən çıxarmaq istəyəndə hündür boruya vurdu. Səntirləyə-səntirləyə düşüb maşının arxa hissəsindəki azacıq əzilmiş yerə baxdı. Sonra gəlib sükan arxasında yenidən əyləşdi. Başı ağırlaşmışdı, gözləri də yumulurdu. Düşündü ki, bayaqkı kişiyə ayrılarkən elə yaxşı dedi:

- Mən o qızı almamağıma heç də peşman deyiləm. İndi başıaşağı, gözüqıpıq gəzəcəydim. O-bu mənə oğraş deyəcəkdi. Hazırkı həyat yoldaşıma məndən başqa kişi barmağı dəyməyib... Odur ki, mən xoşbəxtəm. Özü də mənə yazığın-zad gəlməsin...

Son cümləni hələ bir də təkrar elədi:

- Yazığın gəlməsin, özü də mənə.

# 13-cü HİSSƏ

# İyirmi yeddi bağlama

Əlimi uzatdım yerə, Əlimi uzatdım göyə. Əlim heç nəyə çatmadı-Allahdan başqa heç nəyə.

S.Qaraçöp

Sulu Təpə yolu demək olar ki, boş idi. Axşam saat 11-ə işləmişdi. Taksi Abbas Şeyxzadənin evinə tərəf irəliləyirdi. Nailə hər şeyi yüz ölçüb-biçmişdi... Hər ehtimala qarşı, Səidəyə zəng də vurmuşdu:

-... Sizi bayaq Sulu Təpə yolunda gördüm. Deyəsən, atanızın evindən gəlirdiniz.

-... Bayaq? Yox, nə danışırsan, biz olmamışıq. Ümumiyyətlə, ora getmirik. Nə gündədir ki, ora?

- Yəni anangil də getmir?

- Yox, mama da getmir. Nəyə getsin ki? Təmir-zad elətdirmək istəyirdi arada. Necə olsa da, papanın yadigarıdır. Ancaq pul olmadı...

... Evə bir tin qalmış Nailə taksini saxladıb sürücünün ovcuna bir əlliminlik basdı və dedi:

- Bir saatdan sonra gələrsən dalımca. Əgər adaxlımın maşını bağda olsa, özü məni aparsa, onda sənə zəng vuracam ki, gəlməyəsən.

Sürücü razılıq edə-edə maşını sürüb getdi.

Adaxlısı barədə yalanı Nailə hər ehtimala qarşı, sürücünü şübhələndirməmək üçün uydurdu. Əlbəttə, gecənin bir

aləmi qadının tək-tənha buralara gəlməsi olduqca şübhəli görünürdü. Qoy sürücü onu kiminləsə yatmağa gələn fahişə hesab eləsin...

Hə, bu da Abbas Şeyxzadənin ata mülkü.

Nailə ətrafa baxdı. Qarşıdan iki nəfər keçirdi. Yolunu dəyişdi. Guya, əks-tərəfə gedir. Ürəyi bərk-bərk döyünürdü. Keçənlər yaşlı kişilər idi. Bunu diqqətlə süzüb keçdilər. Nailə Allaha şükür etdi ki, bunlar cavan deyillər. Yoxsa gecə vaxtı tanımadıqları tək qadını kəndin içində ən azı sorğu-suala tutardılar...

Bura hansı vaxtda gələcəyini qərarlaşdıranda çox tərəddüd etmişdi. Günorta gəlmək qorxulu idi, görən olardı. Obaşdandan gəlmək də riskli idi. Həm də o vaxt bura gəlmək problemli idi. Sürücüyə nə deyəcəkdi? Bu vaxt hara gəlir? Ən münasib vaxt gecə idi. Gecə də evə girib zirzəmiyə düşmək ona çox qorxunc görünürdü... Nəhayət, “qaranlıq olsun, ancaq çox gecə olmasın” qərarına gəlmişdi...

Geriyə, evin qarşısına qayıtdı. Ətrafda lal sükut var idi. Yalnız cırcıramaların cırıltısı eşidilirdi. Bir göz qırpımında çevik hərəkətlərlə o qədər də hündür olmayan hasarı aşıb həyətə tullandı. Həyətin baxımsızlığı hiss olunurdu. Hətta yerə döşənmiş beton plitələrin də üstünü ot-ələf basmışdı. Ev çox miskin görünürdü...

İlahi, qapının açarının yerini görən dəyişməyiblər ki? Əlini pəncərə altlığının tinindəki boşluğa saldı. Ürəyi yerinə gəldi. Açar yerində idi. Ancaq paslanmışdı... Hənirti eşitdi, dik atıldı. Geriyə çevrildi. İns-cins yox idi. Düşündü, yəqin, pişik var həyətdə...

Paslı açarı qıfıla saldı. Açar hərəkət etmək istəmirdi. Nə illah eləyirdi, qapını aça bilmirdi. Yenə hənirti eşitdi. Yenə dik atıldı. Ürəyi lap şiddətlə döyünürdü. Elə bil, qəfəsi yarıb

çıxacaqdı... Həm gecənin vahiməsi, həm də gördüyü işin nəticəsinin necə olacağı həyəcanı onu titrədirdi. Pıçıltı ilə Allaha dua eləməyə başladı...

Açarı çıxarıb daşa sürtür, bir də taxır, açarın fırlanmadığını görüb hər şeyi yenidən təkrarlayırdı...

Açıldı! Açıldı qapı! Çiyni ilə qapını itələyib içəri keçdi. Çantasından xırda əl fanarını götürüb yandırdı. Zirzəminin yolu şüşəbənddən idi. Bu da həsir ayaqaltı... Həsir ayaqaltı -nı qaldıranda bir toz-torpaq qalxdı ki... Bu da zirzəminin qapağı. Fənəri yerə qoyub var gücü ilə qapağı qaldırdı. İndi aşağı düşmək olardı...

Zil qaranlıq zirzəmidən sanki bir vahimə qoxusu gəldi... Hiss elədi ki, titrəyir... İçəri işıq saldı. Özünü toplayıb yavaş-yavaş düşməyə başladı...

Bu da həmin yer. Təxmin etdi ki, bu dörd-beş daşdan birinin altındadır gizli saxlanc yeri. Daşları bir-bir tərpətməyə başladı...

Ürəyi şiddətlə döyünürdü. Soyuq tər basmışdı onu. Tükləri biz-biz idi... Sanırdı ki, bu dəqiqə kimsə arxadan gəlib boğazından yapışacaq... Tez-tez arxaya qanrılırdı...

Üçüncü daş tərpəndi. İçinə hədsiz bir sevinc doldu. İndi hər iki əli ilə daşı çıxarmalıydı. Fənər ona mane olurdu. Axtarıb yerdən boya qutusu tapdı. Fənəri qutunun üstünə elə qoydu ki, işığı daşın üstünə düşsün. Sonra daşı çıxarmağa başladı...

Pul qalağının bir hissəsi görünəndə bədənindən sanki cərəyan keçdi... Bayaqdan ehtiyatla hərəkət edirdi. Ancaq indi daşı yerə buraxdı və onun çırpılmasına, səs salmasına əhəmiyyət vermədi... Dörd olmuş gözləri ilə pulları süzüb pıçıldadı:

- Sənə qurban olum, Tanrım...

Bayaqkı qorxu-hürkü daha yox idi. Tələskənliklə pulları əl çantasına doldurdu. İyirmi yeddi bağlama yüzlük Amerika dolları var idi orada...

-... İki yüz yetmiş min... Hm... Heç də pis deyil...

İçini bürüyən hisslərin təsirindən elə buradaca haray çəkmək, aləmi ayağa qaldırıb: - İndi mən varlıyam, - deyə qışqırmaq istədi...

Gözlərindən aramsız yaş axırdı... Bu yolla İlqarla Səidə-dən də qisasını almışdı. Onlara qismət olası varidata sahib çıxmışdı. İndi qalırdı sakitcə öz həyatını yaşamaq, xoşbəxtliyinə qovuşmaq...

...Ancaq...

...Sonradan çox düşünmüşdü. Məhz həmin gün, həmin an o, bəlkə də, gələcək həyatını xilas edəcək bir qərar verə bilər, səhv dalınca səhvi təkrarlamazdı...

...Ancaq nə yazıq ki, bütün bunlar baş verdi. Bəzən insan özü də istəmədən iç dünyasındakı işıqlı nə varsa, hamısını kinə və nifrətə qurban verir...

□□□

Sənin əllərində mənə

Pənah gətirən gülləri,

Bizi qovuşdurmaq üçün

Ömür itirən gülləri

Axı necə ovundurum?

Sən bir yanda,

mən bir yanda,

aramızda bir uçurum...

X.Hüseynzadə

# 14-cü HİSSƏ

# Ümidlə yaşamalıyıq

Adi həyatda hər gün onlarca adamla mübarizə aparıb, döyüşüb qalib gəlməklə iş bitmir ki. Oğulsan özünə qalib gəl: öz hisslərini, ehtiraslarını cilovla, öz səhvlərini etiraf elə, öz büdrəmələrinin qarşısını al!

İnsanın özüylə bacarmasının sonunda mütləq “bu olmaz” və “o olmaz” nidaları dayanır. Bu isə hamıya müyəssər olmur. Çoxluq özüylə bacarmır. Çoxluq razılaşır ki, qoy başqalarına qalib gəlib özümə məğlub olum.

Özüməm də...

... Bu yazını başlayandan sanki ətraf aləmdən təcrid olunmuşam. Heç nə gözümə görünmür. Yalnız yazmaq, qəhrəmanlarımın həyatını onlarla birgə yaşamaq, onlarla birgə ağrı-acı çəkmək, hərdən də sevinmək istəyirəm...

Həyatımın çox vacib, lazımlı işlərini, həll olunacaq problemlərimi isə uf demədən sabaha, birigünə saxlayıram...

... Nailə haradasa yubanıb. Kabinetində onu gözləyirəm. Bu gün İmişliyə getməyəcəyik. Ertədən zəng vurub bu bəd xəbəri mənə çatdırıb.

-... Bütün gecəni yata bilməmişəm... Doğmalarımı görməyə hazır deyiləm. Qorxuram hisslərimi cilovlaya bilməyim, məni tanısınlar... Üç-dörd gün möhlət verin, özümü o görüşə tam hazırlayım...

Yubanacağını isə söyləməyib. Görəsən, niyə gəlib çıxmır?

Gözüm masanın üstündəki meşin üzlü bloknotdadır.

Keçən dəfə onu icazəsiz yarıyacan oxumuşdum. Əlbəttə, qadının əşyaları içində icazəsiz qurdalanmaq ədəbsizlikdir. Ancaq özümlə bacarmıram...

“... Qanuni oğru heç vaxt evlənməz. Çünki evlənsə, bu zaman sentimental hisslər onu işindən ayıra bilər. Qanuni oğru əxlaqi normalara ciddi riayət edir. O, düzgünlüyün, prinsipiallığın və xoş rəftarın carçısıdır. Oğurluğa gedəndə, əvvəl mənzil sahibinin soyuducusuna baxıb bugünkü vəziyyətini öyrənir. O, heç vaxt axırıncını götürməz...

Həbsxanada bütün dustaqların ən gizli arzusu “Qanuni oğru” olmaq idi. Mənsə elə bilirdim, dustağın ən gizli arzusu azadlığa çıxmaqdır...”

Yenə pul haqq-hesabları...

Yenə telefon nömrələri...

Şirniyyat resepti...

Saralmış qəzet vərəqi:

“Yanvar-fevral. Missuri universitetinin professoru Ceyms Devis müəyyən edib ki, bu qış aylarında doğulanlar, digərlərindən 2 dəfə artıq depressiyaya meyillidirlər.

Mart-aprel. Madrid universitetinin alimləri sübut ediblər ki, erkən yaz aylarında anadan olanların qan təzyiqi digər-lərininkindən 5 faiz aşağıdır. Odur ki, onlarda ürək xəstəliyi yalnız yaşlaşanda olur.

May-iyun. Nyu-York alimləri bildirir ki, bu aylarda doğulanlar digərlərindən 2 dəfə çox solaxay olurlar. Həm də onlarda IQ göstəriciləri olur ki, bu da dahiliyə yaxın əlamətdir.

İyul-avqust. Nottingem universitetinin psixoloqları maraqlı fakt üzə çıxarıblar. Məktəb yaşlı uşaqlar arasında riyaziyyatı, mütaliəni ən yaxşı bilənlər və ünsiyyətcillər bu yay aylarında doğulanlardır.

Sentyabr-oktyabr. İngiltərədə 1984-cü ildən üzü bəri milli komandada oynayan futbolçuların üçdə biri sentyabr və oktyabr aylarında doğulanlardır. Bu aylarda doğulanlar cəld, qıvraq olurlar.

Noyabr-dekabr. Danimarkada milyon kişini tədqiq edərək sübut ediblər ki, bu aylarda anadan olanlar daha güclü və sağlam olurlar. Orta hesabla digərlərindən 4 il çox yaşayırlar".

May-iyun kəlmələrinin altından qırmızı qələmlə xətt çəkilmişdi. Dərhal xatırladım. Axı Nailə may ayında anadan olub...

...Bir vərəqə iki bənd şeir köçürüb:

"Yadına düşəcəm nə vaxtsa, gülüm,

Mürgülü günləri ayıldacaqsan.

Bir nurlu səhərdə, şehli yamacda

Sən mənim yanıma qayıdacaqsan.

Qayıtmaq arzunu gizlətsən də sən,

Deyib-gülənlərlə gülməyəcəksən.

Üzəcək qəlbini xəyallar, gülüm,

Sən mənsiz yaşaya bilməyəcəksən".

Şeirin üstündə göz yaşları ləkəsi aşkarca hiss olunurdu.

Qadın qəlbi necə də qəribədir. Eyni adama həm onu fiziki məhvini planlaşdırmaq həddinə qədər nifrət etmək, həm də onu “gülüm” deyib əzizləmək, “sən mənim yanıma qayıdacaqsan” ümidi ilə baş-başa qalmaq...

...Mürəkkəbi qurumaqda olan qələmlə bir vərəqi cıza-cıza yazıb: “Nə şirin şeymiş azadlıq... Həvəslə mütaliə edirəm. Elçinin “Baladadaş”ını, Çingiz Abdullayevin “Dronqo”sunu oxuyuram. Tahirlə Cabir İmanova, Rəfaellə Coşquna qəşş eləyincəyə qədər baxıb gülürəm. Təkcə musiqiyə qulaq asmıram. Hər bir melodiya, hər bir söz sanki çəkib adamı keçmişə aparır”.

Bu kitab vərəqini isə yəqin, həmin “101 filosof” kitabından cırıb götürmüşdü. Spinoza, Laroşfuko, Dekart kimi filosofların ümidlər barədə sitatları yazılmışdı. Səhifənin qırağındakı boş yerə qırmızı mürəkkəbli qələmlə yazmışdı: “Nə qədər çətinliklərimiz olsa da, biz həmişə nikbin olmalıyıq, başımızı həmişə dik tutmalı, irəliyə həmişə inamla baxmalıyıq, ümidlə yaşamalıyıq. Heydər Əliyev.”

-... Yenə mənim bloknotumu oxuyursunuz?

İş başında yaxalanmış oğru kimi döyüküb qaldım... Pərt olduğumu görüb gülümsədi:

- Eybi yox... Yazıçıya ürəyi etibar etmək olar...

Bu dəfə mən onu topa-tüfəngə tutdum:

- Harda qalmısınız? Görün, nə vaxtdır sizi gözləyirəm.

Üzrxahlıq etdi:

- Maşınımın illik sığortasını verirdim, yubandım.

- Adətən, biz azərbaycanlılar belə şeyləri xoşlamarıq. Nə əcəb sizdən?

- Niyə ki? İldə min dollar verirəm. Allah eləməmiş, maşına bir şey olsa, bütün xərclərini çəkəcəklər. “Mercedes”-ləri bilmirsiniz? Ən xırda ehtiyat hissəsi od qiymətinədir. O ki ola, əzilə...

Kreslosuna əyləşdi, yerini rahatladı. Zəngi basdı:

- Nigar, mənə kofe gətir, qonağıma da “Sirab”.

Sonra yenə sığortadan danışdı:

- Sığorta şirkətinin ən istəkli müştərisiyəm. Xətrimi çox istəyirlər. Orda oturma, burda durma... Bilirsinizmi, dünyada insana ən yaxşı arzuları kimlər diləyir?

Mən çiyinlərimi çəkdim:

- Kimlər?

- Sığorta edənlər. Bax, mən ildə onlara min dollar verirəm. İraq olsun, başıma iş gəlsə, səksən min dollarlıq sığorta ödəməlidirlər. Ona görə də sığortaçılar sidq ürəklə mənə qəzavü-qədərdən uzaq həyat arzulayırlar... Ancaq indi gəl həkimləri götürək. Nə qədər xəstə çox olsa, o qədər qazanc çox olar. Ya maşın ustalarını götürək. Təki bol qəza olsun, müştərisi əskilməsin. Ya da mollaları götürək. Ölü olsun, yas məclisləri bol olsun... Elə siz jurnalistlər də insanlara pislik arzulayanlardansınız.

- Niyə?

- Necə niyə? Nə qədər dava-dalaş, bədbəxt hadisə çox olsa, o qədər mövzu dairəniz geniş olar... Elə mənim

əhvalatımı götürək...

Bir anda gözlərinə kədər doldu.

- Mənim faciəli taleyim sizinçün spekulyasiya mənbəyinə dönüb. Bundan pul, şöhrət qazanırsınız. Düz demirəm?

Söz tapıb deyə bilmədim.

## 15-ci HİSSƏ

## Aralarındakı dibsiz uçurum

Görüşmüşdük, ayrılaq, Təzədən de “əlvida!” İzlərinə alışmış, Yollar aparsın səni. Gəl özünü atma sən, Bir də yandığın oda, Elə itirmisən ki, Çətin taparsan məni.

N.Kəsəmənli

Qapı açıldı. İlqar Turalı öpüb, Səidənin “Qonağımız var” sözlərinin müşayiəti ilə qonaq otağına keçdi və... Və dəhşətlə bağırdı:

- Nailə?!!

Hətta hər şeyə hazır olan Nailə belə bu bağırtıdan diksindi. Tez də özünü ələ alıb gülümsəməyə çalışdı:

- Bununla ikinci dəfədir ki, siz mənə Nailə deyirsiniz. “Gənclik”dəki ev bazarında da belə demişdiniz. Mən Nailə deyiləm.

Pərt olmuş Səidə əsəbi halda İlqarı dəhlizə çəkdi. Pıçıltı ilə danışsa da, Nailə onun dediklərini aydınca eşidirdi:

- O qədər o qəhbəvin xəyalı ilə yaşayırsan ki, başqaları da sənə o sifətdə görünür. Bu, Nuranədir. Trenajorda tanış olmuşuq. Ailə problemlərini araşdıran mərkəzdə psixoloq işləyir...

...Səidə gah Turalın çayını nəlbəkiyə töküb soyudur, gah qızı Nuranənin çayını şirin edir, gah da müxtəlif suallarla İlqara və Nailəyə müraciət edirdi...

Nailə heç nə olmayıbmış kimi Səidənin suallarına ətraflı cavablar verir, İlqarın odlu baxışlarını görməməzliyə vururdu... Əslində, o, bura gəlməməliydi. Trenajor zalına getməməli, Səidəylə əlaqələri büsbütün kəsməli, öz həyatını yaşamalıy-dı. Ancaq ürəyi zorla onu Səidəyə yaxınlaşdırmış, evə getmək təklifinə “hə” cavabı vermişdi...

Vaxt keçdikcə Nailə iç dünyasına dolan kədərdən yaxa qurtarmaq istəyini gerçəkləşdirməkdə çətinlik çəkirdi. O, bura gələndə özünə tam sakit olmağı əmr etmişdi. Heç bir hissə qapılmayacağına arxayın idi... Ancaq indi... İçinə dolan kədər onu üzür, bir udum qəhərə dönüb çöhrəsini dopdolu buluda bənzədirdi. Göz yaşlarını boğub saxlamaq get-gedə çətinləşirdi...

İşə bax, o xoşbəxt günlərində, o uzaq keçmişdə həmişə xəyalında İlqarla quracaqları ailəni canlandırardı... Bir oğulları, bir qızları olmalı idi... İlqar necə ki, indi arabir Turalın başına sığal çəkir, eləcə də öz oğullarının, yəni Səidə ilə İlqarın yox, Nailə ilə İlqarın oğullarının başına sığal çəkməli idi... Yataq otaqlarındakı divar kağızının rəngi, İlqarın evdə geyindiyi pijamasının, çəkələklərinin görünüşü, intim gecələrin abajur işığına bürünmüş həzinliyi... Hətta onların çarpayılarının bir-birinə sarmaşarkən çıxardığı cırıltılar belə o vaxt Nailənin xəyalında canlanmışdı...

İndi bir qədər başqa rəngli divar kağızı olan otaqda, bir qədər başqa səs çıxaran çarpayıda İlqar tamam başqa bir qadının qulaqlarına dadlı-dadlı sözlər pıçıldayır... Əynində bir qədər başqa formalı pijama, ayağında da qəhvəyi yox, göy rəngli çəkələk, əyləşərək tamam başqa bir qadının gətirdiyi çayı qurtumlayır...

Bütün bunlar Nailə üçün ağır, çox ağır idi... Yeganə təsəllisi ürəyində zövqsüzlüyə görə Səidəni danlamaq idi...

“Buna bax, seçdiyi pərdə heç divarın rənginə düşmür... Paltar dolabının üstünə qoyduğu vazaya bir bax. Tolkuçka-nın zir-zibilini servanta necə də düzüb... Hələ bunun ər üçün ütülədiyi pijamaya bax. Qırışığından adam utanır...”

... İlqar hərdən Səidənin varlığını büsbütün unudub açıq-aşkar baxışlarını Nailəyə zilləyirdi. Hətta arada eyvana çıxıb siqaret çəkərək otağa qayıdanda, xoşbəxt keçmişlərinin yadigarı olan üstü qara xallı yamyaşıl timsahı da əlində gətirmişdi. Ümumiyyətlə, son vaxtlar bu timsahı gah maşınından asır, gah cibində gəzdirir, gah da balışının altına qoyurdu...

İndi də onu əlində gətirməklə hələ də bu qəfil qonağın Nailə ola biləcəyinə ümid edirdi...

Oyuncaq timsahı İlqarın əlində görən Nailə lap kövrəldi. Deməli, bütün bu illərdə o, İlqarın yadından çıxmayıbmış... Sonra xatırlamağa çalışdı, necə olub timsah İlqara qayıdıb? Ağlına gətirə bilmədi...

... İndi aralarındakı bu dibsiz uçuruma baxmayaraq, Nailə bütün varlığı ilə dünyalarca nifrət etdiyi bu doğma adama sarılmaq, bu illərin həsrət və acılarını hönkürtü və öpüşlərlə çıxarmaq, ona keçirdiyi cəhənnəm əzablı günləri barədə, il-qarsızlığın nə demək olduğu barədə danışmaq istəyirdi...

Demə, sevgi də ədəb-ərkanla kəfənlənib dəfn olunduqdan sonra qəfil dirilən ölülər kimi imiş...

Görəsən, İlqarın bu günəcən içində sevgisini qoruyub saxlaması yaxşımı idi, pismi? Görəsən, Nailə bu mənzildə tamam başqa bir mənzərənin şahidi olsaydı, tamamən unudulduğunu hiss etsəydi, onda nələri düşünəcək, necə hərəkət edəcəkdi?

Yox, belə olmazdı. Səidəni duyuq sala bilərdi. Axı o, bura sevgi romanını davam etdirməyə gəlməmişdi... Bəs niyə gəlmişdi? Bu, nə oyun idi oynayırdı?

... Amansızlıqla içinə dolan məhrəmanə hissləri, qəlbini çulğalayan sevgini, işıqlı duyğularını pərən-pərən salıb tox-dadı, ciddiləşdi. Üzünü İlqara tutub soruşdu:

- Bu Nailə kimdir axı? Siz də məni ona bənzətdiniz, ilk dəfə görəndə Səidə də məni ona bənzətdi.

Özü qəsdən bu sualı verdi. Çünki Səidə ona Nailə barədə hər şeyi yerli-yataqlı danışmışdı...

İlqarın dili topuq vurdu. Nəsə demək istədi, deyəmmədi. Qıpqırmızı qızardı. Yaxşı ki, Səidə söhbətə qarışdı:

- Nə tez unutdun? Sənə o qəhbə barədə danışmışam da...

Cəld də araya söz saldı:

- Ay qız, Faiq Ağayevlə Brilliantın sporunu görürsən də. O gün...

Səidə danışırdı. Ancaq Nailə onu eşitmirdi. Hər dəfə ünvanına bu “qəhbə” sözü tuşlananda, sanki ürəyinə bıçaq salırdılar...

İlqar da Səidənin belə ədəbsiz danışıqlarından narazı qalmışdı. Onun sifətinin dəyişməsini Nailə dərhal sezdi...

- Papa, adamlar niyə ölürlər?

Balaca Nuranənin verdiyi bu sual aradakı gərginliyi götürdü...

Səidə: - Qızım, bu sualı papaya yox, Nuranə xalaya ver. O, axı psixoloqdur - dedi.

Nailə adamların ölməsinin psixologiya ilə əlaqəsinin nə dərəcədə olub-olmamasını beynində ayırd eləyə-eləyə uşağın sualını cavablandırdı:

- Bilirsənmi, bütün canlılar: adamlar, heyvanlar, quşlar, ağaclar dünyaya gəlir, böyüyür, müəyyən vaxtdan sonra da ölürlər. Allahın onlara ayırdığı enerji tükənir. Başa düşdün?

Uşaq gözlərini döydü:

- Yox.

- Belə deyək də. Papanın maşınının benzin bakı var. Oranı papa benzinlə doldurur və maşın gedir. Elə ki, benzin qurtardı, maşın dayanacaq. Başa düşdün?

Uşaq xeyli fikirləşdi:

- Benzin qurtaranda maşın dayanır. Ancaq papa benzin tökəndə maşın yenə gedir axı?

Hamısını gülmək tutdu. Səidə gözü yaşarıncaya qədər qəhqəhə çəkdi:

- Ay bacı, mənim qızım, görürsən nə ağıllı qızdır? Psixoloqun səhvini tutur ee!

Qəfildən Nailənin içindən bir fikir keçdi. İlqar, doğrudan da, ölüdirildəndir. İndi də onu, ölmüş Nailəni diriltməyə çalışır. Onun içindəki ölü hisslərə əməlli-başlı can verir...

## 16-cı HİSSƏ

## Ən böyük həqiqət bu idi

Deyirlər qayıdacağıq, qayıdacağıq atıb getdiklərimizə, sevib unutduqlarımıza, unudub ötdüklərimizə... Vida günü torpaq əvəzinə mavi sonsuzluqlara yıxılacağıq üzüquylu...

Z.Sarıtorpaq

Cəmi yeddi gün idi həbsdən qayıtdığı. Bu yeddi gündə sanki bütöv bir ömür yaşamışdı... Macəra dolu bu günlər elə bil hər hansısa filmdə nümayiş olunurdu, əsl həyat deyildi...

Hərdən də baş verənlərin hamısı Nailəyə bir yuxu kimi gəlirdi...

... O, heç vaxt belə ürəklə pul xərcləməmişdi: Mərkəzi Univermaqdan və “Gənclik”dəki “Amay” yarmarkasından bir neçə rəngbərəng koftadan tutmuş xəz paltoyacan özünə hər şey almışdı. Bundan əvvəl isə o, özü üçün çox əhəmiyyətli olan bir addımı atmışdı: Əhmədlidəki mənzillərini ev sahibindən iyirmi iki min dollara geri almağa razılıq əldə etmişdi. On gün ərzində ev boşaldılacaqdı...

İçindəki narahatçılıqdan məhz öz doğma evlərində yaxa qurtaracağına inanırdı. Ambisiyalı olduğuna görə də evlərinin geri qaytarılmasını zəruri sayırdı. Bir də, qismət olsaydı, anasıgilnən yenidən bir yerdə yaşasaydı, doğma mənzillərinə yığışardılar...

İndi o, əllərində ağzınacan pal-paltarla dolu olan beş zənbil yarmarkanın qarşısında dayanan taksilərə doğru gedirdi və xəyalında bu paltarları, xüsusən də xəz paltonu geyinəcəyi günü canlandırırdı. Birdən yanında zoğalı rəngli “09” dayandı. İlahi, pəncərəni aşağı salıb onu içəri dəvət edən İlqar idi...

Gülümsədi. Bu, razılıq əlaməti idi.

İlqar cəld düşüb onun zənbillərini maşının yük yerinə qoydu, arxa qapını açıb ona yer göstərdi, sonra da sükan arxasına keçib maşını tərpətdi.

- Necəsiniz, Nuranə xanım?

- Sağ olun, pis deyiləm.

- Hara belə?

- Evimə.

Nailə “Elmlər Akademiyası” metro stansiyasının yaxınlığında kirayənişin qaldığı mənzilin ünvanını dedi.

Azacıq susduqdan sonra soruşdu:

-Deyəsən siz tez-tez buralarda olursunuz. Çox maraqlıdır, iş yeriniz buradadır, yoxsa...

İlqar ev bazarına gəlib-getdiyini gizlətdi, dedi ki, dostumun burada obyekti var, hərdən ona baş çəkirəm.

Maşın asta-asta şəhərin küçələri ilə irəliləyirdi. İlqar salonun güzgüsündən Nailəyə baxırdı. Eynən keçmişdəki kimi. İlqarın salon güzgüsü elə dayanardı ki, onunla baxışmaq üçün, gərək, arxa oturacağın tən ortasında əyləşəydin... Həmişə Nailə tən ortada əyləşərdi...

İşə bax ki, yenə də o, adəti üzrə tən ortada əyləşmişdi. İlqar avtomaqnitoladakı kaseti əvvələ yığdı.

- Dünyanın ən kədərli mahnısını dinləmək istəyərdinizmi?

Nailə başını tərpətdi və güzgüdən onu süzən İlqar avtomaqnitolanı işə saldı.

Yollarına gizlin-gizlin baxıb ağlaram,

Şəklini ürəyimdə bükübşaxlaram.

Gecə-gündüz dəniz kimi coşub-çağlaram,

Gülüm, indi hardasan?

Müğənni oxuyurdu. İlqar da ona qoşulub oxuyurdu. Gözlərində yaş gilələnmişdi onun. Bu mahnıda o qədər dərd vardı ki, bircə anda adamın iç dünyasına ağızbaağız dolub, adamı üzdükcə üzürdü.

Mahnı qurtaran kimi İlqar arxaya çönüb bayaq dediyi sözləri təkrarladı:

- Bu, dünyanın ən kədərli mahnısıdır.

O vaxtlar hər ikisi Sezen Aksunun mahnılarını dinləməkdən doymazdı. “Geri dön”ü hər ikisi müğənni ilə birgə oxuyardı. Hətta görüşəndən sonra sağollaşıb ayrılan kimi bir-birilərindən ötrü burunlarının ucu göynəyəndə bu mahnını zümzümə edərdilər:

Geri dön, geri dön,

Nə olur, geri dön...

İndi Nailə qəsdən arxa oturacağın tən ortasında oturduğu kimi, qəsdən də “Geri dön” mahnısını xatırlatdı:

- Mənimçünsə dünyanın ən kədərli mahnısı “Geri dön”dür.

İlqar diksindi, arxaya çevrildi.

- Nə dediniz?

Sonra irəli boylandı. Qarşıdakı maşınla toqquşmamaq üçün əyləci basdı, maşını yolun qırağına verib saxladı.

Nailə özünü bilməməzliyə vurdu:

- Sizə nə oldu?

İlqar irilənmiş gözləri ilə Nailəyə baxıb: - Heç, - dedi.

- Qəribə adamsınız, məni hansısa Nailəyə bənzədirsiniz. Sevgi mahnılarını eşidəndə az qala ağlayırsınız...

...“Elmlər Akademiyası” metro stansiyasına çatırdılar. Əlbəttə, yaxşı olardı ki, Nailə düşüb qaldığı evə getsin. Ancaq özü ilə bacarmırdı. İstəyirdi, İlqarla keçən bax bu dəqiqələr hey uzansın. İlqarın hərəkətləri, danışığı, mimikası - hər şeyi üçün o qədər darıxmış, göz yaşları axıtmışdı ki, bu illərdə...

- Taleyinizi mənim üçün danışarsınızmı?

Bu, o demək idi ki, mən evə getmək istəmirəm, hələ bir müddət də səninlə olmaq keçir könlümdən...

... Bir qədər keçmiş onlar artıq “Xarı bülbül” restoranında idilər. İlqarın kabinetdə əyləşmək təklifinə zidd olaraq, Nailə zalda əyləşməyi üstün tutmuşdu. O, həbsxanadan azad olunduğu yeddi gündə artıq üç dəfə bu restorana gəlmişdi.

Odur ki, bütün xidməti personalı tanıyırdı. Yeməklər də, adətən, dadlı olurdu, axşamlar verilən musiqi proqramları da maraqlı idi...

Bir şüşə araq boşaltmışdı İlqar. Siqareti də siqaretin oduna calamışdı. Nailə ilə bağlı hər şeyi ən xırda təfərrüatına qədər danışırdı...

- Bəs niyə unuda bilmirsiniz onu? Özünüz danışırsınız ki, onu başqasının yatağında tutmuşunuz, qayınatanızın da qatili odur. Beləsini, məntiqə görə, unutmalısınız axı...

İlqar içini çəkdi:

- Mən hələ də sevirəm onu. Başa düşürsüz, sevirəm...

Rəqs edirdilər. Get-gedə İlqar onu daha bərk özünə sıxırdı.

- Siz lap ona bənzəyirsiniz. Sizdən onun qoxusunu alıram...

Nailə bir ara onu itələyib yerinə keçmək istəyirdisə, indi sakitcə ona qısılmışdı. İlqar onun qulağına dürlü-dürlü sözlər pıçıldayırdı. Artıq rəsmiyyəti də bir kənara qoymuşdu:

- Səni... səni istəyirəm. Bu illərdə heç bir qadın tanışım olmayıb. Yalnız o olub, onun xəyalı olub. İndi hiss edirəm ki, sən güclüsən, onun xəyalından da...

İlqar onu daha bərk özünə sıxdı:

- Elə bil ki, bütün bu illər səni gözləmişəm. Sən mənim hər şeyimsən...

... Evə qayıdanda İlqar maşını saxladı. Düşüb arxaya keçdi. Bunun nə demək olduğunu Nailə yaxşı bilirdi. Ancaq yenə də hisslərini cilovlaya bilmədi. Özü ilə heç cür bacara bilmirdi...

İlqar onun yanında əyləşib qolunu boynuna keçirdi:

- Sən mənim canımsan. Sən mənim hər şeyimsən...

Nailə hıçqırdı. Bu sözlərdən ötrü o, hər şeydən keçərdi... Ən ağır, ən dərdli günlərində İlqardan ötrü göz yaşları axıtmış, bu cür sözlər gözləmişdi... Bu sözlər söylənməsələr də, həmişə ona təsəlli olmuşdular...

İlqar onu öpüşlərə qərq edir, o isə dartınır, ondan kənarlaşırdı. İlqar onunla yaxınlıq etmək üçün yalvarır, uşaq kimi ağlayırdı. İndi Nailə onun hökmranı idi. Öl desə ölər, qal desə qalardı...

Özü də istəmədən artıq İlqarı məğlub etmişdi... İlqar, hətta ailəsini atıb onunla ailə qurmağı təklif edirdi... Daha nə lazım idi ki?..

- Mən o qədər bədbəxtəm. Səidəylə bir yastığa baş qoysam da, ona qarşı heç bir istəyim, sevgim yoxdur. Səhv etmişəm, ata-ana sözündən çıxa bilməmişəm. Sonradan da uşaqlara görə ailəmi dağıda bilmədim... Bütün bu illər Nailənin xəyalı ilə yaşamışam... Ağlıma da gəlməyib ki, haçansa sənin kimi bir ideal qadınla rastlaşacam... Mənim qadınım ol, yalvarıram sənə... Ömür insana bir dəfə verilir... Heç olmasa, bundan sonra xoşbəxt yaşayaq... Səidə deyir ki, sən dul qadınsan. Ailə qurmusan, alınmayıb. Bizimki alınacaq, mütləq alınacaq...

- Yox... Sənin ürəyin axı o Nailə dediyindədir? İlk sevgi heç vaxt unudulmur...

- Sən ondan güclüsən. Sən unutduracaqsan onu mənə. Bilirsən, ən çətin anımda, onun xəyalı ilə baş-başa verib ailəmi dağıtmaq istəyəndə, onu itirdiyimçün it peşmançılığı çəkəndə bircə şeylə təsəlli tapmışam, onu

az müddətə də olsa, ürəyimdən qovub çıxara bilmişəm. O, axı qəhbə olub...

Bu sözlər sillə kimi Nailəyə dəydi. Bax, ən böyük həqiqət indi İlqarın ona - bu Nailəyə sarmaşması, yaxud İlqarın o biri Nailənin yadigarı olan oyuncaq timsahı uşaq kimi öpüb-oxşaması deyildi. İndinin də, dünənin də ən böyük həqiqəti bax, bu idi: “O, axı qəhbə olub...”. Sabahın da ən böyük həqiqəti bu olacaqdı. Hər şeydən qopmaq, hər şeyi dəyişmək, hər şeydən qaçmaq olardı. Təkcə bundan savayı...

# 17-ci HİSSƏ

# Üşüyür nəm skamya...

Köksümdə alışan tonqala baxsan, Görərsən, nə qədər məndən uzaqsan. Sən mənim odumda kül olacaqsan, Özüm kül olmaram, özümə baxma.

H.Razi

- Bəs sonra nə oldu?

Altmış dörd yaşlı Bəsti xala kirayənişini olan Nailəni iki saatdan çox idi dinləyirdi. Nailə, bəlkə də, həmdərdə ehtiyac duyduğundan, bütün həyatını Bəsti xalaya danışmağa qərar vermişdi...

> - Sonra da o, mənə evlənməyi təklif etdi... Bilirsənmi, Bəsti xala, indi mənim hər şeyim, hər şeyim var. Allahıma qurban olum. Ancaq mən onlardan qisas almalıyam! Ər də, arvad da ilan kimi məni çalırlar. Addımbaşı “qəhbə” deyirlər ünvanıma. Bir Allah şahiddir ki, mən hər şeyi dayandırıb geri çəkilmək istəyirdim. Özləri məni məcbur edirlər...
>
> - Qızım, mən Allah adamıyam. Elə sən özün də namaz qılansan. Düzdür, başın çox qovğalar çəkib. Əvəzində, indi Allah sənə hər şey verib. Ailə qur, doğmalarını başına yığ, xoşbəxt yaşa. Ancaq Allahı istəyirsən, onlarla işin olmasın, dağıtma onların ailəsini. Allaha ağır gedər...
>
> - Yox, Bəsti xala, yox... Artıq mən çox dərinə getmişəm. İntiqam hissi içimi didib-parçalayır... Bəs mən yazıq deyildim, onlar mənim həyatımı, gələcəyimi məhv etdilər? Ömrümün ən yaşanmalı səkkiz ilindən məhrum oldum, ailə qurmaq, ana olmaq xoşbəxtliyini məndən aldılar... Bəsti xala, siz heç bilirsiniz, indi mən cavan,

gözəl qızları, sevişən cütlükləri görəndə onlara necə qibtə edirəm?

- Qızım, Allah əfv edən və bağışlayandır. Allahın mərhəmətinə sığın, qara fikirləri başından çıxart. Nə olar, onunla olmadı, başqasıyla firavan bir ailə qurarsan. Sən olmadın, gözəl-göyçək qız balan gələcəkdə o model deyirsən, nə deyirsən, ondan olar...

Nailə hönkürdü:

- Eh, Bəsti xala. Birini bilirsən, birini bilmirsən... Mən heç vaxt ana ola bilmərəm...

Hönkürdü.

Bəsti xala nə illah elədisə də, onu sakitləşdirə bilmədi...

... Bayırda külək əsəbi vıyıltıyla əsir, iri yağış damlaları-nı pəncərənin şüşəsinə çırpırdı. Qapqaranlıq bir gecənin nisgil və kədər dolu ümidsizliyi Nailənin içini üzür, boğazında ilişib qalan qəhər gözündə donan göz yaşını tərpədib-tərpədib yanağı boyunca diyirlətməyə cəhd edirdi.

Küçə işıqlarını arabir suyu şırıldada-şırıldada keçib gedən avtomobillərin faralarından gələn işıqlar yarırdı... Nədənsə bu əsəbi külək də, bu iri damcılı yağış da, bu tutqun işıqlı avtomobillər də bir-birini tamamlayır, kədər, qüssə gətirirdi...

Nailə əlində tutduğu fincandakı soyumuş çayı qurtumla-yır və düşünürdü...

Siqaret alışdırdı. İki dəfə tüstünü ciyərlərinə aldı və öskürməyə başladı. Həbsxanadan qalan siqaret çəkmək vərdişini söz vermişdi ki, yaxın vaxtlarda tərgitsin...

İlqarla oynadığı oyunu dərhal dayandırmaq lazım idi. Və bu son iki gündə beyninə dolan qisas planını sürətləndirməli idi. Qarşıda onu çox iş gözləyirdi... Ən böyük arzularından olan “Modalar evi”ni açmaq, ora bacarıqlı modelyerlər toplamaq, model seçmək üçün yaraşıqlı qızlar axtarmaq... Sonra Əhmədlidəki evə mebel, digər əşyalar almaq... Bu gün-sabah ev boşalacaqdı axı... İlqarın ən yaralı yeri “Mercedes”-dir... Ən son model, özü də qara “Mercedes” almaq... Yerdə qalan pulu səmərəli işlətmək üçün yollar axtarmaq... Görəsən, indi dəb olan “Şadlıq sarayı” tikdirsəydi, necə olardı? Bəlkə, pulunu hansısa banka qoyaydı? Yox, banklara etibar yoxdur. Sovet vaxtı nə qədər pulları batdı... Sələmə də buraxmaq olardı... Yox, sələm də olmaz. Məhəmməd peyğəmbər bunu haram buyurur...

Arxadan tappıltı eşidildi. Geriyə çevriləndə Bəsti xalanın 22 yaşlı nəvəsi Abbası gördü. Dərhal da qanı qaraldı. Yaşından xeyli yaşlı görünən Abbas hər gün bura gəlirdi... Deyəsən, Nailəyə gözü düşmüşdü...

Elə o gün Bəsti xala da deyirdi ki, ay balam, bu uşaq xeyir olsun, bura tez-tez gəlməyə başlayıb...

- Niyə yatmırsan?

Abbasın bu sualını Nailə gözləyirdi. Cavabını da hazırlamışdı:

- Yuxum gəlmir, yatmıram. Sənə nə var, get yat da.

Abbasdan acığı gəlirdi. İlk əvvəl adına görə. Axı nəyə görə bu oğlan Abbas Şeyxzadənin adını daşımalı idi? Sonra isə Abbasın sırtıqlığından da heç xoşu gəlmirdi.

- Xanım, sizin kimi bir gözələ belə sərt danışmaq yaraşmır.

- Oğlan, bura bax...

Nailə heç vaxt onun adını çəkməzdi...

- Hə, qız, eşidirəm. Yenə başlayacaqsan mənə tərbiyə verməyə? Xoşum gəlir də səndən. Nə desən, səninçün eləyərəm.

Nailə əlindəki fincanı pəncərənin qabağına qoyub, Abbası başdan-ayağa süzdü:

- Məsəlçün, nə eləyərsən mənimçün?

- Hər şey.

- Məsələn...

- Desən ki... Lap desən ki, get filankəsi vur öldür, öldürərəm. Əlimdən ancaq vurub-yıxmaq gəlir.

Abbasın dedikləri Nailəyə maraqlı göründü... İlqarla Səidədən qisas planında bir cavan oğlanın köməkliyinə ehtiyacı var idi. Fikrində Şöləgilin qonşusu Niyazini tutmuşdu. Niyazi bunlardan 4-5 yaş kiçik idi. Ürəkli oğlan idi, qorxu bilməzdi. Həm də qadın xəstəsi idi. Nailə onun hələ də köhnə mənzillərində yaşadığını dəqiqləşdirmişdi. Ancaq Niyaziyə necə yaxınlaşacaqdı, onu fikrində tutduğu işə necə cəlb edəcəkdi, bunu bilmirdi...

Abbas isə özü öz dili ilə deyirdi ki, səndən ötrü adam da öldürərəm...

- Pulun-zadın var?

Bu sualdan Abbas duruxub qaldı, boynunun ardınacan qızardı.

- Mən sənin pula gedən olduğunu bilməzdim heç. Yaxşı, nə qədər istəyirsən?

Nailə əsəbiləşdi:

- Gicin biri gic. Ağlıva gələni danışma. Adamı bir axıradək dinlə, sonra çərənlə. Pul qazanmaq istəyirsən?

- Əlbəttə.

- Yaxşı, bəs heç ömründə qadınla olmusan?

- Hə... Yox... Hə, kalan...

- Sən ağzıbütöv adamsan?

- Əlbəttə. Bir daş altda, bir daş üstdə.

- Sənə bir qadın göstərəcəm. Başlayacaqsan ona girişməyə. Düzdür, yaşda səndən böyükdür, ancaq eyib etməz.

- Gəzəyəndir?

- Yox.

- Bəs...

- Elə iş də ondadır. Mənim planım üzrə hərəkət edəcəksən. Sənə pul verəcəm, ona qiymətli hədiyyələr alacaqsan. Sonrası isə asan məsələdir. Razısan?

- Tutalım, dediyini elədim, söz verirsən ki, sonra...

- Nə sonra...

- Axı mənim səndən xoşum gəlir.

- Bu, boş şeydir. Həm yaxşı bir xanımla yaxınlıq edəcəksən, həm də mən sənin əməyini layiqincə qiymətləndirəcəm.

- Yox, söz ver ki, sonra mən deyən olacaq.

- Yaxşı, sən deyən olsun. Razısan?

Abbas əlini sinəsinə vurdu:

- Abbas səndən ötrü ölümə də gedər...

... Bayırda külək əsəbi vıyıltıyla əsməkdə, iri yağış damcılarını pəncərə şüşəsinə çırpmaqda idi. Qapqaranlıq bir gecənin nisgil və kədər dolu ümidsizliyi Nailənin içini əvvəlkindən də bərk üzürdü... İlahi, sanki pəncərənin o üzündən bu üzünə ölüm xofu adlamaqda idi...

□□□

Üşüyür nəm skamya,

Soyuqdan büzüşür cığır,

Yağışsa yağır, yağır.

İsladır gecəni...

Öləndə isti geyindirin məni.

V.Səmədoğlu

# 18-ci HİSSƏ

# «Danışdıqca, daha çətin olur»

Allah səni çeçələ barmağı ilə götürüb bataqlığa atır və sənin çabalaya-çabalaya yaşamaq uğrunda mübarizə aparmana tamaşa edir... Ancaq vay o günə ki, Allahın başı başqa işlərə qarışa və səni bataqlığa atdığını unuda...

Öncə bunu düşündüm...

... İşığımız çox vaxt olmur. Olanda da o qədər zəif olur ki... Mənə belə gəlir, gur günəş işığında yazılan fikirlər, lap elə lampa və şam işığında yazılan fikirlərdən heç nə ilə fərqlənmir. Çünki hansı şəraitdə yazılmalarından asılı olmayaraq, fikirlərin hamısı qaranlıq beyində dünyaya gəlir...

Sonra bunu düşündüm...

... Döyüşə yalnız qalib gəlmək üçün gedirlər, məğlub olmaq üçün yox. Ancaq biz nəticəsi əvvəlcədən bəlli olan döyüşlərə getməkdən usanmırıq...

Daha sonra da bunu düşündüm.

Nailə yenə də gecikmişdi. İçəri bir haray-həşirlə girdi ki...

- Bu deputatlığa namizədlər lap ağ eləyiblər. Zorla plakatlarını camaatın şəxsi obyektlərinin şüşələrinə yapışdırırlar. Səliqəsiz, əyri-üyrü... Səsini çıxaranda da xox gəlirlər ki, seçilsəm, sabah mənim ərazimdə işləməyin çətin olar... Bəs nə əcəb siz öz namizədliyinizi irəli sürmürsünüz?

- Əvvəla salam. İçəri girəndə öncə salamlaşmaq lazımdır... Üstəlik, yarım saat gecikmisiniz. İndi nəyinizi sığor-talayırdınız? Evinizi?

Keçib oturdu. Bayaqkı şuxluğu çəkilib getdi:

- Diktofonunuzu açın.

Qanını qaraltdığımdan ləzzət aldım.

- Burnunuzu niyə salladınız? Siz lap pessimizm dağarcığısınız ki.

Bilmirəm, hardan gəldi, bu söz beynimə girdi.

Ani olaraq fikrə getdi. Bildim ki, yenə İlqarı xatırlayır. Axı bu sözü ona İlqar deyərdi...

Bayaq qanını qaraltmağın qeydinə qalmışdım, indisə kefini kökəltmək üçün yollar axtardım. Yenə də seçki mövzusuna keçdim

- Soruşursuz ki, mən niyə namizədliyimi verməmişəm. Bəyəm mənə ehtiyac var? Bir də ki, yıxılacağını bildiyin ağaca çıxmağın nə mənası?

- Yox, bu il tamam başqa cürdür. Heç vaxt bu qədər namizəd qeydə alınmamışdı. Hətta masabəyi tanışım var ki, o da namizədliyini verib. Görəsən, o, parlamentə seçilsə, ölkəmiz üçün hansı fövqəladə işlər görəcək?

- Niyə ki, ən azı parlamentdəkilərin xeyir məclislərində masabəyilik edəcək...

Gördüm ki, bu söhbət heç də onu açmadı. Havalara keçdim.

- Havalar soyuyur. Siz necə, payızı xoşlayırsınız? Qızıl payızı... Eldə ona xeyir-bərəkət fəsli də deyirlər.

- Yox, xoşlamıram. Hər fəsil mənimçün bir itki ilə yadda qalıb. Eləcə də payız.

Yenə də İlqar? Yüz faiz əmin oldum ki, düz 10 il bundan əvvəl olmuş İlqarın toyunu nəzərdə tutur... Sütunun arxasında durub gözləri yaşlı bəylik kostyumunda oturmuş İlqarı süzür... Lap o günün ayrılıq mahnısı da beynimdə səsləndi:

Qorxuram yar gəlməyə,

Gözlərim yaşlı qala...

Tapdım. Nailəylə moda mövzusunda danışmaq lazım idi. O, heç vaxt bu mövzuya biganə qala bilməzdi...

- Bu payızın dəbi hansı rənglərdir, görən?

- Tünd çalarlar. Məsələn, boz, qəhvəyi, qara... Mütləq tamamlayıcı ağ ornamentlərlə.

- Əslində, mən dəbi qəbul etmirəm. Mənə nə yaraşırsa, o da dəbdir.

- Mən sizinlə razı deyiləm. Ona qalsa, sizə əncir yarpağı da yaraşa bilər. Deməli, antik insanlar kimi cəmiyyətə əncir yarpağı ilə çıxmalısınız? Hər dövrün öz tələbi, öz dəbi olmalıdır...

- Axı bu dəb subyektiv məfhumdur. Hansısa modelyerin zövqü deməkdir.

- Ona qalsa, hər şey subyektiv məfhumdur. Siyasət siyasətçinin, iqtisadiyyat iqtisadçının subyektiv görüşləri ilə tənzimlənmir məgər? Moda da elədir.

- Yaxşı, bəs niyə moda deyəndə keçmişin beş-on ismindən başqa, heç kəsin adı hallanmır? Koko Şanel, Versaçe, İv San Loren, Kristian Dior, Fendi...

- Niyə ki? Siz, sadəcə, ən məşhurların adlarını çəkirsiniz. Düzdür, bu gün də dünya modasının günəşi Romadan və Parisdən doğur. Bu gün də bir nömrəli Kristian Dior və Ver-saçedir. Onların təqdim etdikləri həm klassikadır, həm modern. Onlar həm mühafizəkardırlar, həm də yenilikçi. Bu payıza da çox gözəl kolleksiyalar hazırlayıblar. Ancaq şəxsən mənim çox bəyəndiyim yeni isimlər də var. Məsələn, Antonio Berardi al-əlvan, təzadlı rənglərdən, Maks Mara saya rənglərdən, Stella Mak Kartney isə bir-birinə yaxın rənglərdən xariqələr yaradırlar. Jasper Konranın xüsusi işləmələr və ornamentlərlə bəzənmiş kolleksiyalarını da çox bəyənirəm...

Nailə özünə gəlmişdi... Modadan o qədər danışdı ki...

Təsiri altında olduğum mövzuya axır ki, gəlib çıxdıq:

- Mən sizin İlqarla Səidədən hansı yolla qisas alacağınızı tanış olduğumuz gündən bəri daim özlüyümdə müzakirə edirəm. Bu qisas öldürmək idisə, niyə Səidəylə yaxınlıq edirdiniz? Deməli, ölüm-itim olmayacaqdı. Səidəylə yaxınlığınızın, ailələrinə yol tapmanızın sonunda mənə elə gəlirdi ki, ilk öncə Abbas Şeyxzadənin var-dövlətinə sahib olmaq dayanırdısa, sonradan İlqarı geri qaytarmaq dayanırdı. Ancaq İlqardan da imtina etdiniz, bu versiya da düz çıxmadı. Dünən isə mənə bəlli oldu ki, Abbas vasitəsilə Səidəni... Bu, ən ağlasığmaz və mən deyərdim ki, ən qəddar bir qisas üsuludur. Bununla nəyə nail olmaq istəyirdiniz? İstəyirdiniz ki, Səidə başqasıyla görüşüb İlqardan soyusun?

- Yox.

- Yox? Bəs onda nə?! Yəni siz, sadəcə, Səidənin ləkələnməsini istəyirdiz? İlahi, bu, nə müşkül bir

tapmacadır? Yazan özüməm, ancaq mən real həyatda belə hadisələrin baş verdiyinə inana bilmirəm. Oxucu necə inanacaq?...

- Oxucu axı bunlardan xəbər tutmayacaq.

Təəssüfləndim. Doğrudan da, o, danışdıqlarını yazmağa icazə vermirdi. Bu cür gözəl bir əsərin məhvinə fərman imzalamışdı...

- Bəlkə, daşı ətəyinizdən tökəsiniz? Axı bu yazını yazmamaq mümkün deyil...

- Mən sözümü demişəm. Bir də ki, insan həmişə danışmaq lazım gələndə susmağa, susmaq lazım gələndə isə danışmağa məcbur olur... Bu, həyatın qanunlarından biridir... O ki qaldı mənim həyatıma, burada qürrələnəsi bir şey yoxdur. Öncə bir səhv addım atıb onun əzabını çəkirdim... Sonra növbəti səhv addımı atdım... Bəlkə, heç taleyimi sizə ümumiyyətlə, danışmamalıydım... Bu yolla yüngülləşəcəyimi zənn etmişdimsə, indi görürəm ki, səhv etmişəm. Danışdıqca mənimçün daha çətin olur...

# 19-cu HİSSƏ

# Oyun başladı

Sənə çatmağıma görən nə qalır, Ürəyim arxanca qaçar nə qədər? Xatirən, elə bil, quzey qarıdır, Qorxuram danışsam, dilim əridər.

V.Əziz

İlqar televizorun qarşısında oturub kanalları belədən-beləyə, elədən-eləyə çevirirdi. Səidə mətbəxdə nəsə bişirirdi. Uşaqlar yatmışdılar...

İlqar öz-özünə mızıldandı: “Gecə saat 12-dir. Yenə nəsə bişirir. Belə arvad olar? Bütün günü bişir, ye, bişir, ye,...”

ORT Çeçenistan və Dağıstanla bağlı son xəbərləri verirdi. RTR serial nümayiş etdirirdi. AzTV-də Azərbaycanın iqtisadi potensialı barədə analitik veriliş gedirdi. ANS hansısa su basmış Bakı kəndinin narazı sakinlərini göstərirdi. Space kliplər təqdim edirdi...

İlqar kanalı dəyişə-dəyişə ev bazarındakı makler Tofiqin qarasınca deyindi. Sonra yenə Səidənin yemək bişirməsinə əsəbiləşdi.

ORT həbsxana göstərirdi...

Kanalı dəyişməyinə ara verdi. Dəmir barmaqlıqlı kameralar, məhbuslar, konvoylar...

... Nailə ayağıyalın, saçları dağınıq halda polislərin müşayiəti ilə gətirilir və dəmir barmaqlıqlı maşına əyləşdirilir... Üzünü dəmir barmaqlığa söykəyib donuq baxışlarla ona baxır...

Sonuncu dəfə Nailəni belə görmüşdü... Və nədənsə, indi onu başqa cür xatırlaya bilmirdi... Cəld də xəyalından Nailənin obrazı silindi, onun yerinə Nuranə gəldi. Xüsusən “Xarı bülbüF’dəki o təkrarsız gecədən sonra Nuranə Nailənin xəyalını addımbaşı silməyə müvəffəq olurdu...

Nuranə ilə öpüşməsi səhnəsi gözünün qabağına gəldi, bədənini xoş gizilti bürüdü...

- Fərli şey yoxdur? Çevir, baxaq də...

Səidə gəlib kresloda əyləşmişdi. Ağzındakı yeməyi çeynəyir, bir ucdan da əsnəyirdi...

Ekranda qara qarışqalar kimi qaynaşan məhbuslar görünürdü.

- Səninlə deyiləm?

Kanaldəyişəni Səidənin dizlərinin üstünə atdı və eyvana çıxıb siqaret yandırdı. Zülmət gecə, soyuq külək və yağış onu zorla otağa qaytarmaq istəyirdi. Ancaq o, dişləri bir-birinə dəysə də, siqareti kötüyünəcən çəkmək fikrində idi... Həm də özü-özünə təsəlli verirdi ki, havanın belə olmasına aldanma, hər halda may ayıdır, qarşıdan yay gəlir...

Şüşəsi tərləmiş eyvan qapısından Səidənin siluetinə baxır, onu Nailə ilə müqayisə etməyə çalışırdı... Nailənin gülüşü, baxışı, ədası, səsi... Hər şeyi, hər şeyi o qədər doğma, o qədər ləzzətli idi ki...

İlqar əməllicə titrəyirdi soyuqdan... Tərs kimi nə külək ara verir, nə də yağış dayanırdı. Siqaretə baxdı. Hələ yarı olmamışdı...

İndi də Nuranə gəldi durdu gözünün qabağında. Birlikdə keçirdikləri günü ən xırda epizodunacan xatırlamağa

çalışdı... Nuranəyə eşq elan etməyini Nailəyə xəyanət saydı.

Yaxşı ki, Nuranə ona rədd cavabı vermişdi... Ancaq gözəl həmsöhbət, həmdərd idi Nuranə. Ona problemini söylə və məsləhət al...

Otaqdan telefon zənginin səsi eşidildi. İlqar bunun heç mahiyyətinə də varmadı... Zəng dərhal da kəsildi.

Başını eyvandan çölə çıxartdı ki, görsün, başına yağış düşəcəkini.

- Professor, neçə gündür, dominoya gəlmirsən.

Qonşusu Mərdanın səsini eşidib əsəbiləşdi.

- Sənin də işin-peşən yoxdu da. Yağışda da eyvanda bitirsən.

Bu vaxt yenə də telefon zəng çaldı. İlqar yenə də öz aləmində idi. Səmadakı qapqara buludlara baxıb bircə dənə ulduz axtarırdı onların arasında...

...Birinci dəfə telefon zəng çalanda Səidə: “Bu gecə vaxtı kim olar belə?”, - deyə-deyə telefona yaxınlaşmış, zəngin arası kəsildiyini görüb yenidən televizorun yanına getmişdi. İkinci zəng gələndə əvvəlcə yerindən tərpənmədi. Düşündü, birdən yenə zəngin ardı gəlməz. Ancaq zəng dalbadal gəldi və o, bayaqkı sözlərini təkrarlaya-təkrarlaya telefona yaxınlaşdı.

“Gecə vaxtı kim olar?”

Telefonu götürdü.

- Alo.

Xəttin o biri üzündən tanımadığı kişi səsi gəldi:

- Alo, Səidə xanım, axşamınız xeyir.

Səidə təəccübləndi:

- Kimdir ki?

- Sizin pərəstişkarınız.

Səidə çaş-baş qalıb bir daha sualı təkrarladı:

- Kimdir?

- Sizin pərəstişkarınız. Adım Abbasdır. Sizinlə yaxın dost olmaq istəyirəm.

Səidə eyvana tərəf boylanıb İlqarın onu eşidib eşitmədiyini müəyyənləşdirib dedi:

- Mən sizi tanımıram.

- Mən ki, sizi tanıyıram.

- Harda görmüsüz ki, məni?

- Trenajorda. Özü də, rəfiqəniz bizim qonşudur.

- Hansı rəfiqəm?

- Nuranə.

- Nə isə Abbas, gəl söhbəti uzatmayaq. Mən ailəli qadınam...

- Səidə xanım, sizə kiçik bir sürprizim var, lütfən sabah qəbul edin...

□□□

Nailə Abbası ilk uğuru münasibətilə təbrik etdi. Hər halda, Səidə dəstəyi çırpa da bilərdi. Ancaq Abbas onu maraqlandırmışdı. Axıradək telefondan yapışıb qalmasına səbəb olmuşdu... Deməli, Nailənin qurduğu oyuna artıq start verilmişdi...

## 20-ci HİSSƏ

## Bir də o günlərə qayıtmaq olardımı?

Evdən çıxacağam nisgil əlindən, Hər axşam.

Səni bu işıqlı küçələr boyu, Axtaracağam, Əllərimdə şam. Səni soruşaraq tanış-bilişdən, Gəzərəm şəhəri Sökülüncə dan. Baxıb görərəm ki, Sənli günlərim... Ötür yanımdan.

TAbdin

Bəlkə, köçüb getsin bu şəhərdən? Elə bil bəxti-yığ-valı bağlanmışdı. Heç bir işi alınmırdı. Nailəni də unudardı. Bu qəfildən peyda olmuş Nuranəyə meyitinə də son qoyulardı. İşləyərdi, uşaqlarını böyüdərdi... Nə olsun, Səidə doludur, qaradır? Nə olsun,

biş-düşdən, ev təmizləməkdən başqa heç nəyə yaramır? Nə olsun ki, İlqarı dərk eləmir? Hər halda, ərinin başı yuxarı gəzməsinin təminatçısıdır. Yoxsa Nailə... Bununla sevişirdi, bundan əvvəl də ən azı biriylə gəzmişdi... Nə idi adı o doqquzda qalan dəyyusun? Yadına düşmədi. Nə isə. Əvvəl onunla, sonra bununla... Buna eşqdən, məhəbbətdən dəm vura-vura atası yaşlı kişiylə... Sonra da kimiylə gəldi... Ya da elə Nuranə... Deyək ki, bu, Nailəylə sevişəndə Nailə uşaq idi. Bəs Nuranə? Ortayaşlı, ali təhsilli psixoloq bircə tanışlığa bununla restorana gedib öpüşmədimi?

İlqar bütün bunları düşünür, düşündükcə də içki içmək, dəm olub yıxılıb qalıncaya qədər içmək istəyirdi. Pulu isə yoxuydu... Səidə hər dəfə bir ev əşyasını satıb pulunu yeməklərinə xərcləyirdi. İlqara da benzin və siqaret pulu verirdi. İlqarsa içki içmək istəyirdi...

Görəsən, bir də haçan düz-əməlli pulu olacaq? Ata-anası ilə dalaşmışdı. Bacısını lütün birinə vermişdilər. Evsiz-eşik-sizin birinə. O da gəlib oturmuşdu Mamed kişiynən Zümrüdün evində.

İlqardan olsaydı, Bayıldakı evini satandan sonra gedib oturardı ata evində. Pulu da buraxardı işə. Ancaq o alçaq yeznəyə görə belə edə bilmirdi... O gün gedib qırğın çıxartmışdı. Ata-anasına demişdi ki, oğlunuzu yeznənin ayağına verirsiz. Evin bir oğlu ola-ola məni atmısız çöllərə. Mamed kişi də qayıdıb qıpqırmızı demişdi ki, rəhmətlik sənə verən evi satmadın? Bura gəlsən, sabah da mənim evimi satmaq istəyəcəksən...

Hər halda, Bayıldakı evini satıb kirayədə qalsa, indikindən yaxşı olardı. Bu pula nəsə bir iş düzüb qoşardı. Vaxtaşırı bir cibxərcliyi də olardı, evə ayın-oyun almaq da problem yaratmazdı. Yoxsa indi... Bu səkkiz ildə öncə üçotaqlı evlə ikiotaqlının, “Mercedes”-lə “09”-un fərqini yedilər, sonra mebelləri, qızılları satdılar... Axırıncı dəfə paltaryuyan maşını satmışdılar. İndi də növbədə videomaqnitofon idi... Bəs sonra nə olacaqdı? Yox, mütləq evi satmalıydı. O dəyyus makler də günü günə satır...

Bilirdi, Səidə evin satılmağına razılıq verməyəcək. Ancaq sonra məcbur olub razılaşacaqdı. Axı başqa yol yox idi. İş yox, güc yox... İlqar haradan qazanaydı? Mağıl, idmanla da axıradək məşğul olmadı. İdmançılara indi qayğı var. Bəlkə, axırı bir yerə gedib çıxardı...

Ev satılsaydı, pulu olsaydı, özünə babat əyin-baş da alardı. Tural yazıq ölür velosiped üçün. Ona qəşəng bir velosiped alardı. Yenə “Davidoff” çəkərdi. Yoxsa bu ucuz zir-zibil onu öskürdür... Maşınını dəyişərdi... Yox, deyəsən, ağ elədi. Maşınını dəyişməyə pulu qalmaz... Ancaq yeyib-içməyə yüz faiz cibxərcliyi olardı. Yoxsa indi... Könlünə içki düşəndə vurnuxa-vurnuxa qalır. Dost-tanış yanında da dili gödəkdir. O gün Nuranəylə restorana gedəndə hesabı Nuranə verdi, bu da qızara-qızara: “Pul qabımı evdə qoymuşam”, -söylədi... Hər şey o yana, pulu olsaydı, atasına yubiley keçirərdi. Axı kişinin iyunun 2-də altmış yaşı tamam olacaqdı. İndi ər-arvad təqaüdlə yaşayırlar. Pulları nə gəzir yubiley keçirməyə. Atasına babat bir kafe, ya restoranda yubiley keçirər, övladlıq borcunu yerinə yetirərdi. Aşıq İlhamı da məclisə gətirərdi. Atası onun sazının vurğunudur... Kişi necə də xoşbəxt olardı. Anası da sevinərdi... Nə olsun, valideynləri ilə küsülüdür? Hamısı pulsuzluqdandır. Pul olsa, heç küsərdilərmi bir-birilərindən?

İlqar içmək istəyirdi. Ürəyi partlayırdı içki üçün. Azərə zəng etdi...

- Azik salam...

- İlqar yoxumdur, özüm sıxıntı çəkirəm...

- Nə bilirsən ki, pul istəyəcəm?

- Başqa nə istəyə bilərsən ki? Ayıbdır, otuz üç yaşın var, beş qəpiyin yiyəsi deyilsən. Kişisən, ailən var. Niyə gedib bir işin qulpundan yapışmırsan?

- Hara gedim? Qul bazarına?

- Niyə də getməyəsən? Pul qazanmaq ayıblıq deyil.

- Yaxşı da. Zəng etmədim ki, mənə moral oxuyasan. Çox istəmirəm cəmi iyirmi min manat...

- Heç iyirmi manat da verə bilmərəm...

... Nə etsin? Mərkəzi Univermağın yanındakı zirzəmidə yerləşən qəlyanaltının yanından keçirdi. Birdən ağlına gəldi ki, keçən dəfə o səfil qoca ilə burada yeyib-içəndə boyunbağını girov qoyub...

İçəri keçdi. Ofisianta yaxınlaşıb dedi:

- Mənə bir çibuş, bir lülə-kabab ver, bir də xolodnı.

Ofisiant dərhal onu tanıdı:

- Pulunuz var?

- Necə bəyəm?

- Keçən dəfə pulunuz yox idi.

- Niyə ki? Sepimi verdim də. Borclu qalmadım ki. Hələ sən mənə borclu qaldın.

Masalardan birinin arxasına keçib ətrafa göz gəzdirdi. Nahar vaxtı deyildi. Cəmi bir masanın arxasında müştəri var idi...

...Arağı süzüb stəkanı başına çəkdi. Xiyar turşusundan dişləyib düşündü ki, buradan çıxanda ofisiantla dəqiq haqq-hesab eləyər, boyunbağından qalan pulu götürər. Dalbadal ikinci stəkanı da başına çəkdi, keçən dəfəki badə yoldaşı barədə düşünməyə başladı. Çox qəribə adam idi. Maraqlı şeylər danışırdı. Onunla araq içmək adama lap ləzzət verirdi. Yeddi şüşəni aşırtmışdılar...

Ürəyindən həmin kişini yenidən görmək keçdi. Ofisiantı çağırıb kişini görüb-görmədiyini soruşdu.

- Əfrasiyab kişini deyirsən? Rəhmətə getdi.

Loxması İlqarın boğazında qaldı:

- Necə rəhmətə getdi? O gün vururduq axı kişiylə.

- Dünən günorta keçindi. Bir tin aşağıdakı qəlyanaltıya girib, qədim bir medalyonu varıymış, onu verib deyib ki, bu, keçmişimdən, ailəli günlərimdən, gəncliyimdən yeganə yadigardır. İllərlə onu qoruyurdum. İndi daha mənə gərək deyil... Puluna bol araq verin, hamını qonaq eləyirəm. Medalyon çox bahalı medalyon imiş. Qəlyanaltının müdiri Ba-ləmi çox mərd adamdır. Deyib buna araq verin, içsin, əmanəti götürməyin. Ancaq razılaşmayıb... Deyib, yox ki, yox. Hamı bu gün mənim qonağımdır... Yüz içən kimi ürəyini tutub yıxılıb...

İlqar tutulmuşdu. Elə bil ən əziz bir adamının ölüm xəbərini eşidirdi.

-... Rəhmətlik keçmişdə çox savadlı adam olub. Fəlsəfə üzrə alim imiş. Kommunistlərlə cəngə çıxıbmış. Neçə il həbslərə atıblar, həyatını zəhərləyiblər... Oğul-uşağı olmayıb. Həyat yoldaşı buna olan haqsızlıqlara dözməyib intihar edib... Heyif ondan...

İlqarın gözləri yaşarmışdı... Bircə dəfə gördüyü bir adamın ölümü lap sarsıtmışdı onu...

-... Hərdən pulsuz araq verərdim. Hərdən də qovardım yazığı. Neyniyim. Biz də qəpik-quruşa baxan adamlarıq. Obyekt işlətmək bilirsən də, necə çətindir. Bunun vergisi var, qazı var, işığı var, suyu var, sanepidemstansiyası var, yanğınsöndürəni var, polisi var...

... Ordan necə çıxdığını bilmədi, ofisiant bundan pul istəmişdimi, yoxsa qızıl boyunbağıya görə istəməmişdi,

bilmirdi. Sadəcə, çıxmışdı və indi yeganə bir istəyi vardı: Əfrasiyab kişinin qəbrinə baş çəkmək...

Ölənlər qarşısında dirilərin son borcu onların qəbirlərinə baş çəkmək deyilmi?

Birdən beyninə gələn bir fikir onu ayaq saxlamağa vadar etdi: İlahi, səkkiz il idi, Nailə dünyadan köçmüşdü. Bu illərdə bircə dəfə də olsun, onun qəbrini ziyarət etməmişdi... Bəlkə, elə buna görə idi, Nailənin ruhu onu qarabaqara izləyir, ona rahatlıq vermirdi?

# 21-ci HİSSƏ

# Yatsa, yuxusuna da girməzdi

Doğrudanmı unutdun, Unutdun nərgiz günləri sən. Mənim sevgim - qanlı çiçək, Taleyin batacaq günah gölündə.

Tanrının yaz çadırı altında, Torpağın boz cadarı üstündə, Nə mənim tək sevənin, Nə də sevdiyim olacaq sənin kimi.

S.Həsənli

... Tural taxta atını sürüb gəldi, düz Nailənin qabağında dayanıb dedi:

- Nuranə xala, bunlara de də, mənə velosiped alsınlar. Nailə onun başını sığallayaraq gülümsədi:

  - Eybi yox. Onlar almırlar, qoy almasınlar. Özüm alaram. İlqarın böyük qızı Nuranə gəlib Nailənin qucağında oturdu:

  - Nuranə xala, bunlara de də, mənə Barbi gəlincik alsınlar?

Nailə indi də onun başını sığalladı:

  - Bax, Nuranə xala sizə söz verir ki, sabah birinizə velosiped, o birinizə Barbi gəlincik alacaq.

Uşaqlar “urra” deyib atılıb düşdülər.

Nuranə nəsə fikirləşib yenidən Nailəyə yaxınlaşdı.

  - Nuranə xala, atam niyə məni çox istəmir?

Nailə duruxub qaldı, onun saçlarını sığalladı. Nuranə necə də İlqara çəkmişdi. Gözü, burnu, ağzı...

Səidə körpə Nərminəni beşiyinə qoyaraq gəlib Nailə ilə üzbəüz əyləşdi. Nailə bilirdi ki, Səidə bayaqdan bəri hansı mövzuda danışmağa tərəddüd edir...

- Nəsə sözlü adama oxşayırsan.

Bunu dedi ki, Səidə söhbəti aça bilsin.

- Sənin Abbas adlı qonşun var?

- Nə Abbas?

Guya, fikrə getdi.

- Cavan oğlandır. Yekəpər. İyirmi beş-zad yaşı olar.

Nailə artıq rola girmişdi:

- Hə, hə, var. Nədir ki?

- Kimdirlər, nəçidirlər, nə mənsəbə qulluq edirlər?

- İmkanlı ailədəndir. Evin bir oğludur. Pis adama oxşamır. Nə olub ki?

- Heç.

- Sən Allah, nə olub?

- Onun mənə gözü düşüb.

Nailə hiss etdi ki, Səidə forslanır. Ürəyində ona rişxənd elədi.

- Gözü düşüb? Ola bilməz.

- Niyə olmur? Zəng edib, mənə vurulduğunu bildirib. Bu gün də zorla düşmüşdü dalımca.

- Bəs bilmir ki, sən ailəlisən?

- Bilir. Deyir, qəbulumdur. Deyir, hər şeydən keçərəm, təki mənimlə dostluq elə.

Nailə, guya, əsəbiləşdi:

- Eybi yox. Mən onun valideyinləri ilə danışaram. Bunun qudurmuşluğuna bax. Özündən neçə yaş böyük, ərli qadına eşq elan eləyir.

Səidə Nailənin bu aqressivliyini bəyənmədi:

- Bacı, ürəyə zor etmək olur ki. Ürək sevəndə, bəyəm, yaşa baxır?

Bir az keçmiş Nailə Abbasgilin ailəsini o qədər tərifləmiş, onun özünün necə mərifətli, qanacaqlı, qız-gəlin kimi həyalı olduğunu elə bəzəkli-düzəkli cümlələrlə Səidəyə çatdırmışdı ki, Səidə özündə lap Abbasa simpatiya hiss eləməyə başlamışdı...

Nəhayət, Nailə qərar verdi:

- Nə bilim, bacı... Həddən artıq imkanlı oğlandır Abbas. Tərbiyəsinə də söz ola bilməz. Öz-özlüyümdə fikirləşirəm, bəlkə də, onun dostluq təklifini qəbul etmək olar...

- Dostluq təklifi o yana. Dərhal mənə hədiyyə də təklif edib...

- Nə hədiyyə?

- Fransız duxisi.

Nailə, guya, xeyli nəyisə götür-qoy etdi.

- Bacı, mən belə baxıram, təcrübəsiz mama uşağıdır Abbas. Gözü səni tutubsa, madam ki, sənə hədiyyə təklif edirsə, niyə də bunu qəbul etməyəsən? Niyə təcrübəsizliyindən istifadə etməyəsən?

... Səidə tərəddüd edirdi. Heç vaxt belə bir müşkül qarşısında qalacağını ağlına gətirməmişdi. Nə məktəbdə, nə institutda, nə həyətlərində, məhəllələrində heç bir oğlan buna eşq elan etməmişdi... İlqar qəfil bunu alanda, ağır da olsa, öz-özünə etiraf etmişdi ki, İlqar məni papanın puluna görə alır... İndi bir-dən-birə, özü də yaşlaşan vaxtı cavan, pullu bir oğlan peyda olmuşdu ki, səndən xoşum gəlir...

Nailədən soruşdu:

- Yəni deyirsən, onun hədiyyəsini qəbul edim?

Nailə başını tərpətdi:

- Əlbəttə. Məşqdə kosmetiçkana baxmışam. Hamısı Kitayın geydirməsidir. Özün də deyirsən, varlı ailədən çıxmısan. Sənə belə ehtiyac içində yaşamaq yaraşmaz. Qadam kişilərin ürəyinə. Abbasgil çim yağdırlar, bas ye də. Özü də burada ayıblı bir şey də yoxdur. Psixoloji testlərə görə qadınların 80 faizi kənar kişilərin hədiyyəsinə biganə qalmırlar...

Səidə yenə xeyli müddət susdu, hər şeyi götür-qoy etdi. Bu vaxt Nailə özünə çay süzdü.

- Yox, yox. Sən nə danışırsan? Mənim üç uşağım var, ərli qadınam. Durub təzədən... Yox. Bu mümkün deyil.

- Ay bacı, nə ər deyib durmusan? Özün o gün danışmırdın ki, bacı-qardaş kimi yaşayırsız? Sən axı qadınsan. Sən hələ cavansan. Sənin orqanizminin intimə ehtiyacı var. Qadın pişik kimi həmişə tumara meyilli olur.

Ərinlə yaşamamaq sənin psixikanı get-gedə pozur. Özün hiss etməsən də, bu belədir... Qaldı ki, sənin ərin... Gedir kefini çəkir, evə gələndə də sənə meyli qalmır.

- Yox, elə deyil. İlqar gəzmir.

- Yanındasan? Nə bilirsən ki, hardan gəlib hara gedir? Gəzməsə, sənə qarşı belə laqeyd olmaz.

Səidə ah çəkdi:

- O qəhbəyə görə, o gorbagora görə İlqar elə eləyir...

Nailə çayı iri qurtumla uddu, dodaqları yandı. Yenə də "qəhbə" sözü deyilmişdi...

Özünü toplayıb içindəki qəzəbi gizlətdi:

- Ağlıvı başıva yığ. Hədiyyəni götür. Gələcəkdə də Abbasdan istifadə elə. Sözün düzü, o cür oğlanı tora saldığın üçün sənə qibtə edirəm.

Telefon zəng çaldı. Səidə Nailənin ona qibtə etdiyindən məmnun qalaraq ədayla durub telefona yaxınlaşdı:

- Yəqin, odur.

Ancaq telefonu götürərkən zənnində yanıldığını gördü:

- Alo. Hə, İlqar, eşidirəm... Necə yəni, sən bilmirsən ki, uşağı həkimə aparmalıyıq?... Nə vacib iş? Sənin nə vacib işin ola bilər?... Niyə sualıma cavab vermirsən?... Mən heç nə bilmirəm, gəl evə, uşağı xəstəxanaya aparmaq lazımdır... Hara gedirsən axı?... Bura bax, məni cin atına mindirmə, de görüm, sənin vacib işin nədir?... Hara, hara? Həbsxanaya?... Niyə?... Ölüb də o qəhbən.

Sümükləri də çürüyüb. Gedirsən, meyitini gətirib balkonunda basdırasan?

Nailə bayaqdan ürkək-ürkək Səidəni süzürdü. Səidənin İlqarla telefon söhbəti nə isə xoşagəlməz mətləblərdən xəbər verirdi...

Səidə gəlib əyləşdi. Hönkürdü. Nailə durub onu sakitləşdirib nə baş verdiyini öyrənməyə çalışdı:

- Ay qız, toxta, başa sal, görək nə olub.

Səidə çətinliklə dedi:

- O qəhbə yatan həbsxanaya gedir...

Nailə gözləri dörd olmuş halda sual verdi:

- Niyə?! Axı ölüb Nailə.

- Nə olsun? Gedir də. Yəqin, meyitini tapıb altına yıxıcaq.

Nailə iynə üstə oturubmuş kimi qurcalandı, ora-bura boylandı, saata baxdı. Sonra xudahafizləşib az qala qaça-qaça Səi-dəgildən çıxdı, taksiyə mindi. Həbsxananın ünvanını sürücüyə söyləyib dedi:

- Var gücünüzlə sıxın. Onqat pulunuzu verəcəm. Təki ona çataq... Polis-zad da mənlikdi.

□□□

... Taksinin sürət göstəricisi 130-140 göstərirdi...

... Şıxov plyajının ərazisində irəlidə gedən zoğalı rəngli “09”-u gördülər. Nailə qışqırdı:

- Odur, odur.

Maşına lap yaxınlaşanda nömrəsi göründü və Nailə dərindən nəfəs aldı. 251 - heç bir əlamətlə yadda saxlamaq mümkün olmayan ən mənasız rəqəmlərdən ibarət bir nömrə idi bu. Nailə onu uzun axtarışdan sonra özlüyündə belə mənalandırmışdı: məktəbdə, gərək, “2” əvəzinə “5” alasan və “I”-ci olasan.

- İşarə verin, saxlasın!

Sürücü “09”-a dayanmaq işarəsi verdi. İlqar sürəti azaldıb çaş-baş halda maşınını yolun kənarına verərək saxladı. Nailə sürücüyə 50 dollar verib “çox sağ olun” dedi, üzündəki həyəcan ifadəsini yox edib gülümsəyə-gülümsəyə maşından düşdü və onu görərkən təəccüblənən İlqara yaxınlaşdı. Ürəyində öz-özünü bayaqdan necə danlayırdısa, indi də danlamaqda idi:

“Bircə bu dəfə də xətər ötüşsün, daha uzatmayacağam söhbəti. Uzağı iki günə həll edəcəyəm. Yoxsa bu cür davam eləmək olmaz. Üstü açılar hər şeyin... Onda qisasım da alınmaz... Bircə bu dəfə də xətər ötüşsün...”

İlqar maşından düşdü:

- Nuranə xanım? Nə məsələdir? Burada xeyir ola?

Nailə gülümsəməkdə davam etdi:

- Lökbatana tərəf gedirdim. Səni gördüm, bütün həvəsim öldü.

İlqar mat-mat ona baxırdı.

- Bəs sən hara gedirsən?

- Heç...

Nailə bu dəfə lap ürəkdən güldü.

- Necə yəni heç? Şəhərin içində olsaydın, deyərdim ki, gəzintiyə çıxmısan. Gör bir, buraya da elə-belə gəlmək olar?

İlqar xeyli tərəddüd etdikdən sonra dilləndi:

- Mənim vacib işim var. Sən də taksini buraxdın getdi.

Xeyli susub sonra sözünü davam etdi:

- Bəs nə edək? Bəlkə, taksi tutub səni yola salım?

Nailə dodaqlarını büzdü:

- Hara gedirsən e, belə? Yəni bu, məndən vacibdir?

Nəyin bahasına olursa-olsun, İlqarı bu yoldan qaytarmaq lazım idi. İlqarın ağlasığmayan bu hərəkəti Nailəni sanki ayıltmışdı. O uduza bilərdi. Bəlkə də, bundan sonra hələ neçə həftə, neçə ay uzanacaq işi indi bir-iki günə həll edib qurtarmalı idi. Nailənin ölüm xəbəri gələn həbsxanaya getmək fikri İlqarın ağlına düşmüşdüsə, o, bu gün də olmasa, sabah mütləq bunu reallaşdıracaqdı... Bəlkə onda Nailənin ölməsi xəbərinə şübhə yaranmışdı?

İndi Nailə seytnot vəziyyətinə düşmüş şahmatçı kimi vaxtın girovu idi...

- Taksi ilə gedərkən səni görəndə... Birdən bədənimdən bir gizilti keçdi... Sənin ehtiraslı ağuşun üçün... darıxdım...

İlqar bu sözlərdən lap məst oldu:

- Mən sənə vurğunam, Nuranə.

Nailənin əllərini tutub sığallamağa başladı...

- O görüşdən sonra daim səni düşünmüşəm... İstəyirəm ki, mənim olasan. Mənim olursan?

Nailə başı ilə razılıq işarəsi verdi.

... Maşın geriyə səmt götürdü, dəbdəbəli motelin həyətində dayandı. Onlar inzibatçıdan boş otaq götürüb yuxarı qalxdılar. Doyunca yeyib iki şüşə də şampan boşaltdılar.

Nailə bilirdi ki, içki içməməlidir, bir müddət nəfsinə müqavimət göstərdi. Ancaq sonra onu gördü ki, İlqarla badə-badəyə vurur... Qucaqlaşdılar, öpüşməyə başladılar. Bütün bunlar yatsa, yuxusuna da girməzdi Nailənin.

Təzədən İlqarla bu cür yaxınlaşmaqmı olardı?

O, öz-özünə təsəlli verirdi ki, bu, sadəcə, oyundur. Bir qədər sonra içdiyi içkinin təsiri, habelə İlqarın ehtiraslı öpüşləri, onun ağlını başından aldı...

- Sən hamıdan qəşəngsən...

- Səni istəyirəm...

- Sən mənim bir dənəmsən...

- Səninçün darıxmışam...

Nailə hər şeyi unutmuşdu. Sərxoş inadıyla söylədiyi sözlərin mahiyyətinə də varmırdı: “Səninçün darıxmışam”, “Zalım, əclaf, it...niyə məni atdın?” - deyirdi...

Bu yumşaq, tərtəmiz yataq onlara elə bir təkrarsızlıq bəxş etmişdi ki, hətta İlqar da büsbütün özünü unutmuşdu.

Yaxınlığın ən əsas anında o, “Nailə”, “Nailə” pıçıldayırdı...

Saatın əqrəbləri isə sürətlə qaçır, gecəni səhərə çevirməyə çalışırdı...

□□□

Buludlar sonuncu xəbərdir, dolub, Göydən ismarıcdı yağan yağışlar. Bu dolan buludla, yağan yağışla, Divanə könlümün payızı başlar.

R.Behrudi

# 22-ci HİSSƏ

# «Məni bağışlayın »

İmişli yolunu yarı etmişdik ki, Nailə sürücüdən maşını saxlamağı xahiş etdi:

- Nəsə ürəyim sıxılır. Saxla, havamızı dəyişək.

Sürücü bir qədər sürüb maşını ağac sıralarının altında saxladı.

Hər üçümüz maşından düşdük.

- Havaya bax e. Elə bil yaydır. Bircə sərinlər düşsəydi...

Sürücü havadan gileyləndi.

Əslində, o dediyi qədər isti yox idi. Günəşin şüalarında bir zəiflik, ötərilik var idi. İstəsən də, istəməsən də, payız gəlmişdi, öz hökmünü verməkdə idi və ən azı, artıq yarpaqlara sarı boya çəkməyə başlamışdı...

Yolboyu Nailə susmağa üstünlük vermişdi. Heç özündə deyildi. Zarafat deyil, 8 il idi ki, doğmalarını görmürdü. Və indi onları görməyə gedirdi. Ancaq bu görüş birtərəfli olacaqdı. Qəribə deyilmi, sən bu adamlarla - doğmalarınla söhbət eləyə-eləyə onların güzəranından, dolanışıqlarından, nə ilə nəfəs aldıqlarından xəbər tutacaqsan, onlara ürəyin istəyən maddi köməklik göstərəcəksən... Ancaq onlar səninlə söhbət eləyə-eləyə nə sənin həyatından xəbər tutacaqlar, nə də sənə mənən yardımçı ola biləcəklər. Onlar bilməyəcəklər ki, sən sənsən...

Nailəni az qala zorla bu görüşə aparmaqda özümü daha çox düşünürdüm. Əgər Nailə imkan versə, həyatımda heç vaxt rastlaşmadığım bir səhnənin şahidi olacam. Ana, bacı və

qardaş 8 ildir ki, ölmüş bildikləri, hər il yasin oxutdurduqları doğmalarını diri görürlər... Nələr baş verir, təsəvvür etmək çətindir... Ana “qızım” deyib bayılır. Qardaş, bacı ona sarmaşıb az qala duz kimi yalayırlar... Bütün kənd də tamaşaya gəlir...

Sürücü maşının mühərrik yerində qurdalanmağa başladı. Nailə ikilikdə qalmağımızdan istifadə edib astaca söylədi:

- Başa düşürəm, məni qınayırsız... İlqarla yenidən görüşdüyümçün, bəlkə də, mənə həqarətlə baxırsız. Ancaq həmin an mən yalnız bir şey barədə düşünürdüm: İlqar həbsxanaya gedə bilməsin. Getsəydi, sirrimin üstü açılardı. Bu, mənim məhvim demək idi.

- Axı siz nəyə nail olurdunuz bu qisas planı ilə? Məntiqlə, sizin qisasınızı Allah onlardan almışdı. Yəni gəlib gözünüzlə görmüşdünüz ki, İlqarla Səidə xoşbəxt deyillər. İlqarın sizin xəyalınızla yaşaması, ailəsinə soyuq münasibəti məgər azmı idi? Mənəvi qisas baş tutmuşdusa, cismani qisasa nə ehtiyac var idi?

- Görürsünüz, siz hələ də məni başa düşmürsünüz. Mən bəyəm onlardan cismani qisas alırdım ki? Doğrusu, elə anlar olurdu, heç özüm də bilmirdim, nə istəyirəm. Xüsusən, İlqarla yaxın olduğumuz o gündə, eləcə də ondan sonrakı gündə, bu barədə hələ sizə danışmamışam, elə anlar olurdu, müticəsinə hisslərin, ehtirasların quluna çevrilirdim. Yalnız onu, onu istəyirdim. Yenidən ona qovuşduğumçün özümü xoşbəxtlərin xoşbəxti sayırdım.

- İndi necə xoşbəxtsinizmi?

Nəsə demək istədi, ancaq demədi.

- Bəs niyə İlqar artıq bütün vücudu ilə sizinki olanda onu ələ keçirib onunla xoşbəxt olmaq istəmədiniz? Mən axı bili-

rəm, özünüz də dəfələrlə dəmisiniz, onların hər ikisindən qisas almısınız. Necə, bunu mənə hələ danışacaqsınız. Bəs həmin anda bu lənətə gəlmiş qisası unudub sevdiyiniz bir şəxslə niyə xoşbəxt olmaq istəmədiniz?

- Axı onu özünə bağlayan, onu öz quluna çevirən mən deyildim, başqa qadın idi, Nuranə idi.

- Yəni bu illərdə onun başına qız-qadın qəhət olub? Yox. O, dərviş kimi dünyanın naz-nemətlərindən imtina etmişdi. Faktiki olaraq, qarşısında diz çökdüyü növbəti qadın elə yenə də siz idiniz. Qiyafəniz dəyişsə də, axı Nuranə siz idiniz, Nailə idi. İlqarın qəlbi, iç dünyası heç vaxt yad qadını qəbul edə bilməzdi.

- Mən razılaşmıram. O, bütün bu illərdə mənə “qəhbə” damğası vurub. O da, arvadı da. Nailə sağ qalsaydı, bəlkə də, İlqar onu qəbul eləməzdi. Bilirsinizmi, bu adam xəstə idi. Qısqanclıq onun içinin xərçəngiydi. Mən ləkələnmişdim, “qəhbə” idim, vəssalam. Onunçün ən əsas aksiom bu idi. Digər aksiom da bu idi ki, arvadını sevməsə də, ondan lap, yeri gəlsə, iyrənsə də, arvadına başqa kişi əli dəyməmişdi. Başa düşürsünüz, onlar namus dağarcığı idilər, mənsə namussuzluq simvolu... Məni ən çox yandıran bu idi. Halbuki, mənim həyatımın puç olmasında onlar həlledici rol oynamışdılar...

Sürücü maşında əyləşib yuxulayırdı. Görünür, söhbətimiz çox uzun çəkmişdi...

Nailə siqaret yandırdı, adəti üzrə siqaret çəkə-çəkə gözünü siqaretə dirədi. Müşahidə etmişdim, siqaret qurtarıncaya qədər o, baxışlarını siqaretdən yayındırmazdı.

- Başa düşürəm, bəlkə də, məni xırda hisslərlə yaşayan cılız adam adlandırırsınız. Qisas axı şəxsi motivlidir. Şəxsi motiv isə ümumbəşəri motivin həmişə kölgəsində qalır. Ancaq neynəyim, mən buyam. İlqarla 8 ildən sonra yaşadığım o xoşbəxt iki gün, belə deyək də, o iki günün ehtiras yaşantıları mənə bundan sonra ta ki qocalıb ölənədək bəs edəcək... Bəlkə də, həmin iki gün olmasaydı, onunla yenidən qovuşmasaydım, onsuz da yetim olan həyatım lap yetimləşərdi... Bu öz yerində. Ancaq inanın ki, mən İlqarla yenidən görüşməyi qabaqcadan planlaşdırmamışdım. Bu, mənə həm İlqarı həbsxanaya getməkdən çəkindirməkçün lazım idi, həm də gecələr ərinin evə gəlməməsi Səidəni xəyanətə kökləməli idi. Həbsxana həyatımda əxz elədiyim ən əsas qanuna görə, intiqam mənim məqsədim idi, o görüşlər vasitə. Məqsədsə vasitələri doğruldur.

□□□

Pambıq rəsmləri ilə bəzənmiş “İmişliyə xoş gəlmisiniz” şüarının yanından keçdik, bir qədər irəliləyib rayon mərkəzinə gedən yoldan aralandıq, Nailəgilin kəndinə gedən torpaq yola düşdük. Get-gedə həyəcanım artırdı. Qarşıda bizi inanılmaz macəralar gözləyirdi...

Qəfildən ağlıma belə sığışdıra bilmədiyim bir iş baş verdi. Nailə sürücüyə maşını saxlayıb geri qayıtmaq tapşırığını verdi. Qərarını iki kəlmə sözlə əsaslandırdı:

- Belə lazımdır.

Bakıdan bura bu uzunluqda yol qət elə, işini-gücünü at, həvəslə gəl, xəyalında marağında olduğun bir hadisənin mümkün variantlarını canlandır, ancaq suyu süzülə-süzülə də geri qayıt. Hər şeyi qadın kaprizinin ayağına yazdım.

Yolboyu Nailəni ürəyimdə yamanladım. Qanım lap qaralmışdı. Bıçaq vursaydılar, qan çıxmazdı...

Yalnız Bakıya çatanda və sürücü öncə məni düşürdəndə Nailə də düşdü, qəmli-qəmli verdiyi qərarın səbəbini açıqladı:

> - Bəlkə də, dediklərim sizə qəribə görünəcək, bəlkə də, lap məni qəddar hesab edəcəksiniz... Məni o yola sürükləyənlər arasında doğmalarım da dolayı rol oynayıblar. Onların yemək, içmək, yaşamaq qayğıları olmasaydı, bəlkə də, məni başqa tale gözləyərdi. Evə gəlirdim, anam mənə problemləri sadalayırdı: ev kirayəsi belə getdi, işıq pulu belə gəldi... Ay nə bilim, qardaşın sup yemir, ət istəyir, bacın köhnələrini geyinmir, təzə paltar tələb edir... Sanki mən anamçün ər idim, bacı-qardaşçün ata.

... Hıçqırdı. Hıçqırtıdan boğula-boğula davam etdi:

> - Hər halda, mən qadınam. Qadınlıq instinktim güc gələndə İlqarı, doğmalarımı sevirəm, ürəyim kövrəlir, ağlayıram, hər şeyi unuduram... Başqa vaxtlarda isə ürəyim daşlaşır. Tamam özgə bir adam oluram...

Və nəhayət, maşına əyləşmək istəyərkən ani olaraq dayandı, hələ də yerimdən tərpənmədiyimi görüb köks ötürdü:

> - Məni bağışlayın. Sizi incitdim...

Deyəsən, ürəyinin kövrək yerinə düşmüşdü.

... Ertəsi gün də əhvalatın davamını danışmağa başlayanda xeyli üzrxahlıq eləyəcəkdi... Mənsə artıq onu başa düşməyə başladığımı etiraf edəcəkdim...

# 23-cü HİSSƏ

# Pəncərələrin müxtəlifliyi

Bəxtəvər deyilik ağaclar qədər, Ömür gül açmayır gələndə hər yaz. Sevmək istəyirəm mənsə təzədən, Ağlar məhəbbətim ovunsun bir az.

Xaliq

- Alo, İlqar, sənsən?

- Hə, canım, mənəm.

- Gecəmizi xatırlayırsan?

- Dəlisən? Necə yəni xatırlayırsan? Ömrümdə heç bugecəki kimi xoşbəxt olmamışam...

- Bu gün nə planın var?

- Bilirsən, Nuranə, mən bir yerə getməliyəm.

- Axı hara getməlisən? Dünən Şıxovda nə gəzirdin? Sənə nə olub?

- Nuranə, bağışla, sənə deyə bilmirəm. Ancaq çox vacib bir işim var. Dünən sənə görə gedə bilmədim. Bu gün mütləq getməliyəm.

- Getmə, nə olar.

- Yox, bu, mümkün deyil.

- Mənim xətrimə getmə.

- Axı niyə?

Nailə məcbur qalıb söylədi:

- İstəyirəm, yenə görüşək.

- Gedim gəlim, görüşərik də.

- Yox. Nəsə ürəyim narahatdır. Hiss edirəm ki, gedəcəyin yerdə səni yaxşı heç nə gözləmir. Getmə.

İlqar duruxdu.

- Sən necə də adamı məcbur edirsən. Vallah, heç nə olan deyil. Gedim, tez qayıdacam. Dərhal zəng vuraram, görüşərik...

- Yox, İlqar. Getsən, bir də mənim üzümü görməyəcəksən...

... Haçandan-haçana İlqar razılıq verəsi oldu:

- Yaxşı, getmirəm. Saat neçədə görüşürük?

- Saatını zəng vurub deyəcəm. Heç yerə çıxma, otur, mənim zəngimi gözlə. Oldu?

- Oldu.

- Öpürəm səni.

- Mən də.

Nailə dəhlizə keçəndə Bəsti xala ilə rastlaşdı.

- Qızım, axı biz belə danışmamışdıq. Gecə evə gəlməmisən. İndi də bu telefon danışığın... Axı o gün sənə dedim ki, başqasının ailəsini dağıtmaq olmaz. Bu, Allaha ağır gedər. Sənin, şükür Allaha, hər şeyin var: gözəlliyin, ağıl-kamalın, var-dövlətin... Bir halal adam

> çıxar, ailə qurarsan... İnan mənə, qızım. Dünyagörmüş adamam. Mən sənə öyüd-nəsihət verəndə dağallıq edirsən, nə bilim daha gecdir, nə bilim, uşağım olmayacaq... İnam hər şeydən güclüdür. İnan, ümidli ol! Qaraqəlblilik, xəbislik sənə yaraşmaz.

Nailə başını yerə dikib ev sahibəsini dinlədi, heç nə demədi. Ürəyində İlqarla dünənki yaxınlığa, həm də içki içdiyinə görə özünü danladı, Allaha yalvardı ki, günahlarından keçsin...

Mətbəxə adlayıb özünə çay süzdü. Pəncərədən küçəyə boylana-boylana Abbası gözlədi. Abbas ondan növbəti təlimatı almağa gəlməli idi...

Pəncərədən boylandıqca düşünürdü ki, pəncərələrin ölçüləri, rəngləri müxtəlif olduğu kimi göstərdikləri mənzərələr də müxtəlif olur. Əhmədlidəki pəncərələrindən gözəl dəniz mənzərəsi açılırdı. Orada hərdən yelkənli qayıqlar da üzür, mavilikdə ağ naxışlar adamın içində xoş duyğular oyadırdı. Hər şeyin gec-tez yaxşı olacağına, həyatın, yaşamağın şirinliyinə inanardın. Ailəlilər yataqxanasındakı pəncərələrindən beşmərtəbəli yaşayış binası, eyvanlardan asılan rəngi rənginə qarışmış yuyulmuş paltarlar girirdi gözünə. Bu mənzərə adamın gözünü yorurdu. Çirkləndikdən sonra yuyulan paltarların öz əvvəlki gözəlliyini itirməsi Nailəni qayğılandırardı həmişə. İç dünyasına sonsuz bir kədər dolardı. Həmişə ümidlə növbəti səhərdə qarşı binanın iplərindən ağappaq-lığından parıldayan tərtəmiz mələfələrin, döşəkağıların, dəsmalların asılıcağına özünü inandırardı... Beləcə də özü özünü aldadardı... “Az LTD”-nin ofisindəki pəncərədən izdihamlı küçə, şütüyən maşınlar, keçib gedən insanlar görünərdi... Heç nə və heç kəs dayanmırdı. Hər şey və hər kəs tələsirdi. Elə bil arxalarınca düşüb qovan var idi onları. Yəni ki, həyat müvəqqətidir, bir göz qırpımında ötüb keçir. Bacar, ürəyin istəyən kimi yaşa. Sonra itib getmiş günlərinçün acı göz yaşı axıda bilərsən... Həbsxanadakı

barmaqlıqdan bir parça səma görünərdi. O səma mavi, günəşli olanda azadlığa qovuşmaq hissləri nə qədər güclü olurdusa, buludlu, qapqara olanda büsbütün bu hisslər ölürdü, beton qəfəsdə yaşamağa məhkum olmağının bütün dəhşətini hiss edirdin...

İndisə Bəsti xalanın pəncərəsi... Həyətdə sıralanmış yastı-yapalaq maşın qarajları. Bu bir neçə gündə Nailə az qala əzbər bilirdi, hansı qarajdan hansı maşın çıxacaq... Tünd rəngli maşın çıxanda qanı qaralırdı, işlərinin yaxşı getməyəcəyini qərarlaşdırırdı. Tünd-yaşılla qaranın da fərqi vardı. Biri var, iş nisbətən pis getsin, biri də var, lap pis getsin. Əksinə, açıq rəngli maşınlar ona ümid bəxş edirdi. Xüsusən də ağ rəngli maşınlar...

- Gecə harada idin?

Hə, bu da Abbas.

- Anket doldurursan?

Abbas onu özünə tərəf çəkdi:

- Hə, doldururam.

Nailə: - Gözlə, - deyib otağına keçdi, dərhal da qayıdıb ovcunda saxladığı yüzlük dollarları Abbasa uzatdı:

- Al, burda min dollar pul var. Çox ləng işləyirsən. Sabah hər şeyi həll etməliyik. “Amay”da 850 dollara əla dublyon-ka var. Al bu kartı...

Abbasa vizit kartı uzatdı.

-... Bu mağazadadır. Səidə ölür o dublyonka üçün. Gedib bu gün onu alarsan. Məşqə gəlib Səidəyə aldığın hədiyyə barədə məlumat verərsən və onu o gün sənə haqqında

danışdığım yerə aparasarsan. 150 dolları həm yeyib-içməyə, həm də taksilərə xərcləyərsən... Sən onu içirt, ora-burasına əl at. Alınar-alınar. Alınmaz da ki, heç. Ancaq çalış, onunla olasan.

- Sən mənə söz vermisən. Yadından çıxmayıb ki?

- Yox. Sən tapşırığı yerinə yetir, borclu qalmayacam.

- Onu demirəm. O birini...

- Get işini gör. Sənə pul verəcəm, ürəyin istəyən qız sənin olacaq. Mən sənin nəyinə lazımam.

- Onda ala bu pulu. Get başqa adam tap.

- Yaxşı, yaxşı. Özündən çıxma. Tərpən. Bir azdan nahara düşəcəksən. Ya da o qədər nazlanacaqsan, gedib görəcəksən ki, dublyonkanı satıblar...

... Abbası yola saldı. Dərindən nəfəs aldı. Axır ki, bu qır-saqqız oğlandan canını qurtarmışdı.

Bir stəkan tünd şirin çay içdi. Daha "qatar tərpənmişdi". İndi hadisələrin sonluğunu gözləməkdən savayı əlacı yox idi...

# 24-cü HİSSƏ

# Qisas

Ayrılıq yelləri döyür daha işıqlı, çiçəkli, nəğməli sahillərimi. Mən sənin ola bilmərəm, Unut məni! Unut məni!

İjlkin

Ən böyük yalan həyatdır. Yaşayırsansa, demək, bu yalana aldanmısan...

Səidə çox kədərli idi. Gözləri də qıpqırmızı. Trenajor zalında Nailə ilə yanaşı oturub dərdləşirdilər.

Nailə bilərəkdən bu sualı xeyli gecikdirdi:

- Səidə, gözümə birtəhər dəyirsən. Ağlamısan, deyəsən.

- Hə, oğraş iki gecədir, evə gəlmir.

- Gördün? Mən deyirəm, o gəzir, inanmırsan... Nə olub sənə? Gözəl-göyçək gəlinsən. Abbas kimi oğlan başıva pərvanə kimi fırlanır...

- O qədər ağlamışam... Bütün gecəni yatmamışam...

- Qadam onun ürəyinə. Özün-özünə qiymət vermirsənsə, o niyə qiymət verməlidir ki?

Nailənin bir gözü zalın divarındakı iri saatda idi. Bu dəqiqələrdə Abbas bura gəlməli idi.

- Axı əvvəllər belə şey olmurdu. Mən yüz faiz əminəm ki, o gəzmirdi. İndi birdən-birə... Of, bircə bilsəydim, o, məni kimə dəyişir...

- Mən psixoloqam. Psixoloji testlərə görə qadınlar, adətən, ərlərinə xəyanət edərkən bunu qisas almaqçün edirlər. Heç bilirsən, bütün xəyanətlərin neçə faizi bu səbəbdəndir?

- Neçə?

- Doxsan beş.

Nailə bu uydurmasından özü də məmnun qaldı.

Bu vaxt məşqçilərdən biri onlara yaxınlaşdı:

- Səidə xanım, sizi gözləyən var.

Səidə təəccübləndi:

- Kimi, məni?

- Hə, sizi.

- Kim olar, görən?

Nailə az qala onu qapıya doğru itələdi:

- Yəqin, odur, Abbasdır. Get.

... Təqribən yarım saatdan sonra Səidə tərəddüd edə-edə içəri keçib Nailəyə yaxınlaşdı:

- Məni kafeyə dəvət edir. Bilmirəm, nə cavab verim.

- Get də.

- Nə danışırsan? Mən ailəli qadınam.

- Əvəzinə olsam, ən azı İlqarın acığına gedərdim.

Səidənin gözləri yol çəkirdi:

- Ağlı yoxdur bu oğlanın. Mənə bilirsən, nə alıb?

- Nə?

- Keçən dəfə sənə “Amay”da balotnıy rəngdə dublyonka görəndə ağzımın sulandığını danışmamışdım? Həmin dub-lyonkadan alıb. Elə bil telepatdır. Görən, hardan bilib mənim o dublyonkadan ötrü sino getməyimi...

- Ay, qız, başına at təpib? Götürmək istəmirsən dublyon-kanı?

- Necə götürüm? Evdə nə deyim bəs?

- De ki, Nuranə bağışlayıb...

- Bəs deməz ki, adam adama belə bahalı şey bağışlamaz? Beş manat deyil, on manat deyil... Səkkiz yüz əlli dolları axı kim kimə bağışlayar?

- Nuranə bağışlayar... De ki, imkanlı qadındır, rəfiqəyik, bacıyıq. Ya da lap inandırıcı görünmək üçün de ki, Nuranə alıb verib. Qırıq-qırıq qaytararıq. Nə biləcək neçəyədir? Maymağın biridir. Qiymətini ucuz deyərsən. Tutalım, iki yüz dollara.

Araya sükut çökdü. Nailə qəfil ayağa durub Səidəni də qaldırdı və əlindən tutub zaldan çıxarmağa başladı:

- Ağlın olsun, dublyonkanı da götür, kafeyə də get. Şəhərli qızsan. Burda nə var ki? Oğlanla dostluq etmək bəyəm qəbahətdir? Heç kim namusunu çölə atmayıb.

□□□

... Nailə “Portofino”da əyləşmişdi. Kofe içir, siqaret çəkir və vaxt öldürürdü...

Sağ tərəfində sevən cütlər əyləşmişdilər. Gözlərini bir-birinə zilləyib kofe içirdilər... “Ay balam, belə matah düşmü-sünüz? Əlinizdəkini için, sonra səhərəcən baxışın da”. Nailəyə çox gülünc görünürdü bu sevişən cütlük.

Qız əlindəki fincanı nəlbəkiyə qoyarkən yenə də gözünü oğlandan çəkmədi və fincan nəlbəkinin qırağına düşdü, çevrildi. Kofenin qalığı süfrəyə dağıldı.

“Əcəb oldu. Sizə bu da azdır. Leyli və Məcnuna bir bax”.

Nailə ürəyində güldü onlara.

- Xanım qız, alışqanınızı olar?

Bayaqdan arxasında oturan bu uzuncaydaq oğlan ona söz atırdı. Nailə çevrilib, nəhayət ki, ona cavab qaytardı:

- Deyəsən, sənin ölümün çatıb?

- Hə, çatıb. Sizin yolunuzda ölməyə hazıram.

- Get anqır, tayını tap.

- Necə də qaba. Heç sizə yaraşmır.

- Ey, bura bax. Get bacına, anana sataş. Ağzını bir də açsan, məndən incimə.

Nailə elə bir aqressiv görkəm aldı ki, oğlan heç nə deməyib, sakitcə yerini dəyişdi.

...Həyəcanlı idi. Ürəyi Səidəgilin yanında qalmışdı. İndi Abbasla o, yəqin, şam yeməyi yeyirlər. Məhz həmin motel-də... Orada ki, dəhşətli bir gündə İlqar Nailəni dostu Fuadın

yatağında tutmuşdu və vəhşi kimi döymüşdü... Və məhz o hadisə də Nailəni sonda qatil olmağa, ömrünün ən yaşanmalı illərini həbsxanada çürütməyə sürükləmişdi...

İndi onlar yeyib-içirdilər... Bir azdan Abbas Səidəyə dürlü-dürlü sözlər deyəcək, içkidən beyni dumanlanan Səidəni yatağa yıxacaqdı... Onu “qəhbə” adlandıran Səidə indi özü bu adı doğruldacaqdı... Halbuki, o vaxt Nailə subay qız idi. Bu isə ailəli qadındır. Deməli, Nailə bir günah işlətmişdisə, bu, iki günah işlədir...

Məhəbbət və nifrət... Dünyada onlar qədər bir-birini tamamlayacaq ikinci cütlük yoxmuş, sən demə. Və yalnız ən böyük məhəbbət nifrət doğura bilərmiş... Qarşısına çıxan hər şeyi silib-süpürən, sovuran, dağıdıb məhv edən bir nifrət... Vaxt isə keçməkdə idi. İndi, yəqin, onlar əməli işə başlamağa hazırlaşırdılar... Bu işin axırının necə olacağı Nailəni maraqlandırmırdı. Onu bircə şey maraqlandırırdı: qisas almaq. Bu istək onun bütün varlığına hakim kəsilmişdi...

Telefonu çıxarıb əzbər bildiyi nömrələri yığdı. Xəttin o biri üzündən İlqarın səsi gəldi:

- Alo.

İkigünlük xoşbəxtlikdən sonra İlqar ümidli idi ki, “Nuranə” ilə bu gün də görüşəcək. Ona görə də telefonun yanından çəkilmirdi.

Dəsmalı ağzına tutub dedi:

- İlqardır danışan?

- Mənəm. Kimdir ki?

- İlqar, mən sənin xətrini istəyən adamam. Sən bilirsən, sənin arvadın qəhbəlik edir? (Bu sözü xüsusi vurğu ilə dedi) Sən bilirsən indi o hardadır?

İlqarın əsəbdən səsi titrədi:

- Dediyin yalan çıxsa, sənin nəslini kəsəcəm. Hardadır?

Nailə birnəfəsə Səidəylə Abbasın yerini söyləyib telefonu söndürdü. Elə bildi, çiynindən ağır bir yük götürdülər...

... İlqarın indi hansı addımı atacağını Nailə qabaqcadan müəyyənləşdirə bilmirdi. Çox güman ki, o, Səidəni vəhşicəsinə döyəcək, sonra da ayrılacaqdılar. O vaxt Nailəni döydüyü kimi...

Bəs birdən öldürdü Səidəni? Axı Nailə İlqarın adicə məşuqəsi idi. Səidə isə onun halalca arvadıdır... Doğrudan da, birdən öldürdü Səidəni. Bəs, onda nə olsun? Yəni Səidənin elədikləri onun ölümünə haqq qazandırırdımı? Bəs onun körpələri? Necə olacaqdı o üç uşağın axırı?

Nailə siqaret çəkir, kofe qurtumlayır və fikirləşirdi. Ölüm variantı heç istisna olunmurdu. Lap elə İlqar beyni qızmış halda, içəri girib Abbası da öldürə bilərdi. Heç nədən yazıq Abbas da güdaza gedərdi... Bəsti xalanın, o qızıl kimi bir insanın ailəsinə bədbəxtlik gələrdi... Burasını niyə düşünməmişdi?

Dərindən ah çəkdi. İndi hadisələrin axarını dayandırmaqda o, aciz idi. İndi ona yalnız seyrçi olmaq qalırdı...

Gərək belə etməyəydi. Gərək Bəsti xalanın məsləhətlərinə qulaq asaydı. Axı həbsxanadan çıxandan sonra tale onun üzünə gülmüşdü. Miskin dilənçi, yaxud bədən alverçisi olmaq əvəzinə imkanlı bir xanıma çevrilmişdi. İlqarı da sındırmışdı. İstəsəydi, günü sabah İlqarı Səidədən boşadıb,

onun qadını olardı... Gərək etməyəydi bunu. Oyunu sona çatdırmışdı, bircə onu bitirmək qalırdı... İstənilən variant bu variantdan yaxşı idi. İndi hər şey tamam namüəyyəndi, hər şey bir-birinə qarışıb...

... Kaş bircə ölüm-itim olmayaydı...

Nailə dalbadal siqaret çəkir, ürəyinin döyüntüsünü açıq-aşkar eşidir, nigarançılığından və həyəcanından tir-tir əsirdi...

Ömründə az-çox nə qədər xoşbəxt günü var idisə, hamısı İlqarla bağlı olmuşdu... O günləri dadlı, ləzzətli bir içki kimi başına çəkmiş, sərməst olmuşdu... Ancaq o badəni qoruyub saxlaya bilmədi, onu sonadək qurtumlamadı o vaxt... İtirdi o gözəl, o ilahi günləri...

Axı elə dünən uzun fasilədən sonra yenidən İlqarın ağuşuna girmişdi... Niyə dünən düşünməmişdi ki, İlqar onun xoşbəxtliyidir... İntim yaxınlığın ən son həddində, gərək hər şeyi açıb danışaydı İlqara. Gərək əl çəkəydi inadından... Gərək qovuşaydı İlqara. Axı İlqarsız nə həyat... Kimə lazım idi bu intiqam...

İlahi, bircə ölüm-itim olmayaydı. Bir insan qatili idi, indi ikincinin qatilinə çevrilə bilərdi...

Yumruğunu düyünləyib qəzəblə masaya çırpdı. Gözlərindən yaş axırdı. Tutduğu işin mahiyyətini sanki indi başa düşürdü... Bəlkə, özünü ora yetirsin, İlqarın qarşısını kəssin? Ancaq gec deyildimi? Heç bilmirdi, nə etsin. Getsinmi, getməsinmi?

İndi o hönkürürdü. Ətrafdakı təkəm-seyrək adamlar, gözlərini bir-birinə dikən sevişənlər, bayaq buna söz atan oğlan - hamı təəccüblü baxışlarla onu süzürdü...

# 25-ci HİSSƏ

# Sonun sonu

Məni qınayacaq çoxları, Keçdiyim küçələr də səsli, Yatmadığım gecələr də səsli. Bir insan itirmişəm, Sevdasına dözmədim, Sevdasından bezmədim.

Heç kəs eşitməyəcək, Bu sevda harayını.

TAbdin

...Abbas divara söykənib ürkək baxışlarla ağzı köpüklənə-köpüklənə söyüş söyən İlqarı seyr edirdi. Arabir də biləyi ilə burnundan axan qanı silirdi. İnanmırdı ki, bir-iki yumruqla İlqar ondan əl çəkər...

İlqar yerə yıxılmış Səidəni təpikləyir, onu ən pis söyüşlərlə söyürdü...

Abbas məqam gözləyirdi qaçıb canını qurtarmağa. Kaş İlqar bir qədər qapıdan aralanaydı... Ürəyində onu bura yollayan Nailəni lənətləyirdi. Bircə burdan canını qurtarsaydı, Nailə ilə başqa cür danışacaqdı... Axı hardan bildi bunun əri hər şeyi? Elə bil əli ilə qoymuşdu onları bura... Necə də asanca gəlib tapdı.

Heç nə hadisələrin bu cür dönüş alacağından xəbər vermirdi. Bir taksi tutub gəlmişdilər bura. Əvvəlcə şam yeməyi yemişdilər. Səidə içki içməyəcəyini bildirmişdi. Ancaq haçandan-haçana onu yoldan çıxarmağa müvəffəq olmuşdu. İçmişdilər, ofisiantdan maqnitofon və rəqs etmək üçün həzin melodiyalar tələb etmişdilər... Qucaqlaşıb xeyli rəqs etdikdən sonra Səidə-nin sərxoşluğunu hiss etmiş və onu özünə daha bərk sıxmağa başlamışdı... Sonra isə onun dodaqlarından öpdükcə öpmüşdü... Elə beləcə də onu çarpayıya yıxıb öpüşlərə qərq etmişdi...

Yaxşı ki, çox dərinə getməyə Səidə ona imkan verməmişdi. O, elə hey müqavimət göstərmiş, bunu özündən kənara itələmişdi... Səidə də intim yaxınlığı istəsəydi, soyunub yatağa girsəydilər, lap biabırçılıq olardı...

... İlqar Səidəni amansızlıqla təpikləyir, onun yalvarışlarına məhəl qoymurdu. Arabir də ona suallar yağdırırdı:

- Neçənci dəfədir, bunun altına yıxılırsan?!

- İlqar, qurban olum, İlqar...

- Qızmışdın, mənə deyəydin, özüm səni təmin edəydim. Bu küçük məndən yaxşıdır, hə?!

- Qurban olum, İlqar...

- Deməli, sən qəhbə imişsən...

- Yox, İlqar, elə demə...

Haçandan-haçana İlqar yorulub əldən düşdü. Səidə də, Abbas da titrəyə-titrəyə onun atacağı növbəti addımı gözləyirdilər...

İlqar stula çökdü, yarımçıq mineral su şüşəsini başına çəkdi. Fürsətdən istifadə edən Abbas bir göz qırpımında otaqdan bayıra atıldı. İlqar onu saxlaya bilmədi və dalınca söyüşlər yağdırdı.

Gəlib düz Səidənin qarşısında dayandı. Onun göz yaşları axıda-axıda titrəməsinə baxdı.

- Axı niyə belə etdin?! Nəyin çatmırdı?

Səidə dili topuq vura-vura: - Yazıq Nuranəm, yazıq Turalım, yazıq Nərminəm, - dedi.

İlqar var gücü ilə Səidənin sifətinə təpik vurdu. Səidə ağrıdan bağırdı, ağzına dolan qanı silmək üçün qolunu qaldırmağa heyi qalmadı, zarıdı:

- Yazıq balalarım, yetim qaldılar...

İlqarın gözləri hədəqəsindən çıxırdı, ağzı köpüklənirdi. Qəzəbi get-gedə artırdı. Artıq beyin işləmirdi. Onu instinktlər idarə eləyirdi...

Qəfil küncdəki dəmir güldanı götürüb var qüvvəsi ilə Səidənin başına çırpdı. Qan fəvvarə vurdu. Səidənin paralanmış başı arxaya sallandı...

□□□

Nailə taksi ilə motelə çatanda gözünə ilk öncə üzərinə ağ parça sərilmiş bir cəsəd sataşdı. Bütün bədənini titrətmə bürüdüyündən nə illah elədisə də, maşının qapısını açıb çölə çıxa bilmədi. Bircə şeyə şükür elədi ki, heç olmasa, cəsədlərin sayı iki deyil... Görəsən, Səidəmi idi, Abbasmı idi İlqarın öldürdüyü?

Sonra gözünə ora toplaşmış adamların arasındakı polis UAZ-ı sataşdı. UAZ-ın arxa pəncərəsindən alnını şüşəyə söykəyib donuq baxışlarla baxan İlqar görünürdü...

□□□

...Bu da son. Əvvəlin sonunda onu UAZ-la bax beləcə aparıb İlqardan ayırmışdılar. Sonun əvvəlində o qayıtmışdı. Busa sonun sonu idi. Sonun sonu.

Dünyanın yollarına, daha göz qoymuram mən, Dünyada hər bir yolun, öz həsrətli gözü var, Hər açıq pəncərənin Bir ümidli səhəri. Gəlsən, qapımı döymə, Dəli edərsən məni.

# 26-cı HİSSƏ

# Universal və statik qanunlar

Üzün-gözün öyrəşən bir adamla ayrılmaq necə ağırdısa, bu yazıya son nöqtəni qoymaq da mənimçün eləcə ağırdır. Nə olsun ki, onu üzə çıxarmağıma qadağa qoyulub? Hər halda, axı mən onu yazıb hazırlamışam, yuxusuz gecələrin hesabına ərsəyə gətirmişəm...

Üç gün öncə Nailə hər şeyə son nöqtəni qoymuşdu, vidalaşmışdıq. Xahiş eləmişdi ki, daha bir-birimizi itirib-axtarmayaq. Elə bil heç tanış deyilmişik...

> - Mən sizə hər şeyi danışdım. Əvvəllər yalnız özümdən, öz vicdanımdan çəkinirdim. İndisə sizdən də çəkinirəm. Hər halda, başıma gələnləri sizə danışdığımçün peşman deyiləm. İnsanlar özləri ilə sirlərini qəbirə aparanda daim narahat olurlar. Sizsə məni bu narahatçılıqdan sığortaladınız. Haçansa öldüyümü eşitsəniz, onda yazını çap edərsiniz...

Ondan sonra qəfildən üstümə acıqlanmışdı:

> - Niyə mənim bədbəxt olduğumu zənn edirsiniz? "Albat-ros"la dünyanın moda biznesinə adımı yazdırmaqla məşğulam. Eyni zamanda, ictimai işlərə vaxt ayırıram. Deputatlığa namizədlərdən birinin, adını çəkməyəcəyəm, vəkiliyəm. İlqarla Səi-dənin hər üç övladını böyüdürəm. Validənin qızıyla oğluna himayədarlıq edirəm. Alya üçün də gün ağlamışam. Hələ 12 il həbsdə yatacaq İlqara məktublar yazır, onun həyat eşqinin ölməsinə imkan vermirəm... İmişliyə gedib doğmalarımla da qo-vuşacam... Hər şey əladır. Məni bədbəxt zənn etməyin!

Sonra əsərimin adına keçmişdi:

> - Hərdən olur, böyük dünyadan təcrid olub öz kiçik dünyama tapınıram. Ancaq ümidlənirəm ki, tale gec-tez mənim də üzümə güləcək. Doğrudan da, məni yaşadan ümidlərdir. Qəribədir, ümidlər də məni pis vəziyyətdə qoymurlar. Ümidimin biri puç olduqca tez başqa biri onun yerində peyda olur. Və mənim həyatım büsbütün ümidlərlə qaçdı-tutdu oynamaqdan ibarətdir. Bəlkə, "Sonuncu ölən ümidlərdir" adının əvəzinə "Ümidlərlə qaçdı-tutdu oyunu" adını seçəsiniz? Axı ümid sonda ölmür. Adam var, ümidlə yaşayır, adam var, ümidi büsbütün özünə yaxın qoymur.

Ayrılarkən bunları da deməyi unutmamışdı:

> - Bilirsinizmi, biri var ümid, biri var ümidcik. Moda biznesinə adımı yazdırmağım, dəstəklədiyim namizədin millət vəkili seçilməsi, Nuranənin, Turalın, Nərminənin xoşbəxt böyüməsi, Alyanın, Nazlıyla Qulamın problemsiz yaşaması, doğmalarımla qovuşacağım günün mümkünlüyü - bütün bunlar, məncə, ümidciklərdir. Ümidim isə, doğrudan da, yoxdur. Ümid daha böyük bir şeydir. Ümidcik arzudan doğur. Saysız-hesabsız arzudan. Ümid isə inamdan doğur...

Və göz yaşlarını boğaraq fikrini tamamlamışdı:

> - Bilirsiz, mən çox fikirləşmişəm. Mənim əsl ümidlə yaşadığım günlər olubmu? İndi başa düşürəm ki, olub. Bir vaxtlar, doğrudan da, ümidlə yaşamışam. Xoşbəxt bir ailə, sevdiyin ər, uşaqlar... Nə yazıq ki, ümidim ölüb. Ancaq sonda yox, lap əvvəldə...

Redaksiyanın Mətbuat prospektinə açılan pəncərəsindən baxır, qarşıda duran işlər barədə düşünürdüm. Yazını qoyaram sandığa. Olar sandıq ədəbiyyatı. Noyabra kimi

onsuz da başım açılmayacaq. Seçkilərdir axı. Platformalar, xüsusi buraxılışlar... Noyabrdan sonra çalışaram, yeni bir yazıya başlayım. Özü də nikbin bir yazıya. Elə bir yazıya ki, oxucularda sabahkı günə bir inam yaratsın, ümid versin...

... Qapımı döyüb məktublar şöbəsində işləyən xanım içəri keçdi:

- Yenə bir qalaq məktub gəlib. Hamısının da mövzusu eynidir: “Sonuncu ölən ümidlərdir”. O yazı qurtarandan qəzet yenə yetimləşib. Bəlkə, yeni bir yazıya başlayasınız?

Qeyri-ixtiyari ah çəkdim. Heyif ki, bu xanım da, digər əməkdaşlarımız da, minlərlə oxucumuz da Nailənin sonrakı həyatından xəbərdar olmayacaqlar, heyif...

Mənimçün süzülən çaydan qurtumlayıb bayaqdan bəri yazıb tamamlaya bilmədiyim məqalənin davamını yazmaq üçün qələmi əlimə aldım:

“... Qanunlar iki yerə bölünür: universal və statik qanunlar. Birincilər bütün zamanlarda, bütün şəraitlərdə və məkanlarda istisnasız qüvvədə olur, ikincilər isə yalnız müəyyən hallara aid edilir. “Gündüzdən sonra gecə düşür” universal qanundur. Ola bilməz ki, gündüzdən sonra gecə düşməsin. “Gecə ulduzlu və aylı olur” isə statik qanundur. Çünki elə gecə olur ki, səmada nə ulduz görünür, nə də ay.

Bunu elm iddia edir.

Elm onu da iddia edir ki, “insan canlıların ən alisidir.” Bu, ən universal qanundur, aksiomdur. Neçə-neçə uşağı, yeniyetməni zorlayıb qanını içən Çikatilo soyadlı şəxs də insandır, canlıların ən alisi. Neçə-neçə uşağı uşaq bağçasında yanğın zamanı xilas edən Doq cinsli it isə heyvandır. Deməli, insan canlıların heç də ən alisi deyil.

Görürsünüzmü, yoldaş alimlər, ən universal saydığınız qanun ən statik qanun imiş, əslində...”

Görəsən, sevgi qanunları bunların hansına aiddir? Universaldırmı, yoxsa statik?

... Qələmi kənara qoydum.

Qalibiyyətsiz dəniz döyüşündən sonra bütün dor ağacları dar ağaclarına çevrilir. Bax, ən pisi budur...

Yerimdən durub yenə pəncərənin qarşısına gəldim. Ümidlər və ümidciklər... Biri inamdan doğur, biri arzudan... Pis fikir deyil, düzdürmü?

Cəmi bir neçə günün tanışı olsaq da, yaxın bir adamım kimi Nailəyə ürəyim yandı. Xüsusən onun son sözləri kövrəlt-di məni...

-... Bir vaxtlar, doğrudan da, ümidlə yaşamışam. Xoşbəxt bir ailə, sevdiyin ər, uşaqlar... Nə yazıq ki, ümidim ölüb. Ancaq sonda yox, lap əvvəldə...

Düşündüm ki, Nailəni İlqara bağlayan tellər mənim görmə bucağımdan çox-çox böyük imiş...

Maqnitofon kasetini ürəyin istəyən qədər yazıb poza bilərsən. Ancaq onun üstündə iki dilcik olur. Əgər yazdığını qoruyub saxlamaq istəyirsənsə, həmin dilcikləri qırırsan. Və artıq təzə heç nə yazmağın mümkün olmur. Hərdən çox yazıb-pozanda o dilciklər öz-özünə də qırılır. Sən demə, Nailənin ürəyinə İlqar yazılanda dilciklər özündən xəbərsiz qırılıbmış. Ona görə də o pozulmur ki, pozulmur...

□□□

Gecə yatağıma yenicə girmişdim, telefonun zəngi çalındı. Götürən kimi səsini tanıdım. O idi. Nailə. Uğultu gəlirdi. Az qala qışqıra-qışqıra danışırdı:

- Sizinlə bir daha kəlmə kəsəsi oldum, üzrlü sayın. Mən uçuram. Xaricə. Hansı ölkəyə uçduğumu deməyəcəm. Daha bir də buralara qayıtmayacam...

Donub qalmışdım. Bilmirdim ki, nə deyim.

-... Bilirsiz, məşhur bir əhvalat var, magstiral yolun kənarında bir yoxsul uşaq yaşayır. Bahalı maşınlarda gəlib-ge-dən yaşlı, varlı qocalara həsədlə baxır... Onların yerində olmağı arzulayır. İllər keçəndən sonra həmin uşaq var-dövlətə çatır, qocalır. Bir dəfə həmin magistral yoldan bahalı maşınla keçəndə isə yolun kənarında durub gəlib-gedənlərə baxan yoxsul bir uşaq görür... Və həsədlə o uşağa baxır, onun yerində olmağı arzulayır...

Nailə azacıq susub əlavə etdi:

-... İlqarın uşaqlarına, Nazlıya, Qulama, Alyaya bankda xeyli pul qoymuşam. “Albatros”un işini Şöləyə tapşıracam. Çıxıb getmək barədə qərar verən kimi onun adına bütün sənədləri hazırlamışam. Məndən sonra iş icraçım Nərgiz Şöləyə yaxınlaşacaq. Anamgilə Əhmədlidəki mənzili verəcəklər. Onların da hər üçünə hesab açdırmışam. Təsəvvür edirsiz, Şölə də, anamgil də birdən-birə varlı olacaqlar, ancaq bütün bunları on-larçün kimin etdiyini bilməyəcəklər... Sizə də sürprizim var. Əsərinizin davamını yazıb çap edə bilərsiniz. Daha mənimçün bunun gizli qalmasının heç bir əhəmiyyəti yoxdur...

Bilmirdim Nailənin gedişinə kədərlənimmi, yoxsa əsəri yazmağa icazə aldığımçün sevinimmi...

Nəhayət, ondan soruşa bildim:

- Axı niyə gedirsiz? Bu, nə qəfil gedişdir?

Səsinin qəhəri təyyarələrin uğultusunda belə duyulurdu:

- Siz indiyə kimi bunu duymalıydınız axı... Bütün bu illər, hətta özümü ən xoşbəxt saydığım anlarda da keçmişimin o ləkəli parçası mənə rahatlıq verməyib. İndi qaçıram, keçmişimdən qaçıram, bu torpaqdan qaçıram. Nə qədər ki, bu şəhər, həmin insanlar var, mən burada yaşaya bilmərəm. O gün təsadüfən küçədə Mais adında bankir var, onu gördüm. O vaxt tora düşəndə onunla əlaqəm olmuşdu... İndi onu görəndə özümdən o qədər iyrəndim ki... Sanki üfunət qoxusu verirdim. Bilirsinizmi, çox ağırdır, bir yol tutub gedirsən, bütün ömrünü bu yolu sona çatdırmağa həsr edirsən, sonda gəlib mənzil başına çatanda görürsən ki, heç bu yolu gəlməyə dəyməzmiş... Bir də Səidənin ruhu da mənə rahatlıq vermir. Hey qarabaqara izləyir... Sən demə, məqsəd vasitəni doğrultmurmuş... Xüsusən də qadınlar üçün...

O danışırdı. Səsi gah yaxınlaşır, gah uzaqlaşırdı...

- Vaxtınızı çox aldım. Əgər yazını yazası olsanız, tamamlayan kimi mənə göndərin. Sizə “Sirab” verən Nərgiz xanımdır da iş icraçım, ona çatdırın, qalanı ilə işiniz yoxdur... Əlvida!

Mən hələ də key kimi idim:

- Deməli, gedirsiz...

Telefon əlaqəsi kəsildi...

Yatağımdan durdum. Hiss etdim ki, daha yata bilməyəcəm. Əsərin ikinci hissəsini necə yazacağımı götür-qoy etməyə başladım... Eynən birinci kimi hissələrəmi bölüm, yoxsa tamam, bütöv halda yazım?

Yenə telefon zəngi gəldi. Onun səsini eşidib bayaqkından da artıq təəccübləndim:

-... Bağışlayın ki, narahat edirəm. Bu gecə vaxtı Nərgizin telefonu söndürülüb, məcburam sizə deyim. Nərgizə tapşırarsınız ki, bir soyuducu alıb həmin o rus qarıya çatdırsın... Ünvanı iş masamın üstündəki dəftərçədən götürər. Bir də Əhmədlidə köhnə qonşularım qalıb, Qızbəs, Suqra, Fira. Onlara bir az yardım eləsin. Bir də de ki, İftixarı ofisə sürücü götürsün. Yazıqdır, dolanışığı yoxdur...

... Ünvanları söylədi, “əlvida” dedi. Gecənin sükutu bərqərar oldu.

... Bəs niyə min illərdir ki, heyvan, quş, balıq və həşəratların güclüləri zəiflərini məhv etməkdə ikən, zəiflər qırılıb yox olmurlar? Meşədə yalnız pələng, səmada qartal, dənizdə köpək balığı, səhrada ilan yaşamır? Çünki min illərdir ki, daim təhlükədə qalan zəiflər müxtəlif yollar axtarıb-aramaqla ya çəldliklərinin, ya hiyləgərliklərinin, ya sürətli nə-silartırma qabiliyyətlərinin, hətta rəngdəyişmələrinin hesabına yaşamaqda davam edirlər...

Heyvan, quş, balıq və həşəratların vəhşi qanunları insan cəmiyyətində də, ancaq nisbətən sivil formada mövcud olmaqdadır. ..

Üstəgəl, insan cəmiyyətində zəif heyvan, quş, balıq və həşəratların malik olmadığı bir silah da var. Zəiflər ümidlərlə də silahlanırlar... Sabahkı günə, xoş günə olan ümidlərlə... Ümid ən təsirli tiryəkmiş, demə.

... Gecə saat 4-ə işləmiş telefonum yenidən zəng çalanda, zəng edənin Nailə olduğuna artıq heç bir şübhəm qalmamışdı...

- Sizi yuxudan oyatdığıma görə üzr istəyirəm... Təyyarəm uçur. Son olaraq bilirsiz, nə deyəcəyəm? Əsərinizin adını dəyişməyin. Əgər uçub gedirəmsə, yeni həyata başlamaqda qə-rarlıyamsa, deməli, hələ ümidlərim ölməyib... Hər şey, doğrudan da, siz yazan kimidir: Sonuncu ölən ümidlərdir...

□□□

Dostum, mən öləndən sonra

basarsan bu maqnitofonun

səs qaytaran düyməsini,

Bir dəfə də eşidərsən,

artıq döyünməyən

qəlbimin səsini.

V.Səmədoğlu

# 27-ci HİSSƏ

# Ayrılıq qorxuludur, yoxsa ölüm?

... Və nə edəsən ki, sənin sevdiyin hərflər həmişə başqaları olur, adını təşkil edən hərflər başqaları... Ertəsi gün redaksiyaya gələndə maşının dolabını qurdalayıb ordan üzünün kağızı qopmuş ağ kaseti tapdım, maqnitolaya qoydum...

Öncə mahnını dinlədim:

“Əzizim olmayaydı,

Saralıb solmayaydı,

Bir ayrılıq, bir ölüm,

Heç biri olmayaydı.

Bu qala daşlı qala,

Çınqıllı, daşlı qala.

Qorxuram yar gəlməyə,

Gözlərim yaşlı qala...

Sonra da onların səslərini:

- ... Mane olma da. Görmürsən, mikrofonla mahnı yazıram? Bura bax, İlqar, bir gün mən görüşə gəlməsəm, əbədi yox olsam, heç ağlayarsan?

- Hə.

- Görəsən yazır? Bir, bir... Yalan demə, kişilər ağlamır heç vaxt.

- Ancaq mən ağlayaram.

- ...Bir, bir... Demədim, mane olma? Yaxşı, bəs, səncə, ayrılıq qorxuludur, yoxsa ölüm?

- Əlbəttə ayrılıq...

99

Qeyri-ixtiyari kaseti maqnitoladan çıxarıb üst tərəfindəki dilciklərinə baxmaq istədim. Ürəyimə dammışdı ki, hər iki dilcik qırılıb... Ancaq baxmadım. Bəlkə, heç olmasa, onlardan biri qalmışdı?

SON

# «Sonuncu ölən ümidlərdir»ə SÖZARDI

Doğrusu, bu gün Azərbaycanda yeni romanlara ehtiyac böyükdür. Sovet məfkurə tərzindən qopan hər bir azərbaycanlı, eləcə də müstəqil Azərbaycanda təhsil almış gənc oğlan və qızlarımız məhz bu günün romanını oxumaq istəyirlər. Və çox yaxşıdır ki, həmin roman üzə çıxdı. Sevgi və nifrət, gənclərin bugünkü reallıqdakı mövqeləri, bugünümüzün əxlaq normaları, mənəvi dəyərlərin cəmiyyətin sərt qanunları ilə mübarizəsi «Sonuncu ölən ümidlərdir»in süjetinin əsasını təşkil edir.

Bəli, bütün zamanlarda insanlıq ümidlərlə silahlanıb. Sabahkı günə ümid bu günün acılarından sınmamaq, mübariz olmaq üçün ən vacib şərtə çevrilib.

Mən çox istərdim ki, gənclik həyatın sərt, dolanbac yollarında heç vaxt azmasın, təcrübəsizliyin, mənfi xislətli insanların qurbanı olmasın. Və buna çox ümidliyəm.

Çox yəqin ki, əlinizdə tutduğunuz bu kitab da elə bir növ sizinçün həyat dərsləri rolunu oynayacaq.

Əbülfəz Babayev,

Texnika elmləri doktoru, professor, Beynəlxalq Mühəndislər və Nyu-York Elmlər Akademiyalarının həqiqi üzvü

# Kitabın içindəkilər:

1. DİQQƏTİ CƏLB EDƏN ÜÇ CƏHƏT
2. 8-ci HİSSƏ
3. 17-ci HİSSƏ
4. 28-ci HİSSƏ
5. 39-cıı HİSSƏ
6. II FƏSİL
7. Ayrılıqdan sonra1-ci HİSSƏ
    1. 8-ci HİSSƏ
    2. 17-ci HİSSƏ
    3. 25-ci HİSSƏ